**Aydın Əli-zadə**

# XRİSTİANLIQ
## TARİX VƏ FƏLSƏFƏ
## (ilk çağlar)

**Bakı - 2007**

**AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi tədqiqatlar institutunun Elmi şurasının 7 fevral 2007 il tarixli iclasının 2 saylı protokoluna əsasən çapına icazə verilmişdir.**

**Elmi redaktor**: fəlsəfə elmləri doktoru, professor Y. Rüstəmov.

**Rəyçilər**: fəlsəfə elmləri doktoru, professor G. Abdullazadə; fəlsəfə elmləri doktoru Z. Quluzadə; fəlsəfə elmləri namizədi E. Quliyev; fəlsəfə elmləri namizədi Y. Abdulla; filologiya elmləri namizədi S. Mir-Bağırzadə.

***AYDIN ARİF OĞLU ƏLİ-ZADƏ***
**XRİSTİANLIQ: TARİX VƏ FƏLSƏFƏ (ilk çağlar)**
**Baki, «Əbilov, Zeynalov və oğulları» nəşriyyatı, 2007, 172 səh.**

*Təqdim olunan kitab Xristianlığın birinci on əsrini əhatə edən fəlsəfə tarixi mövzusunda Azərbaycan dilində yazılmış ilk əsərdir. Burada Xristianlığın yaranması və inkişaf mərhələləri haqqında söhbət açılır, müxtəlif xristianyönlü dini-fəlsəfi cərəyanların dünyagörüşləri izah edilir, xristian mütəfəkkiirləri və onların fikirləri haqqında məlumat verilir. Kitab, ali məktəblərin fəlsəfə, ilahiyyat, kulturologiya və başqa humanitar fakultələrinin tələbələri, fəlsəfə üzrə mütəxəssislər və ümumiyyətlə dini fəlsəfə ilə maraqlanan, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

**ISB 5-87459-013-7**

**© Aydın Arif oğlu Əli-zadə 2007**
**© "Əbilov, Zeynalov və oğulları " 2007**

**MÜNDƏRİCAT**

**ÖN ÖZ**.......................................................................................5

I fəsil. XRİSTİANLIĞIN YARANMASI,
MƏNBƏLƏRİ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ.................................9
İlk Xristianlığın qısa tarixi icmalı.........................................................9
Müqəddəs Kitablar – xristian fəlsəfəsinin mənbəyi kimi..........................15
Patristika dövrü.......................................................................18

II fəsil. XRİSTİANLIQ VƏ ROMA
İMPERİYASINDA YAYILMIŞ BAŞQA
DİNİ-FƏLSƏFİ TƏLİMLƏR.......................................................20
Antik fəlsəfənin və müxtəlif dini ənənələrin
xristian dünyagörüşünün formalaşmasına təsiri......................................20
İsgəndəriyyəli Filonun fəlsəfəsi.....................................................23
Qnostisizm.............................................................................27
Mitraizm...............................................................................35
Manilik..............................................................................37

III fəsil. APOLOGETLƏRİN
FƏALİYYƏTİ DÖVRÜ...........................................................40
Yunandilli apologetika.............................................................40
Qnostisizmlə mübarizə.............................................................46
İsgəndəriyyə ilahiyyat məktəbi...............................................,..50
Latın apologetikası...................................................................56

IV fəsil. XRİSTİANLIĞIN DÖVLƏT
DİNİNƏ ÇEVRİLMƏSİ...........................................................68
Xristian ehkamlarının formalaşması dövrü və daxili çəkişmələr..........68
Rəsmi xristian təliminin yaranması. Kappadokiyalı kilsə ataları..........73
Yohannes Xrisostomos...........................................................82

V fəsil. XRİSTOLOJİ MÜBAHİSƏLƏR..........................................84
Xristioloji mübahisələrin başlanması............................................84
Nestorianlara qarşı mübarizə.....................................................85
Monofizitlərə qarşı mübarizə.....................................................87

Origençilərə qarşı mübarizə..........................................................................90
Monofelitlərə qarşı mübarizə.......................................................................90
İkonaların əleyhdarlarına qarşı mübarizə....................................................92
Ümumdünya Kilsə Məclisləri.......................................................................94
«Korpus Areopaqitikum»..............................................................................96

VI fəsil. QƏRBDƏ KİLSƏ ATALARI.......................................................102
IV-V əsrlərdə kilsə ataları...........................................................................102
Avqustinus Avrelius....................................................................................104
Avqustinusdan sonra Avropa fəlsəfəsi.......................................................114
Severinus Boetsius......................................................................................116
Flavius Kassiodorus...................................................................................120

VII fəsil. XRİSTİANLIQDA MİSTİSİZM...............................................123
Rahibliyin qısa tarixi...................................................................................123
Şərq xristianlığında mistisizm. Hesixazm.................................................126

VIII fəsil. SONLUQ ƏVƏZİ......................................................................131
Qərb və şərq arasında ixtilaflar
və xristian kilsəsinin parçalanması.............................................................131

ƏLAVƏLƏR...............................................................................................135
Pifaqorçular və yeni pifaqorçuluq..............................................................135
Stoyaçılar....................................................................................................140
Plato fəlsəfəsi və yeni platoçuluq...............................................................144
Xristianlığın simvolları...............................................................................157

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT....................................................162

# ÖN SÖZ

Xristian dünyagörüşü və mədəniyyətinin yaranması dünya tarixində olan ən önəmli hadisələrdən biri olmuşdur. Fələstin torpaqlarında yaranan bu dinin ilk azsaylı ardıcılları, qədim yəhudi ənənəsi çərçivəsində, yeni təfəkkürün əsas müddəalarını ifadə etdilər. Gələcəkdə bu təlim, bir neçə əsr ərzində Roma imperiyasının böyük xalq kütlələrini əhatə edərək, rəsmi dövlət dini statusunu almışdır. Roma mühitində inkişaf etmiş xristian dünyagörüşü, təkcə yəhudi ənənələri ilə məhdüdlaşmayıb, müxtəlif dini-fəlsəfi təlimlərin təsiri altında düşmüşdü. Xristian dininin rəsmi doktrinası bir neçə əsr ərzində tədricən, mürəkkəb tarixi hadisələr şəraitində formalaşmışdı. Lakin bundan sonra daxili ziddiyətlərin kəskinləşməsi nəticəsində orada müxtəlif dini təriqətlər və cərəyanlar fəaliyyət göstərmişdir. Sonda, bu ziddiyətlər Xristianlığın parçalanması ilə nəticələnmişdir. Lakin, bütün bu ziddiyətli məqamlara baxmayaraq bu din dünya dininə çevrilmişdir.

Xristianlığın dünya fəlsəfəsinin, mədəniyyətin, incəsənətin inkişafında müstəsna rolu olmuşdur. Bu dindən ilhamlanan alimlər, incəsənət xadimləri ən parlaq fəlsəfi əsərləri və incəsənət incilərini yaratmışdırlar. Avropa mədəniyyətinin inkişaf etməsindən və dünyada aparıcı rol oynamağa başlamasından sonra isə xristian dünyagörüşü bu və ya digər dərəcədə demək olar ki, bütün dunya xalqlarının mədəniyyətlərinə və ənənələrinə təsir etmiş və bu günə qədər də öz təsirini saxlamaqdadır.

Buna görə də müasir düşüncəli və ziyalı insanlar üçün Xristian tarixi və fəlsəfəsi ilə tanışlıq olduqca aktual məsələdir. Məsələ bundadır ki, iki əsr ərzində Avropa və sonra dünya təfəkkürü tarixində gedən proseslərə düzgün qiymətin verilməsi və bununla bağlı müxtəlif amillərin tədqiqatlarda əks etdirilməsi üçün Xristianlığın dunyagörüşü, onun yaranması, tarixi inkişaf mərhələlərini bilmək olduqca vacibdir. Bundan başqa Xristianlığın daxilində gedən proseslər haqqında biliklərin əldə edilməsi bir çox hallarda başqa dinlərin, fəlsəfələrin və mədəniyyətlərin öyrənilməsi və onların düzgün başa düşülməsi üçün köməklik edir. Çünki xristian dünyagörüşü özündən öncə mövcud olan mədəniyyətlərlə sıx əlaqədə, yaxud, bəzi hallarda, onların təsiri altında olduğu kimi, sonra yaranan mədəniyyətlərə də çox güclü təsir etmişdir. Xristian ilahiyyatında və fəlsəfəsində gedən mübahisələr, tarixi proseslər, müxtəlif problemlərin qoyuluşu və onların həlli yollarının axtarılması, bəzi hallarda, Xristianlıqdan sonra yaranan başqa dini-fəlsəfi təlimlərdə də təkrarlanır.

Azərbaycanda Xristianlığın fəlsəfəsi və tarixi bu günə qədər lazımı səviyyədə tədqiq edilməmişdir. Bu mövzuda Azərbaycan dilində yazılan əsərlər, demək olar ki, yox dərəcəsindədir. Sovet dövründə rus və Azərbaycan dillərində buraxılan ateizm ruhlu fəlsəfi ədəbiyyatda xristian fəlsəfəsinə aid olan bəzi məqamlar açıqlansa da, onları tənqidi nöqteyi-nəzərindən işıqlandırırdılar və bir çox hallarda olduqca mühüm olan məqamlar orada öz əksini tapmamışdır. Təəssüf ki, bu təmayül hal-hazırda da davam etməkdədir. Xristianlıq probleminə əksər hallarda, obyektiv deyil, tənqidi nöqteyi-nəzəridən baxılır, bu sahədə respublikamızda fundamental elmi-fəlsəfi tədqiqatlar aparılmır. Bu amillər isə azərbaycanlıları müasir qloballaşan dünyada qonşuluğumuzda mövcud olan böyük mədəniyyətlə yaxından tanış olmaqdan məhrum edir, onun haqqında müxtəlif qeyri-obyektiv fikirlərin formalaşmasına gətirib çıxarır. Beləliklə, azərbaycandilli oxucuların nəzərinə Xristianlığı, onun dunyagörüşü, tarixi və fəlsəfəsini əks etdirən dolğun bir ədəbiyyat bu günə qədər təqdim edilməmişdi və bu kitabın yazılması, bu istiqamətdə edilən, ilk addımdır.

Təqdim olunan bu kitab Azərbaycanda Xristian fəlsəfəsi tarixi mövzusunda yazılmış ilk tədqiqat əsəridir. Kitabda bu dinin yaranması və onun ilk on əsr ərzində gedən inkişaf prosesləri haqqında bəhs edilir. Burada ortodoksal Xristianlığın və müxtəlif xristianyönlü dini-fəlsəfi təlimlərin ümümi müddəaları haqqında məlumat verilmişdir, görkəmli mütəfəkkirlərin fəlsəfi fikirləri açıqlanmışdı. Bundan başqa Xristianlığın formalaşması prosesində müstəsna rol oynamış müxtəlif dini-fəlsəfi cərəyanların da qısa tarixləri və təlimləri haqqında məlumat verilmişdir. Kitabın sonunda Xristianlıqla eyni zamanlarda inkişaf edən və onunla sıx, bir çox hallarda ziddiyətli əlaqələrdə olan antik dunyanın aparıcı fəlsəfi məktəblərinin dünyagörüşlərinin əsas məqamlarına da nəzər yetirilmişdir.

Kitabın yeniliyi həm də müxtəlif istilahların, tarixi şəxsiyyətlərin və mütəfəkkirlərin adlarının yunan və latın dillərində olduğu kimi və yaxud o dillərə yaxın olan tərzdə verilməsindədir. Məsələ burasındadır ki, bu günə qədər onlar Azərbaycan dilində, ruscadan alındığına görə, rus dilindəki kimi ifadə edilirdi. Kitabda haqqında söhbət açılan tarixi şəxsiyyətlərin və mütəfəkkirlərin adları əvvəlcə Azərbaycan dilində, yunan və latın dillərinə yaxın tərzdə verildiyindən sonra, mötərizədə onların bu dillərdə latın əlifbası ilə orjinal yazılışı verilmişdir. Onlar tərəfindən yazılan kitabların adları isə əvvəlcə azərbaycan dilinə tərcümədə, sonra isə mötərizədə yunan və latın dillərində latın əlifbası ilə verilmişdir. İstilahların mənaları haşiyələrdə izah olunmuşdur. Beləliklə, kitabın müəllifi Azərbaycan dilində hələ bu günə qədər təşəkkül tapmamış xristian və ümumiyyətlə fəlsəfi terminlərin bizim

ana dilimizdə necə səslənəcəyi, hansı formada və mənada işlənməsi problemini qoyur və konkret olaraq öz variantını təklif edir. Müəllif hesab edir ki, artıq azərbaycanlılar yunan və roma mənşəli istilahları və filosof, mütəfəkkirlərin adlarını məhz o dillərə yaxın olan tərzdə işlətməlidirlər. Rus (və ya bəzi hallarda ərəb) dilindən alınmış formada yox. Təəssüf ki bu günə qədər bizim elmimizdə hələ ki sovet dövrlərindən qalan terminologiya qalmaqdadır və müəllifin fikrincə yeni azərbaycan elmi terminologiyasının yaradılması vaxtı gəlib çatmışdı. Məsələnin bu cür qoyuluşu, əvvəllər azərbaycanda mövcud olmayan xristian fəlsəfi və ilahiyyat terminologiyasının ilk dəfə yaradılmasına cəhd edilməsi və onun təklif olunması bu kitabın bəlkə də ən əhəmiyyətli və ciddi yeniliyidir, azərbaycan elmində həqiqi elmi irəliləyişdir. Hətta antik istilahlar, qədim yunan, roma, orta əsr filosoflarının adlarının sovet dövründə oldüğu kimi russayağı (və ya ərəbsayağı) deyil, yunan, latın, ingilis, fransız və s. orjinal dillərə yaxın tərzdə tələffüz edilməsinin vaxtı gəlib çatmışdı və müəllif ümid edir ki, bu kitabı oxuyan hər bir azərbaycanlı filosof, alim bu barədə duşünəcək və öz kitablarında bu istilahlardan istifadə edəcək.

Bundan başqa kitabda haqlarında söhbət açılan müxtəlif mütəfəkkirlərin əsərlərinin orjinal mətnlərinə istinadlar verilmişdir. Bu işin yeniliyi ondan ibarətdir ki, onların əksəriyyəti internet şəbəkəsindən rus və ingilis dillərinə tərcümədə gətirilir. Bu isə azərbaycan oxucusuna xristian təfəkkürünün ilk mənbələri ilə tanış olmaq işini xeyli asanlaşdırır. Bu istinadların kitabda verilən internet ünvanları ilə tapılması və oxunması üçün heç bir problem qalmır. İnternet resurslarından çox geniş istifadə olunması praktikası da kitabın metodoloji yeniliklərindən biridir.

Xristianlığın tarix və fəlsəfəsinə həsr olunmuş və bu sahədə Azərbaycan dilində yazılmış ilk elmi monoqrafiyasının strukturu və tərtibat üslubu eyni zamanda ondan Xristianlıqda işlənilən terminlərinin qısa məlumat kitabçası kimi də istifadə edilməsinə imkan verir. Kitabın haşiyələrində demək olar ki, bütün əsas terminlərin ətraflı izahı verilmişdir.

Bundan başqa monoqrafiyada ilk xristian və yəhudi tarixinə, Roma və Bizans imperiyalarında ilk xristian icmalarının yerləşməsi, xristian aləminin müxtəlif tarixi dövrlərdə hansı durumda olmasına aid olan çoxlu xəritələr yerləşdirilmişdir. Xəritələrə bir qədər düzəliş edilməsi və Azərbaycan dilinə tərcüməsi işləri müəllif tərəfindən həyata keçirilmişdir. Bu amil oxucu tərəfindən mövzunun daha dolğun və dərin anlaşılması üçün köməklik edir. Xəritələrlə bərabər kitab, qədim xristian tarixi və fəlsəfəsinə aid olan şəkil, rəsm və fotolarla zənginləşdirilmişdir.

Kitab, ali məktəblərin fəlsəfə, ilahiyyat, kulturologiya və başqa humanitar fakultələrinin tələbələri, fəlsəfə üzrə mütəxəssislər və ümumiyyətlə dini fəlsəfə ilə maraqlanan, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Kitab çox sadə və anlaşılan dildə yazılmışdır. Müəllif ilk əvvəl özü, bü və ya digər məsələni dərindən öyrənib, sonra isə onun qısa məzmununu çox sadə dildə ifadə edib. Xristian fəlsəfəsinin əslində nə qədər mürəkkəb olmasına baxmayaraq, kitabda oxucu üçün çətin anlanan məqamlar, mürəkkəb ifadələr demək olar ki, yoxdur. Müəllif əlindən gələni edib ki, bu kitabı ən geniş oxucu kütləsi asanlıqla başa düşsün. Fəlsəfi kitabın bu cür sadə, anlaşılan dildə yazılması da müəllifin böyük uğuru sayıla bilər və onun intellektual səviyyəsinin yüksəkliyindən xəbər verir. Təəssüf ki, bəzi hallarda fəlsəfi ədəbiyyat o dərəcədə ağır, mürəkkəb ifadələrlə dolu dildə yazılır ki, onun anlanması tələbələr üçün çox böyük problemə çevrilir. Geniş oxucu kütləsi isə ümumiyyətlə onlara yaxın düşə bilmir. Bu amillər isə millətimizi fəlsəfədən məhrum edir və xalqın ümumi mədəni, intellektual səviyyəsinə xələl gətirir. Bütün bu problemləri bu kitabın müəllifi çox böyük ustalıqla həll edə bilmişdir. Bütün bu fikirlərin söylənməsinə, bu kitabı oxumuş müxtəlif sosial təbəqədən olan adamların, tələbə və gənclərin müsbət rəyləri əsas verir.

Müəllif, bu kitabın işıq üzü görməsi istiqamətində ona bilavasitə kömək etmiş AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar institutunun «Dinin fəlsəfəsi» şöbəsinin əməkdaşları: şöbənin müdiri fəlsəfə elmləri namizədi Hüseynov Həsən müəllimə, kiçik elmi işçi Mustafayev Radifə, laborant Heydərova Afətə, laborant Əliyeva Günaya; kitabın məzmununun yaxşılaşdırılması işində ona qiymətli məsləhətlər verən rəyçilər: fəlsəfə elmləri doktoru professor Abdullazadə Gülnaz xanıma, fəlsəfə elmləri doktoru Quluzadə Zümrüd xanıma, fəlsəfə elmləri namizədi Yalçın Abdullaya, fəlsəfə elmləri namizədi Elmir Quliyevə, filologiya elmləri namizədi Samirə Mir-Bağırzadəyə; kitabın dizaynını tərtib etmiş Aytən Əli-zadəyə; xüsusilə daim işlərində ona təmənnasız və səmimi yardımlar edən kitabın elmi redaktoru, yuxarıda adı çəkilən institutun Direktoru, fəlsəfə elmləri doktoru, professor Rüstəmov Yusif müəllimə öz dərin minnətdarlığını bildirir.

# I FƏSİL

# XRİSTİANLIĞIN YARANMASI, MƏNBƏLƏRİ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ.

## İlk Xristianlığın qısa tarixi icmalı

Xristianlığın tarixi köklərinə və yaranmasına diqqət yetirdikdə, onun bir tərəfdən qədim yəhudi dininə, başqa bir tərəfdən isə antik dövr dünyagörüşü və fəlsəfəsi ilə sıx surətdə əlaqədar olduğu məlum olur. Bununla yanaşı başqa dini ənənələrin (məs. mitraizmin) də xristian təliminin formalaşmasında təsiri olmuşdur.

Tarixdən məlum olduğu kimi, I əsrdə yəhudi dövləti Roma imperiyası tərəfindən işğal edilmişdi. Bundan sonra yəhudi cəmiyyəti parçalanmışdı və dərin böhran içində idi. Yəhudilər də Roma imperiyası tərəfindən işğala məruz qalmış bütün xalqlar kimi azadlığa can atırdılar. Çünki imperiyada hər addımbaşı ədalətsizlik və istibdad hökm sürməkdə idi. Nəticədə isə, imperiyadaxili çəkişmələrin sayı artır, cəmiyyətin təbəqələşməsi və parçalanması getdikcə daha da dərinləşirdi. Bütün bu proseslər yəhudi cəmiyyətində özünü daha da qabarıq şəkildə göstərirdi.

Bu cür acınacaqlı vəziyyətdən çıxmaqdan ötrü imperiyada yaşayan xalq kütlələri öz ümidlərini daha çox dinlərə bağlayırdılar. Bu səbəbdən də yəhudi xalqı arasında İsraili xilas edən Məsihin gəlməsinin yaxın olduğu ideyası geniş yayılmışdı. Hətta o zamanlar bir neçə şəxs özlərini peyğəmbər elan edərək üsyan etməyə cəhd etsələr belə, sonda fəaliyyətləri məğlubiyyət ilə nəticələnmişdi.

Bu cür gərgin ictimai-siyasi vəziyyətdə, yəhudilər arasında İsa adlı bir adam peyğəmbərlik edərək, bir sıra yeni dini və etik prinsipləri ifadə etmişdir. O, qədim yəhudi dininin bəzi müddəalarına yeni baxışlarla çıxış etmişdir. Rəvayətlərə görə İsa özünü bir Məsih kimi təqdim etmişdi. İsa peyğəmbərin bizim zəmanəmizə gəlib çatmayan, İncil adlı İlahi Kitab gətirdiyi haqqında rəvayətlər olsa da, əslində bu kitab yalnız şifahi olaraq onun tələbələrinə (həvarilərə) məlum idi. Çünki bugün mövcud olan müxtəlif İncil adlı kitabların İsadan sonra yunan dilində yazıldıqları heç də sirr deyildir. Halbuki İsanın yunan dilində danışa bilməsi haqqında heç bir dəlil yoxdur.

İsanın fəaliyyətindən narazı olan yəhudi kahinləri çox çəkmədi ki, İsanı öldürmək fikrinə düşdülər və bu işi həyata keçirmək üçün Roma imperiyasının Fələstində olan canişininə müraciət etdilər. Məqsəd isə




İsanın İsraili xilas edən Məsih olmadığını sübut etmək idi. Belə ki, məğlub olan adam Məsih ola bilməzdi. Məsih yalnız xalqı xilas edən adam olmalı idi. Bu məqsədlərinə nail olmaqdan ötrü isə, onlar az sonra elan etdilər ki, İsanı tutub mühakimə etdikdən sonra çarmıxa çəkərək edam etmişdirlər. Belə bir hadisənin baş verdiyinin, hətta şahidlərinin belə olduqları ba-rədə məlumatlar xristian ənənə-sində də öz təsdiqini tapdı[1].

Lakin, eyni zamanda, İsa-nın ölümü xəbərinin həqi qətə uyğun olmaması da iddia edilir-di. Belə ki, İsanın ardıcıllarının bir hissəsi onun ölümünə inanmırdılar. Onlardan bəziləri deyirdilər ki, İsanın çarmıxda olması yalnız müəyyən adamların gözünə görsənmişdir və xəyaldan başqa bir şey deyildir. Əslində isə o edam edilməmişdir. Bu fikrə yaxın mülahizələr irəli sürən başqa qruplar isə hesab edirdilər ki, İsa həqiqətən də edam olunmayaraq edamdan qabaq qeyb olduğundan onun yerinə başqa bir adam edam olunmuşdur[2]. Qeyd edək ki, bu cür fikirin əks olunduğu II əsrə aid olan «Böyük Sifin ikinci risaləsi» adlı apokrifik İncil Misirdə tapılmışdır[3]. Bir çox apokrifik İncillərdə isə İsa adi insani həyat tərzi aparan bir peyğəmbər kimi təsvir

[1] Lukas İncili, 23: 35.

[2] Свенцицкая И. Раннее Христианство: страницы истории. М.: Политиздат, 1988, с. 270.

[3] Böyük Sifin ikinci risaləsi 56;

İngiliscə: Second Treatise of the Great Seth // Selection made from James M. Robinson, ed., The Nag Hammadi Library, revised edition. HarperCollins, San-Francisco, 1990. http://www.gnosis.org/naghamm/2seth.html

Rusca: Второй Трактат Великого Сифа // Перевод Егоренкова И.С. (СПб филиал ИВ РАН) по изданиям: Concordance des textes de Nag-Hammadi. Le Codex VII, R. Charron, 1992./BCNH,SC,1/; 2.La Deuxieme Traite du Grand Seth (NH VII, 2), L. Painchaud, 1982. /BCNH, ST, 6/.
http://apokrif.fullweb.ru/nag_hammadi/2_sif.shtml

olunur[4]. Onun hətta bir qadınla evlənməsi haqqında işarələrə də rast gəlmək olar[5].

Beləliklə, İsanın ardıcılları arasında onun ölümü, və ya qeybə çəkilməsi haqqında vahid fikir yox idi. Daha sonralar İsanı artıq peyğəmbər kimi qəbul etmiş bəzi yəhudilər, öz əqidələrini Roma imperiyasının müxtəlif yerlərində yaymağa başladılar. Belə ki, çoxlu sayda dini dəvətçilər bu işi həyata keçirməyə başladı. Nəticədə isə, dərin mənəvi böhran keçirən Roma imperiyasının müxtəlif sosial təbəqələri arasında yeniləşmiş yəhudi dininə meyillər günü-gündən artmağa başlamışdı.

Bu qəbil dəvətçilərdən biri, təlimin yayılması işində böyük rolu olan Şaul (Pavlus) adında bir yəhudi olmuşdur. O, əvvəlcə Antioxiyada[6], sonra isə bütövlükdə Kiçik Asiya yarımadasında təbliğat aparsa da, bu təlimi heç də öz ilkin şəklində saxlamayıb, onu özünəməxsus bir şəkildə yozaraq, yeni bir keyfiyyətdə təqdim etmişdir. Belə ki, Pavlus anlayırdı ki, yəhudi xalqının dini və yəhudi peyğəmbəri olan İsanın təlimi Romanın başqa xalqları arasında özünün ilkin formasında yayıla bilməz. Məsələ bundadır ki, o xalqlar qədim mədəniyyətə malik idilər və yəhudi ənənəsi və düşüncə tərzi onlar tərəfindən qəbul edilə bilməzdi. Ona görə də Pavlus, bu təlimdə olmayan bir çox yeni ideyalarla çıxış etməyə başladı. Faktiki olaraq, o İsanın təlimini Yunan və Roma düşüncə tərzinə və tarixi ənənəsinə uyğunlaşdırırdı. Məhz bu adam ilk dəfə olaraq İsanın ilahiləşdirilmiş obrazını yaratmağa başlamışdı. Beləliklə də Pavlusun təbliğatında İsa ölümündən sonra yenidən dirilən, günahları silən bir Tanrının oğlu kimi təqdim edildi. Pavlusun fəaliyyətində diqqəti çəkən başqa bir maraqlı məqam isə, onun yəhudi qanununa əməl edilməsini vacib hesab etməməsi idi. Bu səbəblərə görə də heç də İsanı deyil, elə Pavlusu xristianlığın yaradıcısı hesab etmək olar. Məhz bu cür yeniliklərin dinə gətirilməsinə görə Pavlusla yəhudi isavilər

[4] Bu cur apokrifik İncilləri rəsmi Xristian kilsələri rədd edir. Lakin onlarda olan məlumatları qətiyyətlə təkzib etmək mümkün deyil. İsa haqqında çeşitli, bir çox hallarda bir-birinə zidd xəbərlər əsrlər boyu mövcud olmuşdu.

[5] Filippos İncili, 32;

İngiliscə: The Gospel of Philip // Selection made from James M. Robinson, ed., The Nag Hammadi Library, revised edition. HarperCollins, San-Francisco, 1990. http://www.gnosis. org/ naghamm/gop.html

Rusca: Евангелие от Филиппа // Русская Апокрифическая Студия http://apokrif.fullweb.ru/nag_hammadi/ev-phil.shtml

[6] Antioxiya – qədim Suriyada şəhər (müasir Türkiyənin Antakya şəhəridir), Selevklər dövlətinin paytaxtı olmuşdu. I əsrdə burada birinci nüfuzlu xristian icması yaranmışdı.

(İsanın ilk ardıcılları) arasında ixtilaflar baş vermişdi[7]. Amma, başqa tərəfdən, bütpərəst romalılar ilahiləşdirilmiş və ölümündən sonra dirilmiş İsa ideyasını daha yaxşı mənimsədilər. Çünki, romalılar arasında buna oxşar inanclar geniş yayılmışdı. Onlar qədim zamanlardan ölən və dirilən, oğulluqızlı tanrılara inanırdılar.

Roma imperiyasının müxtəlif bölgələrində İsanın ilk ardıcılları yığıncaqlarını keçirirdilər və özləri bütpərəstliyə qarşı etiraz səslərini ucaldırdılar. İsanı onlar Xristos adlandırırdılar. Bu söz isə yəhudilərin "Maşiax" (Məsih) sözünün yunancaya tərcüməsidir.

Sonralar ilk yəhudi xristianlar[8] bir neçə təriqətə parçalandılar. İsraildə qədim yəhudi qanununa riayət edən və eyni zamanda İsanı peyğəmbər kimi qəbul edənlər *nəsranilər* (nazorey) kimi tanınırdılar. Belə ki, onlar İsanın Tanrı kimi deyil, peyğəmbər kimi qəbul edir, Pavlusu isə İsa təlimini təhrif edən bir adam kimi təqdim edirdilər.[9]

Başqa bir təriqət ardıcıllarını isə *ebionitlər* adlandırırdılar. Onlardan bəziləri İsanı ata və anadan doğulmuş bir insan kimi qəbul edirdilər. Digərləri isə hesab edirdilər ki, İsa, Müqəddəs Ruhun Məryəm (İsanın anası) ilə birləşməsindən anadan olmuşdur. Belə ki, onlar da İsanın əzəldən mövcud olmasını qəbul etməyib, Pavlusun İsa haqqında olan baxışlarını rədd edirdilər.[10]

*Doketlər* adlandırılan daha bir təriqətin ardıcılları isə hesab edirdilər ki, İsa, əslində, bir cismani şəkildə bu dünyada mövcud olmamışdır. Buna görə də o ölüb sonra isə dirilə bilməzdi.[11]

Lakin bütün bu təriqətlər xristianlıq tarixində uzun müddət yaşaya bilməyib, tədricən aradan çıxmışdılar. Sonralar onları hətta qanundan kənar hesab edirdilər. Bunlardan fərqli olaraq, Pavlus tərəfindən əsası qoyulmuş

---

[7] Həvarilərin işləri 21: 20, 21.

[8] Sözü gedən ilk isavi qrupları bir tərəfdən yəhudi qanun və ənənəsinə sadiq idilər, digər tərəfdən isə, İsanı məsih kimi qəbul etmişdilər. Buna görə elmi ədəbiyyatda onlara yəhudi xristianları deyirlər.

[9] S.Pines, The Jewish Christians of the Early Centuries of Christianity According to a New Source, Israel Academy of Sciences and Humanities II, 13, Jerusalem, 1966, 5.

[10] Энциклопедия «Кругосвет»
http://www.krugosvet.ru/articles /33/1003302/1003302a1.htm.

[11] С. В. Булгаков. Справочник по ересям, сектам и расколам. М.: Современник, 1994.
http://lib.eparhia-saratov.ru/books/02b/bulgakov/handbook/75.html

dini dünyagörüşü isə, Romada tədricən yayıldı və bu gün də müasir xristian təliminin əsasını təşkil edir.

Roma imperiyasında xristianlıq əvvəlcə qullar, miskinlər arasında yayılırdı. Dözülməz şəraitdə yaşayan bu adamlar Xristianlıqda nicat yolunu tapırdı, bu ideya onlara mənəvi qida verirdi. Lakin sonra Xristianlığı tədricən varlı zümrələrin nümayəndələri də qəbul etməyə başladılar. Məsələ bundadır ki, Roma imperiyasında ənənəvi yayılmış bütpərəst inanclar artıq cəmiyyətdə təsir gücünü itirmişdi. Onlar artıq Roma imperiyasında hökm sürən ədalətsizliyin və istibdadın rəmzinə çevrilmişdi. Buna görə də imperiyada müxtəlif qeyri-ənənəvi dinlər yayılmışdı. Onların arasında Misir tanrıları İzida və Osiris, İran tanrısı Mitranın kultlarını xüsusilə qeyd etmək lazımdır. Belə ki, bir vaxtlar onlar xristianlıqla ciddi rəqabət aparır, hətta bəzi tədqiqatçılara görə, məsələn mitraizmin bəzi inancları sonralar Xristianlığa daxil olmuşdur. Belə ki, məsələn, ölən və dirilən tanrı ideyası mitraizmin əsaslarınlan biri idi. Lakin sonda Xristianlıq bu rəqabətdən qalib çıxa bildi.

Romada geniş xalq kütlələri tərəfindən Xristianlığın qəbul edilməsi prosesi kilsənin və keşiş zümrəsi olan klerosun (yepiskoplar[12], arxiyepiskoplar[13] və s.) yaranması ilə nəticələndi. Getdikcə bu dində təşkilatlanma prosesi gücləndi və onun strukturları imperiyanın ictimai-siyasi həyatında aparıcı rol oynamağa başladı. İmperator Konstantinusun (Constantinus) (306-337) hakimiyyəti zamanı isə, kilsələrin dövlət maraqlarına qulluq etməsi məqsədi ilə, Xristianlıq rəsmi dövlət dini elan edildi. Bundan sonra bütün bütpərəst məbədlərinin bağlaması prosesi başlandı. Nəhayət 451-ci ildə Kalkedon[14] Ümumdünya Kilsə Yığıncağı son olaraq Romanın həm Qərbində, həm də Şərqində Xristianlığı rəsmi dövlət dini kimi təsdiq etdi.

Qeyd etmək lazımdır ki, Xristianlıqla bütpərəstliyin mübarizəsi təkcə ideoloji mübarizə müstəvisində aparılmırdı. Məsələn, imperatorlardan Nero (54-68), Domitianus (81-96), Traianus (98-117), Markus Aurelius (161-180), Septimius Severus (193-211), Maksimus (235-238), Valerianus (253-260), Dialektianus (284-305), öz hakimiyyətləri zamanı xristianlara qarşı təqiblər və zorakılıqlar həyata keçirməklə yadda qalmışdırlar. Bunun əsas səbəbi isə, xristianların imperatorları Tanrı kimi tanınmamaları idi. Xristianlığa qarşı bir

---

12 Yepiskop - (yunanca "episkopos" baxan, müşahidə edən) – keşişliyin ən yüksək dərəcəsidir. Dini işləri icra etmək üçün, yepiskoplara müəyyən ərazilər verilir.

13 Arxiyepiskop (yunanca "archiepiskopos") – baş yepiskop.

14 Müasir Türkiyədə Kadıköy şəhəridir.

çox roma filosofları, mütəfəkkirləri də çıxış edirdilər. Onların arasında Epiktetos, Markus Aurelius, Porfirios (Porphyrios) xüsusilə seçilmişdirlər. Belə ki, onlar daha çox bütpərəstliyin əsasında xristianlıqla rəqabət edəcək bir əqidə ortaya çıxartmaq istəyirdilər. Lakin neoplatonizm (yeni platoçuluq) fəlsəfəsinin simasız və real həyatdan uzaq olan Vahid anlayışı və tanrı panteonları monoteizmin diri və şəxsiyyət olan Tanrısı ilə ayaqlaşa bilmədi. Ona görə də onların dini-fəlsəfi təlimlərinin ömrü qısa oldu.

Öz növbəsində Xristianlıq da qalib gələndən sonra bütpərəstliyə qarşı hücuma keçdi. Belə ki, bütpərəstlərin məbədləri məhv edilir, kahinləri öldürülür, ədəbiyyatları isə yandırılırdı. Məsələn, II Teodosiusun və III Valentinusun əmri ilə 448-ci ildə Porfirinin məşhur “Xristianların əleyhinə” kitabı tonqallarda yandırılmışdı.



**Hipatiya**

30 il ondan qabaq isə Misirin İsgəndəriyyə şəhərində Hipatiya adlı tanınmış riyaziyyatçı alim qadın xristian yepiskopu Kirilin (Cyril) iştirakı ilə təəssübkeş kütlə tərəfindən vəhşicəsinə öldürülmüşdür. Bu hadisələrdən sonra Avropada azadfikirlilik qadağan olun-muş və hamı Xristianlığı qəbul etmək məcburiyyətində qalmışdı.

Lakin, yuxarıda qeyd edildiyi kimi, bütpərəstliyə qalib gələn Xristianlığın özündə də müxtəlif təriqətlə rin yaranması prosesi daha da dərinləşir və bu proses xristiandaxili ziddiyyətlərin dərinləşdirici bir faktoruna çevrilir. Bir qayda olaraq bu mübarizədə imperatorlar və hakimiyyət tərəfindən dəstəklənən cərəyan nümayəndələri *ortodoksal*[15], başqaları isə *heretik*[16] adlandırılırdı və rəsmi kilsə artıq heretiklərin təqibinə başladı. Ziddiyyətlərin əsas mövzusu isə artıq tanrılaşdırılan İsanın təbiətinə münasibətdə fərqli mövqelərin mövcud olmasından irəli gəlirdi. Bu problemə xristianlıqda *xristologiya* deyilir.

---

[15] Ortodoksiya (yunanca “orthodoxos”) - hər hansı bir təlimin, dünyagörüşünün, təməl xəttini əks etdirən təlim. Bu təlim nüfuzlu dini qurumlar tərəfindən dəstəklənir.

[16] Heres (yunanca “hairesis”) sözünün iki mənası vardır: 1) Rəsmi (ortodoks) dinin ehkam və təşkilat formalarından fərqlənən dini təlim; 2) qəbul olunmuş dünyagörüşündən və qaydalardan yayınma. Hərfi mənada isə “hairesis” sözü yunan dilində “özəl dini təlim” deməkdir və ortodoksiya tərəfindən qəbul edilmir. Bu sözlə dinə yenilik gətirənləri (bidətçiləri) də adlandırırlar.

Beləliklə də xristian kilsəsinin dövlət dininə çevrilməsi, ehkamlarının təsbit olunması və heretikləri damğalayaraq yalnız bir rəsmi xəttin düzgün olması fikrini təsdiq etmək üçün *Kilsə yığıncaqlarının* çağırılması prosesi başlandı.

## Müqəddəs Kitablar – xristian fəlsəfəsinin mənbəyi kimi

Məlum olduğu kimi, Xristianlıq öz ifadəsini İlahi vəhylərlə və Müqəddəs Kitablarda tapmış dinlərdəndir (sacra scriptura). Bu cür dinlərə revelyasionist dinlər deyilir. Belə ki, revelyasionizmdə kitaba çox böyük hörmət və ehtiramla yanaşma tərzi xassdır.

Xristianlığın Müqəddəs Kitablar toplusu Bibliya adlanır. Bibliya Əhdi-Ətiq[17] və Əhdi-Cədid[18] adlı toplulara bölünür. Onların hərəsi, öz növbəsində, çoxlu kitablardan ibarətdir. Əhdi-Ətiq xristian kilsəsi tərəfindən qəbul edilən qədim yəhudi dininin Müqəddəs Kitablarıdır. Lakin bu kitabları qəbul edərək, kilsə xadimləri onları özünəməxsus tərzdə yozub öz dünyagörüşlərinə uyğunlaşdırıblar. Yəni, xristianlar Əhdi-Ətiqin bir çox yerlərini yəhudilərdən bir qədər fərqli başa düşürdülər. Məsələn, xristianlar hesab edirlər ki, Müqəddəs Kitabın bəzi yerlərində İsanın gəlməsinə işarələr vardır. Lakin yəhudilər bunu qəbul etmirlər.

Əhdi-Cədid isə yalnız xristianlar tərəfindən qəbul edilir. O bir neçə hissədən ibarətdir. Orada İsanın həyatı haqqında bəhs edən 4 İncil [Mattadan (Matthias), Markusdan (Marcus), Lukasdan (Lucas) və Yəhyadan (Ioannus)] vardır. Bu İncillərdən başqa bir çox digər İncillər də mövcuddurlar, lakin onlar kilsə tərəfindən rədd edilmişdirlər. Daha sonra Əhdi-Cədiddə İsanın həvariləri haqqında hekayələr «Apostolların işləri», «Apostolların məktubları» (14 məktub) və sonda axirət hadisələrindən bəhs edən

---

[17] Əhdi-Ətiq (Qədim Əhd - Tanrı ilə yəhudilər arasında olan andlaşma) dörd hissəyə bölünür: *Tövrat* – Musanın Qanun kitabı (ilk 5 kitab), *Tarixi kitablar* ("Yeşua" kitabı ilə başlayaraq cəmi 12 kitab), *Poetik kitablar* ("Zəbur" və digər 4 kitab), *Peyğəmbərlərin kitabları* ("Yeşaya" peyğəmbərin kitabı ilə başlayaraq cəmi 17 kitab). Yəhudilər Əhdi-Ətiqi "Tanah" adlandırırlar.

[18] Əhdi-Cədid (Yeni Əhd – Tanrının İsa vasitəsi ilə yəhudilərdə bağladığı yeni əhd) 27 kitabdan ibarət olub, yunan dilində yazılmışdır. İlk dörd kitab İsanın həyatı haqqında rəvayətlər toplusu olan *İncillərdir* (Mattanın, Markusun,Lukasın və Yəhyanın). Daha sonra İsanın həvarilərinin gördükləri işlər haqqında bəhs edən "*Həvarilərin işləri"* kitabı və onların müxtəlif xristian icmalarına və şəxslərə ünvanlandırdıqları *Məktubları* gəlir.

«Apokalipsis» kitabı vardır. Bibliyanın tərkibi son olaraq, əsasən, IV əsrdə Ümumdünya Kilsə Məclislərində[19] təsdiq edilmişdir. Amma sonralar da onlarda bəzi dəyişiliklər edilmişdi[20]. Xristian dünyagörüşü və fəlsəfəsinin formalaşmasında İncillərdə əks olunan rəvayətlərin müstəsna rolu olmuşdur.

Xristianlıqda Tanrının mahiyyəti haqqında baxışlar yəhudilikdən bir qədər fərqlənir. Bir çox tədqiqatçılar bu fikirdədirlər ki, yəhudilikdən fərqli olaraq, xristianlıqda monoteizm (təktanrılıq ideyası) o qədər də mütləq xarakter daşımır[21]. Xristian monoteizmi daha çox bütpərəstliklə rəqabətdə formalaşdığından, o, bu düşüncə tərzinə uyğunlaşmağa məhkum idi. Buna görə də xristian monoteizmində Tanrının üç sifətdən ibarət olması (Ata, Oğul, Müqəddəs Ruh) ideyası yaranmış və sonralar bu istiqamət xristianlıqdakı başqa cərəyanlara qalib gəlmişdir. Belə ki, Avropada mütləq monoteizmə sadiq qalan və trinitarizmi rədd edən qruplar mövcud olsa da (məs. moharxianlar təriqəti), rəsmi kilsə onları küfrdə ittiham edib təqib edirdi.

Əhdi-Ətiqin birinci kitabında rəvayət edilən hekayələr orta əsr xristian fəlsəfəsindəki kosmoqonik[22] görüşlərin formalaşmasında xüsusi rol oynamışdır. Burada Tanrı tərəfindən dünyanın yaradılması hekayəsi müstəsna rol oynamışdır[23]. Burada həmçinin insanın da yaradılması haqqında söhbət açılır. Bu mövzu həmin kitabın ikinci fəslində də bir qədər fərqli tərzdə rəvayət edilir. Kitabın üçüncü fəsildə isə ilk insanların (Adəm və Həvvanın) qadağan olunmuş ağacdan meyvə yeməsi, bunun nəticəsində onların ilk dəfə günaha batmaları və cənnətdən qovulmaları haqqında rəvayətlər vardır. Bu rəvayətlər eyni zamanda xristian antropologiyasının[24]

---

[19] Kilsə Məclisləri - III əsrdən başlayaraq, dini təlim, kilsə idarəçiliyi və intizam məsələləri ilə bağlı problemləri həll edən xristian Kilsəsinin ən yüksək rütbəli ruhanilərin qurultaylarıdır. Kilsə Məclisləri ümumdünya və yerli olur.

[20] Məsələn, xristian müəllifləri etiraf edirlər ki, Markus İncilinin 19-cu fəsilindəki 9-20 misraları ora sonradan əlavə edilib. Bax: The Holy Bible. New International Version. New York. ("Harper Paperbacks"), p. 908.

[21] Самыгин С. И., Нечипуренко В. Н., Полонская И. Н. Религиоведение: социология и психология религии. Ростов-на-Дону: Феникс, 1996, с. 316-317.

[22] Kosmoqoniya – kainatın yaranması haqqında təlim.

[23] Yaradılış 1.

[24] Antropologiya - təbii və süni mühitdə insan varlığının fundamental problemlərini tədqiq edən elmi idrak sahəsidir. Teologi antropologiya insanın İlahi varlıqla münasibətləri ilə məşğuldur.

da əsasını təşkil etmişdir. Belə ki, xristian təlimində Adəm və Həvva, qadağan olunmuş ağacdan meyvə yedikləri üçün, günaha batdıqlarından sonra cənnətdən qovuldular və bu səbəbdən, onlardan törənən bütün bəşəriyyət, əcdadlarının bu ilkin günahına görə məsuliyyət daşıyır. Deməli insanlar bu dünyada günahkar doğulurlar. Lakin ilkin günahdan azad olmaq da mümkündür. Bunun üçün İsaya bir Tanrı kimi iman etmək lazımdır.Çünki, Tanrı dünyaya insan obrazında gəlmiş, bəşəriyyətin günahlarını öz üzərinə götürmüş və könüllü olaraq bəşəriyyət naminə ölümü qəbul etmişdir. Bu səbəbdən ona iman edənlər ilk günahdan azad olurlar, öz həyatını Tanrıya ibadətlərdə keçirirlər, xeyirxahlıq edirlər, şərdən uzaqlaşırlar. Yəhudiliyin rədd etdiyi "ilk günah" konsepsiyası məhz xristian fəlsəfəsi nin məhsulu olduğundan bu hərfi mənada Bibliyada yoxdur.



**Gustav Dyure. Adəm və Həvvanın cənnətdən qovulması**

Tanrının var olması və gözəgörünməz olması[25], əqllə və duyğu ilə dərk olunmaması[26] xristian filosoflarının tez-tez istinad etdiyi mövzulardandır. Bu mövzu bəzi hallarda yeni platoçu üslubda yozulurdu. Xristian etikasının əsasını isə «Çıxış» kitabının 20-ci fəslində olan 10 ehkam təşkil edir.

Orta əsr xristian fəlsəfəsinin ən populyar mövzularından biri şərin təbiəti haqqında olan düşüncələr, Tanrının bu şəri törətməməsi, ondan uzaqlaşması mövzusu (teodiseya) idi. Bu problemin həll olunmasından ötrü, Əhdi-Ətiqin «Əyyub» kitabına tez-tez müraciət edilirdi.

Xeyir, şər, günah problemləri peyğəmbər Davuda aid edilən «Zəbur» kitabında da hallanmaqdadır. Burada bu problemlərin həlli isə, Tanrı tərəfindən göndərilmiş şəxsiyyətlə və gələcəkdə olacaq ədalətli İlahi mühakimə ilə bağlanır[27].

---

[25] Çıxış 3:14; 33:20.

[26] Qanunun təkrarı 4:11-19.

[27] Zəbur 2.

Xristian fəlsəfəsində ən çox hallandırılan başqa mövzulardan biri də bu dünyanın müvəqqəti, keçici olmasıdır. Bu məsələ isə həyatın mənası, ölümə münasibət kimi problemləri ortalığa çıxarırdı. Bu suallar haqqında düşünən mütəfəkkirlər isə bir çox hallarda Bibliyanın «Vaiz» kitabına müraciət etmişdirlər.

## Patristika dövrü

Patristika (latınca "pater" ata deməkdir) – II-VIII əsrlər xristian mütəfəkkirlərinin (xristian atalarının) teoloji, fəlsəfi və siyasi-ictimai təlimlərinin (doktrinalarının) cəmini ifadə edən termindir.

Patristika antik dövrdə quldarlıq quruluşunun böhranı zamanı qnostisizmlə, müxtəlif hereslərlə, bütpərəst dünyagörüşü ilə mübarizədə, və eyni zamanda antik dünyasının müxtəlif fəlsəfi-dini təlimləri ilə mürəkkəb münasibətlərə girərək yaranmışdır.

Patristika dövrü öz növbəsində bir neçə dövrə bölünür:

1. ***Apologetlərin fəaliyyəti dövrü*** (II - III əsrlər). Apologetlər[28] Xristianlığın təməl prinsiplərini bütpərəstlərin və yəhudilərin tənqidlərindən müdafiə edən xristian mütəfəkkirləridirlər. Onların fəaliyyət göstərdiyi sahə isə *apologetika* adlanır. Apologetika - dini təlimin əqlə əsaslanan dəlillərlə müdafiə edilməsidir.

Apologetləri iki hissəyə bölürlər:

- Yunan dilində yazan şərq apologetləri;
- Latın dilində yazan qərb apologetləri.

IV-cü əsrdə Romada Xristianlıq dövlət dini elan edildikdən sonra apologetikaya artıq ehtiyac qalmamışdır. Bundan sonra xristian teoloqları hereslərə qarşı rəddiyyələr yazırdılar.

2. ***Rəsmi xristian (kilsə) təliminin sistemləşdirilməsi dövrü*** (IV - V əsrlər). O dövrdə müxtəlif xristian mütəfəkkirlərinin pərakəndə olan fəlsəfi fikirlərinin əvəzinə vahid dini konsepsiya meydana gəlmişdir. Bu işdə ən böyük nailiyyətləri Kappodokiyalı atalar əldə etmişdir.

3. ***Xristian ehkamlarının möhkəmlənməsi və sabitləşməsi dövrü*** (VI əsr) (Leontius şərqdə, Boetsius qərbdə).

Patristika dövrü VII əsrdə Yohannes Damaskenosun fəaliy-yətindən sonra başa çatmışdır. O, həm də sxolastikanın əsaslarını ifadə etmişdir. Bundan sonra xristian fəlsəfəsində sxolastika dövrü başlanmışdır.

---

[28] Yunanca "apologetikos" - müdafiə olunan bir şey mənasını daşıyır.

Antik dövrünün fəlsəfəsindən fərqli olaraq, patristika dövrünün fəlsəfəsi *teosentrik* olub. Teosentrizmə görə hər bir mövcud olan şeyi təyin edən reallıq təbiət deyil, Tanrıdır.

Xristian fəlsəfi ontologiyasının əsasını yaradılış[29], idrak nəzəriyyəsinin əsasını isə vəhy amili təşkil edir. Bütün bu prinsiplər, ümumiyyətlə, təkcə Xristianlığa deyil, həm də Yəhudilik və İslama da aiddir.

[29] Xristian ehkamlarına görə Tanrı hər bir şeyi heç nədən, öz iradəsi və qüdrəti ilə yaradıb. Dünyanı yaradandan sonra isə O, onun varlığını təmin edir. Bu cür dünyagörüşü kreasionizm adlanır (latınca "creatio" - xəlq etmə, yaratma deməkdir).

II FƏSİL

# XRİSTİANLIQ VƏ ROMA İMPERİYASINDA YAYILMIŞ BAŞQA DİNİ-FƏLSƏFİ TƏLİMLƏR

## Antik fəlsəfənin və müxtəlif dini ənənələrin xristian dünyagörüşünün formalaşmasına olan təsiri

Xristianlıqdan öncə Romanın aristokratik dairələrində müxtəlif fəlsəfi təlimlər geniş yayılmışdı. Buna görə də savadlı romalılar qədim filosofların fikirlərini xristianlıqda tapmaq istəyində idilər[30].

Xristian apologeti Yustinusun fikrincə, «dünyanın yaranması və nizamlanması haqqında danışanda biz (yəni xristianlar) Platonu, onun yanıb məhv olması haqqında danışanda isə stoikləri təkrarlayırıq…»[31].



Bir-biri ilə rəqabətdə olan xristian və bütpərəst dünya-görüşləri arasında müəyyən qar-şılıqlı fikirlər mübadiləsi prosesi-nin getməsi labüd idi. Lakin qeyd etmək lazımdır ki, antik və xristian ideyalarının biri digəri tərəfindən qarşılıqlı mənimsənil-məsi prosesi heç də hamı tərə-findən birmənalı qarşılanmırdı, bunun əleyhdarları da az deyildi.

Stoistizm fəlsəfəsinin bir çox məqamları xristianlığın bəzi ideyalarına çox yaxınlaşır. Xüsusi ilə bu Senekanın (Seneca) etik və əxlaqi baxışlarına

---

[30] Мень А. Дионис, Логос, Судьба. Брюссель: 1992, с.7.

[31] Justius. Apologia I, 46.
İngiliscə: The First Apology // Excerpted from Ante-Nicene Fathers, Volume 1. Edited by Alexander Roberts & James Donaldson American Edition, 1885 http://www/newadvent. org/ fathers//0126.htm
Rusca: Апология I // Св. Иустин, философ и мученик. Творения. М., "Паломник" - "Благовест", 1995. С. 31-105.
http://antology.rchgi.spb.ru/Justin_Martyr/justin_1.htm

aiddir. Buna dəlil olaraq onun bəzi fikirləri ilə Bibliyada olan fikirlərin oxşarlığını göstərmək olar:

| **Seneka** | **Biblya** |
| --- | --- |
| 1. «Xoşbəxt hesab etdiyimiz insanların daxilindən xəbərdar olsanız, görərsiniz ki, əslində onlar heç də xoşbəxt deyillər, alçaldılmışdırlar, ümidsizdirlər. Onlar yalnız zahirən öz evləri kimi gözəl bəzəniblər. Bu yalnız nazik bir suvaqdır». | «Vay halınıza, din alimləri və fariseylər, ikiüzlülər! Çünki siz ağardılmış məqbərələrə bənzəyirsiniz: çölü gözəl görünür, içi isə ölü sümükləri və hər cür murdarlıqla doludur. Siz də beləcə insanlara zahirən saleh görünürsünüz, daxilən isə ikiüzlülük və fəsadlarla dolusunuz». (Matta 23: 27-28) |
| 2. «Sözü bir toxum kimi əkmək lazımdır: toxum balaca olsa da, münbit torpaq onu cana gətirir, ona qüvvə verir və o böyüyür. Əql də belədir» [32]. | «Əkinçi Tanrının kəlamını səpir. Kəlamın səpdiyi yolun kənarındakılar bunlardan eşitdikləri zaman dərhal şeytan gəlir və ürəklərinə səpilən kəlamı götürüb aparır». (Markus, 4: 14, 20) |
| 3. «Bir çox hallarda kitablar fikrimizi yayındırır»[33]. | «Çox oxumaq adamı yorur» (Vaiz, 12: 12). |

Daha bir maraqlı cəhət ondan ibarətdir ki, Seneka da xristianlar kimi məhəbbət prinsiplərinə önəm verirdi.

Senekanın bu cür fikirlərinin xristian ideyalara yaxın olması səbəbindən bəzi xristian xadimləri onun xristian olduğu və hətta apostol Pavlus ilə məktublaşdığı haqqında fərziyyələr irəli sürmüşdürlər. Lakin bunu sübut edən heç bir əsaslı dəlil yoxdur.

Stoisizmlə Xristianlığın arasında oxşarlıq həm də Loqosun mövcud olmasındadır. Lakin stoiklər üçün Loqos Heraklitin dövründən məlum olan

---

[32] Ad Lucilium Epistulae morales (Lusiliusa əxlaqi məktublar). Məktub XXXVIII. Rusca: Луций Анней Сенека. Нравственные письма к Луцилию. М., Изд-во "Наука", 1977. Перевод, подготовка издания С. А. Ошерова. http://www.ancientrome.ru/antlitr/ seneca/epist/038.htm

[33] Ad Lucilium Epistulae morales. Məktub II. Rusca: http://www.ancientrome.ru/antlitr/seneca/epist/002.htm

taledir, xristianlar üçün isə o, eyni zamanda, həm Tanrının sözüdür, həm də onun oğlu kimi qəbul edilən İsadır[34].

Xristian dünyagörüşünün formalaşmasına təsir göstərən daha bir fəlsəfi məktəb - neoplatonizmdir. Plato fəlsəfəsində əsas yeri ideyalar haqqında təlim tutmuşdur. Xristianlıqda isə ideyalar İlahi nurlarla əvəz olunur. Məhz bu nur bütün varlığı əhatə edir və hər bir şeyin səbəbidir. Bir çox tədqiqatçılar hesab edirlər ki, hətta xristian əqidəsinin əsasını təşkil edən Trinitarizmin (Ata, Oğul və Müqəddəs Ruh üçlüyü) və neoplatoçu filosoflar Plotinus, Yamblikos (Jamblichos) və Proklusun (Proclus) triadalar ideyası arasında müəyyən paralellər mövcuddur[35].

Plotinus fəlsəfəsində olan mistik baxışlar da xristian mistisizmində dərin izlər buraxmışdı. Bu zülmət içində olan, İlahi nurdan təcrid olunan, günah içində olan dünyada o nura can atan və Vahidə (Tanrıya) doğru yönələn mömin insanlar ideyasına aiddir (Xristianlıqda Vahid üç sifətdə təzahür edən Tanrıdır). Kappodokiya xristian məktəbinin tanınmış nümayəndəsi olan Qreqorios deyirdi: «Mən hələ Vahid (Tanrı) haqqında düşünməyə başlamamış, Üçlük öz nuru ilə məni işıqlandırır. Üçlük haqqında düşünəndə isə Vahid (Tanrı) məni özünə cəlb edir. Üçdən biri mənə açılanda, mənə elə gəlir ki, bu Vahiddir, qalan hər şey mənim nəzərimdən qaçır. Çünki mənim ağlım o qədər məhduddur ki, Vahidi dərk etməkdən başqa bir şeyə yer qalmır. Üçü isə eyni fikirdə cəmləyəndə mən işıq saçan vahidliyi görürəm. Lakin orada birlik təşkil edən nuru ayıra bilmirəm».[36]

Ümumiyyətlə patristika dövründə bir çox məşhur xristian ilahiyyatçısı və filosofu vaxtıykən yeni platoçuların məktəblərində dərs almışdırlar. Onların irəli sürdükləri ideyalarda neoplatonizmin ayrı-ayrı müddəaları ilə oxşar cəhətləri vardır. Yeni platoçuların məktəblərini Nazianzlı Qreqorios, Kesariyalı Basilios kimi tanınmış xristian ilhiyyatçıları bitirmişdir. Digər məşhur xristian ilahiyyatçısı Origenus isə məşhur nyeni platoçu Plotinus birlikdə neoplatonizmin yaradıcısı Ammonius Sakkasın tələbəsi olmuşdur.

---

[34] Yəhya İncili 1:1.

[35] Лосский В.Н. Боговидение. Глава 4. М.: АСТ, 2003. http://www.hesychasm.ru/library/losski/ls4_6.htm#gl4

[36] In sanctum baptisma, Or. 40,41. PG36, col.417. Sitat bu kitabdan gətirilir: Лосский В.Н. Боговидение. Глава 4. М.: АСТ, 2003. http://www.hesychasm.ru/library/losski/ls4_6.htm#gl4

## İsgəndəriyyəli Filonun fəlsəfəsi



Ptolemeylərin hakimiyyəti altında olan Misir ellinizm dövründə ən inkişaf et-miş ölkələrindən biri idi. O, eyni zamanda qədim dünyanın mədəniyyət mərkəzlərin-dən biri idi. Məhşur kitabxanası olan İs-gəndəriyyə şəhərində müxtəlif ölkələrdən gəlmiş tanınmış alimlər çalışırdı. Ptole-meylər həm də müxtəlif dinlərin və dini ənənələrin bir-biri ilə yaxınlaşması, onların ziddiyyətlərini ortalıqdan qaldırılma siya-sətini aparırdılar. Bunun nəticəsində dini-fəlsəfi sinkretizm meylləri güclənmişdi.

Bu prosesə İsgəndəriyyədə yaşayan çoxsaylı yəhudi icması da cəlb edilmişdi. Yəhudilərin çoxu öz doğma dillərini unudub yunanca danışırdılar və yunan mədəniyyətinin bir çox elementlərini mənimsəmişdirlər. Lakin, eyni zamanda, yunanlar və İsgəndəriyyədə yaşayan başqa xalqlar da yəhudilər vasitəsilə Yaxın Şərq mədəniyyəti ilə yaxından tanış olmuşdurlar.

Eramızdan əvvəl III əsrdə İsgəndəriyyədə ilk dəfə olaraq Əhri-Ətiq yunan dilinə tərcümə edilmişdir. Bu tərcüməni Septuaqinta[37] adlandarmışdırlar. Bu hadisə yunanların yəhudi mədəniyyəti və dini ənənəsi ilə daha da yaxından tanış olmasına gətirib çıxarmışdı. Nəticədə isə yunan-yəhudi sinkretizminə təkan vermişdi. Yunandilli yəhudilər yəhudi ictimai fikri dinini və ənənəsini yunanlara çatdırmaq və onlar tərəfindən sərbəst başa

---

[37] Septuaginta – yetmiş nəfərin tərcüməsi. Rəvayətə görə, Misir hökmdarı II Ptolemeus Filadelf (e.ə. 285 - 246) yəhudilərin Müqəddəs Kitabı haqqında eşidib, onu yunan dilinə tərcümə etmək və İsgəndəriyyə kitabxanasına yerləşdirmək fikrinə düşdü. Bu məqsədlə o, yəhudi kahini Eleazara bu işi yerinə yetirmək üçün tərcüməçi heyyətin təşkil olunması haqqında müraciət etdi. Bundan sonra hər 12 yəhudi nəslindən 6 nəfər tərcüməçi seçildi, və onlar Faros adasında bir birindən təcrid olunmuş halda işə başladılar. İşi bitirəndən sonra, bu 72 (və ya 70) nəfər adamın tərcümələri müqayisə ediləndən sonra məlum olmuşdur ki, onların hamısı, hərfinə qədər, bir-birinə tamamilə uyğun gəlmişdir. (Philo.Vita Mosis.2; Josephus Flavius.Antiquitas Judaeorum.XII.2; Irenaeus.Adversum haereses.III.15; Clementus Alexandrus.Stromata.I — II).

düşülməsi üçün Əhdi-Ətiqin mətnlərini və məzmununu alleqorik yozmalara məruz qoymaq məcburiyyətində qalmışdırlar. Beləliklə burada ilk dəfə olaraq Müqəddəs Kitabların yozulması əsasında yeni fəlsəfə yaranmışdı. Bu cür fəlsəfəni *ekzegetika* adlandırmışdırlar.

Ekzegetikanın ən görkəmli nümayəndəsi yəhudi mənşəli İsgəndəriyyəli Filon (Philon Alexandreus) (e.ə. I - b.e I əsrləri) olmuşdur. Onun fəlsəfəsinin əsasını Tövratın mənasının yozulması təşkil edirdi. Filonun fikrincə bütün Tövrat bir alleqoriyadır, təvildir. Orada təsvir edilən hadisələr Musa tərəfindən qəsdən sadə hekayələr şəklinə salınmışdı. O bunu Tovratın dərin mənəvi mahiyyətini gizlətmək üçün etmişdi. Yəni Tövratın hekayələrin zahiri heç də onun əsl mahiyyətini açmır. Əsl mahiyyət isə həmin hadisələrin batinindədir. Batin isə yalnız seçilmiş insanlara açılır. Onun haqqında bilik İlahi bir nemətdir və ona təkcə əql vasitəsilə çatmaq mümkün deyil.[38]

Lakin, digər tərəfdən, əqli də inkar etmək olmaz. Çünki yalnız onun vasitəsilə anlama prosesi baş verir. Bu səbəbdən idrak prosesində həm İlahi ilham, həm də əql eyni dərəcədə rol oynamır. Daha doğrusu əqlin inkişaf etdirilməsi, elm və fəlsəfənin öyrənilməsi prosesi, mənəvi biliyin alınması üçün ilkin şərtdir. Müxtəlif elmlər fəlsəfi biliyin artmasına, fəlsəfi biliyin artması isə əqli İlahi tərəfindən verilmiş mənəvi müdrikliyə gətirir. Yalnız bu halda Müqəddəs Kitabın əsl mənəvi məzmunu insan üçün açılır.[39]

Filonun fikrincə yunan fəlsəfəsinin və Əhdi-Ətiqin İlahi müdrikliyinin mənbəyi birdir. Onların mənbəyi Loqosdur. Loqos isə Tanrının sözü, qanunu, ideyaların toplusu olaraq İlahidə yerləşir və Onun sözüdür. Amma əgər Əhdi-Ətiqdə müdriklik birbaşa Tanrının sözüdürsə (vəhydirsə), yunan fəlsəfəsi bu sözün insanlar tərəfindən düşüncələr nəticəsində ifadə edilməsidir.

Məsələyə bü cür yanaşmağa Filonu Əhdi-Ətiqin çox sadə, ibtidai dili və antropomorfizmləri[40] vadar etmişdi. Məsələ bundadır ki, yunan elmi və

---

[38] Legum allegoriae (Alleqorik yozma) II, 85 // The Works of Philo Judaeus. The contemporary of Josephus, translated from the Greek By Charles Duke Yonge. London, H. G. Bohn, 1854-1890.
http://www.earlychristianwritings.com/yonge/book3.html

[39] Legum allegoriae, III, 244-245. // The Works of Philo Judaeus. The contemporary of Josephus, translated from the Greek By Charles Duke Yonge. London, H. G. Bohn, 1854-1890.
http://www.earlychristianwritings.com/yonge/book4.html

[40] Antropomorfizm (yunanca “anthropos” - insan və “morphe” - forma) – Tanrının insan xüsusiyyətlərində və ya obrazında təsəvvür edilməsidir.

fəlsəfi ənənəsini bilən Filon, bu cür sadəliklə barışa bilmirdi. Dindar yəhudi olaraq, o, monoteizmi və kreasionizm[41] konsepsiyalarından imtina etmədən, Əhdi-Ətiqin, ona ibtidai görsənən yerlərini təvillərə məruz qoyurdu. Müqəddəs Kitabın yunan fəlsəfi fikri ilə uyğun olan yerlərinə isə daha da çox nəzər yetirirdi və onları yeni pifaqorçuluq, neoplatonizm, stoisizm üslublarında yozub təqdim edirdi.

Beləliklə Filon fəlsəfəsində Əhdi-Ətiqin Tanrısı yunan fəlsəfəsi metodları ilə yozulub yeni atributlar alırdı. O, artıq hər bir çoxluğun üzərində yüksəlmiş mütləq monadadır[42]. Tanrı elə bir vahiddir ki, Onun yanında başqa vahidlər yoxdur, O kamildir, bölünməzdir[43]. Tanrının əsl mahiyyətini əqllə dərk etmək mümkün deyil. İnsanlar onun varlığı haqqında biliyə malik ola bilərlər, lakin Onun nə olduğunu bilə bilməzlər. Ona görə də Tanrı Musaya özünü Yahve (var olan) adı ilə açmışdı və özünün digər adlarını açmamışdı. Tanrının nə olduğunu dərk edilməsi apofatik (mənfi) teologiya[44] vasitəsi ilə mümkündür.

İnsan dili kamil deyil və onun vasitəsi ilə Tanrının bütün keyfiyyətlərini tələffüz etmək olmaz. Ona görə də apofatik teologiyanı tətbiq edərək, demək olar ki, Tanrının heç bir şeyə ehtiyacı yoxdur, bölünməzdir, bənzəri yoxdur, dəyişməzdir və s. Beləliklə hər şeyi inkar edərək elə bir nəticəyə alınır ki, onun haqqında heç bir şey demək artıq mümkün olmayacaq. Bu hala çatanlar öz "Mən"inin xaricinə çıxaraq, ekstaz halına daxildir, sonra isə daha da yüksək mistik məqamlara qədəm qoyur. Bu məqama çatan adam Tanrıyla görüşür, amma onu dərk edə bilmir, çünki

---

[41] Kreasionizm (latınca "creatio" yaradılış deməkdir) – bütün canlı aləmin Tanrı tərəfindən yaradılmasını iddia edən təlimdir. Kreasionistlər canlı aləmin təkamül nəticəsində inkişaf etməsi fikrini rədd edirlər.

[42] Monada - varlığın substansial vahididir.

[43] Legum allegoriae, II, 2,3. // The Works of Philo Judaeus. The contemporary of Josephus, translated from the Greek By Charles Duke Yonge. London, H. G. Bohn, 1854-1890. http://www.earlychristianwritings.com/yonge/book3.html

[44] Apofatik teologiya - Tanrının varlığını birbaşa təsdiq etməyərək, inkar yolu ilə, Onun haqqında işlənilən bütün anlayışların yetərsiz olduğunun təsdiq edilməsidir. Yəni Tanrının bütün düşünülən və düşünülməyən anlayışlarından uca olması, onun varlığını subuta yetirir. Bunun əksi olan katafatik (pozitiv) teologiya isə, maddi dünyada mövcud olan şeylərlə Tanrının varlığına işarə edən analogiyaların tapılmasından və bu analogiyalarla Tanrının varlığının sübuta yetirilməsindən ibarətdir.

Onun nuru düşüncə imkanını bağlayır. Bu hal içki içmədən sərxoş olmaya bənzərdir[45].

Musanın peyğəmbərliyi – birbaşa Tanrının vəhyidir. Onu şüurla dərk etmək olmaz. Bunu yalnız imanla qəbul etmək lazımdır. Beləliklə Tanrı və dinə aid başqa şeylər haqqında bilik İlahi ekstaz (yaxud vəhy) vasitəsi ilə və yaxud İlahi kitab (Əhdi-Ətiq) vasitəsi ilə alına bilər.

Filon fəlsəfəsində Tanrı yaratdığı dünyadan daha ucadır. Bu səbəbdən, bu yaradılışı O, Loqos vasitəsi ilə həyata keçirib. Loqos Tanrının sözüdür, onun atributudur. O əvvəllər Tanrının özündə olub, sonra isə ondan ayrılaraq sərbəstlik qazanıb. Loqosu Filon Tövratın birinci kitabında hallanan "…və Tanrı dedi" sözlərində çıxarırdı (1: 3). Lakin sonra ona yunan fəlsəfəsində olan meyarları aid edirdi. Yəni Loqos haqqında Filonun fikirləri antik fəlsəfi irsin yəhudi ənənəsi ilə qarışmasından irəli gəlmişdir. Buna Filon öz şəxsi fikirlərini də əlavə edirdi.

Yunan fəlsəfəsində olduğu kimi Loqos dünya nizamıdır, gözəllik və harmoniyadır. Ondan hər şeyin təbii əlaqələri, forması müəyyənliyi yaranır. Eyni zamanda, Loqos ideyaların toplusudur. Dünya bu ideyaların obrazı ilə Tanrı tərəfindən yaradılıb.

Sonra isə Filon Loqos anlayışına Əhdi-Ətiq, yəni yəhudi dünyagörüşü, nöqteyi-nəzərindən baxır. Burada monoteizm və kreasionizm həlledici rol oynayır. Tanrı dünyanı öz sözünün (Loqosun) qüdrəti ilə yaradır. Loqos hər bir şeydə Tanrıya bərabərdir və Onun obrazıdır. Onun vasitəsi ilə dünya yaradılır.

İnsan torpaqdan Tanrının obrazına bənzər yaradılıb. Onun şüuru da İlahi Loqosa bənzərdir. Yəni kosmik və insanda olan Loqoslar mahiyyətcə birdirlər, birlik təşkil edirlər. Belə olan təqdirdə, insanın məntiqi cəhətindən, ətraf mühitin dərk edilməsi və onun barəsində düşüncələr məxluqatdan Tanrıya doğru atılan addımlardır. Dünyanın varlığı və gözəlliyi insanı Tanrının varlığını dərk etməsinə gətirməlidir. Beləliklə məntiqi fikir bir növ İlahi ilham kimi qəbul edilə bilər.

Buna görə də, Filona görə, yunan fəlsəfəsi və İlahi vəhy olan Əhdi-Ətiq birbirinə zidd deyillər, çünki hər ikisi Loqosun məhsuludur. Əhdi-Ətiqdə Loqos özünü peyğəmbərlərə vəhy vasitəsi ilə açmışdı, yunan fəlsəfəsində isə məntiqdə, düşüncədə. Ona görə də Musanın və Platonun müdrikliyinin mənbəyi birdir. Lakin buna baxmayaraq, Plato və Pifaqoras

---

[45] De Abrahamo, 15-24. // The Works of Philo Judaeus. The contemporary of Josephus, translated from the Greek By Charles Duke Yonge. London, H. G. Bohn, 1854-1890. http://www.earlychristianwritings.com/yonge/book22.html

(Pythagoras) təkcə düşüncə ilə monoteizmə yaxınlaşmamışdırlar. Onlar, Filonun fikrincə, Əhdi-Ətiqlə tanış idilər. Bu fikri gələcəkdə xristianlar da təkrarlayırdılar.

Filon Loqosu "Tanrının oğlu", "Səmavi Adəm" və başqa adlarla adlandırırdı. Bu adlar onun Tanrı ilə dünya arasında bir vasitəçi olduğuna işarə edir.

Loqosa bu cür baxış Filona, Müqəddəs Kitabı alleqorik yozmalara məruz qoyma imkanı yaratmışdı, onu fəlsəfələşdirirdi. Bu nöqteyi-nəzərdən onu gələcəkdə yaranan orta əsr ilahiyyatının yaradıcısı adlandırmaq olar. Əhdi-Ətiq rəvayətləri uzaqlarda olan transsendent[46] Tanrının deyil, Loqosun məhsuludur. Məsələn, yəhudilərin Misirdən köçməsini Filon ruhun bədənin əsarətindən azad olması kimi, yəhudilərin səhrada uzun illər boyu qalmasını[47] insanın bu dünyada yolçu olması kimi yozurdu.

Filonun antik fəlsəfənin yəhudi dini ilə qarışdırması cəhdi yəhudi ortodoksları tərəfindən rədd edildi. Lakin onun fəlsəfəsindən xristianlar istifadə etdilər. Onlar Filonun Loqosunu simalaşdırıb İsa ilə eyniləşdirmişdilər. Bu ideya Yəhya İncilində öz əksini tapmışdı. Xristianlıqda olan Ata (Tanrı) – Oğul (Loqos) münasibətləri Filonun fəlsəfəsindən başlayır. Yəhudi dini ənənələrinin yunan fəlsəfəsi kateqoriyaları ilə izah edilməsi Romada müxtəlif xalqlar üçün yeni Dinin prinsiplərini aydınlaşdırırdı və bu amil xristianlığın yayılmasında müstəsna rol oynamışdı.

## Qnostisizm

---

[46] Transsendent (latınca "transcendere" – həddi aşmaq) - İnsan düşüncəsinin imkanlarından daha uca məkanlarda yerləşən varlıqlar və anlayışlar.

[47] Peyğəmbər Musanın rəhbərliyi altında Misirdən Fələstinə köç edən yəhüdilər bu torpaqlara yaxınlaşandan sonra, Fələstində yaşayan yerli xalqların qüdrətindən qorxmuş, və Tanrının əmrindən yayınaraq onlarla müharibə etməkdən imtina etmişdilər. Buna görə Tanrı bu nəsil üçün Fələstin torpaqlarını yasaq etmiş və, beləliklə, yəhudilər uzun illər boyu səhralarda qalmış və köçəri həyat sürmüşdülər. Təxminən 40 ildən sonra, günaha batan yəhudilərin yeni nəslinin bir qismi fələstinlilərlə döyüşmək və Tanrının əmrini yerinə yetirməyə hazır olduqlarını bildirmişdilər. Bundan sonra Tanrı onlara Fələstin torpağına daxil olmağa icazə verdi. Lakin Musa artıq dünyasını dəyişmişdi və buna görə Fələstinə kirə bilmədi. Bundan sonra bir neçə ilin ərzində gedən müharibələrin nəticəsində yəhudilər Fələstini fəth etdilər. (Saylar, 13, 14).

Qnostisizm (yunanca "gnostikos" – bilən) antik dövrünün sonunda (I-V əsrlərdə) yaranmış dualist dini təlimdir. Bu təlimdə xristianlığın, yunan fəlsəfəsinin və bəzi Şərq dinlərinin ideyaları qarışmış, sinkretik hala gətirilmişdir. Qnostisizm ezoterik[48] bir təlim idi, onun ardıcılları deyirdilər ki, onlara Tanrı və dünyanın sonu haqqında biliklər verilmişdir. III əsrdə yaranan Mani dininin tarixi kökləri də qnostisizmlə bağlıdır.

Qnostisizmin yaranmasının əsas səbəbini ellinizm dövründə qədim yunan polislərinin tarix səhnəsindən silinməsində, böyük imperiyaların yaranmasında, müxtəlif mədəniyyətlərin və dini-fəlsəfi təlimlərin bir-biri ilə qarışmasında, esxotoloji (axirət) əhval ruhiyyəsində, mistik ənənələrin inkişafında görürlər.

Bütün qnostiklərin təlimlərində aşağıdakı xüsusiyyətlər vardır:

1. ***Ezoterizm***. Bütün insanlar "maddi" (bədənlə bağlı olanlar), "ruhi" (psixiklər) və "mənəvi"lərə (pnevmatiklər) bölünürlər. Yalnız "mənəvi" insanlara əsl mistik biliyin (qnosisin) mahiyyəti açılır.

2. ***Dualizm***: Bütün varlıq ikili şəkildə qəbul edilir, xeyrlə şər bir birinə qarşı substansional səviyyədə qoyulur. Bütün maddi aləm şərdir. O mənəviyyatın zindanıdır. Bu zindandan azad olub xeyrə qovuşma yalnız İlahi biliyə (qnosisə) malik olan insanlar tərəfindən həyata keçirilə bilər. Şərdən ayrılaraq qnostik öz mənəviyyatını həqiqi Tanrının bir hissəsi olduğunu duyur.

3. ***Maddi dünya Mütləqdə olan bir səhvin nəticəsidir***. Bu səhv nəticəsində zülmət qüvvələri nurla dolu aləmlərə daxil olublar. Bu proses aşağıdakı qaydada baş verib: Tanrı olan doğulmamış Ata özünü *eon* adlandırılan varlıqlarda təzahür edir. Bu eonlar əsasən cütlüklərdən ibarətdir. Eonların tamlığı İlahi tamlıq - *pleromanı* təşkil edir. Lakin eonlaran birinin təkəbbürü nəticəsində, o pleromadan ayrılır və bundan sonra kosmosun yaranması (kosmogenez) baş verir, müxtəlif aləmlər yaranır. Ən alçaqda yerləşən aləm isə bizim yaşadığımız dünyadır. Qnostiklərin əksəriyyəti onları simalaşdırıb, onlara konkret şəxs kimi baxırdılar.

3. ***Maddiyyatdan xilas olmanın zəruriliyi***: Pleroma öz tamlığını bərpa etmək istəyir. Bu isə yeni eonun yaranmasına təkan verir. Bu eon İsadır və ya İsa ilə Xristosun cütlüyü. O, bu dünyaya enir və seçilmiş, mənəvi cəhətdən yüksəlmiş insanlara həqiqi biliyin (qnosisin) nə olduğunu öyrədir. Adətən İsanın bir bədənə malik olması aldadıcı, yalnız zahirən görünən hesab edilir (doketizm). Dünya hissəciklərinin hamısının pleromaya qayıtmasından sonra maddiyyat yenidən xaos halına qayıdacaq.

---

[48] Yəni, yalnız xüsusi, seçilmiş adamlara məlum olan, açılan.

4. ***Zahidlik xilas olmanın şərtidir***.

5. ***Tanrı bu dünyadan çox-çox uzaqlardadır*** (transsendentdir). Onun təbiəti fərqlidir. Dünya isə ən alçaqda yerləşən qüvvələr tərəfindən yaradılıb. Onlar Tanrı tərəfindən yaradılsa da, onun haqqında heç bir biliyə malik deyillər, Onun dərk edilməsi yolunda bir maneədirlər. Bu qüvvələrə *arxontlar* (hökmdarlar) deyilir.

6. ***Bütün kainat arxontlara tabedir***. Onları bəzən Əhdi-Ətiqdə hallanan Tanrının adları ilə adlandırırlar (Savaof, Adonay və s.). Dünyanın ətrafında isə bir neçə kosmik dairələr vardır. Bu dairələri də arxontlar idarə edir. Dünyanın yaradılması işində arxontların ən böyüyünün müstəsna rolu vardır. Onun adı Platonun «Timeus» (Timaeus) əsərində olduğu kimi *"Demiurqosdur" (Demiurgos)*. Arxontların istibdad hakimiyyəti isə " hermogenus" (dünya taleyi) adlanır.

7. ***İnsan bədən, mənəviyyat (pnevma) və ruhdan ibarətdir***. Bədən və ruh dünyanın tərkib hissəsi olaraq germagenə tabedir. Germagen isə təbiət qanunlarıdır, lakin, eyni zamanda, insan cəmiyyətində o Musaya verilmiş yəhudi qanunudur. Ruhun içində yaşayan mənəviyyat isə İlahi nurun hissəciyidir, və o zindanda saxlanılır. Əsarətdə olan mənəviyyat pleromadan təcrid olunub və özünü onun hissəsi kimi dərk etmir. Onun dirçəlməsi isə bilik (qnosis) vasitəsilə əldə edilə bilər. İnsan yalnız zülməti yarıb, nura yönələrək xilas oluna bilər. Ölümdən sonra biliklə (qnosislə) qidalanmış mənəviyyat (pnevma) dairələri ən yuxarı dairələrə yüksəlir.

Mənəviyyatları inkişaf etmiş və qnosisə bələd olan adamları pnevmatik adlandırırlar. Pnevmatiklər bu dünya ilə barışmaz mübarizədədirlər. Bu barışmazlıq bir tərəfdən tərkidünyalıqla, başqa tərəfdən isə (bəzi təriqətlərdə) əxlaqsızlıqla nəticələnir. Yəni dünyanın inkar edilməsi, onda mövcud olan qanunların da inkar edilməsi ilə nəticələnir. Əxlaqsızlığı *karpokratçılar* təriqəti təbliğ edirdi. Onlar həm də ruhların köçməsinə inanırdılar. Beləliklə bu təriqətə görə günah xilasa doğru aparan bir yoldur. Onların fikrincə, əgər pnevmatik hermagendən azaddırsa, onda dünyaya bağlı olan və onun realığını əks etdirən qanundan da azaddır.

Qnostisizm antik dünyada xristianlıqdan öncə yayılmışdır. Lakin xristianlıq yayılmağa başlayanda qnostiklər onunla paralel fəaliyyət göstərirdilər, qarşılıqlı münasibətlər qururdular. Bunun nəticəsində *xristian qnostisizmi* yaranmışdır. Bundan öncə isə qnostisizm yəhudiliyə də yol tapmışdı.

Xristianlığı qəbul edən ilk qnostiklərdən biri Əhdi-Cədiddə adı çəkilən *Simon Maq* olmuşdur[49]. Orada o cadugər kimi təsvir olunur. Bu adam həvari Petrusun əleyhdarı olub və Müqəddəs Ruhu pulla almaq istəyib[50].

Xristian ənənəsində Simon bütün küfrlərin atasıdır. O özünü ilahi hesab edirdi. İrineus (Irenaus)[51] yazırdı ki, Simon özünü tanrı elan edərək, Helena adında bir qadını Tir şəhərinin fahişəxanasından pulla almışdır. Helena onu hər yerdə müşayət edirdi. Simon Helenanı özünün ilk təfəkkürü (yun. Ennoia) adlandırırdı.

Sonra Ennoia Atadan ayrılıb aşağı dairələrə enmişdir. Orada o, mələkələri yaratmışdı. Dünyanı yaradan qüvvələr də ondan yaranmışdı. Ata haqqında isə o qüvvələrin xəbəri yox idi. Sonra bu qüvvələr İlk təfəkkürü (Helenanı) əsir götürdülər və Atadan onu təcrid etdilər. Nəhayət onlar onu insan bədəninə saldılar. O da müvəqqəti olaraq nəsildən nəsilə müxtəlif insanların bədənlərində yaşayırdı. Helenanı bu əsarətdən xilas etmək üçün Ata özü yerə endi. Eyni zamanda o insanları da xilas etmək üçün gəldi.

Simonun ardıcılları magiya ilə məşğul olublar və əxlaqsız həyat tərzi sürüblər. Onları *simonianlar* adlandırırdılar[52].

Simon Maqın ideyalarına oxşar ideyalara Misirin Naq Xammadi vadisində tapılmış qnostik apokriflərdə də rast gəlmək olar. Orada da Ali Tanrı öz Təfəkkürünü (Əqlini) doğur. Sonra o Əql dünyanı yaradır, lakin sonra yaratdığı qüvvələr tərəfindən əsir edilir[53].

---

[49] Həvarilərin işləri 7: 5-24.

[50] "Simoniya" sözü Simon Maqın adından yaranıb. Simoniya Xristianlıqda kilsə vəzifələrini pulla almaq adətinə deyilir. Bu adət bir zamanlar çox geniş yayılmışdı.

[51] Lionlu İrineus (130-200) xristian ilahiyyatçısı, Lion şəhərinin yepiskopu, qnostisizmin əleyhinə «Adversus haereses» (Hereslərin əleyhinə) kitabını yazmışdır.

[52] Irenaeus, Adversus haereses I, 23: 1-4.

İngiliscə: Irenaeus Against Heresies // Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume I. T&T Clark, Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1885.

http://www.ccel.org/fathers2/ANF-01/anf01-46.htm#P3596_621006

Rusca: Св. Ириней Лионский. Творения. — М.: «Паломник», «Благовест», 1996. Репринтное воспроизведение издания: Сочинения святаго Иринея, епископа Лионскаго. — СПб, 1900. http://khazarzar.skeptik.net/books/irenaeus/ah

[53] Naq Hammadi codex, II, 6; "Exegesis on the Soul"// The Naq hammadi Library in English. Revized edition, San-Francisco, 1988, pp. 181-187.



**Naq-Hammadidə tapılmış qnostik əlyazmaların nümunələri**



Daha bir xristian qnostiki Dositey idi. O deyir-di ki, əslində Xristos olan xilaskar o özüdür. Digər bir Menandr adlı qnostik haqqında Yustinus xəbər verir. O da özünü bəşəriyyətin xilaskarı elan edib[54].

Qnostiklərin İsa haqqında da maraqlı fikirləri var idi. Məsələn, Kerint (Cerinthus) deyirdi ki, bu dünya birinci Tanrı tərəfindən yaradılmamışdı. O ondan da qüdrətli bir qüvvə tərəfindən yaradılmışdır. İsa isə o qüvvə-nin yerə göndərilmiş nümayəndəsidir. O, İosif və Mariyanın oğlu olub, möminlikdə hamıdan mükəmməl idi. İlahi ruh (Xristos) ona göyərçinin timsalında enib. Bundan son-ra o Atanın adından möcü-zələr edib. İlahi ruh (Xristos) onu tərk edəndən sonra İsa tək qalıb, onu incidib öldü-rüblər. Sonra isə o dirilib. Xristos isə incidilə bilməzdi, çünki onun başqa təbiəti vardır[55].

Bu fikirlərə oxşar fikirləri ən məşhur qnostiklərdən

---

[54] Justinus. Apologia I, 26, 4.
İngiliscə: The First Apology // Excerpted from Ante-Nicene Fathers, Volume 1, Edited by Alexander Roberts & James Donaldson. American Edition, 1885. http://www.newadvent.org/fathers//0126.htm
Rusca: Апология I // Св. Иустин, философ и мученик. Творения. М., "Паломник" - "Благовест", 1995. С. 31-105.
http://antology.rchgi.spb.ru/Justin_Martyr/justin_1.htm

biri olan Karpokrat da ifadə edirdi. O hesab edirdi ki, dünya Tanrıdan aşağıda yerləşən mələkələr tərəfindən yaradılıb. İsa isə İosifin oğludur. Lakin onun mənəviyyatı o qədər uca və ali olub ki, o Atanın olduğu səmalar haqqında yaddaşını qoruyub saxlaya bilmişdir. Bu səbəbdən Ata ona bir qüvvə vermişdi. Bu qüvvə dünyanın keşiyində duran arxontlardan qorunub İsaya çatmışdı. Bu İlahi qüvvə İsanı ucaltmışdı. Arxontların təsirindən qurtulmuş hər bir insan da İsaya bənzər olur, hətta ondan da üca ola bilər.

Karpokrat və onun tələbələri hesab edirdilər ki, şər və xeyir anlayışlarını yalnız kamil olmayan insan düşüncəsi yaradır. Yüksəlmiş, əsl biliyə (qnosisə) malik insan hər bir əməldən keçməlidir və müxtəlif həyat tərzi keçirməlidir. Bunları etməsə, onun ruhu ölümündən sonra yenidən bədənə salınıb, dünyaya gələcək[56].

Qnostik ideyalara çox yaxın olan digər xristian heretiki Markionun (II əsr) fikrincə 2 Tanrı mövcuddur. Kiçik Tanrı olan Əhdi-Ətiq Tanrısı bu dünyanın yaradıcısıdır. O, ədalətlidir, lakin mərhəmətsizdir. Deməli o kamil deyil. Bu dünyanın yaradıcısından fərqli olaraq, məhəbbət və xeyir Tanrısı vardır. Onun mövcud olması haqqında dünyanı yaradan Tanrının xəbəri yoxdur və onun haqqında məlumat Əhdi-Cədiddə vardır. Əhdi-Ətiq ilə Əhdi-Cədiddə olan Tanrı haqqında ziddiyyətli məlumatları biri-birinə qarşı kəskin qoyan Markion öz fikirlərini "Antiteza" adlanan risaləsində yazmışdır. Məhəbbət Tanrısı haqqında bəyan edən şəxs İsadır. Lakin onun tələbələri onu Əhdi-Ətiqin tanrısı ilə çaşdırıblar. Rəsmi kilsə də bu yanlış yolla gedir. Bu səbəbdən Markion, Lukasın "düzəldilmiş" İncilini və Pavlusun on məktubunu qəbul edərək, başqa Əhdi-Cədid kitablarını inkar edirdi. Onun fikrincə, maddiyyat şər olduğuna görə, xristianlar həyatlarını zahidlikdə keçirməlidirlər, evlənməməlidirlər. Yalnız yaradıcı Tanrını inkar edib, əsl Tanrını (Xristosu) qəbul edən adamlar xilas ola bilərlər.

Ən tanınmış xristian qnostiklərindən biri Vasilid olub. O, II əsrin birinci yarısında İsgəndəriyyədə yaşayıb. Vasilid eyni zamanda xristian ilahiyyatçısı idi. Onun əsərlərindən fraqmentlər İsgəndəriyyəli Klemensin və Origenusun kitablarında gətirilir. Onun fəlsəfi fikirləri haqqında isə İrineus və Hippolitus (Hippolytus)[57] xəbər vermişdirlər.

İrineusa görə, Vasilid hesab edirdi ki, Tanrı altı qüvvəni yaradıb, onlardan isə çoxlu sayda mələkələr əmələ gəlib. Bu hiyerarxiyanın sonunda

---

55 Irenaus, Adversus haereses I, 26.

56 Irenaus, Adversus haereses I, 25.

57 Romalı Hippolitus (170-236) – məşhur xristian ilahiyyatçısı, «Refutatio omnium haeresium» (Bütün hereslərin təkzib edilməsi) kitabının müəllifi.

aşağıda duran qüvvələr var. Onlar bu dünyanı yaradıb. Bu qüvvələrin başında yəhudi Tanrısı durub. O, bütün dünyanı yəhudi xalqına tabe etmək istəyirdi. Buna görə də müharibə başlandı. Bunu görən Ali Tanrı öz Əqlini (və yaxud Xristosu) dünyanı xilas etmək üçün yerə yolladı. Əslində Xristos yəhudiləri aldadmışdı. Onu edam etmək istəyən yəhudilər onun yerinə Xristosa oxşayan Kirenalı Simonu çarmıxa çəkmişdilər[58]. Hippolitus isə onun haqqında yazırdı ki, Tanrı hər bir varlıqdan üstündür. Bu səbəbdən ona varlıq demək olmaz[59]. Dünya isə heç nədən yaranır, özü də heç nədir. O, yalnız hər şeyin imkanı, potensiyası, toxumudur. Beləliklə Hippolitus tərəfindən xəbər verilən Vasilidin fikirləri İrineusun xəbərlərindən fərqlidir.



**Qnostiklərin ikonası**

Vasilidə görə qnostik təlim insanın daxili təbiətinin oyanma-sı ilə nəticələnir. İnsan heyvan-dan fərqlənməlidir, onun mənə-viyyatı ucalara yüksəlməlidir. Qnosis insana öz həqiqi mahi-yyətini bilməyə imkan yaradır.

Vasilid ruhla mənəviyyat arasında fərqin olduğu haqqında danışırdı. Ruh əbədi olsa da, o yalnız mənəviyyatın yaşadığı bir qabığdır. İnsanın əsl "Məni" isə yalnız mənəviyyatdır. O Ali tə-biətin bir parçası, toxumudur. Ruh həmişə bu dünyada yaşa-mağa məhkumdur, mənəviyyat isə onu tərk edə bilər.

Xristian qnostiklərindən daha bir tanınmış mütəfəkkiri Valentinus (II əsr) olmuşdur. O hesab edirdi ki, bu dünya bir səh-vin nəticəsində yaranıb. Bu səhvi düzəltmək isə qnostiklərin vəzifəsidir. Onlar bu dünyaya ölümə qalib gəlmək üçün gəliblər. Biliyin (qnosisin)

[58] Irenaus, Adversus haereses I, 24.

[59] Hippolytus, Refutatio VII, 20.
İngiliscə: Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume V. T&T Clark, Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1885.
http://www.ccel.org/fathers2/ANF-05/anf05-11.htm#P1753_537493

“nuru” zülmətin “oduna” qarşı qoyulur. Bu od hər şeyin mahiyyətinə varıb və gün gələcək, o bütün dünyanı yandırıb məhv edəcək. Lakin İlahi nur onu qəbul etməyə hazır olan hər bir insanın qəlbində özünə yer edir, onu çirkabdan və şər qüvvələrdən təmizləyir. Bu halda insan özünün kim olduğunu dərk edir. Göründüyü kimi, Valentinusun təlimi bütün qnostiklərdə olduğu kimi, mistik xarakter daşıyır.

İsgəndəriyyəli Klemens yazırdı ki, Valentinususa görə maddi aləmin əsl Tanrıya heç bir aidiyyəti yoxdur. Onun emanasiyaları[60] nəticəsində dünyanı Demiurq yaratmışdır. Məhz onun haqqında Əhdi-Ətiqdə söhbət gedir, əsl yaradan Tanrıdan yox.

Simon Maqda olduğu kimi, Valentinususun təlimində də qadın obrazı mühüm yer tutur. Onun adı Sofiyadır, və o, ikili təbiətə malikdir. O pleromaya aid olaraq Ali Tanrının, həm Əqli, həm də Eonudur. Eyni zamanda onda məmunsuzluq hissi var. Bu hissiyyat onu həm yuxarı, həm də aşağı dartır, və ona rahatlıq vermir. Onun vəzifəsi bu dünyada görünməyən Tanrını insanların qəlblərində açmaqdan ibarətdir. O, “rəssam qadın” adlandırılır.[61]

Qnostisizm rəsmi kilsə tərəfindən heres[62] kimi rədd edilmişdi. Lakin, buna baxmayaraq, bu təlimin rəsmi xristian ideyasına çox böyük təsiri olmuşdur. Qnostisizmə meyilli olan xristian icmaları və ilahiyyatçıları, İsanın ilahiləşdirilmiş obrazının yaradılmasında əhəmiyyətli rol oynamışdırlar.

Buna misal olaraq Əhdi-Cədidin 4-cü İncilindən Yəhya İncilini göstərmək olar. Bu İncilin ümumi məzmunu birinci üç İncillərdən (Markus,

---

[60] Emanasiya (latınca “emanatio” - axma, yayılma) – hər şeyin əsasını təşkil edən Ali varlığıq (Vahidin) yüksək pilləsindən kiçik pillələrinə ontoloji keçid mənasını daşıyan, neolatonizmdə istifadə edilən fəlsəfi termindir. Emanasiyanın ən yayılmış olan təsviri - günəş və ondan ayrılan nur (işıq şüaları) – xristian ilahiyyatında geniş istifadə edilir.

[61] Clemens. Stromata, IV, 89-94.
İngiliscə: The Stromata, or Miscellanies // Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume II. T&T Clark, Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1885.
http://www.ccel.org/fathers2/ANF-02/anf02-63.htm#P6851_2096390
Rusca: Критика воззрений Валентина // Климент Александрийский. Строматы. Перевод с древнегреческого и комментарии Е.В.Афонасина. Издательство Олега Абышко. Санкт-Петербург, 2003. (в 3-х томах).
http://www.krotov.info/library/k/klim_ale/stro4.html

[62] Heres (yunanca hairesis) - rəsmi kilsə tərəfindən rədd edilən hər bir fikir, əqidə, istilah və s.

Matta, Lukas) fərqlidir. Orada İsa artıq insan kimi yox, yerə enmiş Tanrı kimi təsvir edilir. O dünya işlərindən, insan xüsusiyyətlərindən daha uca olan bir varlıqdır. O Atanın oğludur, insanlara xilas yolunu göstərmək üçün gəlmişdir və bu yolda könüllü olaraq ölümə gedib, ona iman gətirənlərin gunahlarını öz üzərinə götürmüşdür. İncilin əvvəlində o Loqos, yəni Tarının əbədi Sözü, adlandırılır. Beləliklə burada İsa - Tanrıdır. Hətta məlumdur ki, Yəhya İncilindən Valentinususun ardıcılları daha da çox istifadə edirdilər[63].

Göründüyü kimi, bu İncildə yuxarıda göstərilən qnostik ideyalarla oxşarlıq çoxdur. Yəni uzaqlarda olan Ata, öz oğlunu (İsanı) yerə göndərir. İsanın mahiyyəti İlahidir, o adi insan deyil.

Lakin sonralar Kilsə xadimləri birinci üç İncillərdə olan İsanın insan obrazı ilə Yəhya İncilindəki İlahi obrazı arasındaki ziddiyyətləri həll etməyə cəhd etmişdi. Bu cəhdlərin nəticəsində, Kilsə Məclislərin qərarı ilə, İsanın həm insani, həm də İlahi mahiyyəti olduğu elan edildi.

Pavlusun məktublarında da qnostik fikirlərə yaxın ideyalara rast gəlmək olar. Orada İsa şər qüvvələrə qalib gəlmək üçün dünya üzərinə enib. Pavlusu İsanın insan təbiəti maraqlandırmırdı. Məsələn, onun Korinflilərə I məktubunda, qnostiklərdəki kimi, insanlar maddi, ruhi və mənəvilərə bölünürlər[64].

## Mitraizm

Qnostik inanca yaxın olan din Mitraizm olmuşdur. Mitraizm Roma imperiyasında Xristianlıqla bərabər yayılan və onunla rəqabət aparan İran mənşəli bir din idi. İran mənşəli qnostik təlimlər dünyanı Zülmətlə Nurun mübarizəsi kontekstində görürdülər və izah edirdilər[65].
Mitra arilərin[66] panteonunun tanrılarından biri idi. Yaxın Şərqdə bir çox xalqlar ona ibadət edirdi. Qədim arilər onu Səhər işığının Tanrısı adlandırırdılar. Onların inanclarına görə, Mitranın qüdrəti dünyada həyatın mövcudluğunu təmin edir. Daha sonra iranlılar inanırdılar ki, Mitranı xeyir tanrısı olan Ahura-Məzda yaradıb, və ona ibadət etmək vacibdir. Bu barədə «Avesta»da deyilir[67].

---

[63] Irenaeus. Adversus haereses I, 29.
[64] Korinflilərə 1-ci məktub 2: 11-16.
[65] Йонас Г. Гностицизм. СПб: Лань, 1998, гл. 3.
http://lalalu.narod.ru/text/gnost.htm
[66] Arilər - hind-fars mənşəli xalqların ümumiləşdirilmiş qədim adıdır.
[67] Mitr-Yaşt, 1.

E. ə. V-VI əsrlərdə Mitra inancı unudulmuşdu, lakin sonra bu kult yenidən bərpa olundu və İranda, Babilistanda, Pontda, Friqiyada, Kappadokiyada və başqa regionlarda yayıldı. Daha sonra Mitraya Romada da ibadət edirdilər.



**Mitra öküzü öldürür.**
**II əsr Roma heykəli**

Mitraistlər inanırdılar ki, Mitra zülmət qüvvələri ilə mübarizə aparır, insanlara xidmət etməyə gəlib. Eyni zamanda Mitra dünyanın yaradıcısıdır, lakin qnostiklərdən fərqli olaraq o Xeyrin təcəssümüdür.

Xristianlığın mitraizmlə bir sıra oxşar cəhətləri vardır. Məsələn, 274-cü ildən başlayaraq, hər ilin 25 dekabr günü, imperator Avrelianın əmri ilə günəş tanrısı Mitranın anadan olan günü kimi qeyd edilirdi. IV əsrdən başlayaraq bu günü İsanın anadan olan günü kimi qeyd etməyə başlamışdılar. Bu adət bizim zamanəmizə qədər davam edir.

Başqa bir misal kimi Mitra və İsanın xilaskar olmasını gətirmək olar. Onların hər ikisi də Tanrı ilə insanlar arasında olan vasitəçidirlər, onları yerə yollayan Atanın buyruqlarını yerinə yetirirlər. İsa kimi Mitra da axirətdə insanları mühakimə edəcək. Hətta Xristianlığın rəmzi olan xaç da mitraistlərin simvollarından biri olub. Onlar xaçı dairənin içində təsvir edirdilər. Mitraizmdə, Xristianlıqda olduğu kimi, bu dini qəbul edənlərin xaç suyuna salma mərasimi kesirilirdi. Bu barədə tanınmış xristian ilahiyyatçısı Tertulian da yazırdı[68].

## Manilik

[68] Tertullian. De baptismo, V, 1.
İngiliscə: Tertullian. On Baptism // Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume II. T&T Clark, Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1885.
http://www.ccel.org/fathers2/ANF-03/anf03-49.htm#P11466_3245563
Rusca: Тертуллиан. О крещении. Оригинальный текст, перевод на русский язык, комментарии - Издательская группа "Прогресс"-"Культура". Общая редакция и составление А.А.Столярова. Москва - 1994.
http://www.krotov.info/library/t/tertull/baptism.html#4-6

İran mənşəli qnostisizmlə daha bir dini-mistik təlim sıx bağlıdır. Söhbət manilikdən gedir. Bu sinkretik[69] dini təlimdə zərdüşti, xristian, buddist, caynist, yeni platoçu, qnostik ideyalarından və müxtəlif əsatirlərdən geniş istifadə edilmişdir. Maniliyi yaradan Mani adında bir iranlı olmuşdur. O, III əsrdə yaşamışdır. Mani Sasani dövlətində müxtəlif dini təlimlərlə tanış olaraq yeni ideyalarla çıxış etməyə başlamışdı. Eyni zamanda, rəvayətlərə görə, ona hansısa ruhdan vəhy gəlirdi. Bu səbəbdən, o özünü peyğəmbər elan etmişdi. Mani bir neçə kitab da yazmışdı: "Sirlər kitabı", "İncil" və s. Lakin onlardan bizim dövrümüzə qədər yalnız bəzi fraqmentlər çatıb. Onun İranda, Babilistanda, mərkəzi Asiyada və Çində çoxlu sayda tərəfdarları və ardıcılları var idi. Lakin zərdüşti kahinləri Maninin fəaliyyətindən razı qalmadılar. Onların təşəbbüsü ilə, təxminən 276-cı ildə, şahənşah Bəhramın şahlığı dövründə Mani vəhşicəsinə edam edildi. Onun diri-diri dərisini soymuşdular. Onun tərəfdarları isə şiddətli təqiblərə məruz qaldılar.

Bundan sonra müxtəlif dövrlərdə mani dini İranda (yeniləşmiş "məzdəki" formasında) və Çində müəyyən qədər öz ardıcıllarını tapmışdı. Lakin sonra mani dininin ardıcılları yenə də şiddətli təqiblərə məruz qalırdılar.

Çinin vasitəsilə manilik dini ilə uyğur türkləri tanış oldular və VIII əsrin sonunda bu din Uyğur xaqanlığının rəsmi dini elan edildi. Lakin bundan sonra bu dövlətdə başqa dinlərin nümayəndələrini təqib etməyə başladılar. Maniçilər onları şər qüvvələrin nümayəndələri adlandırdılar. Sonda maniçilərin fəaliyyəti Uyğur dövlətinin zəifləşməsinə səbəb oldu. Qırğızlar və çinlilər bu dövləti və uyğurların əksəriyyətini məhv etdilər. Sağ qalanlar isə mani dinindən imtina etdilər.

IV əsrdə manilik Roma imperiyasının ərazilərində də yayılmışdır. Lakin orada da onları təqib edirdilər. X-XI əsrlərdə isə bu din tarixi səhnədən tamamilə silinib, lakin onların bəzi azsaylı təriqətləri Mərkəzi Asiyada bu günə qədər qalmaqdadır. Bundan başqa, Mani ideyalarından pavlikanlar, albiqoylar və başqa orta əsr xristian təriqətləri istifadə edibdilər.

Maniçilər hesab edirdilər ki, dünya iki substansiyadan yaranıb. Biri Nur (Xeyir), digəri isə Zülmətdir (Şərdir). Əvvəlcə onlar bir-birindən ayrı idilər. Sonra isə Zülmət Nurun sahəsinə daxil oldu. Buna görə də bizim dünya yarandı. Beləliklə, mani dinində dünyanın yaranması böyük bir fəlakətdir.

---

[69] Sinkretika (yunanca "synkretismos") - müxtəlif dini və fəlsəfi ideyaların bir təlimdə birləşdirilməmiş formada mövcud olması.

Xeyir od, hava, işıq, su; Şər isə duman, tüstü, lil, tufan isti kimi ünsürlərdən ibarətdir. Xeyir məkanının başında Xeyir, Şər məkanının başında isə Şər tanrıları durur.

Xeyirlə Şər bir-biri ilə mübarizə aparırlar, ixtilafdadırlar. Onların məkanları əvvəllər bir-birindən ayrı idi, lakin sonra qarışıq baş verdi. Bunun nəticəsində İlahi substansiyanın (Nurun) hissəciklərini şeytanlar apardılar. Onlardan Şər tanrısı dünyanı yaradanda öz məqsədləri üçün istifadə etmişdi. Lakin Adəm və onun oğulları Nurun bu dünyada mövcud olması və onun qorunmasının zəruriliyi haqqında İlahi xəbər aldılar. Yəni əgər insanlar onların daxilindəki Nuru azad etsələr, onda kosmosda olan Nur substansiyası da azad olar və Xeyrin məkanına qayıdar. Beləliklə insan özünü dərk edərək, Şərdən azad olmağa can atmalıdır. Bunun üçün onun köməyinə Xeyrin təmsilçiləri gəlirdilər. Bu, Zərdüşt, Budda, İsa kimi adamlardır. Lakin bu silsilədə sonuncusu və ən əhəmiyyətli şəxs Manidir.



**Mani dininin ardıcılları. Şərqi Türküstanda məzarlıqda tapılan rəsmlər**

Maniçilər inanırdılar ki, zaman üç dövrə bölünür. “Birinci dövr”də iki birbirinə zidd olan qüvvə vardır. Bu Xeyr (Nur) və Şər (Zülmət)dir. Onların sahələri müxtəlifdir və onlar bir-biri ilə qarışmırlar. “İkinci dövr”də bu iki substansiya qarışır, Şər Xeyrin sahəsi-nə təcavüz edir. Nurun Atası buna cavab olaraq həyatın Anasını yara-dır. O isə, öz növbəsində ilk insanı yaradır. İlk insan arxontlarla (şər qüvvələrlə) mübarizə aparmağa başlayır, lakin məğlub olur və onların əsarətinə dü şür (materiya Şər qüvvələrin obyektidir). Onu xilas etmək üçün Ata həyatın Anası olan Ruhu (Loqosu) yaradır. O, arxontlara qalib gəlir və materiya tərəfindən mənimsənilmiş Nurun təmizlənməsi üçün Kosmosu yaradır. Günəş və Ay bu işdə ona köməkçi olurlar. Ay ölənlərin ruhlarını qəbul edir, sonra onları günəşə ötürür, sonra isə ruhlar Tanrıya doğru yönəlirlər.

Zamanın “üçüncü dövr”ündə Nur materiyanın əsarətindən azad olur. Xeyr Şərə qalib gəlir. Manilikdə insanlar zülmət (materiya) tərəfindən yaradılmış məxluqlardır. Onların ruhları (Nurun qığılcımları) bədənlərinin əsarətindədir.

Mani İsanın şəxsiyyətinə və roluna böyük önəm verirdi, ardıcıllarına özünü İsanın davamçısı kimi tanıdırdı. Lakin rəsmi Xristianlıqdan fərqli olaraq, onun ölümünü, dirilməsini, təcəssümünü, reallıqda olmasını rədd edirdi. Onları yalnız zahirən gözə görsənən hallar kimi qəbul edirdi.

Tanrıya baxışlarına gəldikdə, Mani Əhdi-Ətiqin Tanrısını Əhdi-Cədidin Tanrısına qarşı qoyurdu. O, hesab edirdi ki, Musa Nurun yox, Zülmətin elçisi idi. Buna görə o Əhdi-Ətiqi rədd edirdi.

Mani icması iki hissəyə bölünürdü: seçilmişlər və eşidənlər. Seçilmişlər kahinlər idi. Onlar evlənmirdilər, ət yemirdilər, işləmirdilər və yalnız ibadətlə məşğul idilər. Eşidənlər isə, seçilmişləri hər şeylə təmin etməli idilər. Onlar xilas oluna bilməzdilər. Eşidənlərə ailə qurmağa icazə verilirdi. Onlar ümid edirdilər ki, gələcək həyatda onlar seçilmiş kimi dünyaya gəlib xilas ola bilərlər.

Manilərə görə günah azad iradədən deyil, hər bir insanda olan şər qüvvə tərəfindən yaranır. Ruh və maddədən iki, bir-birinə zidd olan, qüvvə ayrılır və mübarizə aparır. Maddə bir şeyi istəyir, ruh isə başqa şeyi.

Maniçilər maddi dünyanın dağıdılmasını və məhv edilməsini zəruri hesab edirdilər. Buna görə onlar dövlətin və cəmiyyətin quruculuğu yolunda müsbət rol oynaya bilməzdilər. Bu səbəbdən də onlara ziyanlı bir təriqət kimi baxırdılar və hər yerdə təqib edirdilər.

Məşhur xristian teoloqu Avqustinus Avrelius əvvəllər mani dininin ardıcılı olmuşdur və xristianlığı qəbul edəndən sonra bu dinə qarşı bir neçə əsər yazmışdı. Eyni zamanda o, "Sekund maniçiyə qarşı" (Contra Sekundium Manichaum), "İmanın xeyri haqqında" (De utilitate credendi), "Katolik kilsənin quruluşu və maniçilərin adətləri haqqında" (De moribus Ealesiae Catolical et de moribus Manichaeorum) kitablarında maniçilər haqqında çox qiymətli və ətraflı məlumat vermişdir. Avqustinus öz əsərlərində onların arasında yayılmış əxlaqsızlıqlardan da yazırdı.

Bununla yanaşı, Avqustinus hətta xristian olandan sonra da maniçilərin bəzi fikirləri ilə öz həmrəyliyini göstərirdi. Bəzi əsərlərində (məsələn, "İlahi şəhər haqqında" kitabında) o, tarixi prosesin inkişafında Şər və Xeyrin əbədi qarşıdurması ideyası ilə çıxış edirdi.

Xristianlar mani dinini bir heretik xristian təriqəti hesab edirlər.

III FƏSİL

# APOLOGETLƏRİN FƏALİYYƏTİ DÖVRÜ

## Yunandilli apologetika

İlk apologetlərin fəaliyyəti II əsrin ortalarına təsadüf edilir. O dövrdə *Aristid* (Aristides) və *Kodrat* öz apologiyalarını[70] yazmışdırlar. Aristidin «Apologiyasının» bəzi fraqmentləri bizim zəmanəmizə qədər çatmışdır[71]. Bu mətnləri Aristid imperator Antoninus Pius (86-161) ünvanlamış və orada monoteizmdən[72], imanın əql üzərində üstünlüklərindən, dünya nizamının Tanrı tərəfindən qurulmasından və bəzi başqa mövzular haqqında söhbət açmışdır. Aristid bu məsələlərə münasibətdə Xristianlığın antik bütpərəstliyindən daha üstün olduğunu sübut etməyə çalışırdı. Gələcəkdə bu kimi fikirləri digər apologetlər təkrarlaşmış və inkişaf etdirmişdir.

Ən tanınmış apologetlərdən biri *Yustinus* (Justinus) olmuşdur. O, təxminən 100-cü ildə Suriyada dünyaya gəlmişdi, və 165-ci ildə vəfat etmişdi. Təxminən 30 yaşından sonra o Xristianlığı qəbul etdi və bundan sonra müxtəlif yerlərdə bütpərəst filosoflarla disputlar aparırdı. Romada olarkən bütpərəstlər ondan öz tanrılarına qurban kəsməyi tələb etmişdilər. O bundan imtina edəndən sonra, onlar tərəfindən edam edilmişdi.

Yustinus antik mədəniyyətə rəğbət bəsləyirdi, onun nailiyyətlərini tanıyırdı və onunla xristian ideyasını bir-birinə yaxınlaşdırmaq istəyirdi. Yustinusun dünyagörüşü nə stoiklərin, yeni platoçuların, yeni pifaqorçuların fəlsəfələri təsir etmişdi. Məsələn, öz «Apologiyasında» o, fəlsəfə haqqında belə yazırdı: «Xalqlar və hökmdarlar fəlsəfə ilə məşğul olmayana qədər, dövlətlər rifah içində olmayacaqlar»[73]. Lakin fəlsəfənin əhə-miyyətini qeyd edən Yustinus, onu Xristianlığın üstünlüyünün dərk edilməsi üçün istifadə etməyə çağırırdı. Fəlsəfənin verdiyi fikir azadlığı Xristianlığın xalq tərəfindən daha da yaxşı başa düşülüb, yayılması üçün lazımdır, çünki Yustinus üçün həqiqət artıq tam aydındır. Onu əqllə deyil, imanla qəbul etmək lazımdır.

---

70 Apologiya – xristian ehkamlarının tərifi üçün yazılmış əsərlərə deyilir. Eyni zamanda, apologiyalarda Xristianlığa qarşı tənqidlərə də cavab verilir.

71 Золотое слово Священного Предания. I-III век. Вып. 05. М.: Русская историко-филологическая школа "Слово", 2000, с. 6-23. http://aleteia.narod.ru/aristid/apologia.htm

72 Monoteizm (yunanca "mono" - bir, "Theos" - Tanrı deməkdir) – yalnız bir Tanrını yaradıcı və ibadətə layiq kimi qəbul edən əqidə, din. Monoteizmin əksi politeizm(yani, çox tanrılıq) adlanır.

73 Justinus. Apologia I, 3.

Yustinus yunan fəlsəfəsini, müdrikliyi inkar etmirdi, lakin onları Xristianlığa nisbətən ikinci dərəcəli hesab edirdi. Fəlsəfə yalnız hakim zümrələr və alimlər üçündürsə, Xristianlığı bütün xalq başa düşür, və onun verdiyi iman insanların qəlbində özünə yer tapır. Filosofların müxtəlif kitabları və məktəbləri olduğu halda, Xristianlığın yalnız bir mənbəyi var – o da Müqəddəs Kitabdır. Müdriklik insan məhsulu olduğu halda, din Tanrı tərəfindən nazil edilib. Yustinu-sun fikrincə bütün bu amillər xristian müdrikliyidir.



**Yustinus**

Daha sonra Yustinus, Xristianlığın yunan fəlsəfəsinə nisbətən, daha da çox həqiqətə yaxın olmasını, onun qədimliyində görürdü. Yəni Bibliyanın peyğəmbərləri yunan filosoflarından öncə yaşamışdırlar və onların İlahi müdrikliyi yunanlara təsir edə bilərdi.

Beləliklə Yustinus yunan dünyagörüşü və fəlsəfəsində çoxlu müsbət cəhətlər görürdü. Onun fikrincə, orada Xristian ehkamları ilə üst-üstə düşən, və bu ehkamları təkrarlayan ideyalar vardır, məsələn: Tanrının birliyi, ruhun ölməzliyi, talenin mövcud olması və bunlar kimi başqa ideyalar. Lakin, bu müsbət halları xatırlayaraq, Yustinus, onların köklərini yenə də Xristianlıqda görür. O deyir: «…hər hansı xeyirli söz bizə, xristianlara məxsusdur»[74]. Beləliklə Yustinus hesab edirdi ki, Plato və digər yunan müdriklərinin ən qiymətli və xristian monoteizmi ilə uyğun gələn fikirləri, əslində onlardan da öncə yaşayan Bibliya peyğəmbəri tərəfindən deyilib. Yunanlar isə o fikirlərlə tanış olub, onları mənimsəmişdilər.

Filon fəlsəfəsində olduğu kimi, Yustinus da antik fəlsəfənin Loqosunu Tanrı ilə dünya arasında olan bir vasitəçi kimi qəbul edir. Onun fikrincə, Atanı (Tanrını) əqllə dərk edib, dillə ifadə etmək mümkün deyil. Müqəddəs Kitabda hallanan adları isə (Ata, Rəbb, Yaradıcı və s.) onun siması və ya şəxsiyyətinə deyil, hərəkətlərinə və təcəllilərinə aid edilə bilər. Deməli Ata tamamilə transsendent olaraq, dünya ilə rabitəsini Loqos vasitəsi ilə həyata keçirir. Məhz bu Loqos onun Oğludur və dünyanın yaradılışından öncə doğulmuşdur. Filondan fərqli olaraq, Yustinus üçün Oğul – İsadır, və o,

---

[74] Justinus. Apologia II, 13.

əbədi olaraq Ata ilə vəhdət təşkil edirdi, sonra isə Ondan ayrıldı. Ayrılandan sonra, Atanın mahiyyətində və tamlığında heç bir əksiklik və yaxud başqa dəyişiklik baş verməmişdir. Bu proses, Yustinusun fikrincə, insan tərəfindən deyilən sözə, cümləyə bənzərdir[75]. Loqosun Atadan doğulması işığın bir məşəldən digərinə ötürülməsi kimidir. Yustinusun fikirləri bir çox hallarda VI əsrdə formalaşan ortodoksal xristian inancı ilə üst-üstə düşürdü. Lakin onun dövründə hələ heç bir rəsmi xristian ilahiyyatı yox idi.

Beləliklə Yustinus, yunan fəlsəfəsinin bəzi müddəalarının Xristianlıq tərəfindən mənimsənilməsi və həzm edilməsi ənənəsinə qədəm qoyan ilk mütəfəkkirlərdən biri olmuşdur. Sonra bu ənənə Klemens, Origenus, Laktantius və Boetsius tərəfindən davam etdirilmişdir.

Yustinusdan fərqli olaraq, Xristianlığın başqa bir məşhur apologeti *Tatian*[76] (125-175) kəskin surətdə yunan ənənəsi, mədəniyyəti və fəlsəfəsinə qarşı çıxış edirdi. O yazırdı: «Siz (bütpərəstlər) müdrikliyi hissələrə parçalamısınız və özünüzü əsl müdriklikdən məhrum etmisiniz. Siz Tanrını tanımırsınız. Bir-birinizlə mübahisə edərək özünüzü təkzib edirsiniz»[77]. Yunanların və Romalıların müdrikliyini rədd edərək Tatian onlara qarşı "barbarların müdrikliyini" ortalığa qoyur[78]. Onun fikrincə "barbarların müdrikliyi" öz sadəliyi, beynəlmiləlliyi, birliyi və əxlaqı ilə fərqlənir. Yunan və Roma filosoflarının təlimləri ilə həyat tərzləri və əməlləri arasında bir çox hallarda fərqlər var idi. Məsələn, Diogen acgözlülüyün ucbatından ölmüş, Aristip isə əxlaqsız həyat sürürmüş[79].

Ümumiyyətlə, Tatianın fikrincə, yunanlar hər bir müsbət şeyi başqa xalqlardan götürüb, sonra onları mənimsəyiblər, özlərinki hesab ediblər. Onlar əlifbanı finikiyalılardan, tarixi - misirlilərdən, münəccimliyi - babilistanlılardan götürüblər. Fəlsəfəni isə yunanlar yəhudilərdən alıblar,

---

[75] Justinus. Dialogus cum Tryphono Judaeo (Yəhudi Trifonla dialoq), 61.
İngiliscə: Philosopher and Martyr, with Trypho, a Jew
http://www.ccel.org/fathers2/ANF-01/anf01-48.htm#P4044_787343
Rusca: Диалог с Трифоном иудеем
http://www.krotov.info/acts/ 02/02/ius_trif.html

[76] Tatian təxminən 120 ildə Mesapotamiyada dünyaya gəlmişdi, Yustinusun tələbəsi olmuşdu.

[77] Tatian. Adversus graecos (Yunanlara ünvanlanmış söz), 25.
İngiliscə: Address of Tatian to the Greeks.
http://www.ccel.org/fathers2/ANF-02/anf02-37.htm#P1114_299739

[78] Romalılar və yunanlar hər bir yadelliyə "barbar" deyirdilər (yunanca – barbaros). Burada söhbət onlara yad olan yəhudi-xristian ənənsindən gedir.

[79] Tatian. Adversus graecos, 7.

sonra isə ona əlavələr ediblər. Lakin bu əlavələr əslində səhvlərdir, yanılmalardır. Nəticədə isə yunanların əlində fəlsəfə öz əsl mahiyyətini itirib[80].

Tatianın dünyagörüşü, ümumiyyətlə, Yustinusun dünyagörüşü kimi idi. O da, Tanrının birliyini, Loqosun (İsanın) Atadan doğulmasını qəbul edirdi. Trititanizm (Tanrının üç sifətdən ibarət olması) haqqında Tatian heç bir şey deməmişdi, çünki bu ideya onun zamanında hələ aktual məsələyə çevrilməmişdi.

Qeyd etmək lazımdır ki, antik mədəniyyəti rədd edən Tatian, bəzi hallarda ortodoksal Xristianlığa da zidd fikirlər səsləndirirdi. Məsələn, o hesab edirdi ki, insan ruhu bədənə bağlı olduğuna görə təbiətcə bu dünyanın məhsuludur. Ona görə də ruh bədənlə bir yerdə məhv olur. Hətta Tatian ruhu "zülmət" adlandırırdı[81]. Burada qnostiklərin təsiri hiss edilir. Eyni za-manda, onun fikrincə, ruhdan başqa insanın mə-nəviyyatı da vardır. Bu mənəviyyat insan təbiə-tinə daxil deyil, bir başa İlahinin lütfüdür.



***Tatian***

Daha sonra Tatian qiyamət günü və dir-çəlmə ideyalarını qəbul edərək, onları orto-dok-sal Xristianlıqdan fərqli tərzdə yozurdu. O, he-sab edirdi ki, Tanrı hər şeyi məhv edəndən sonra yenidən dünyalar yaradacaq və həyat yenidən davam edəcək. Sonra o dünyalar da məhv olub yeni dünyalar yaranacaq, və bu proses sonsuzlu-ğa qədər davam edəcək.

Bu cür fikirlərə görə Tatian rəsmi kilsə tərəfindən pislənmişdir və onu heretiklərin sırasına daxil etmişdirlər. Buna baxmayaraq, Tatianın apologetikada müstəsna rolu olub. Onun bir çox fikirləri gələcəkdə xristian filosofları tərəfindən qəbul edilib, inkişaf etdirilmişdir. Məsələn, Tatian düşünürdü ki, təbiət və insan təbiəti əslində şərdir və Tanrının lütfü olmasa, adamları ölümə aparır. Bu ideya sonralar *Avqustinusun* fəlsəfəsində mühüm yer tutacaq.

Daha bir tanınmış yunandilli apologet *Afinoqor* (Athenagoras) Xristianlığı qəbul etməmişdən öncə bir Afina filsofu olmuşdur. O II əsrdə yaşamışdır. O dövrdə Cənubi Qalliya və Afrika xristianları təqib olunurdu.

---

[80] Tatian. Adversus graecos, 7.
[81] Tatian. Adversus graecos, 13.

Xristianları ateizmdə, dövlət dinindən imtina etməsində, sui-qəsdlərin hazırlanmasında, kannibalizmdə və başqa cinayətlərdə ittiham edirdilər.

Bu səbəbdən Afinoqor imperator Markus Aureliusa «Legatio pro christianis» (Xristianlar üçün xahiş etmə) apologiyasını yazmışdı. Bu əsərdə o, platoçuların və stoiklərin ideyalarından istifadə edərək, xristianlara bəraət qazandırmaq istəyirdi və onlar tərəfindən heç bir cinayətin işlənilməməsini sübuta yetirdi.

İlk növbədə Afinaqor xristianların güya ateist olduğu ittihamlarını təkzib edirdi. O, imperatora çox sadə dildə izah edirdi ki, xristianların yalnız bir olan Tanrıya iman etməsi heç də ateizm demək deyil. Daha sonra Afinaqor, yunan fəlsəfəsi tarixi ilə müqayisələr apararaq Platonun, Aristotelin və digər mütəfəkkirlərin də monoteist olduğu haqqında fikir irəli sürmüşdür. Məhz buna görə Xristianlıqla bəzi yunan filosoflarının ideyaları arasında uyğunluq və bənzərlik vardır. Deməli onların mənbəyi birdir və monoteizmdən əmələ gəlmişdir. Bu isə o deməkdir ki, monoteizm daha da tərəqqipərvər bir əqidədir. Nəhayət Afinaqor, dahi yunanların monoteist ruhlu fikirlərinin hörmətlə qarşıladığı halda, nəyə görə xristianlar həmən fikirlərə sadiq qalmalarına görə təqiblərə məruz qalmalı və ateizmdə ittihamlandırılmalıdırlar suallarını verir.

Lakin bu sualları verərkən, Afinaqor, özündən öncəki apologetlərdən fərqli olaraq, yunanların qədim yəhudi peyğəmbərlərinin fikirlərinin alınması haqqında heç bir şey demir, realist mövqeyindən çıxış edir. Afinaqora görə Tanrının varlığı və birliyi fikri təbiət haqqında düşüncələrdən də irəli gələ bilər. Dünya bir gəmidir, onu idarə edən isə sükançıdır. Düşüncəli insan həmən o sükançının varlığını başa düşməlidir. Lakin insanların əksəriyyəti gəmini sükançı ilə səhv salırlar və Tanrının yaratdığı məxluqata ibadət edirlər. Bəzi bütpərəstlərin sükançının var olduğunu anlaması Yaradıcı və məxluqatın arasında olan təbii rəğbətin olduğuna görə baş verir. Onu Afinaqor "bədii alov" adlandırır[82].

Afinaqor imanı düşüncə ilə zənginləşdirilməsinin zəruriliyini anlayan və bu istiqamətdə bir çox addımlar atan mütəfəkkirlərdən biri olmuşdur. Onun fikirləri təxminən 150 ildən sonra qəbul ediləcək rəsmi xristian doktrinası ilə əksər hallarda üst-üstə düşürdü və kilsə tərəfindən qəbul edilmişdi.

[82] Athenagoras. Legatio pro christianis, 7.
İngiliscə: By Athenagoras the Athenian: Philosopher and Christian. http://www.ccel.org/fathers2/ANF-02/anf02-46.htm#P2139_587041

Tanınmış apologetlərdən biri də II əsrdə yaşayan Antioxiyanın yepiskopu olan *Teofilus* (Theophilus) olmuşdur. Onun əsli Mesopatamiyadan idi.

Teofilin dünyagörüşü Tatiana yaxın idi. Məsələn, o da hesab edirdi ki, yunanlar özlərinə aid edən hər bir yaxşı şeyi yəhudilərdən alıblar. Sonradan aldıqlarına yenilik gətirməklə onların mahiyyətlərini dəyişdiriblər[83]. Sonra Teofil xristianlara edilən ateizm ittihamları bütpərəstlərə qaytarır. İstər Epikur olsun, istərsə də Plato ya Sokrat, onların heç biri əsl imana arxalanmayıblar. Ona görə də onların müdrikliyi əslində aldadıcıdır. Çünki müdriklik imandan başlamalıdır. Bu fikri əsaslandırmaq üçün Teofil, «Avtolika ünvanlanmış üç kitab» adlı apologiyasında skeptik mövqedə duran Avtolik adlı bir bütpərəstə 3 sual verir: Hansı xəstə həkimə tabe olub, onun dediklərini icra etməsə, müalicə oluna bilər? Sükançıya tabe olmadan gəmidə üzmək mümkündürmü? Müəlliminin dediklərinə etibar etməyən adam alim ola bilərmi?[84].

İmana üstünlük verən Teofil əqli dəlilləri, sağlam düşüncəni də inkar etmir. O hesab edirdi ki, dünyanı müşahidə edən adamlar, Tanrının varlığını öz ağılları ilə dərk edə bilərlər. Məsələ bundardır ki, insan öz ruhunu görə bilməz. Onun haqqında biliyi, yalnız bədənin hərəkətini duyarkən, əldə edə bilər. Bunun kimi, Tanrını da gözlə görmək olmaz, lakin onun varlığını hiss etmək olar.

Teofilin fikrincə, çarları da insanların əksəriyyəti görmürlər, amma onların qanunlarını icra edirlər[85]. Öz əsərində Teofil bu cür analogiyaları çox gətirir və onun bəzi fikirləri gələcəkdə bir çox xristian teoloqları tərəfindən təkrar səslənmişdir.

## Qnostisizmlə mübarizə

II-III əsrlərdə xristian mütəfəkkirləri təkcə bütpərəstlərlə deyil, eyni zamanda öz sıralarında olan müxtəlif mistik təlimlərə qarşı mübarizə

---

[83] Theophilus. Ad Autolicum (Avtolika ünvanlanmış üç kitab), II, 12.
İngiliscə: Theophilus to Autolycus.
http://www.ccel.org/fathers2/ANF-02/anf02-42.htm#P1469_430289
[84] Theophilus. Ad Autolicum I, 8.
İngiliscə: http://www.ccel.org/fathers2/ANF-02/anf02-41.htm#P1399_405324
[85] Theophilus. Ad Autolicum I, 5-6.

aparmaq məcburiyyətində də qalmışdırlar. Bu təlimlərdən formalaşmada olan xristian ortodoksiyanın ən ciddi rəqibi qnostisizm idi.

Qnostik təlimlərə qarşı çıxış edən mütəfəkkirlərdən biri imperator Markus Aureliusun dövründə Lion şəhərinin yepiskopu olmuş *İrineus* (Irenaeus) olub. «Contra haereses» (Yereslərə qarşı) risaləsində, İrineus qnostik təlimlər haqqında kifayət qədər ətraflı məlumat verərək, onlara qarşı öz mülahizələri ilə çıxış etmişdir.

İrineus, Tanrının dərk edilməsindən və hər şeydən uca olmağından söhbət açaraq, qnostiklərin dünyanın yaradılışı ilə bağlı konsepsiyalarını rədd edirdi. O yazırdı ki, qnostiklərin dünyanın yaradılışı prosesinin təsəvvür edilməsi cəhdləri uğursuzluğa məhkumdur. Bunu sözlə ifadə etmək olmaz. Bu mövzu ilə bağlı, İrineus qnostiklərin alleqoriya və analogiyalara ifrat dərəcədə əl atmasını şiddətli tənqid edirdi.

Sonra İrineus qnostiklərin varlıq haqqında fikirlərini tənqidlərə məruz qoyub, rədd etmişdir. Belə ki, qnostik Valentinususa görə həqiqi varlıq Tanrını və onun emanasiyalarını (eonları) əhatə edən pleromadır. Maddi dünya isə, həqiqi varlıq deyil. Ona kenoma deyilir. Burada İrineusa görə ziddiyyət vardır. Çünki əgər pleroma əsl varlıqdırsa, o hər şeyi əhatə etməlidir. Deməli bu halda kenoma anlayışı üçün yer qalmır. Əksinə, kenoma pleromanı əhatə edirsə, onda, o əsl varlıqdır[86].



***İrineus***

İrineus qnostiklərin Tanrını şərin mövcud olmasına görə, məsuliyyət daşımasından qurtarmaq (teodiseya) cəhd-lərini də rədd edirdi. Məlum olduğu kimi, qnostiklərin təlimində Tanrı şəri yaratmamışdır, o eonların fəaliyyətinin nəticəsində dünyada mövcuddur; Tanrı isə yalnız xeyir işlərin yaradıcısıdır; O dünyanın işlərində iştirak etmir. İrineusa görə bu halda da ziddiyyət və məntiqsizlik yaranır. Məsələ bundadır ki, əgər kiçik eon (Demiurq) şər olan dünyanı Tanrının iradəsinə zidd olaraq yaradıbsa, onda deməli Tanrı qüdrətli deyil; əgər onun

[86] Irenaeus. Adversus haereses II, 1.
İnciliscə: http://www.ccel.org/fathers2/ANF-01/anf01-47.htm#TopOfPage
Ruıça: http://khazarzar.skeptik.net/books/irenaeus/ah/

iradəsi və icazəsi ilə yaradıbsa, onda o şər Tanrısıdır. Lakin qnostik teodiseyasını rədd edən İrineus, bu məsələ haqqında öz mövqeyini açıqlamamışdır. Ümumiyyətlə şərin təbiəti və Tanrının onun mövcud olmasına görə məsuliyyət daşıyıb daşımaması məsələsi Xristianlığın ən çətin problemlərinin birinə çevrilmişdir və onu son olaraq heç kim həll edə bilməmişdi.

Qnostik panteizmi rədd edən İrineus, kreasionizm pozisiyasından çıxış edirdi. Yəni təbiət Tanrı tərəfindən yaradılıb, qnostiklərin öyrətdiyi kimi, Onun emanasiyası deyil. Təbiət ahəngdədir və gözəldir. İnsanı isə bədbəxt edən onun öz iradəsidir. Onun bədəni heç də şər deyil, çünki onu Tanrı öz surətinə bənzər yaradıb. İnsanın əsl varlığını təmin edən amil təkcə ruh deyil, həm də bədəndir. Ruh bədənə həyat verir və həyat olaraq ölməzdir. Şüur isə ruhun təbii xüsusiyyətidir[87].

İrineusa görə insan kamil məxluq deyil və həqiqətə özbaşına çata bilməz. Özünə arxalanan insan, qnostiklər kimi, həqiqətə çata bilməz. Həqiqi bilik və əqidə əvəzinə ibtidai fantaziyalarının əsirinə çevrilər. Həqiqəti isə Tanrının özü kilsə vasitəsi ilə insanlara çatdırır. Buna görə həqiqi biliyə gətirən yeganə yol imandan başlayıb, sonra isə kilsədən keçir[88]. Bu konsepsiya bu günə qədər rəsmi xristian kilsəsi tərəfindən dəstəklənilir. Beləliklə, İrineusa görə, həqiqi bilik (qnosis) İsanın həvarilərinin təlimidir[89].

Antik fəlsəfəni çox yaxşı bilən, İrineusun tələbəsi olan, III əsrdə yaşayan, Roma presviteri[90] olan Hippolitus də qnostiklərə qarşı çıxış etmişdi. «Philosophumena kata pason haireseon elenchus» (Bütün hereslərin təkzib edilməsi) adlı əsərində Hippolitus qnostisizmin mənbəyinin İlahi vəhy deyil, bütpərəst mifologiyasının olduğunu sübut etməyə çalışmışdır. Onun fikrincə, hətta qnostik təlimlərinin əsasını bütpərəst fəlsəfələrdən çox mövhumatlar təşkil edir. Ona görə də Hippolitus bu təlimlərin şübhəli olması və həqiqətə uyğun olmaması qənaətinə gəlir. Bütpərəst fəlsəfəsinin bütün müsbət cəhətləri isə qnostisizmə deyil, xristian kilsəsinin təliminə uyğundur. Sonda isə Hippolitus qnostiklərin xristianları na danlıqda ittiham etməsinin heç bir əsasının olmadığı qənaətinə gəlir.

Bütün yuxarıda göstərilən fikirləri əsaslandırıb sübuta yetirmək üçün Hippolitus, əsərlərində müxtəlif fəlsəfi təlimlərin, mövhumatların və miflərin

---

[87] Irenaeus. Adversus haereses II, 19.
Rusca: http://khazarzar.skeptik.net/books/irenaeus/ah/

[88] Irenaeus. Adversus haereses IV, 38.

[89] Irenaeus. Adversus haereses IV, 33.

[90] Presviter (yunanca "presbyteros" ağsaqqal deməkdir) – ortodoks (pravoslav) və katolik kilsələrində keşiş vəzifəsini icra edən adam.

tarixi haqqında çox qiymətli məlumatlar verir. Bu məlumatlar bir çox hallarda müasir zamanda antik fəlsəfə tarixinə aid olan yeganə informasiya mənbəyidir.

Hippolitus öz əsərində Plato fəlsəfəsinin bir çox müddəaları ilə razılaşır, lakin onun kosmoqoniyasını, ruhların köçməsi inancını, Tanrı ilə materiyanın əzəldən mövcud olması ideyasını rədd edir[91]. Hippolitusun qənaətinə görə, Plato fəlsəfəsi Xristianlığa daha yaxındır. Aristotelin fəlsəfəsində isə Xristianlığa yaxın olan müddə-alar Plato fəlsəfəsi ilə müqayisədə bir qədər azdır.


**Hippolitus**

Bütpərəst filosofları Hippolitus üç hissəyə bölür:

1. Fizioloqlar (naturfilosoflar). Bu kateqoriyaya Sokratdan əvvəl yaşamış filosoflar aid edilir.

2. Etoloqlar (əxlaqçılar). Plato və Sokrat-la təmsil olunurlar.

3. Dialektiklər (məntiqçilər). Bu kateqoriyaya Aristotel və stoiklər daxildirlər.

Hippolitusun fikrincə skepsisizm və epikurçuluq fəlsəfəsi Xristianlığa zidd olan təlimlərdir və onları yuxarıda göstərilən heç bir kateqoriyaya aid etməmişdir.

Beləliklə, filosofların klassifikasiyasını verəndən sonra, Hippolitus yazırdı ki, qnostik təlimlərdə bir az fəlsəfə varsa da, o qədim filosoflardan alınıb, və sonra mövhumatlarla qarışdırılıb. Bunu sübut etmək üçün, «Philosophumena kata pason haireseon elenchus» kitabının dördüncü hissəsində Hippolitus, onun zamanında yayılmış mövhumatlar haqqında məlumat verir və magiya[92], astrologiya[93], nekromantiya[94] kimi yalançı

---

[91] Hippolytus. Philosophumena kata pason haireseon elenchus (Bütün hereslərin təkzib edilməsi) IV, 3. Bu kitab latın dilində «Refutatio omnium haeresium» adlanır. İngiliscə:
http://www.ccel.org/fathers2/ANF-05/anf05-10.htm#P1395_390918

[92] Magiya (yunanca "mageia") – insanın təbiət proseslərinə müdaxilə etməyin mümkünlüyü inancından irəli gələn sehrbazlıq, cadugərlıq, ovsunçuluq əməllərinə və bunlarla bağlı ayinlərə deyilir. Magiya ilə məşğul olanlar onu "ağ" və "qaraya" bölürlər. Ağ magiya tərəfdarları onun İlahi qüvvələr tərəfindən dəstəklənməsi və

elmləri rədd edərək, qnostik təlimlərinin onlarla bənzər cəhətlərini vurğulayır. Nəticədə o yazır ki, qnostiklər öz ideyalarını bu mövhumatlardan alıblar.

Kitabının onuncu hissəsində isə Hippolitus "bütün hereslərə" qarşı öz dünyagörüşünü izah edir. İsanın təbiətinin (xristologiyanın) izah edilməsinə çox yer verir və burada o, subordionalizm (yəni Loqosun ataya tabe olması) prinsipinə üstünlük verir.

Hippolitusun dünyagörüşü sinkretik olmuşdur. Onun kosmoloji[95] baxışlarında stoisizm fəlsəfəsinin elementləri müşahidə edilir. Onun fikrincə, dünya heç nədən Tanrı tərəfindən yaradılıbsa da, o bir bədənə bənzəyir. Əvvəlcə 4 substansiya yaradılmışdır: yer, su, hava və od. Onlar əbədidir və məhvedilməzdir. Sonra isə onlardan dünyada hər bir şey yaranmışdır. O şeylər məhvə və ölümə məruz qalır. Substansiya nöqteyi-nəzərindən ən sadə məxluqlar – oddan yaranan mələklərdir. İnsan ruhu od və havadan ibarətdir, bədəni isə torpaq və sudan[96]. Hippolitus bu cür eklektik fikirləri, III əsrdə xristian ideoloqlarının bütpərəst fəlsəfəsinin müddəalarından istifadə etməsinin göstəricisidir.

## İsgəndəriyyə ilahiyyat məktəbi

---

xeyrə yönəlməsini iddia edirlər. Qara magiya isə şeytanlar tərəfindən dəstəklənir və onunla məşğul olan adamlar şər işlər törədirlər. Monoteist dinlərində (o cümlədən Xristianlıqda) həm "ağ", "həm də "qara" magiya ilə məşğul olmaq qadağandır və bu işlə məşğul olanlar böyük günahkar hesab olunurlar.

93 Astrologiya (yunanca "astron" - ulduz, "loqos" isə - söz, anlayış, təlim deməkdir) – Kosmik cisimlərin (ulduzların, planetlərin) düzülüşünə görə insan taleyi haqqında qabaqcadan xəbər əldə etmənin mümkünlüyünü iddia edən və bu sahəni tədqiq edən elm. Monoteist dinlərində (o cümlədən Xristianlıqda) bu elm fala baxmanın bir növü kimi qiymətləndirilir. Bu dinlərdə astrologiya ilə məşğul olmaq qadağandır və bu işlə məşğul olanlar böyük günahkar hesab olunurlar. Müasir pozitiv dünyagörüşündə isə astrologiya elm sayılmır, mövhumatla bərabər tutulur.

94 Nekromantiya (yunanca nekros – "ölü" deməkdir) – ölüm halına daxil olma,bu haldan çıxma, ölülərlə ünsiyyət bağlama praktikasıdır. Bu termini bütpərəstlərin tanrılarına qurban kəsilmiş heyvanların içalatı ilə fala baxmaq mənasında da işlədirlər

94 Hippolytus. Philosophumena kata pason haireseon elenchus X, 32. İngiliscə: http://www.ccel.org/fathers2/ANF-05/anf05-14.htm#P2309_744389

95 Kosmologiya – qədim yunanların dünyanın quruluşu haqqında təsəvvürləri.

96 Hippolytus. Philosophumena kata pason haireseon elenchus X, 32.

Xristianlığın formalaşmasında apologetlər çox əhəiyyətli fəaliyyət göstərmişdirlər. Lakin o dövrdə Xristianlıq hələ sistemləşmiş bir təlim halına gəlməmişdi. Bütpərəst fəlsəfi doktrinalarda mübarizə aparmaq üçün isə fundamental, sistemləşmiş və hərtərəfli bir nəzəriyyə yaratmaq lazım idi. Ona görə də, bir neçə xristian mütəfəkkiri bu çətin işlə məşğul olmuşdur. Bu işdə ən böyük nailiyyətləri İsgəndəriyyədə II əsrdə təsis edilən ilahiyyat məktəbinin nümayəndələri əldə etmişdirlər. Bu məktəb Xristianlığın əsasları ilə tanış olmaq və onu qəbul etmək istəyənlər üçün açılmışdır. Eyni zamanda bu məktəb ən savadlı təbəqələrin xristian təliminə marağı oyatmaq istəyirdi. Lakin bunun üçün təkcə dini ehkamların tədrisi kifayət etməzdi. Ona görə də burada fəlsəfi fəndlərə də böyük əhəmiyyət verilirdi. Dini ehkamlarla antik mədəni və fəlsəfi irsin bir-birinə yaxınlaşması, uyğunlaşması siyasəti aparılırdı. Burada çalışan alimlər bu yaxınlaşmaya nail olmayaraq Xristianlığın yayılmasının mümkün olmamasını anlayırdılar və bu istiqamətdə məqsədyönlü iş aparırdılar.

179-cu ildən İsgəndəriyyə məktəbinə Panten başçılıq etməyə başlamışdı. O keçmişdə stoik olmuşdu. O fəlsəfəyə daha da çox önəm verirdi. Lakin Pantenin əsərləri bizim zəmanəmizə çatmamışdı. Buna baxmayaraq, İsgəndəriyyə ilahiyyat məktəbinin digər məşhur nümayəndələri - Klemensin və Origenusun dünyagörüşləri bu gün yaxşı məlumdur.

### *İsgəndəriyyəli Klemens (Clemens Alexandrinus)*

İsgəndəriyyə ilahiyyat məktəbinin ən görkəmli nümayəndələrindən biri Klemens (150-215) olmuşdur. OnunXristianlığı qəbul etdiyi tarix məlum deyil. Lakin məlumdur ki, o Pantenin tələbəsi, sonra isə onun köməkçisi olmuşdur. Sonra o presviter vəzifəsinə təyin edilmiş, və 190-cı ildə İsgəndəriyyə məktəbinə başçılıq etməyə başlamışdır. III əsrin əvvəllərində imperator Septimius Severusun çarlığı dövründə xristianlar dini etiqadlarına görə təqib edildiyi zaman, Klemens İsgəndəriyyəni tərk etmişdir.

Klemens zamanəsinin ən savadlı adamlarından biri olmuşdur. Onun tərəfindən üç hissədən ibarət xristian ensiklopediyasına bənzər bir əsər yazılmışdır. Birinci hissə «Protrepticus» (Ellinlərə nəsihət vermə), ikinci – «Paedagogus» (Pedaqoq), üçüncü – «Stromata» (Rəngli xalçalər) adlanır.

Bu əsərlərdən məlum olur ki, Klemens təkcə apologetika ilə məhdudlaşmırdı. O eyni zamanda missioner idi. Xristianlığı yaymaq üçün isə o, bu dini yunan və roma xalqlarının düşüncə tərzlərinə və elmi ənənəsinə uyğunlaşdırmalı idi. Nəticədə, Klemens, kompromislərə gedərək Xristianlığı "fəlsəfələşdirməli", fəlsəfəni isə "xristianlaşdırmalı" idi. Bu məqsədə nail olmaq üçün, Klemens bir tərəfdən fəlsəfənin fəzilətindən danışaraq, biliyin

maarifsiz, korkoranə dindən üstünlüyündən söhbət açmışdır. Digər tərəfdən isə o, fəlsəfənin rolunu dinə qulluq etməkdə görərək, ilk dəfə olaraq "fəlsəfə – dinin qulluqçusudur" prinsipini ifadə etmişdir[97]. Bununla Klemens biliyi imanın çərçivəsi ilə məhdudlaşdırmışdır. Yəni fəlsəfi bilik, dini ehkamların əql nöqteyinəzərindən əsaslandırılması üçün istifadə edilməlidir.

Biliyin rolunu yüksək qiymətləndirən Kle-mens, ilk dəfə olaraq, onun dini ehkamlarla və imanla uyğunlaşması, onların arasındakı ziddi-yətlərin ortadan qaldırılmasının vacibliyini vurğu-lamışdır. Bundan sonra, iman-bilik münasibətləri problemi orta əsr fəlsəfəsinin ən mürəkkəb prob-lemlərindən birinə çevrilmişdi. Bu məsələyə münasi-bətdə bir çox xristianlar, imanın olduğu halda bi-liyin lazım olmaması iddiasına düşdülər. Qnostiklər isə buna əks mövqedən çıxış etmişdirlər. Onlar hesab edirdilər ki, xüsusi biliyə (qnosisə) və fəlsəfəyə çatan adam üçün iman lazım deyil.



Klemens bunların arasında orta mövqeyi tuturdu. Biliklə imanın bir-birinə zidd olmaması fikrini irəli sürürdü. İman əqli məntiqi metodlarla əsaslandırıla bilər, bilik isə imansız öz ruhunu itirir. Buna görə də əsl fəlsəfəni yalnış fəlsəfədən (sofistikadan[98]) fərqləndirmək lazımdır[99]. Əsl fəlsəfə, Klemensin fikrincə, insanlara Tanrı və dünya arasında münasibətlərin qurulması yollarını göstərir, müdrikliyi və xeyri öyrədir[100].

Əsl fəlsəfə birdir. Lakin ona doğru gedən yollar müxtəlifdir. Onlardan ikisi daha əhəmiyyətlidir. Biri "barbarların" (yəni yəhudilərin), digəri isə yunanların fəlsəfəsidir. Yəhudi xalqına əsl fəlsəfə (yəni Əhdi-Ətiq Tanrısı haqqında bilik) peyğəmbərlər vasitəsi ilə açılıb. Yunanlar isə fəlsəfəni öz düşüncələri ilə əldə etsələr də, onda bir İlahi həqiqətlər vardır. Onlar İlahi həqiqətə təbii yolla çatmaq istəyirdilər. Yunanların, fəlsəfədə başqa xalqlardan daha çox nailiyyətlər əldə etməsi, onların, yəhudilər kimi, İlahi tərəfindən seçilmiş bir xalq olduğunun göstəricisidir.

---

[97] Clemens Alexandrinus. Stromata I, 5.
İngiliscə: http://www.ccel.org/fathers2/ANF-02/anf02-57.htm#P4831_1447881

[98] Sofistika (yunanca "sophistike" biclik işlədərək mübahisə aparmaq deməkdir) Məntiq qanunlarını bilərəkdən pozulmasının və yanlış dələllər əsasında qurulmuş fikir.

[99] Clemens Alexandrinus. Stromata I, 3.

[100] Clemens Alexandrinus. Stromata II, 41.
İngiliscə: http://www.ccel.org/fathers2/ANF-02/anf02-59.htm#TopOfPage

Yəhudilər üçün Tövrat nədirsə, Yunanlar üçün də fəlsəfə odur. Fəlsəfənin və Tövratın mənbəyi birdir. Bu Loqosdur. O, yəhudilərə birbaşa vəhylə açılıb, yunanlara isə təbii qanunları əqllə təhlil və tədqiq etməsi yolu ilə[101]. Lakin, Klemensin fikrincə, ən gözəl və dəyərli şeyləri yunanlar yəhudilərdən alıblar.

Beləliklə yunan fəlsəfəsi Xristianlığa aparan bir yoldur və hörmətə layiqdir. Hər bir fəlsəfədə həqiqətin zərrəcikləri vardır. Lakin bütövlükdə həqiqət yalnız Xristianlıqda əks olunmuşdir. Elmlər sonda fəlsəfə ilə, fəlsəfə isə ilahiyyatla tamamlanır. İlahiyyat ən yüksək məqamdır və əsl həqiqətdir[102]. Başqa elmlərin dəyəri onların ilahiyyata münasibətindən asılıdır. Başqa elmləri və fəlsəfəni bilmədən, yaxşı ilahiyyatçı olmaq olmaz. Eyni zamanda, hər bir xristian üçün fəlsəfə ilə məşğul olmaq vacib deyil. Bu dünyada və axirətdə xilas olmaq üçün, Tanrıya iman etmək və xristian dininin müddəalarını qəbul etmək kifayətdir. Bununla Klemens qnostiklərin ideyalarını rədd edirdi. Məlum olduğu kimi, qnostiklər hesab edirdilər ki, yalnız xüsusi biliklərə (qnosisə) malik olan adamlar xilas ola bilərlər[103]. Onların dediklərinə görə, adi xristian möminləri məhv olacaqlar.

Qnostiklərin ideyalarını rədd edən Klemens, imanın idrak prosesinin nəticəsində əmələ gəlməsi haqqında çox maraqlı bir fikir irəli sürmüşdür. Hər bir bilikdə imanın elementləri vardır. Çünki ifadə edilən hər bir şeyin dəlilini, sonra isə onun əsasında qurulan başqa mülahizələri sübuta yetirmək mümkün deyil. Bu halda dəlil axtarma silsiləsini sonsuzluğa qədər davam etmək lazım olardı. Buna görə də hər bir adam öz mübahisələrində dəlili öncələyən bir şeyə arxalanır. Bu hissiyyat, fərziyyə, hamı tərəfindən bəyənilən rəy, hörmətli adamın fikri ola bilər. Bu isə artıq iman deməkdir. Yəni, hissiyyatına arxalananda hər bir adam özünə, fərziyyəyə arxalananda bu fərziyyənin həqiqət olduğuna, cəmiyyət tərəfindən qəbul olunmuş rəyə arxalananda, bu cəmiyyətdə qəbul olunmuş fikrin həqiqət olmasına, ağsaqqalların rəyinə arxalananda isə onun fikrinin məqsəduyğunluğuna inanır və bunun əsasında öz dəlillərini qurur.

Bu əsaslar insanın mülahizələrinin bünövrəsini təşkil edir. Bu bünövrənin möhkəmliyi, etibarlılığı onun üzərində qurulmuş mülahizənin nəticəsini həll edir. Əgər bu bünövrə zəif və yanlışdırsa, onda mülahizə, hətta formal məntiq qanunlarına uyğun şəkildə aparılsa belə, yalnış

[101] Clemens Alexandrinus. Stromata VI, 5,8. İngilis dilinə tərcüməsi burada yerləşir: http://www.ccel.org/fathers2/ANF-02/anf02-67.htm#P8215_2366146
[102] Clemens Alexandrinus. Stromata VI, 2.
[103] Mattanın İncili, 10: 26; 13: 11; 20: 16.

nəticələrə gətirəcək. Öz növbəsində biliyə arxalanmayan iman, üstündə bina tikilməmiş bir bünövrəyə bənzəyir[104] (Str. VIII, 3). Ona görə də, imanla bilik bir vəhdət təşkil edir.

Sonda, imanla biliyin münasibətləri problemini yekunlaşdıran Klemens, xristian qnostisizminin əslində intellektual (əqlə) don geydirilmiş bir iman olduğu qənaətinə gəlir. Bununla o, qnostiklərlə, onları şiddətli tənqid atəşinə tutmuş xristian xadimləri arasında orta və barışdırıcı mövqedə durmuşdur. Ümumiyyətlə bilik və imanın bir-biri ilə ahəngdə olması ideyasını ilk dəfə Klemens irəli sürmüşdü. Gələcəkdə isə bu fikri Avqustinus, Anselm, Tomas (Foma) və başqa mütəfəkkirlər təkrarlamışdırlar və inkişaf etdirmişdirlər.

Klemensə görə İlahi vəhyi daha da aydın başa düşmək üçün Müqəddəs Kitabı yozmaq lazımdır. Yozmada alleqoriyalardan və təvillərdən də istifadə etmək olar, lakin burada ifrata varmaq olmaz.

Tanrı haqqında düşüncədə Klemens apofatik (mənfi) ilahiyyatın tərəfdarı idi. Onun fikrincə insan anlayışlarını Ona aid etmək olmaz, çünki Tanrını sözlə ifadə etmək mümkün deyildir. Lakin demək olmaz ki, o katafatik ilahiyyatı tam olaraq inkar edirdi, çünki Tanrının birliyi, ədaləti və başqa xüsusiyyətləri dillə ifadə edilə bilər. Amma onu yaddan çıxarmaq olmaz ki, bu sözlər onun əsl mahiyyətini açmır və buna görə də katafatik düşüncədə ifrata varma, insanı antropomorfizmə və panteizmə gətirə bilər. Beləliklə, Tanrı haqqında düşüncədə apofatik yolu tutmaqdır. Yəni Tanrını heç bir sözlə və anlayışla dərk etmək olmaz, o hər şeydən ucadır. Hər hansı bir şeydən düşünən insan bilməlidir ki, onu Tanrıya aid etmək olmaz. Beləliklə hər bir anlayışı inkar edərək Tanrı haqqında onu demək olar ki, O, zaman, məkan kimi düşünülən şeylər anlayışlarına sığa bilməz.

### *İsgəndəriyyəli Origenus*

---

[104] Clemens Alexandrinus. Stromata VIII, 2. İngilis dilinə tərcüməsi burada yerləşir: http://www.ccel.org/fathers2/ANF-02/anf02-71.htm#P9832_2772350



Origenus (185-254) Misirdə xristian ailəsində anadan olmuşdur. Yetkinlik yaşına çatandan sonra Origenus, neoplatonizm məktəbinin banisi Ammonius Sakkasın tələbəsi olmuşdur[105]. Sonra Origenus, Klemensin başçılıq etdiyi İsgəndəriyyə ilahiyyat məktəbində təhsilini davam etdirmişdi. O bir çoxlu kitab müəllifi olmuşdur. Origenusun ən tanınmış kitabları: «De principiis» (Başlanğıclar haqqında), «Contra Celsum» (Selsin əleyhinə) kitablarıdır.

Origenus ilk dəfə xristian təliminin və dünyagörüşünün sistemləşdirilməsi işinə başlamışdır. Bu məqsədlə o, xristian ehkamlarının rasionallaşdırılması məqsədi ilə, dini mətnləri və müddəaları yunan fəlsəfəsinin terminləri ilə ifadə etməyə başlamışdı. Bunun üçün Origenus, xristian ehkamlarını sərbəst yozmalara məruz qoymuşdur. Nəticədə, o hesab edirdi ki, düzgün başa düşülən Bibliya sağlam fəlsəfəyə mane olmur, düzgün tətbiq edilmiş fəlsəfə isə Bibliyaya ziyan vurmur[106].

Origenusun fikrincə Bibliyada bütün fəlsəfi suallara cavablar tapmaq mümkündür. Lakin Müqəddəs Kitabı düzgün başa düşmək üçün onu yozmaq lazımdır, çünki orada hallanan sözlər və cümlələr şeylərin yalnız zahiri xüsusiyyətlərindən xəbər verir, halbuki, onların əsl mahiyyəti batindədir. Yozmalardan, alleqoriyalardan, təvillərdən həddən çox istifadə edən Origenus, bəzi hallarda ifrata varırdı. Bu səbəbdən xristian kilsə xadimləri onu pisləmişdilər.

Origenus Tanrı ilə, Loqosla, ruhla bağlı problemlərə nəzər yetirirdi. O hesab edirdi ki, Tanrı eyni zamanda həm monada[107], həm də henadadır[108]. Hər bir varlığın, düşüncənin səbəbi olan Tanrı, varlığın düşüncə və mahiyyət anlayışlarına sığa bilməz, onlardan ucadır. Bu səbəbdən O dərkolunmazdır. Burada Origenus yeni platoçuların fikirlərinə çox yaxınlaşırdı.

Lakin, Tanrının bəzi xüsusiyyətlərindən məxluqa doğru analogiyalar apararaq və Tanrı anlayışına zidd olan bütün şeyləri inkar edərək, fikir irəli sürmək olar. Belə ki, bənzərsiz, sadə və bölünməz olan Tanrının cismi ola

---

[105] Məşhur neoplatonçu filosof Plotinus da Ammonius Sakkasın tələbəsi olmuşdur.

[106] Origenus. Contra Celsum VI. İngilis dilinə tərcüməsi burada yerləşir: http://www.newadvent.org/fathers/04166.htm

[107] Yəni yeganə və tək olan varlıq.

[108] Henada (yunanca “henas”) - bənzəri olmayan Vahiddir.

bilməz, çünki cism olan hər bir şey mürəkkəbdir və bölünməyə məruz qalır. Maddə olan hər bir şey dəyişir. Dəyişmə isə bəzi xüsusiyyətlərin zəifləyib ortadan çıxmasına və onların əvəzinə başqa xüsusiyyətlərin əmələ gəlməsinə səbəb olur. Bu isə bəzi xüsusiyyətlərin kamil olmaması, onların natamam olması ilə nəticələnir. Bütün bunlar Tanrıya aid edilə bilməz. Deməli Tanrı bir monada olaraq mütləq kamillikdirsə, o maddə və ya cism ola bilməz. Buna görə də Origenus, Tanrının, özünü düşünən bir pak düşüncə olması qənaətinə gəlir[109]. Bu fikrin mənşəyi neoplatonizmdən gələrək Xristianlıqda platoçu ideyaların güclənməsinə gətirib çıxarmışdır.

Origenusun Loqos haqqında baxışları da xüsusi maraq doğurur. O, Tanrını dünya çərçivəsindən çıxardaraq, fani aləmdən sonsuz uzaqlaşdırırdı. Yəni Tanrı dünyaya transendent bir varlıq kimi düşünülürdü. Lakin O, maddi dünyanı qayğısız qoymamışdır və bura öz Oğlunu yollamışdır. Bu Oğul – Loqosdur (Xristosdur).

Loqos Tanrıdan doğulan həyatdır, varlıqdır, təfəkkürdür. Onun doğulmasının başlanğıcı yoxdur, o Ata kimi əbədidir, zamandan kənardadır. Lakin Loqosun dərəcəsi Atadan daha kiçikdir, çünki o, Onun nəticəsi, enerjisi, surətidir. Bütün bu ideyalara neoplatonizmdə də rast gəlmək olar.

Origenusun kosmoqonik görüşləri kreasionizmə əsaslanır. Dünya Tanrı tərəfindən heç nədən yaradılıb. O yaradandırsa, onun yaradıcılığı əbədidir. Əgər Tanrı haçansa heç nə yaratmasaydı, onda O, Yaradan olmazdı. Əgər haçansa məxluq olmasaydı, onda Tanrı qüdrətinin tətbiq obyekti olmazdı və Onun Yaradıcı keyfiyyəti reallaşmazdı. Dünya Tanrı kimi əbədi olmasa da, Onun zaman nöqteyi-nəzərindən əvvəli və axırı yoxdur.

Lakin bu halda Origenusun kosmoqoniyası Xristianlığın dünyanın Tanrı tərəfindən yaradılması və məhv edilməsi ideyası ilə uyğunlaşmırdı. Bu ziddiyyəti həll etmək üçün Origenus əbədi yaradılış və dünyaların çoxluğu fikrini ortalığa atdı. Yəni bizim dünyanı Tanrı həqiqətən müəyyən zaman yaradıb, məhv edəcək. Lakin Onun yaradıcılığı yalnız bununla bitmir. Dünya bizim dünyamızdan da öncə olub, onun məhvindən sonra yenə də yaradılacaq. Dünyalar çoxdur, onlar biri-birini əvəz edərək mövcuddurlar. Origenusun fikrincə, eyni zamanda iki dünya mövcud ola bilməz və müxtəlif

[109] Origenus. De principiis, prolog 9. İngilis dilinə tərcüməsi burada yerləşir: http://www.newadvent.org/fathers//04120.htm

dünyalar bir-birinin təkrarı deyillər[110]. Origenusun dünyaların çoxluğu ideyası stoisizm fəlsəfəsində də vardır.

Origenus Tanrının qüdrətini də bir qədər məhdudlaşdırırdı. Məsələn o deyirdi ki, Tanrı ziddiyyətli, nizamsız, ədalətsiz şeylərin yaradıcısı ola bilməz. Bunlar onun kamilliyi ilə bir araya sığmır.

Onun ruhlar haqqında fikirləri də maraqlıdır. Dünyalar yaranıb, məhv olurlar. Ruhlar isə ölməzdir. Onlar maddi dünyadan öncə yaradılıb, sonra isə onlar üçün dünyalar yaradılıb. Bu ruhların arasında İsanın da ruhu var idi. Yaradılandan sonra, ruhlar Tanrının yanında olublar və bu yaxınlıqdan həzz alırdılar. Maraqlısı budur ki, Origenusa görə, ruhlar azad iradəyə malik idilər. Bundan istifadə edərək, onlar Tanrıdan ayrılmaq istədilər. Bunu bilən Tanrı, ruhları cəzalandıraraq, maddi dünya yaratdı və onları bədənlərə saldı. Bu andan da dünyaların və ruhların dövran etməsi başlamışdı[111]. Deməli maddi dünyalar, ruhi dünyanın əlavəsidir. Ora düşmüş ruhlar islah olunurlar və yenidən öz normal halına qayıdırlar. Dünyalarda ruhlar istirablar keçirir. Bu istirablar, onların Tanrıdan razı qalmamalarına görə verilən cəzadır. Lakin sonda mərhəmətli olan Tanrı onları xilas edəcək. Bütün ruhlar, o cümlədən İblisin ruhu da, bağışlanacaq və Tanrının hüzuruna qayıdacaq. Xilas olma isə İsanın (Loqosun) vasitəsi ilə baş verəcək.

Origenusun bir çox fikirləri xristian kilsəsi tərəfindən rədd edilmişdir. Onun dünyaların çoxluğu, ruhların maddi dünyadan əvvəl yaradılması, İblisin xilas olması ideyaları rəsmi Xristianlıq tərəfindən qəbul edilməsə də, onun fəlsəfi irsi Nissalı Qreqorios, Eriugena kimi böyük xristian mütəfəkkirləri üçün bir örnək olmuşdur. Onun dini fəlsəfəsi və metodları xristian əqidəsinin formalaşmasında müəyyən rol oynamışdır.

## Latın apologetikası

Roma imperiyasının qərbində də xristian mütəfəkkirləri fəaliyyət göstərmişdirlər. Onlar öz əsərlərini latın dilində yazırdılar.

### *Minusius Feliks (Minucius Feliks)*

Latın apologetlərindən olan Minusius Feliks II əsrin sonu - III əsrin əvvəllərində yaşamışdır. O, ya İtaliyada, ya da Afrikada anadan olmuşdur, sonra isə Romada yaşamışdır. Onun yalnız bir əsəri – «Octavius» (Oktavius)

---

[110] Origenus. De principiis,III,4-5.İngilis dilinə tərcüməsi burada yerləşir: http://www.newadvent.org/fathers//04123.htm

[111] Origenus. De principiis, III, 4.

dialoqu bizim zəmanəmizə çatmışdır. Üslub nöqteyi-nəzərindən bu əsər Sisseronun dialoqlarına bənzəyir. Burada söhbət bütpərəstlik və Xristianlıqdan gedir. Bu əsər, II əsrdə Xristianlıqla bütpərəstliyin arasında gedən polemikanın əsas məqamlarına toxunduğuna görə, çox əhəmiyyətlidir. Dioloq bütpərəst Sesilius (Cecilius) və xristian Oktaviusun arasında Minusiy Feliksin iştirakı ilə gedir.

Sesilius, insan idrakının həqiqəti əks etdirməyə qadir olmadığını əsas gətirərək, xristianları qınayır. O deyir ki, xristianların əksəriyyəti savadsız adamlar olduğu halda, onlar ən ali kateqoriyalar olan Tanrıdan, taledən, dünyanın yaranmasından söhbət açırlar və bunlarla bağlı problemləri həll etmək iddiasındadırlar. Halbuki, bunu ən savadlı adamlar belə edə bilməyiblər. Burada Sesilius skeptik mövqedən çıxış edir.[112]

Daha sonra Sesilius deyir ki, dinin seçimi insanın özündən asılıdır. Çünki, dini kateqoriyalar son olaraq əsaslı dərk edilib sübuta yetirilə bilməz. Bu səbəbdən Xristianlığın başqa dinlərlə müqayisədə heç bir üstünlüyü yoxdur. Roma dini ən qədim zamanlardan mövcuddur. Ona romalıların əjdadları sitayiş ediblər. Bu dinlə Roma qüdrətli bir imperiyaya çevrilib. Bu dindən çıxmaq öz millətinə, keçmişinə xəyanət etməkdir[113] (Okt 6-8).

Nəhayət Sesilius Xristianlığa qarşı bir sıra dəlillərlə çıxış edir. O xristianların dini ayinlərinin icra tərzini insanlıqdan uzaq və əxlaqa zidd elan edir, onları mövhumatçılıqda ittiham edir. Sonra Sesilius qiyaməti və onunla bağlı hadisələri əsassız adlandırır, ölülərin dirilməsi ideyasını rədd edir. Xristianların əksəriyyətinin kasıblıq və zəlil vəziyyətdə yaşadıqlarını vurğulayan Sesilius, Tanrının dirilərə deyil, ölülərə (yəni onların qiyamətdə dirilməsi nəzərdə tutulur) kömək etməsinə görə təəccüb edir[114].

Sesiliusdan sonra, Oktavius xristianlara qarşı edilən ittihamlara cavab verir. O, ilk növbədə, hər bir insana müdrikliyin açıq olmasından danışır. Yəni, həqiqət təkcə filosoflara deyil, hər bir adama açıla bilər. İnsan tərəfindən dünyanın dərk edilməsinin vacibliyini inkar etməyən Oktavius, onun şüurunu yalnız bununla məhdudlaşdırmanın əleyhinə çıxış edir. Çünki, dünyada İlahinin rolu vardır.

---

[112] Minucius Feliks. Octavius, V.
İngiliscə: The Octavius of Minucius Felix.
http://www.ccel.org/fathers2/ANF-04/anf04-34.htm#P5547_816788
Rusca: Марк Минуций Феликс. Октавий // Ранние Отцы Церкви. Антология. Брюссель: "Жизнь с Богом", 1998. с. 545-590.
http://www.krotov.info/acts/02/03/octavius.html
[113] Minucius Feliks. Octavius, VI-VIII.
[114] Minucius Feliks. Octavius, IX - XIII.

Bizim ətrafımızda olan ahəng, gözəllik, yaradanın varlığına işarə edir. Nizamda olan bu dünya heç də xaotik təsadüfdən yarana bilməzdi. Bəşəriyyətin ən ağıllı insanları, məsələn, Fales, Pifaqoras, Demokritos (Democritos), Plato və başqaları, Tanrının varlığını təsdiq edirdilər[115].

Sonra Oktavius roma tanrıları ilə bağlı rəvayətləri tənqid edərək deyir ki, onların yaşadığı həyat heç də tanrılara layiq deyil, onlar özlərini insanlar kimi aparırlar, insanlar kimi müxtəlif qüsurlara malikdirlər[116]. Məsələn O deyir: əgər tanrılar haçansa doğulurlarsa, onda niyə onlar indi doğulmurlar? Məgər Yupiter qocalıb, Yunona isə daha doğa bilmir?[117]. Oktaviusa görə, o tanrıların bəziləri nə vaxtsa adi insanlar olublar. Sonra, onlar öləndən sonra, onları ilahələşdiriblər[118].

Sonra Oktavius xristian əxlaqının təmizliyi və aliliyini, xristianların fağırlıq (kasıblıq) idealını müdafiə edərək, əksinə, bütpərəstlərin əxlaqsız və mənəviyyatsız həyat sürmələri, haqqında söhbət açır.

Bütpərəstliyi tənqid edən Oktavius, eyni zamanda, Xristianlığın romalılar tərəfindən yüksək qiymətləndirilən sağlam düşüncəyə zidd olmamasından danışır, və bu mövzuda qədim filosofların irsi ilə müqayisələr aparır[119].

### *Kvintus Septimus Florens Tertullianus*[120]

Kvintus (Quintus) Septimus Tertullianus (155-220) ən tanınmış latın apologetlərindən biri olub. O Şimali Afrikada, bütpərəst ailəsində anadan olmuşdur. Xristianlığı qəbul edəndən sonra, Tertulian, təxminən 193-cü ildə, Kartaca[121] şəhərində presviter vəzifəsini tutmuşdur, sonra isə Romaya

---

115 Minucius Feliks. Octavius, XIX.

116 Minucius Feliks. Octavius, XXII.

117 Minucius Feliks. Octavius, XXIII.

118 Minucius Feliks. Octavius, XXIII.

119 Minucius Feliks. Octavius, XXXIV.

120 Tertullianın əsərlərinin latınca orjinal mətnləri və onların ingilis, fransız, rus, alman, və başqa dillərə tərcümələri burada yerləşdirilmişdir:
http://www.forumromanum.org/literature/tertullianusx.html

121 Kartaca [latınca "Carthago", sami dilində "Karthehadaschath (Kartadaşt)", rusca "Карфаген"] – tərcümədə "Yeni Şəhər" deməkdir. Şimali Afrikada Aralıq dənizinin sahillərində yerləşən məşhur qədim şəhər. Müasir Tunisin ərazisində yerləşir. E.ə. VII-III əsrlərdə Kartaca xeyli güclənib, Aralıq dənizi hövzəsində Roma imperiyasının əsas rəqibinə çevrilmişdir. Roma ilə müharibələr nəticəsində məğlubiyyətə uğramış və dağıdılmışdı. III əsrdən sonra onun ərazisi Roma imperiyasının Afrika adlı vilayətinə daxil edilmişdir.

köçmüşdür. 207 ildən sonra o, rəsmi xristian kilsəsi tərəfindən rədd edilən və montanizm[122] adlanan bir heretik təriqətin ardıcılı olmuşdur. Buna baxmayaraq, Tertullianus xristian ehkamlarının tənqidlərdən müdafiə olunmasında çox böyük rol oynamışdır. Hətta montanizmin ardıcılı olandan sonra da, «onun əsərlərində ordtodoksal xristian ilahiyyatının ruhu var idi»[123].

Tertullianusun əsərlərini şərti olaraq 3 hissəyə bölmək olar:

- Xristianlığı müdafiə edən, «Apologeticus»[124] (Apologetik risalə) kimi əsərlər;
- Heretiklərə qarşı yönəlmiş, «De Praescriptione haereticorum»[125] (Heretiklərin təkzib edilməsi) «Adversus Praxean»[126] (Prakseyə qarşı) kimi əsərlər;
- Əxlaq haqqında olan «De Cultu Feminarum»[127] (Qadınların geyimləri haqqında), «Ad Uxorem»[128] (Arvadıma məktub) kimi əsərlər.

---

[122] Montanizm – II əsrdə Frigiyada yaranmış heretik xristian təriqətidir. Bu təriqəti, keçmişdə Kibela adlı tanrının kahini olan Montan yaratmışdı. O və onun ardıcılları Kiçik Asiyanın Pepuza şəhərində fəaliyyət göstərirdilər. Onların inanclarına görə, İsanın gəlişi Tanrının vəhyinin tamamlanması demək deyil. İlahi vəhy Müqəddəs Ruhun vasitəsi ilə müxtəlif adamlara açıla bilər və açılır. Montan deyirdi ki, xristian Kilsəsinə bu cür adamlar başçılıq etməlidirlər. O, mövcud olan Kilsəni inkar edirdi, yeni peyğəmbərlərin gəlişinin mümkünlüyü haqqında danışırdı və özünün də peyğəmbər olması iddiasında idi. Tertullian da bu təriqətə daxil olub, onun daxilində "tertulliançılar" adlanan qrupu yaratmışdı. Onlar Şimali Afrikada uzun müddət fəaliyyət göstərirdilər.

[123] Иоанн Мейендорф. Введение в светоотеческое богословие. Вильнюс-Москва, "Весть", 1992, Часть 1, гл. 4. http://www.klikovo.ru/db/book/msg/884

[124] Latıncadan ingiliscəyə tərcüməsi burada yerləşir: http://tertullian.org/articles/mayor_apologeticum/mayor_apologeticum_07translation.htm

[125] Квинт Септимий Флоренс Тертуллиан. Избранные сочинения. Под редакцией А.А. Столярова. М., 1994. Издательская группа "Прогресс". Стр. 106-129. http://apologia.narod.ru/earlyfat /fath/tertullian/tertullian.htm

[126] Tertullianus. Adversus Praxean. Corpus Christianoram. Series Latina II / Ed. E. Kroymann, E. Evans. Brepols, 1954. P. 1159-1205. http://www.tertullian.org/articles/evans_praxeas_eng.htm
Rusca: Тертуллиан. Против Праксея // «Альфа и Омега». № 1 (27) – № 2 (28), 2001 г. http://khazarzar.skeptik.net/books/tertull/praxean.htm

[127] Latıncadan ingilis dilinə tərcüməsi burada yerləşir: http://antology.rchgi.spb.ru/Tertullianus/appl.htm

[128] Latıncadan ingilis dilinə tərcüməsi burada yerləşir: http://www.tertullian.org/anf/anf04/anf04-12.htm#P706_173914

Tertulianusun yunan-roma fəlsəfəsinə mənfi münasibət bəsləyirdi. Onun fikrincə fəlsəfə ümumiyyətlə Xristianlığa ziddir. Lakin onu nəzərə almaq lazımdır ki, o dövrdə Xristianlığa bir çox antik təlimlərin elementləri daxil olunmuşdur və onun tərəfindən həzm edilmişdi. Xüsusilə bu stoitsizmin etik təliminə aiddir. Tertullianus kimi apologetlər, artıq bu elementləri Xristianlığın ayrılmaz hissəsi hesab edirdilər. Məhz buna görə Tertullianus Senekaya "bizim Seneka" demişdir. Sonra isə Senekanın güya xristian olduğu, onun apostol Pavlusla məktublaşdığı haqqında əfsanələr uydurulmuşdır.

Tertullianusa görə bütpərəstlərin fəlsəfəsi çox mürəkkəb, incəsənətləri həddən artıq zərif, özləri və dinləri isə əxlaqsızdır. Bunlardan fərqli olaraq, Xristianlıq insan təbiəti və cəmiyyətinin bütün tələblərinə uyğun kə lir. Bütpərəstlərin fəlsəfəsindən fərqli olaraq, Xristianlıq çox sadədir, sərbəst başa düşüləndir. Ən əsası isə bu dində həqiqətin hazır vəziyyətdə olmasıdır. Onu yoxlamaq və ya tədqiq etmək lazım deyil. Bu həqiqəti yalnız anlamaq lazımdır.



Bu müddəaları özü üçün rəhbər tutaraq Tertullianus, hətta elmin, biliyin, tədqiqatların əleyhinə çıxış edirdi. Məsələn o deyirdi: «İsa-dan sonra bizim biliyə marağımız yoxdur, İn-cildən sonra isə tədqiqatlara ehtiyacımız yox-dur»[129]; «İmanın qaydalarının əleyhinə heç nəyi bilməmək – hər şeyi bilmək deməkdir»[130]. Tertullianusa görə düşüncədən yalnız dini ehkamların təsdiq edilməsi üçün istifadə edilə bilər.Lakin o bunu da məhdudlaşdırırdı. Bir çox xristian mütəfəkkirlərindən fərqli olaraq o, təvilləri, alleqoriyaları rədd edirdi və Müqəddəs Kitabın yalnız hərfi mənalarına üstünlük verirdi. Onun fikrincə Müqəddəs Kitabda, bəzi rəvayətlər və ya ifadələr yalnız insan düşüncəsi nöqteyi-nəzərindən məntiqsiz və cəfəngiyyat kimi görsənə bilər. Əslində isə onlar bizim düşüncə qabiliyyətimizdən daha yüksək məqamlara toxunur. Yəni insan bu İlahi sözləri dərk etmə qabiliyyətində deyil və onları olduğu kimi, düşünmədən, imanla qəbul etməlidir. Bu fikri təsdiq etmək üçün Tertullianus deyirdi:

[129] De Praescriptione haereticorum, 7. Ruscaya tərcüməsi burada yerləşir: http://apologia.narod.ru/earlyfat/fath /tertullian/contra_er.htm

[130] De Praescriptione haereticorum, 14. Ruscaya tərcüməsi burada yerləşir: http://apologia.narod.ru/earlyfat/fath/tertullian /contra_er.htm

«Tanrının oğlunu çarmıxa çəkmişdirlər; bu ayıb olsa da, biz bundan xəcalət çəkmirik. Tanrının oğlu ölmüşdür; biz buna inanırıq, çünki bu cəfəngiyyatdır. O, dəfn olduqdan sonra dirilmişdir; buna şübhə etmək olmaz, çünki belə şey mümkün deyil»[131].

Tertullianusa görə, təmiz imandan fəlsəfəyə və ümumiyyətlə düşüncəyə doğru edilən hər bir addım heresə, xristian təliminin təhrifinə gətirir. Düşüncəyə və biliyə qarşı çıxış edən Tertullianus, ağılı hissiyyatın bir növ davamı kimi qiymətləndirirdi. Onların təbiəti də eynidir. Mömin adama hissiyyatı Tanrı verir, və buna görə də o yalnış bir şeydən xəbər verə bilməz. Məhz bu hissiyyatın vasitəsi ilə insan, Tanrı, dünya və ətraf mühit haqqında məlumat alır. Bu səbəbdən mömin insan öz daxili səsinə diqqətlə qulaq asmalıdır, ruhundan gələn instinktiv hislərə etibar etməlidir.[132]

Tertullianusun biliyi inkar etməsi və imana həddən artıq yer verməsi, sonda onun ortodoksal Xristianlıqdan çıxmasına səbəb olmuşdur. Onu cəzb edən, heretik təlim hesab edilən montanizm oldu, cünki bu təlimin ardıcılları daxildən gələn səsə böyük əhəmiyyət verirdilər.

Tertullianus bir neçə xristian ehkamlarının yaradıcısı da sayıla bilər. Məsələn, o hesab edirdi ki, Kilsə birbaşa İsanın müqəddəs həvariləri (apostolları) tərəfindən yaradıldığına görə, ən yüksək müqəddəs qurumdur (avtoritetdir). Əsl həqiqəti yalnız Kilsə vasitəsi ilə əldə etmək mümkündür. Eyni zamanda, Kilsəyə günah anlayışını şamil etmək olmaz. Bu fikir sonralar katolik kilsəsi tərəfindən bir ehkam qəbul edilmişdir və onun başçıları - papazlar[133], özlərini günahsız insanlar elan etmişdirlər.

Bundan sonra "günahsız" və "müqəddəs" Kilsə Məclisləri, Müqəddəs Kitabların və ənənəsinin yozulması səlahiyyətində olduğunu iddia etmişdirlər. Lakin bu cür Kilsə yalnız dövlət tərəfindən tanınmış rəsmi Kilsə ola bilər. Qnostiklərin kilsələri həqiqət daşıyıcısı deyil, çünki Tertullianusa görə, onların bünövrəsi yoxdur.

Lakin sonra Tertullianusun fikri Kilsəyə qarşı dəyişmişdir və o, dində öz mənfəətlərini güdən keşişlərin çox olduğunu görərək, onların əleyhinə

[131] De carne Christi (İsanın bədəni haqqında), 5. Ruscaya tərcüməsi burada yerləşir: http://www.tertullian.org/russian/de_carne_christi_rus.htm
[132] De testimonio animae (Ruhun şəhadəti haqqında), 2. Ruscaya tərcüməsi burada yerləşir:
http://www.tertullian.org/russian/de_testimonio_animae_rus.htm
[133] Papaz (yunanca "pappas") – qərb (roma-katolik) Kilsəsinin başçısıdır.

çıxış etməyə başlamışdır. Eyni zamanda o, Kilsə və Kilsə yığıncaqlarına qarşı da ifadələr səsləndirirdi[134].

Xristianlığın ən əsas ehkamı olan – Ata, Oğul və Müqəddəs Ruh üçlüyünün ifadəsinə də ilk dəfə Tertullianusun əsərində rast gəlmək olar[135]. Tertullianusun fikrincə Tanrı vahiddir, lakin onun daxilində həmişə Onun sözü (Loqos) və mərhəməti (Müqəddəs Ruh) olub. Sonra, dünyanı yaradarkən Ata Oğluna (Loqosa) sərbəst mövcud olma hüqüqunu verib. Daha sonra, yolundan azmış bəşəriyyəti xilas etmək üçün, Ata Müqəddəs Ruhu da bir şəxsiyyətə çevirir. Bu ruh onun Oğlundan çıxır. Ata-Oğul-Müqəddəs Ruh üçlüyünün hər bir üzvü digərinə tabedir və onların adını əks istiqamətdə çəkmək olmaz.

Ümumiyyətlə isə, Tanrı, Tertullianusa görə, yaradıcıdır və əbədi mərhəmət sahibidir. Onun mahiyyəti insan üçün açıla bilməz. Lakin yaradılan dünyaya diqqətlə baxanda, Onun mövcud olmasını sübut edən dəlillər vardır. Tanrı ruhdur, lakin bu ruh maddiləşmiş ruhdur, çünki bir şeyin maddi çərçivəsi yoxdursa, o yoxluqdur[136]. Ruhu da olsa, Tanrının (konkret cism olduğuna görə) gözləri, əlləri, əyaqları da vardır, lakin onların təbiəti insanınkından fərqlidir[137]. Bu fikri subuta yetirmək üçün, Tertullianus Bibliyanın hərfi mənalarına istinad edirdi. İnsan ruhu da maddiləşmişdir, əks təqdirdə o ətraf mühiti duya bilməz, çünki duymaq üçün düyülan şeyin bənzəri olmalıdır. Lakin maddiləşmiş olsa da ruh ölməzdir.

Tertullianusun ictimai fikirlərində dualizm əlamətləri vardır. O cəmiyyəti bir-birinə zidd olan iki böyük hissəyə bölürdü. Biri dünya ilə bağlı olan "şeytanın düşərgəsidir", digəri isə "Tanrı düşərgəsidir". İkincisini o Kilsə, Kilsə yığıncağı (ecclesia) adlandırmışdır. Hər iki "düşərgənin" öz tarixi, gələcəyi və dəyərlər sistemi vardır.

Tertullianusa görə insanın əxlaqi təbiətinin əsasını təşkil edən xüsusiyyətlər ikidir: iradə azadlığı və ilkin günah. Azadlığın mövcud olmasının dəlili İlahi qanundur. Qanun yalnız seçim hüququna malik olan varlığa verilə bilər. Lakin insan iradəsi, İlahi iradədən fərqli olaraq, təbiətinə görə yalnız mütləq xeyrə can atmır. O həmişə xeyirlə şər arasında seçim

---

[134] De baptismo (Xaç suyuna salınma haqqında), 17. Ruscaya tərcüməsi burada yerləşir: http://www.reformed.ru/articles/baptism/article_16-05.html

[135] Adversus Praxean, 2. http://apologia.narod.ru/earlyfat/fath/tertullian/contra_praksey1.htm

[136] De anima, 6. İngiliscəyə tərcüməsi burada yerləşir: http://www.tertullian.org/anf/anf03/anf03-22.htm#P2560_840932

[137] Adversus Marcionem II, 6. İngiliscəyə tərcüməsi burada yerləşir: http://www.tertullian.org/articles/evans_marc/evans_marc_06book2_eng.htm

qarşısında qalır. Deməli insan müsbət keyfiyyətlərinə təbiətinə görə deyil, seçimi nəticəsində nail olur. Beləliklə, şər Tanrıdan gəlmir, o yalnız insanın mənfi seçiminin məhsuludur. Şər dünyaya ilk insan olan Adəm tərəfindən gətirilmişdir. O, ilk dəfə günaha bataraq, Tanrının qadağan etdiyi ağacın meyvəsini yemişdir. Bu addımla o xeyri deyil, şərin seçmişdir.

### *Arnobius*

Arnobius (260-327) da, Tertullianus kimi, Şimali Afrikalı idi. Əvvəlcə Xristianlığa qarşı çıxışlar etsə də, sonra bu dini qəbul etmişdir. «Adversus gentes»[138] (Bütpərəstlərə qarşı kitab) adlı kitab yazmışdı.

Arnobiusun yaşadığı dövrdə, Romada xristian dininə münasibət dəyişmişdi. Bu din artıq Roma cəmiyyətinin müxtəlif təbəqələri arasında yayılmışdı və bütpərəstlər bu amil ilə hesablaşmaq məcburiyyətində qalmışdılar. Onlar artıq Xristianlığı Selsum[139] kimi şiddətli tənqid atəşinə məruz qoymurdular, bu dinin müvəffəqiyyətlə yayılmasının səbəblərini araşdırırdılar və gələcək perspektivlər haqqında düşünürdülər.

Onlar tez-tez bütpərəstliyin tənəzzülündən və onun cəmiyyətdə olan mənəvi boşluğu doldurmaq iqtidarında olmadığından da düşünürdülər.

Arnobiusun əsəri də təxminən bu problemləri əhatə edir. O hesab edirdi ki, antik dünyanı tənəzzülə insan təfəkkürünə həddən artıq yer verməsi amili gətirib. Halbuki, onun imkanları məhduddur.

Məsələn Platonun ardıcılları hesab edirdilər ki, həqiqətin, xeyrin, gözəlliyin nə olması anlayışları, insanın anadan olduğu andan onda vardır. Yəni bu keyfiyyətlər ona təbiət tərəfindən verilir. Lakin bu fikri Arnobius qəbul etmirdi. Onun fikrincə, əgər insan başqa insanlarla, yaxud ətraf mühitlə təmasda olmasa, onda bu keyfiyyətlər ola bilməz. Deməli onlar insan fəaliyyətinin və həyatının nəticəsində əmələ gəlir və İlahi həqiqətlər ona təbiət tərəfindən verilmir.

---

[138] Latınca mətni və ingilis dilinə tərcüməsi burada yerləşir: http://www.forumromanum.org/literature/arnobiusx.html

[139] Selsum - II əsr roma filosofudur, xristianlara qarşı rəddiyələr yazmışdı. Onun Xristianlığa qarşı fikirlərini Origenus «Selsuma qarşı» risaləsində açıqlamışdır. Bax: Origenus. Contra Celsum. Rus dilinə tərcümə olunmuş tam mətni burada yerləşdirilmişdir: Против Цельса: Апология христианства. Сочинение Оригена Учителя Александрийского. "Экуменический центр ап. Павла", 1996. OCR: Одесская богословская семинария. http://www.abovo.net.ru/book/84146



Lakin ətraf mühitin təsiri də insana xeyri şərdən, gözəlliyin eybəcərlikdən, həqi-qəti nadanlıqdan ayırmaq imkanı vermir. Fəlsəfənin vasitəsi ilə bu anlayışlara aydınlıq gətirmək olmur. Fəlsəfə yalnız ziddiyyətləri çoxaldır, səmərəsiz mübahisələrə gətirib çıxa-rır[140]. Beləliklə həqiqət nəyinsə rəhbərliyi al-tında açıla bilər. Bu rəhbər isə iman, və kon-kret olaraq, xristian imanıdır. İmanda utan-malı heç bir şey yoxdur. Hətta Xristianlığı rədd edən və öz düşüncələrinə etibar edən filosoflar imana əl atırlar, çünki təbiətdə düşüncə vasitəsi ilə həll edilməyən çoxlu şeylər vardır. Onlar, məsələn, xəstələnəndə həkimə müraciət edirlər və onun dediklərinə inanıb müalicə olunurlar. Filosofların, eyni zamanda, inandığı avtoritetləri də vardır. Bəziləri Platoya, başqaları isə Aristotelə, Pifaqorusa və başqalarına inanırlar. Deməli, imansız həyat ola bilməz.

İmanın isə obyektləri fərqlidir: kimsə filosoflara, kimsə müxtəlif dini təlimlərə inanır. Lakin Xristianlığın bir sıra üstün cəhətləri vardır. Bu din sadə, başa düşüləndir, təbiidir. Müqəddəs Kitablar hamı üçün açıqdır və orada filosofların ziddiyyətli mübahisələri yoxdur. Xristianlar tək olan Tanrıya ibadət etməyə çağırır, bütpərəstlər isə insanlar tərəfindən düzəldilmiş bütlərə.

Eyni zamanda demək lazımdır ki, Arnobiusun əsərində bir çox xristian ideyalarına rast gəlmək olmur. Məsələn, o, Bibliyadan sitatlar gətirmir, trinitarizm (Üçlük) haqqında heç nə demir. Bunlardan əlavə, bu əsərdə platoçuluq ideyalarına da rast gəlmək olar. Tanrının varlığını və birliyini qəbul edən Arnobius, Onun bu dünyada necə təzahür olmasını izah edə bilmir və, platosayağı olaraq, Onunla dünya arasında vasitə rolunu oynayan varlıqlardan danışır. İsa bu varlıqlardan biridir.

Arnobius təqib olunan Xristianlığın sonuncu apologeti olmuşdur. Ondan sonra Xristianlıq Romanın dövlət dininə çevrilmişdir.

*Laktantius*

Sonuncu latın apologetlərindən biri Laktantius (240-320) olmuşdur[141]. O Arnobiusun tələbəsi olub və Xristianlığın Romada rəsmi dövlət dininə çevrilməsi dövründə yaşamışdır. Bu səbəbdən, onun yeddi kitabdan ibarət

---

[140] Adversus gentes II, 18;29;56.

[141] Əsərləri latın və ingilis dillərində burada yerləşdirilmişdir: http://www.forumromanum.org/literature/lactantiusx.html

«Divinae institutiones»[142] (İlahi qanunlar haqqında) əsəri imperator Konstantinusa həsr edilmişdir. Gələcəkdə Xristianlığın geniş perspektivlərinin olduğunu duyan Laktantiusun kitabı optimist ruhunda yazılmışdır.

Bu əsərdə Laktantius, ondan öncəki apologetlər kimi, antik müdrikliyin xristian imanı ilə uyğunlaşdırılması yolu ilə getmişdir. Hətta o iddia edirdi ki, ondan öncəki apologetlər Xristianlığı aydın və tam başa düşülən tərzdə təqdim edə bilməmişdirlər[143]. Bu işin sona çatdırılma şərəfi isə Laktantiusa qismət olmuşdur.

Onun fikrincə antik filosoflar bütpərəst dini təlimlərə heç bir əhəmiyyət vermirdilər, çünki o dinlər mövhumatlarla dolu idilər. Öz növbəsində bütpərəst kahinlər də fəlsəfədən istifadə etməmişdirlər. Buna görə də sonda, onların heç biri nailiyyət əldə etməmiş və iflasa uğramışdılar. Əslində isə hər bir müdriklikdə iman, hər bir imanda isə müdriklik olmalıdır. Fəlsəfə nə qədər dərin olsa belə, heç vaxt insani və İlahi məsələləri həll edə bilməz. Filosofların nəzəriyyələri çox vaxt onların düşüncəsinin məhsuludur, obyektivliyi əks etdirmir. Lakin Laktantius düşüncənin imkanlarını yüksək qiymətləndirirdi. Onun fikrincə, bu düşüncə İlahi həqiqətlərə qulluq edəndə öz vəzifəsini yerinə yetirmiş olur. Həqiqət isə xristian dinindədir.

Laktantius bir çox dini məsələlərə əqli nöqteyi nəzərdən aydınlıq gətirmək istəyirdi. Məsələn, onun fikrincə, Tanrının birliyi, hər şeyin bir səbəbdən doğması zərurəti ilə izah edilir. Çünki əgər tanrılar çox olsaydı, onda onların arasında müəyyən münasibətlər qurulmalı idi. Onlar ya bir-birinə bərabər, ya da tabe olmalı idilər. Bərabər olduqları halda onlardan heç biri digərindən yüksək olmazdı, deməli sözün əsl mənasında Tanrı olmazdı. Bir-birinə tabe olduqları halda isə, onlardan yalnız biri Tanrı olardı, başqalarının yalnız adları Tanrı olardı, mahiyyətləri yox. Eyni zamanda, tanrılar çox olsaydı dünyanın mərkəzləşdirilmiş halda idarə etmək olmazdı, dünyada ümimi nizam pozulardı.[144]

Dünyanı Tanrı heçnədən yaradıb. Laktantiusa görə, əgər materiya Tanrı ilə bərabər əzəldən mövcud olsaydı, onda, bundan öncə deyilən, Tanrının birliyi prinsipi pozulardı və iki ilkin substansiya olardı. Nəticədə yenə də nizam pozulardı. Hər şeyi yaradan materiya da ola bilməz, çünki bu

---

[142] İngilis dilinə tərcümədə burada yerləşdirilmişdir: http://www.newadvent.org/fathers/0701.htm

[143] Divinae institutiones V, 1. İngiliscə tərcuməsi burada yerləşir: http://www.newadvent.org/fathers/07015.htm

[144] Divinae institutiones I, 3. İngiliscə tərcuməsi burada yerləşir: http://www.newadvent.org/fathers/07011.htm

halda düşünən varlıq olan insan, düşüncəyə malik olmayan bir şeydən yaranardı. Bu isə məntiqə ziddir.

Dünyada hər şey bir məqsədlə yaradılıb. Dünya – insan üçün, insan isə Tanrını tanımaq və ona ibadət etmək üçün. İnsan azaddır və öz şüurlu hərəkətləri ilə Tanrıya sədaqətini göstərməlidir, pis yollardan çəkinməlidir. Bu dünya onun üçün bir sınaq meydanıdır. Bu sınaqlara sinə gələ bilsə, Tanrı onu əbədi həyatda mukafatlandıracaq. Dünyada şər, xeyrin nə olduğunu anlamaq üçün mövcuddur. O olmasaydı insanlar xeyri bilməzdilər.

Eyni zamanda Laktantius, stoitsizm fəlsəfəsinin təsiri altında olmuşdur. Məsələn o, ruhun əslində materiyanın daha incə forması olduğunu iddia edirdi. Onun təbiətinin oddan ibarət olduğu haqqında danışırdı. Lakin materiya olduğuna baxmayaraq, ruhu dərk etmək mümkün deyil, və o ölməzdir.

Kitabının sonuncu hissəsində Laktantius qiyamətin qopması, onun hansı şəkildə baş verəcəyi haqqında yazmışdır. O inanmırdı ki, İsa tezliklə dünyaya qayıdacaq, bütün mömin ölüləri diriləcək və onlarla birlikdə yer üzərində ədalətli hakimiyyət quracaq. Bu cür inanclar hiliazm[145] adlandırılır və sonrakı dövrlərdə rəsmi kilsə tərəfindən rədd edilmişdir. Çünki hiliazm tərəfdarlarının dediklərindən belə çıxırdı ki, ölülər iki dəfə diriləcəklər: bir dəfə İsanın gəlməsi və min illik hakimiyyəti qurması zamanı; ikinci dəfə isə, Tanrı tərəfindən bütün kainat məhv edildikdən sonra. Bu isə rəsmi Kilsənin mövqeyinə zidd idi. Rəsmi xristian ehkamlarına görə, dirilmə hadisəsi yalnız bir dəfə, dünyanın sonunda baş verəcək. Bibliyada hiliazma işarə edən yerlərə isə kilsə xadimləri başqa, məcazi mənalar verirlər.

[145] Yunanca "khilias"- min rəqəmidir.


200-300-cü illərdə Xristianlığın yayılması
Avqusta Treverov
Durokortor
Vindobona
Liquje
Luqdun
Arelat
Massiliya
Konstantinopolis
Nikeya
Ankira
Prusa
Samosata
Edessa
Nisibis
Roma
Fessaloniki
Tolet
Korduba
Qispal
Elvira
Efes
İkonium
Tarsus
Antioxiya
Perqiya
Korinf
Sparta
Rodos
Kıbrıs
Sidon
Tir
Qeysəriyə
Yeruşalaim
Betlehem
Sirta
Kartaca
Taqast
Hadrumet
Tevest
Kapsa
ARALIQ DƏNİZİ
Krit
Kirena
Leptis-Maqna
İsgəndəriyyə
Memfis
Oksirinx
Hermopol
III əsrdə böyük xristian icmaları
IV əsrdə böyük xristian icmaları

IV FƏSİL

# XRİSTİANLIĞIN DÖVLƏT DİNİNƏ ÇEVRİLMƏSİ

## Xristian ehkamlarının formalaşması dövrü və daxili çəkişmələr

IV əsrin əvvəllərində, Roma imperiyasında Xristianlığa, əvvəlcə, başqa dinlərlə bərabər hüquqlar verilmişdi, sonra isə bu din imperiyanın rəsmi dininə çevrilmişdir. Xristianlığın dövlət dini səviyyəsinə qaldırılması imperator Konstantinusun adı ilə bağlıdır. O, bu addımı siyasi səbəblərə görə atmışdı. Məsələ bundadır ki, IV əsrin əvvəllərində xristianlar geniş xalq kütlələrinə təsir etmə imkanı olan təşkilatlar yarada bilmişdilər. Xeyriyyə işləri və axirətdə xilas olma ideyaları imperiyanın ən kasıb təbəqələri üçün cəzbedici görsənirdi. Digər tərəfdən isə, hakimiyyətə qarşı səbrli olmaq ideyaları, onları dövlət başçılarına qarşı üsyan etmə ehtimalının qarşısını alırdı. Eyni zamanda, kilsə tərəfindən müəyyən edilmiş dini qanunları və ehkamları qəbul etmək, keşişlərə tabe olmaq, Xristianlığın prinsiplərindən idi. Bu cür din monarxiya üsul-idarəsi üçün çox əlverişli idi.



**İmperator**

Bunu başa düşən imperator Konstantinus, imperiyada sabitliyə na-il olmaq və öz hakimiyyətini möhkəmləndirmək üçün, xristian faktorundan istifadə etməyə başladı. İlk növbədə o, 313-cü ildə, Xristianlığı hüquqi nöqteyinəzərdən, başqa dinlərlə bərabərləşdirən Mediolan[146] fərmanını imzalamışdır.

Lakin Xristianlığın, müsbət və əlverişli cəhətləri ilə bərabər, nöqsanlı cəhətləri də var idi. Onun daxilində parçalanma hökm sürürdü və vahid, hamı tərəfindən qəbul edilən doktrina-sı

[146] İtaliyanın Milan şəhərinin qədim adıdır.

**Konstantinus** hələ formalaşmamışdı. Xristianlığın parçalanması hətta çox təhlükəli təmayüllərin yaranmasına gətirib çıxarmışdı.

Məsələn, Afrikanın şimalında *donatçıların* hərəkatı xristian birliyinə çox ciddi zərbə vurmuşdu. Bu ixtilaf roma imperatorlarının xristianlara qarşı təqiblərin sona çatmasından sonra baş vermişdi. Məsələ bundadır ki, təqiblər dövründə xristianların bir qismi təqiblərə sinə gərərək, ölümlərindən belə qorxmayaraq dindən imtina etməmişdirlər. Lakin digər qismi təqiblərə davam gətirməyərək bütpərəstlərə və hakim dairələrə güzəştlərə getmişdirlər, bəziləri isə işgəncələrə məruz qalaraq Xristianlıqdan imtina etmişdirlər.

311-ci ildə Kartaca yepiskopu vəzifəsinə *Sesilian* adlı bir keşiş təyin olundu. Lakin məşhur yepiskop *Donatus* ona qarşı çıxış etmişdi və onu yepiskop kimi tanımamışdı, çünki təqiblər dövründə Sesilian, işgəncələrə dözməyərək, Müqəddəs Kitabların nüsxələrini bütpərəstlərə vermişdi. Onu, dinindən çıxmış elan edən Donatus, 312-ci ildə öz partiyasını yaradaraq "satqın" yepiskoplar tərəfindən icra edilmiş xaç suyuna çəkilmə mərasimini[147] qüvvədən düşmüş elan etmişdi və onun yenidən icra edilməsinin zəruri olması haqqında tələb irəli sürmüşdü. Donatçılar rəsmi Kilsəni günahlara batmış hesab edərək, ondan ayrılmış, öz ardıcıllarından yüksək mənəvi paklıq tələb edirdilər. Onların fikrincə kilsə mərasimləri, yalnız din xadimlərinin təmizliyi, davamçılarının isə həqiqi mömin olduğu halda, Tanrı tərəfindən qəbul edilir. Bundan başqa, onlar dinin dövlət işlərində iştirakının əleyhinə də çıxış edirdilər. Bu istək isə Roma imperatorlarının maraqlarına zərbə vururdu. Bu səbəbdən, Roma imperatorları Şimali Afrikada güclənən və kilsə birliyinə ağır zərbə vuran donatçı üsyançılarına qarşı qoşun yollamışdılar. Lakin bu heç bir nəticə verməmişdi və donatçılar bir neçə əsr ərzində (müsəlman istilasına qədər) Şimali Afrikada böyük nüfuza malik idilər.

Donatçılardan başqa, müxtəlif qnostik təriqətlər (montançılar, markionçular, maniçilər və başqa cərəyanlar) də xristian birliyinə mane olurdu.

O dövrün cərəyanlarından biri də *monarxianlar*[148] idi. Bu təriqət III əsrdə yaranmışdır. Onun ardıcılları trinitarizmi (Tanrının üç sifətlərdən

---

[147] İnsanın xaç suyuna salınması rəsmi kilsənin ən vacib mərasimlərindən biridir. Xristianlığı qəbul edən hər bir şəxs xaç suyuna girməlidir və bununla, rəmzi olaraq, keçmiş günahlardan və, ən əsası, Adəmin ilk günahından təmizlənmiş olur.

[148] Yunanca "monos" - bir, "arche" – başlanğıc deməkdir.

ibarət olan təbiətini) inkar edib onun mütləq birliyini qəbul edirdilər. Trinitarizmi qəbul edən xristianları isə, onlar bütpərəst (üç tanrıya ibadət edən) elan etmişdilər. Monarxianlar iki hissəyə bölünmüşdürlər: dinamistlər və metodistlər (savelianlar). Dinamistlər İsanı, Tanrı tərəfindən yaradılmış və ona İlahi qüdrət, enerji və müdriklik verilmiş bir insan hesab edirdilər. Dinamistlərin ideoloqu Samosatalı Pavlus olmuşdur. Modalistlər isə İsanı, Tanrı təcəllisinin bir üsulu, forması hesab edirdilər. Birinci halda İsanın İlahi təbiəti inkar edilirdi, ikincisində isə onun İlahiliyi qəbul edilsə də, o Atadan və Müqəddəs Ruhdan fərqli şəxsiyyət deyil idi. Beləliklə modalizm Ata ilə Oğul arasında fərq görmürdü. Buradan isə belə nəticə çıxarılırdı ki, çarmıxa Atanın özünü çəkmişdilər.

Donatçılarla monarxianlardan başqa müxtəlif qnostik təriqətlər - montançılar, markionçular, maniçilər və digər cərəyanlar da Xristianlığın birliyinə zərbələr vururdular.

III əsrdə daha bir ixtilaf meydana çıxmışdır. İsanın mahiyyətinin nədən ibarət olması haqqında xristoloji mübahisələr rəsmi Kilsəni parçalanma həddinə gətirmişdi. Bu mübahisələr İsanın Tanrı ilə eyni mahiyyətə (homousios) və ya ona bənzər mahiyyətə (homojusios) malik olması sualından yaranmışdır. Bu mübahisə İsgəndəriyyədə başlanmışdı. İsanın Tanrıya bənzər mahiyyətə malik olması ideyası ilə presviter *Arius* çıxış etmişdir. Onun fikrincə Loqos (İsa) Tanrı tərəfindən yaradılmışdır. Ata ilə Oğulun təbiətləri eyni deyil. Əks təqdirdə onların arasında fərq olmazdı. Ariusun fikrincə, İsa hər şeydən əvvəl yaradılmışdı, lakin əbədi deyil. O, başqa məxluqlara nisbətən daha fəzilətlidir, çünki Tanrı dünyanı onun vasitəsi ilə yaratmışdı. Ata ilə Oğulun arasında mütləq, Oğul ilə digər məxluqun arasında isə nisbi fərqlər vardır. Əgər Oğul Ata-ya bərabər adlanırsa buna Atanın özü razılıq vermişdir. Deməli o do-ğulmuş Oğul deyil, yaradılıb, sonra oğulluğa götürülən şəxsiyyətdir. Bü-tün məxluqlar kimi, İsanın da azad iradəsi, xeyri şərdən ayırma seçimi vardır. Bu iradə ni xeyrə yönəlt-diyinə görə o



günahsız olmuşdur.

**Presviter Arius**

Beləliklə, Arius deyirdi ki, İsanın təbiəti Tanrının təbiətindən fərqli olsa da, ona bənzərdir. O, birinci və ən ali məxluqdur, və adi insan deyil.

Ariusun bu fikirlərinə qarşı yepiskop *Aleksandr* (Alexsandrus) və onun ardıcılı olan *Atanasios* (Athanasios) çıxış etmişdirlər. Onların fikrincə, Ata ilə Oğulun təbiətləri birdir. Tanrı insan bədənində dünyaya ona görə gəlmişdir ki, insanı özünə tərəf yönəltsin. Oğulu (İsanı) tanıyan, Atanı da tanıyacaq. Onlar vəhdətdədirlər.

320-ci ildə kilsə məclislərinin birində İsgəndəriyyə kilsəsinin başçısı vəzifəsində olan yepiskop Aleksandr, Ariusu kilsədən xaric edərək, onun təlimini rədd edib, heres adlandırmışdır. Lakin, buna cavab olaraq, Arius və onun tərəfdarları öz fəaliyyətlərini qətiyyətlə davam etdirib, genişləndirmişdirlər. Beləliklə vahid təlimi olmayan kilsədə parçalanma meylləri daha da artmışdır.

Hadisələrin bu cür inkişafı, Xristianlıq faktorundan öz siyasi maraqları üçün istifadə etmək istəyən bütpərəst imperator Konstantinusun (Constantinus) planları ilə üst-üstə gəlmirdi. Kilsənin parçalanmasına son qoymaq istəyən imperator, 325-ci ildə Nikeya[149] şəhərində I Ümumdünya Kilsə Məclisini çağırmışdı. Orada o, yepiskop Aleksandrın və Atanasiosun fikirlərini dəstəklədi və, nəticədə, arianlıq pisləndi və heres adlandırıldı.

Beləliklə, Nikeya məclisinin qərarı ilə Atanın Oğulla vəhdət təşkil etməsi ehkamı rəsmi şəkildə qəbul olundu. Bu qərarın arxasında imperator Kontantinusun dayanması, onu rəsmi doktrinaya çevirdi. Məsələ bundadır ki, imperator tərəfindən dəstəklənən qərara qarşı çıxmaq, dövlətə qarşı çıxmaq demək idi. Buna görə Nikeya məclisindən sonra arianlığa və başqa təriqətlərə qarşı təqiblər kompaniyası başlandı.

326-cı ildə İsgəndəriyyə yepiskopu Aleksandrın vəfatından sonra bu vəzifəni Atanasios tutmuşdu. O arinanlara qarşı mübarizəni davam etmişdi. Lakin bir qədər sonra vəziyyət dəyişmişdi. Arianlara qarşı aparılan siyasət onların etirazları ilə qarşılaşmışdı. Onların böyük nüfuzu isə Romada siyasi sabitliyi poza bilərdi. Buna görə imperator Konstantinus öz seçimini dəyişərək bu dəfə arianları dəstəkləməyə başladı. Bundan sonra təqiblərə arianlar deyil, yepiskop Atanasios və onun tərəfdarları məruz qalmışdılar.



**İsgəndəriyyəli Atanasios**

[149] Müasir Türkiyənin İznik şəhəridir.

335-ci ildə Fələstinin Tir şəhərində arianlar öz kilsə məclislərini yığıb Atanın Oğula bənzər olması formulasını (homosusios) qəbul edib, Atanasios tərə findən müdafiə edilən, onların eyni mahiyyətli olması fikrini rədd etmişdilər. Nikeyada qəbul edilən qərar artıq öz qüvvəsini itirmiş olmuşdu. İmperator Konstantinus də yeni formulanı dəstəkləmişdi. Rəvayətə görə o, ölümündən bir az əvvəl Xristianlığı arian formasında qəbul etmişdi.

Lakin arianların qələbəsi də gözlənilən nəticələr verməmişdir. Məsələ bundadır ki, Atanın Oğulla bir mahiyyətə malik olması ideyasının da çoxlu tərəfdarları var idi. Onlar da öz növbəsində Tir Kilsə Məclisinin qərarlarını rədd etmişdilər. Konstantinusun ölümündən sonra, onların mövqeyi daha da gücləndi. İmperiyanın Şərqində isə hakim ideologiya arianlıq idi.

Bu ziddiyyətlərin ortadan qaldırılması üçün, Roma yepiskopu I Yulius (Julius) (337-352) 343-cü ildə Serdik[150] şəhərində Kilsə Məclisini yığmışdı. Bu məclisdə Roma imperiyasının qərbindən olan yepiskoplar çoxluq təşkil etdiyinə görə, Nikeya məclisində qəbul edilmiş qərar dəstəkləndi. Serdik məclisinin qərarı ilə, bununla razı qalmayan yepiskoplar öz etirazlarını Roma yepiskopuna çatdıra bilərdilər. Bundan sonra Roma papazlarının nüfuzu artdı və onlar başqa kilsələr üzərində rəhbərlik etmək iddiasında oldular.

Lakin bununla da iş bitmədi. İmperiyanın şərqindən olan yepiskoplar Serdik məclisinin qərarlarını bəyənməyərək, Fillippolis[151] şəhərində öz məclislərini yığıb, arian yönümlü qərarlar qəbul etdilər.

355-ci ildə imperator Konstansius (Constantius) Mediolan şəhərində növbəti Kilsə Məclisi yığmışdı. Orada Serdik Kilmə Məclisinin qərarları rədd edildi, yepiskop Atanasios və onun tərəfdarlarına qarşı təqiblərə başlanıldı. İmperator Konstansius hətta yepiskoplara demişdir: «Mənim buyruqlarım sizin üçün kilsə qanunudur (kanondur)». Beləliklə arianlıq tam qələbə çaldı.

Sonra Roma papazı Liberius (352-366) hakimiyyətin təzyiqləri altında daha bir barışdırıcı fikirlə çıxış etmişdi. O demişdi ki, Atanın Oğul ilə eyni mahiyyətə malik olması, ya da ona bənzər olması, insan əqli tərəfindən dərk edilməyən məsələdir, çünki bu barədə Müqəddəs Kitabda bir şey deyilmir.

Lakin arianlığın qələbəsi müvəqqəti xarakter daşıyırdı. Onun daxilində birlik yox idi və bu cərəyan təriqətlərə bölünməyə başladı.

---

[150] Müasir Bolqarıstan paytaxtı Sofiya şəhərinin qədim adıdır.
[151] Müasir Bolqarıstanın Plovdiv şəhərinin qədim adıdır.

İmperator Teodosiusun (Theodosius) dövründə (379-395) arianlıq məğlub edilib, ortalıqdan çıxarılmışdır. 381-ci ildə imperator Konstantinopolisdə (İstanbulda) yeni Kilsə Məclisini çağırıb, mövcud olan bütün xristian dininin əsas etiqad prinsiplərini yenidən nəzərdən keçirmişdi. Son olaraq o, yalnız Atanın Oğulla bir mahiyyətə malik olması formulasını bəyənərək, başqalarını qanundan kənar elan etmişdi. Bu qərar imperatorun əmri idi. Bunu qəbul etməyənlər ağır işgəncə və təqiblərə məruz qalmışdılar. Beləliklə zor gücü ilə nəhayət vahid kilsənin yaradılması mümkün olmuşdur. O zaman, Roma papazı Damasus isə, Hiyeronimus (Hieronimus) (342-420) tərəfindən edilmiş Bibliyanın latın dilinə tərcüməsini bəyənərək, Müqəddəs Kitabın başqa variantlarını qanundan kənar vəziyyətində qoymuşdur.

Bütün bu hadisələrə baxmayaraq müxtəlif xristian təriqətləri öz fəaliyyətlərini müxtəlif formalarda, əksər hallarda gizli halda, davam etdirirdilər. Vaxtaşırı onlara qarşı müxtəlif tədbirlər həyata keçirilirdi.

Xristianlığın dövlət dininə çevrilməsi prosesində yeganə maneə imperator Yulianus (Julianus) (361-363) olmuşdur. O bütpərəstliyi dirçəltmək istəyirdi və bütün dinlərə bərabər hüquqların verilməsinin tərəfdarı idi. Lakin Yulianus İranla savaş zamanı həlak olmuşdu və onun ölümündən sonra Xristianlığın dövlət dininə çevrilməsi prosesi məntiqi nəticəsinə çatmışdı.

## Rəsmi xristian təliminin yaranması.<br>Kappadokiyalı[152] kilsə ataları

IV əsrdə Xristianlıq artıq bütpərəstlik üzərində tam qələbə çalmışdır və Roma imperiyasının rəsmi dövlət dininə çevrilmişdir. Arianlıqla Atanasiosun ardıcılları arasında gedən çəkişmələr zamanı




Roma imperatorları müxtəlif dövrlərdə öz siyasi maraqla-rını rəhbər tutaraq bu iki cərəyanı dəstəkləyirdilər. Lakin sonda Atanasiosun ardıcılları, yəni Atanın oğulla bir mahiyyətə malik olması doktrinası tərəfdarları qalib gəlmişdilər. Məhz bu cərəyan dövlət tərəfindən tanınmış və imperiyanın rəsmi Kilsəsini təşkil etmişdi. Bütpərəstlərlə birlikdə bütün başqa xristian cərəyanları və təriqətləri qadağan olunmuş, onların tərəfdarları isə təqiblərə məruz qalmışdılar. Bu proseslərlə bərabər, rəsmi xristian Kilsəsinin ideologiyası da yaranmaqda idi. Dini ehkamların sabitləşməsi, onların fəlsəfi əsaslarının işlənməsi,

---

[152] Kappadokiya – yunan sözüdür. Müasir Türkiyənin mərkəzində (Kiçik Asiya yarımadasının mərkəzində) yerləşən qədim yerin adıdır.

sistemləşdirilməsi işi imperiyanın həm Şərqində, həm də Qərbində gedirdi. Şərqdə bu işi İsgəndəriyyəli Atanasios, Kesariyalı Basilios, Nazianzlı Qreqorios və Nissalı Qreqorios və Yohannes Xrisostomos adlı kilsə ataları etmişdilər. Onlara “kappadokiya atalari” deyirdilər. Qərbdə isə bu iş Mediolanlı Ambrosius, Stridonlu Hiyeronimus, Avqustinus və Böyük Qreqorios tərəfindən aparılmışdır. Bu dövrün patristikasına neoplatonizm ideyaları çox böyük təsir göstrəmişdir.

*Kesariyalı Basilios (Basileios Kaisareias)*

Kesariyalı Basilios (330-379) kappadokiyalı Kilsə atalarından biri idi. O abid həyat keçirirdi, sonra isə Kappadokiyanın Kesareya[153] şəhərinin yepiskopu olmuşdur. Arianlara qarşı mübarizə aparırdı. Onun əsərləri arasında homiletik[154] üslubda yazılanlar, xüsusi yer tutur. Bu üslubda Basilios, Bibliyanın «Varlıq» kitabının əvvəlində bəhs edilən Tanrının altı günə dünyanın yaradılmasına[155], «Zəbur» Kitablarına[156], müxtəlif əxlaqi mövzular haqqında homiliyalar yazmışdır. Abidliyə həsr olunmuş əsərləri arasında «Regu-lae morales» (Əxlaqi qaydalar), «Asceticon magnum sive Quaestiones» (Qısa qaydalar) ki-



153 Kesareya (latınca “Caesarea”) – müasir Türkiyədə Qeysəri (Kayseri) şəhəridir. Daha qədim zamanlarda bu şəhər Mazaki adlanırdı, Kappadokiya çarlarının paytaxtı olmuşdu.

154 Homiliya (yunanca “homileo” adamlarla söhbət etmə mənasında işlənilir) – yığıncaqda deyilən nitq deməkdir. Homiliya kilsədə moizənin bir növüdür. Bu söhbətləri keşişlər, Müqəddəs Kitabın camaata oxunuşundan sonra, onun mənalarının açılması üçün aparırlar.

155 «Homiliae in hexaemeron» (Altı günün ərzində yaradılış haqqında söhbətlər) // Текст первых девяти бесед приводится по изданию: Творения иже во святых отца нашего Василия Великаго, Архиепископа Кесарии Каппадокийския. Ч.1. — Москва, 1891. — С. 5–149. Беседы 10 и 11 по «Журналу Московской Патриархии», 1972, № 1. http://www.krotov.info/library/v/vasi_vel/6d_1_4.html

156 «Homiliae super psalmos» (Zəbur haqqında söhbətlər)//Творения. Василия Великого. СПб.: изд-во П.П.Сойкина, 1911. Т. 1. С. 94-119. http://www.krotov.info/library/v/vasi_vel/1_094.html

mi əsərləri vardır. Bundan başqa onun arianlığın əleyhinə yazdığı «Contra Eunomium»[157] (Eunomiuma qarşı) əsəri və «De Spiritu Sancto»[158] (Müqəddəs ruh haqqında) risaləsi vardır.

Öz əsərlərində Basilios bəzi hallarda antik fəlsəfəyə müraciət edir. Birinci növbədə bu cür müraciətlər, onun «Homiliae in hexaemeron» əsərindəki kosmoloji baxışlarına aiddir[159]. Burada o Platonun «Timeus» (Timaeus) əsərindən istifadə etmişdir.

Basilios hesab edirdi ki, üç sifəti bir olan Tanrı əbədidir, dəyişməzdir, dərk olunmazdır. Antik fəlsəfədə Tanrının materiya ilə birgə əbədi mövcudiyyəti ideyasını Basilios rədd edir. Onun fikrincə, yaradılan hər şeyin həm mövcud olması (aktivliyi), həm də nəzərdə tutulan inkişafı (potensiyası) vardır. Deməli yaradılış, yunan fəlsəfəsində olduğu kimi, əvvəlcə materiyanın, sonra isə ondan müxtəlif formaların əmələ gəlib, yayılması istiqamətində getmişdir.

Yunanlar xristianlara etiraz edərək, «Tanrı yaradılışdan öncə nə edirdi?» sualına cavab verərək deyirdi ki, Bibliyada deyilən «Başlanğıcda Tanrı yeri və göyü yaratdı...»[160] ifadəsini zamanın daxilində yaradılış kimi başa düşmək olmaz. «Başlanqıcda…» sözü də zaman mənasında başa düşülməməlidir. Buna görə «Tanrı yaradılışdan qabaq nə ilə məşğul idi» sualını vermək düzgün deyil. Zaman da, başqa şeylər kimi, yaradılmışdır və yalnız bu dünyaya aiddir, Tanrıya yox[161]. Deməli «Yaradılış» kitabının əvvəlində dünyanın birinci gün yaradılması ifadəsi, bir prinsip kimi başa düşülməlidir. Sonra yaradılışlar isə bu "günün" nəticəsi, davamıdır.

Daha sonra Bibliyada keçən "yaradılışın 6 günü" sözlərini də hərfi mənada başa düşmək olmaz. Bu yalnız simvolik, insan şüuruna uyğun bir ifadədir. Onun mahiyyəti isə dərk olunmazdır.

Basilios, öz əsərində, insanın yaradılışına da xüsusi yer verir. O insanda Tanrı obrazının həkk olunması haqqında söhbət açır. İnsan hər bir şeyin mərkəzində yerləşdirilir, ən yüksək məxluqdur.

---

[157] Rus dilinə tərcüməsi bu ünvanda yerləşir:
http://apologia.narod.ru/catholic/vasil/spirit/bas_1contra1.htm

[158] О Святом Духе // Творения. Василия Великого. СПб.: изд-во П.П.Сойкина, 1911.
http://www.krotov.info/library/v/vasi_vel/duh01.html

[159] Мейендорф И. Введение в Святоотеческое богословие, часть 2, гл. 2, М., 2001. http://www.krotov.info/library/m/meyendrf/patr_12.html

[160] Yaradılış 1: 1.

[161] Homiliae in hexaemeron I, 6.

Basiliosun kosmologiyasında göylərin çoxluğu ideyası vardır. Birinci göy yeri əhatə edir. İkinci göydə ruhi varlıqlar yaşayır. Bu mələkələr və ölən möminlərin ruhlarıdır. İnsan mənəviyyatının mənbəyi məhz budur. İlk insan da mələkələrə bənzər varlıq idi, baxmayaraq ki, bədənə malik idi. Lakin onun günaha batması (qadağan olunmuş ağacın meyvəsini yeməsi), duyğular aləmindən yerə endirilməsinə səbəb oldu. Lakin, insanda Tanrının obrazı vardır. Tanrı ona əql verib. Buna görə də insan öz ruhunu bədənə bağlılıqdan, ehtiraslardan təmizləyərək (katarsis), itirilmiş İlahi bənzərliliyini özünə qaytarmalıdır. Üçüncü göy isə əqlin dərk etmədiyi İlahi bir məkandır. «Üç göy» ideyası neoplatonizmin Vahid-Əql-Ruh üçlüyünü və onlar arasında olan münasibətləri təkrarlayır.

Arianlığın əleyhinə yazılmış «Eunomiuma qarşı» əsərində, Basilios, Eunomium adında bir arianın fikirlərini təkzib edirdi. Eunomiumun fikrincə, bu dünyada Tanrının dərk edilməsi prosesi, onun yaratdığı məxluqat haqqında düşüncələrin əsasında, yaxud Onun təcəllilərinin vasitəsi ilə əldə etmək olar. Lakin bu bilgi simvolik xarakter daşıyır. Eunomiumun fikrincə, Tanrı haqqında bilavasitə bilik də əldə etmək mümkündür. Buna İlahi mahiyyəti olan əqlin təmizlənməsi və yüksəlməsi vasitəsi ilə nail olmaq olar. Bu halda, Tanrının heç kəs tərəfindən doğulmaması bəlli olur. İsa da ondan doğulmayıb, onun məxluqudur. Deməli o, Tanrı deyil.

Bu arian fikrinin əleyhinə çıxış edən Basilios, Eunomiuma cavab verirdi ki, insan əqli, Tanrının əsl mahiyyətini heç bir vaxt dərk edə bilməz. Tanrı transsendental olaraq qalır. Dünyanı yaradanda isə o öz sözündən (İsa-Loqosdan) istifadə etmişdi. Buna görə, bu dünyada Tanrı haqqında yalnız simvolik deyil, həm də həqiqi biliklərə nail olmaq olar. İsanın doğulmuş Oğul olması isə, onun məxluq olması demək deyil. Oğul Atadan doğulmuşdur. Onun yoxdan yaranması iddiası yanlışdır. O əbədi olaraq doğulmuş Oğuldur.

«De Spiritu Sancto» adlanan kiçik risalədə, Basilios Müqəddəs Ruhun Atadan və Oğuldan kiçik olmamasından söhbət açmışdır. Lakin onun birbaşa Tanrı olmasından danışmır. Bu inanc hələ onun dövründə formalaşmışdır və hətta Nikeya məclisinin qərarında öz əksini tapmamışdır. Üçlük (trinitarizm) formulası bundan sonra formalaşmışdır. Lakin Basilios işarə edir ki, əgər Müqəddəs Ruh həyatverici başlanğıcdırsa, onda o Tanrıdan fərqli bir şey deyil. İsa da hər bir şeyi Ruhun vasitəsi ilə etmişdir. Beləliklə xristian üçlüyünün formalaşmasında Basilios mühüm addım atmışdır.

### *Nazianzlı Qreqorios (Gregorios Nazianzenos)*

Nazianzlı Qreqorios (330-390) Basiliosun yaxın dostu olmuşdur, «Theologos» (İlahiyyatçı) adı ilə də tanınmışdır. O Nazianz və Sasima şəhərlərinin yepiskopu olmuşdur. Sonra isə imperator Feodosiusun (Theodosius) (346-395) dövründə Konstantinopolisin arxiyepiskopu olmuşdur və 381-ci ildə II Beynəlxalq Kilsə Məclisinin Konstantinopolisdə çağırılması təşəbbüsündə imperatora dəstək vermişdi və bu məclisin fəal iştirakçısı, sonra isə sədri oldu. Bu məclisdə o, arianlara və Nikeya Kilsə Məclisində qəbul edilmiş xristian dininin simvolunun tərəfdarlarına qarşı çıxış etdi. Məlum olduğu kimi, Nikeyada yalnız Atanın Oğulla eyni mahiyyətə malik olduğu müddəası qəbul edilmişdi. Müqəddəs ruh hələ bura daxil edilməmişdi. Məhz Konstantinopolis Kilsə Məclisində Xristianlığın əsasını təşkil edən trinitar (üçlük) simvolunun qəbul edilməsi prosesi sona çatmışdır. Nikeya simvolunun tərəfdarlarını isə bu Məclisdə İsgəndəriyyəli Pavlus təmsil etmişdi. Lakin onun mövqeyi rədd edilmişdi. İmperator Feodosius kappadokiyalı ataların mövqeyini dəstəkləmişdir

Qreqorios bir neçə əsər müəllifi idi. Onların arasında «De Theologia»[162] (İlahiyyat haqqında sözlər) adlı moizələr, poetik əsərlər, məktublar vardır..

Öz əsərlərində Qreqorios ilk növbədə Tanrının dərk edilməsinin mümkünsüzlüyü haqqında yazırdı[163]. Tanrı onun əsərində neo-platonizmin vahidinə daha da yaxındır və yaradılışdan mütləq olaraq uca məkanlardadır. Onun sözü olan İsa, dünyaya cisma-ni şəkildə gəlmişdir. Onun gəlişi bir qayaya bən-zəyir. Bu qaya Tanrının hər şeyi dağıtmaq qüd-rətində olan nurunun açıq parlanmasından dün-yanı qoruyur. Yeni platoçular kimi, Nazianzlı Qreqorios da hesab edirdi ki, Tanrı ruhdur. İn-sanda Onunla rabitə yaradan İlahi ruhun his-səcikləri vardır. Bu da insan ruhudur ki, onun vasitəsi ilə hər bir kəs Tanrıya doğru yönələ bilər.



[162] Bu əsərin bəzi hissələrinin rus dilinə tərcüməsi burada yerləşdirilmişdir: http://christianity.shu.ru/Authors/gregnaz.htm

[163] Григорий Богослов. Слово 28. О богословии второе // Собрание творений: в 2т. Т.1. - Мн.: Харвест, М.: АСТ, 2000, с. 476-502. http://www.abovo.net.ru/book/84108

Lakin Tanrının dərk olunmamasından danışan Qreqorios, eyni zamanda, axirətdə möminlərin Tanrını görmək qabiliyyətində olması haqqında fikir irəli sürmüşdür.

Tanrının transsendentliyindən danışan Qreqorios, Onu duymağın, Onunla görüşün mümkün olmasını da təsdiq edirdi. Çünki Tanrı şəxsiyyətdir, hər bir insan Onun varlığını duyur, lakin mahiyyətinə vara bilmir.

Daha sonra Qreqorios Ata-Oğul cütlüyünə Müqəddəs Ruhu da əlavə edərək, Tanrının bu üçlükdən ibarət olduğunu iddia etmişdi. Müqəddəs Ruh da onlarla vəhdət təşkil edir. Bu üçlüyün hər bir şəxsi *hipostasis* adlanır. Onlar vəhdət təşkil etsələr də, hərəsinin öz xüsusiyyətləri vardır. Yəni Ata, Oğulun Atasıdır; Oğul, Atanın Oğludur; Ruh isə Atadan çıxan Oğulun Ruhudur. Ruh məxluq deyil. Gələcəkdə Katolik Kilsə Müqəddəs Ruhun "həm də oğuldan" (filioque) çıxmasını iddia etmişdir. Bu məsələ ortodokslarla (pravoslavlarla) katoliklərin arasında böyük ixtilafa səbəb olmuşdur.

Qreqorios xristioloji problemlərə aid olan mübahisələrdə də iştirak etmişdir. Ondan qabaq İsanın Loqos olması və Tanrı ilə vəhdət təşkil etməsi; onun Oğul olması haqqında ehkamlar qəbul olunmuşdu. Lakin sonra, İsada eyni zamanda insani və İlahi təbiətin necə, və hansı nisbətdə yer tutması problemi ortalığa çıxdı. O zamanlar bir xristian ideoloqu - Laodikiyalı Apolinarios, İsanı insan bədəninə girmiş Tanrı kimi təsəvvür edirdi. Lakin ona qarşı çıxış edən Qreqorios, onun insan olduğu haqqında fikir irəli sürmüşdür. Yəni İsa əvvəl bədəni olmayan Tanrının oğlu idi, lakin sonra o insan kimi dünyaya gəldi, insan oldu, lakin onda İlahi mahiyyət də var idi.[164]

### *Nissalı Qreqorios (Gregorios Nysses)*

Kappodokiyalı ataların üçüncü nümayəndəsi Nissalı Qreqorios (335-394) olmuşdur. O Kesariyalı Basiliosun kiçik qardaşı idi və Nissa şəhərinin yepiskopu olmuşdur. 381-ci ildə o, Konstantinopolisdə keçirilən Ümumdünya Kilsə məclisində iştirak etmişdir.

Nissalı Qreqorios bir neçə kitab müəllifi olmuşdur. Onlardan bəziləri: «De vita Moysis» (Musanın həyatı haqqında), «In Hexaemeron»[165] (Dünyanın altı günə yaranması), «De hominis opificio» (İnsanın quruluşu

---

[164] Presviter Kledoniusa Apolinariosa qarşı // Григорий Богослов. Собрание творений: в 2т. Т.2. - Мн.: Харвест, М.: АСТ, 2000, с. 9-18. http://www.pagez.ru/lsn/bogoslov/049.php

[165] İngilis dilinə tərcüməsi burada yerləşdirilmişdir: http://www.bhsu.edu/artssciences/asfaculty/dsalomon/nyssa/hex.html

haqqında), «Quod non sint tres Dii – ad Ablabium» (Tanrının üç olmaması haqqında Ablabiya müraciət), «Logos katechetikos megas» (Böyük katehesis[166]).



«Quod non sint tres Dii – ad Ablabium» əsəri arianlara qarşı yazılmışdır. Bu əsərdə Qree-qorios, başqa kappadokiyalı atalar kimi, Ata, Oğul və Müqəddəs Ruhun bir birindən fərqlən-məsinin zərüri olması haqqında yazmışdır. Onun əsas məqsədi - İsanın ilahi təbiətə malik olmasını sübuta yetirmək idi. Yalnız bundan sonra o, Oğu-lun Ata ilə birlik təşkil etməsi ideyasını hallan-dırmışdır. Beləliklə Tanrının birliyi Üçlüyün möv-cudluğundan çıxarılırdı. Qərbdə isə Avqustinus Avrelius öz mülahizələrini əks istiqamətdə aparır dı.O əvvəl Tanrının birliyini təsdiq edib, sonra isə ondan Üçlük ideyasını meydana gətirirdi.

Lakin Üçlük ideyasına görə kappodokiya atalarını üçtanrılıqda ittiham edirdilər. Buna görə də Qreqorios «Quod non sint tres Dii – ad Ablabium» əsərində yazırdı ki, əslində bu həqiqətə uyğun deyil. Onun fikrincə Tanrı vahid enerjiyə malikdir. Eyni zamanda bu enerji üçə bölünür. Lakin Üçlüyün hər bir üzvü başqasından müstəqil şəkildə heç nəyi yaratmır. Buna görə də üç sifəti olan Tanrıya iman, üçtanrılılıq demək deyil. Üçlük vəhdət təşkil edir.[167]

«Apolinariosa qarşı»[168] risaləsində Qreqorios, İsanın eyni zamanda ilahi və insani mahiyyətə malik olması haqqında yazmışdır. İsanın mahiyyəti bir, təbiəti isə ikidir.

Dünyanın yaradılması məsələsində Qreqorios hesab edirdi ki, Tanrı varlıqları yaradaraq, eyni zamanda, onların inkişaf imkanlarını (potensiyasını) da təbiətlərinə salmışdı. Bu ideya platonizmə uyğundur, çünki onlar da hesab edirdilər ki, hər şeyin inkişaf imkanı vardır, sonra isə bu imkanlar gerçəkləşir. Lakin bu imkanlar əvvəlcədən Loqosda, ona tabe olunmuş şəkildə, yerləşir. Bu imkandan gerçəkləşən hər şey, Tanrı tərəfindən əvvəlcədən təyin edilmiş məqsədə qulluğ edir. Tanrının altı günə

---

166 Katexesis (yunanca katechesis) – xristian təliminin sual-cavab formasında ifadə edilməsidir.

167 Архимандрит Киприан (Керн). Золотой век святоотеческой письменности. М.: Паломник, 1995. http://www.orthlib.ru/ Fathers/kern_5.html

168 İngilis dilinə tərcüməsi burada yerləşdirilmişdir: http://www.bhsu.edu/artssciences/asfaculty/dsalomon/nyssa/appolin.html

dünyanı yaratmasını, Qreqorios Müqəddəs Kitabın bir təvili, alleqoriyası kimi başa düşürdü.

«Logos katechetikos megas» əsərində Qreqorios insanı ən yüksək məxluq hesab edir, o Tanrıya bənzər vucudda yaradılmışdır, ölməzdir[169]. İnsan əvvəlcədən bütün İlahi nemətlərin daşıyıcı kimi Tanrı tərəfindən həyata gətirilmişdir. Lakin sonra o, günaha batmışdır və bu nemətləri itirmişdir. Dünya yaradılanda, insan Tanrı ilə dünya arasında bir vasitəçi idi. İnsanın günaha batmasından sonra isə dünya Tanrıdan təcrid olunmuşdur. Lakin günahdan sonra da insan Tanrıya bənzər surətini və onunla rabitəni itirməmişdir. Bu rabitə onun azad olmasındadır.

«De hominis opificio» risaləsində Qreqorios Adəmi təkcə bir insan kimi təsəvvür etmir. Adəm, eyni zamanda, bütün bəşəriyyətin təcəssümüdür. İsa isə yeni Adəmdir. Onun gəlişindən sonra Kilsə yaranmışdır. İsa, Tanrının obrazını gerçəkləşdirən, Kilsənin başçısıdır. Bütün iman edən insanlar onun bədənini təşkil edir. Yalnız bu bədənin üzvləri olan insanlar, günah nəticəsində itirilmiş İlahi obrazı yenidən özlərinə qaytara bilərlər. Qreqoriosa görə Tanrı insanı kişi və qadın kimi ikili yaradıb. Lakin cənnət ağacından meyvəni yeyib günaha batana qədər, Adəm və Həvva bir-biri ilə cinsi yaxınlıq etməmişdilər. Yalnız bu günahdan sonra onlar cinsi fərqlərini dərk etmişdilər. Bizim yaşadığımız dünya Tanrının nəzərdə tutduğundan və planlaşdırdığından fərqlənir. Bunun səbəbi yenə də ilk günahdadır. [170]

Dünyada olan şəri Tanrı yaratmayıb. Şər - xeyrin olmamasıdır, xeyrdən onun çəkilməsidir. Adəm və Həvva o günaha, öz azad iradələrini düzgün istiqamətə yönəltmədiklərinə görə, batıblar. Tanrı onları buna məcbur etməmişdir. Tanrı ölümü buna görə yaratmışdır, yəni ölüm də ilk insanın günahının nəticəsidir. İnsanın xilası isə, insan şəklində dünyaya gələn Tanrı tərəfindən təmin edilir (yəni İsa nəzərdə tutulur).[171]

Beləliklə Qreqorios belə nəticəyə gəlir ki, bütün bəşəriyyəti özündə cəmləşdirən Adəm, günah edərək onu tənəzzülə uğratmışdır. Yeni Adəm isə İsadır. O, öz bədəni olan kilsə vasitəsi ilə, günaha batmış bəşəriyyəti xilasa doğru aparır.

---

[169] Logos katechetikos megas, 5. İngilis dilinə tərcüməsi burada yerləşdirilmişdir: http://www.ccel.org/fathers2/NPNF2-05/Npnf2-05-39.htm#P3865_2535179

[170] De hominis opificio 16. Rus dilinə tərcüməsi burada yerləşdirilmişdir: http://www.vehi.net/nissky/nissky.html

[171] Logos katechetikos megas XXXII. İngilis dilinə tərcüməsi burada yerləşdirilmişdir: http://www.ccel.org/fathers2/NPNF2-05/Npnf2-05-39.htm#P4008_2653883

Daha sonra, Qreqorios, çarmıxa çəkilən İsanın özünü qurban verməklə, bəşəriyyətin günahlarının bağışlanması haqqında maraqlı fikirlər ifadə etmişdir. Onun fikrincə bu qurban Tanrıya deyil, şeytana verilmişdir. Məsələ bundadır ki, şeytan, Adəmi aldadaraq, onu cənnət ağacından meyvəni yeməyə təhrik etmişdir[172]. Buna cavab olaraq İsa özünü qurban verməklə şeytanı aldatmışdır. Yəni şeytan, bu dünyanın hökmdarı olaraq, öz hakimiyyətini daha da qiymətli bir şeyə dəyişdirə bilərdi. Bu daha da qiymətli bir şey isə İsa olmuşdur. Onun möcüzəvi şəkildə dünyaya gəlməsi, göstərdiyi möcüzələri şeytan üçün dözülməz idi. O İsanı məhv etmək istəyirdi. Lakin şeytan anlamamışdır ki, İsa ondan daha qüvvətlidir, çünki əslində onun zahiri insan vücudu arxasında Tanrının qüdrəti vardır. Eyni zamanda onu qeyd etmək lazımdır ki, rəsmi kilsə təliminə görə İsa bəşəriyyətin günahlarının bağışlanması üçün özünü Tanrıya qurban vermişdir. Lakin buna baxmayaraq Qreqorios, İrineus, Origenus və Avqustinusun əsərlərində "Şeytanın aldadılması" ideyasına rast gəlmək olar.[173]

Beləliklə Tanrı bəşəriyyəti qurban vasitəsilə xilas etmişdir. Xristian təliminə görə, Tanrı insanı ən yüksək bir məxluq kimi yaratmışdı. O eyni zamanda Tanrının oğlu və dostu olmalı idi. Lakin sonra insan bu təbii rabitəni itirmişdi. Buna görə də Ümumdünya fəlakəti baş vermişdir və insan şeytan tərəfindən əsarətə alınmışdır. Beləliklə Tanrı təhqir olunmuşdur. Buna görə də şeytan əsarətindən xilas olmaq işini Tanrının özü görmüşdür. O insanın azadlığını saxlamaq şərti ilə, onu əsarətdən qurtarmışdı. Bu fikirlər qnostisizmə yaxındır.

Qreqorios hesab edirdi ki, insan həyatının məqsədi Tanrıya tərəf yönəlmək, ona tərəf yüksəlməkdən ibarətdir. Bu yüksəlmə üç pilləlidir, lakin onların biri-birinin arxasınca ardıcıl gəlməsi şərt deyil. Bu fikirlərini Qreqorios «De vita Moysis» [174] kitabında ifadə etmişdir.

Birinci pillə təmizlənmədir (katarsis). Bu mərhələdə insan, özünü Tanrıdan uzaqlaşdıran hər bir şeydən təmizlənməlidir. Bu ideya stoitsizmdən alınmışdır.

İkinci pillədə, ehtiraslardan təmizlənmiş şüur ətraf mühiti başqa keyfiyyətdə görüb, dərk edir. Buna "təbii görmə" qabiliyyəti deyilir.

---

[172] Yaradış, 3.

[173] Иоанн Мейендорф. Введение в светоотеческое богословие. Вильнюс-Москва, "Весть", 1992, Часть 2, гл. 4. http://www.klikovo.ru/db/book/msg/894

[174] О жизни Моисея законодателя, или о совершенстве в добродетели // Антология. Восточные Отцы и учители Церкви IV века. Том II. Издательство МФТИ, 2000, сс. 257-328. http://abovo.net.ru/book/82351

Dünyanı bu cür görən insan hər şeydən daha da səmərəli istifadə edə bilər. Bu cür görüş hər şeyin mahiyyətini dərk etmə, həyatdan həzz alma imkanları verir.

Üçüncü mərhələ isə Tanrını dərk etmək, Onu görməkdir. Buna Qreqorios *teosis* deyir. Adi halda Tanrını görmək mümkün deyil. Ona görə də buna nail olmaq üçün, insan bir növ "özündən çıxmalıdır", əqlin ona lazım olmamasının dərk edilməsi səviyyəsinə çatmalıdır. Bu cür hissiyyat o qədər qeyri-adidir ki, Qreqorios onu ifadə etməyə çətinlik çəkmişdir. O, bu halı "ayıq olaraq sərxoş olma" adlandırmışdı. Yəni ətrafda hamıya elə gəlir ki, adam sərxoşdur, lakin əslində o, Müqəddəs Ruhdan ilham alır. Qreqorios bu halı, Əhdi-Ətiqdə rəvayət edilən həvarilərin hallarına bənzədirdi[175]. Bu ideyalar şübhəsiz neoplatonizmdən alınmışdır.

## Yohannes Xrisostomos

Yohannes Xrisostomos (Ioannes Chrysostomos) (344-407) kilsə atalarının ən tanınmışlarından biri idi. O Suriyanın mərkəzi şəhəri olan Antioxiyada anadan olmuşdur və orada təhsil almışdır. Sonra o, bir müddət rahib həyatı yaşamışdır. Daha sonra isə o, Antioxiyada keşiş olmuşdur. 397-ci ildən sonra Yohannes ən yüksək xristian rütbəsinə nail olmuşdur. O Konstantinopolisin patriarxı olmuşdur. Lakin onun imperatorla ixtilafı yarandıqdan sonra o, 402 ildə bu vəzifədən azad olunmuşdu.

Yohannes Xrisostomos çoxlu kitab müəllifi olmuşdur. Onların böyük əksəriyyətini homiliyalar təşkil edirdi. Ümumiyyətlə isə o, Müqəddəs Kitabın yozulması(ekzegetika) ilə tanınmışdır. Onun fikrincə, dörd İncilin müxtəlif müəlliflər tərəfindən, bir-birindən müstəqil olaraq, müxtəlif vaxt və məkanda yazılması, orada olan rəvayət-lərin həqiqiliyinə dəlalət edir. Hətta onların arasında olan ziddiyyətlər də bu həqiqəti təsdiq edir. Çünki bu o deməkdir ki, İncilləri yazan müəlliflər bir-biri ilə ittifaqa girmədən eyni şeyləri yazmışdılar. Bu ziddiyyətləri, Yohannesin fikrincə, nəzərə çarpacaq qədər ciddi hesab etmək olmaz.



Yohannes arianlara qarşı da çıxış et-

175 Həvarilərin işləri, 2.

mişdi. Burada o kappadokiyalı müqəddəs ataları təkrarlayırdı. İsada eyni zamanda İlahi və insani mahiyyətin hansı şəkildə bir-biri ilə uyğunlaşması məsələsində Yohannes dəqiq bir fikir söyləməmişdir.

Xristian təlimində ən mühüm problemlərdən biri “ilk günah” problemidir. Yohannesin fikrincə, bunun nəticəsində bəşəriyyət günahlara və ölümə düçar olmuşdur. İsanın gəlişi isə xilasedici olmuşdur. Ona iman edən xristianların günahları bağışlanmışdır və onlara gələcəkdə əbədi həyat vəd edilmişdir.

Yohannes Xrisostomos var-dövlətə qarşı çıxış edirdi, müxtəlif kilsələri və Kilsə xadimlərini şiddətli tənqid atəşinə tuturdu. Kilsələr insanın ruhunu zənginləşdirməlidir, binaların daxilini yox. Dünya malı insanlar arasında qeyri-bərabərliyə səbəb olur, deməli ədalətsizliyin əsasını təşkil edir. Yohannesin fikrincə, əgər hər şey Tanrıya məxsusdursa, onda xristianlar “bu mənimdir, bu isə sənin” sözlərini dilə gətirməməlidirlər.

Keşiş zümrəsini imperatorun hakimiyyətindən yüksək sayan İoann, dövlətin kilsə işlərinə müdaxilə etməsi cəhdlərinin əleyhinə çıxış edirdi. Dövlət isə günahın nəticəsidir. Dövlətin verdiyi cəzaların əksinə olaraq, Kilsə mərhəmət prinsipindən çıxış edir.

Yohannes Xrizostom əsasən əxlaqi məsələlərə həsr olunan bir çox əsər müəllifi olmuşdur[176]. Ən tanınmış əsərlərinin biri «Peri hierosynes» adlanan keşişlər haqqında kitabdır. Bundan başqa onun homiliyaları, məktubları, Bibliya kitablarına yazılmış şərhləri kilsə xadimləri tərəfindən yüksək qiymətləndirilir.

---

[176] Yohannes Xrisostomosun əsərlərinin rus dilinə tərcüməsi bu səhifədə yerləşdirilmişdir: http://www.ispovednik.ru/zlatoust/index.htm

V FƏSİL

# XRİSTOLOJİ MÜBAHİSƏLƏR

## Xristoloji mübahisələrin başlanması

IV əsrin sonunda, arianlıq tamamilə məğlub ediləndən sonra, İsanın Ata ilə mahiyyətcə bir olması və Tanrının üçlü (trinitar) təbiətə malik olması ideyaları Xristianlığın rəsmi dini doktrinasına çevrildi. Lakin bu qalibiyyət rəsmi Kilsəni yeni problemlərlə üzləşdirdi. Məsələ bundadır ki, əgər İsa Tanrı ilə eyni mahiyyətə malikdirsə, digər tərəfdən isə, bu dünyaya bir insan kimi gəlmişdirsə, onda deməli İsa hər iki təbiətə malikdir. Lakin dünyaya gələn İsada İlahi təbiətin insan təbiəti ilə hansı şəkildə, hansı münasibətdə birləşməsi sualı yaranmışdır.

Bu suallara cavab axtaran kilsə xadimləri uzun müddət sürən bir-birilə mübahisələr aparmışdırlar. Bu mübahisələr *xristioloji* (yəni, İsa Məsihin mahiyyətinə aid olan) mübahisələr adlandırılmışdır.

İsanın təbiəti haqqında IV əsrin sonunda müxtəlif fikirlər mövcud idi. Bəziləri onu insan, digərləri isə, Tanrı kimi qəbul edirdilər. Tertullia-



nus «De Carne Christi» əsərində, onu in-san bədəninə girmiş Loqos kimi təsəvvür edirdi. Origenus hesab edirdi ki, İsada in-san ruhu vardır. İsanın təbiəti haqqında daha da çox Laodikiyalı Apolinarios dü-şünmüşdür. Onun fikirləri monarxianlara və arianlara daha da yaxın idi. O hesab edirdi ki, İsada iki təbiət eyni zamanda ola bilməz. Onda olan insani mahiyyət tam və kamil deyildir. İsada insan ruhu deyil, onun əvəzində Loqos vardır[177]. Yəni insan bədəni İlahi Loqosla idarə edilirdi. Lakin

[177] А. В. Карташев. Вселенские Соборы. Париж, 1963. http://lib.eparhia-saratov.ru/books/10k/kartashev/councils/69.html

bu fikir Kilsə tərəfindən dəstəklənməmişdir. Kappodokiyalı atalar İsada insan ruhunun olduğunu iddia etmişdirlər. Bununla belə, onlar İlahi və insani təbiətin İsada necə yerləşməsi məsələsinə aydınlıq gətirə bilməmişdirlər. Nissalı Qreqorios hətta İsanın insan təbiətinin sonradan İlahi təbiətə çevrilməsi fikrinə çox yaxınlaşmışdır.

Qeyd etmək lazımdır ki, Xristianlıqda xristoloji məsələ, tam olaraq, həll olunmamışdur.

## Nestorianlara qarşı mübarizə

IV əsrdə xristian ilahiyyatının iki ən tanınmış məktəbi fəaliyyət göstərirdi. Biri Antoxiya, digəri isə, İsgəndəriyyədə yerləşirdi. Xristoloji məsələdə bu məktəblər arasında ixtilaf yaranmışdı.

Antioxiya məktəbinin nümayəndələri olan Tarsuslu Diodorus və Mopsuetsli Teodorus (Theodorus) hesab edirdilər ki, İlahi və insani təbiətlər müxtəlif olduğuna görə, onlar vəhdət təşkil edib, birləşə bilməzlər. Buna görə də Tanrıdan doğulan Oğul (Loqos), sonra Məryəm tərəfindən doğulan İsanın bədəninə girmiş, onu özü üçün məbəd etmişdir[178]. Bu fikirləri sonra Antioxiya məktəbinin ardıcılı olan Nestorius təkrar etmişdir. Lakin xristian kilsəsinin digər nümayəndələri onlara qarşı çıxış etmişdirlər və onların fikirlərini rədd edib, heres elan etmişdirlər. Nestoriusa görə, Məryəm İsanı insan kimi doğmuşdur. Sonra İsa insan zəifliyinə güc gələrək Tanrının oğlu oldu. Onda insani və İlahi mahiyyətlər nisbi birlik təşkil edir və bir-birinə qarışmır.

Onlara qarşı İsgəndəriyyə məktəbindən yepiskop Kiril (Cyril) çıxış etmişdir. O deyirdi ki, Tanrının əzəli Sözü (Loqos) insan oldu[179]. Tanrı öncə olmadığı bir şey oldu. O insanın təbiətini və bədənini özününkü etdi. Deməli Loqos insan təbiətini özünə daxil etdi. Özü isə, olduğu kimi qaldı. İsada insan təbiəti ilə birləşərək, Loqosun təbiəti dəyişməmişdir. O insan təbiətini özünə daxil etmişdir. Bu insanı (İsanı) isə, Məryəm doğmuşdur. Buna görə də Məryəm Tanrı anasıdır. İsada birləşən iki təbiət (insani və İlahi) bir-biri ilə qarışmamışdır. Kirilə görə Tanrı bəşəriyyəti xilas etmək üçün insan kimi dünyaya gəlməli idi. İsanın bədəni isə onun üçün Tanrının bədəni idi. Nissalı Qreqorios kimi o İsaya "yeni Adəm" deyirdi.[180]

---

[178] Yəhya 2, 19-21.

[179] Yəhya 1, 14.

[180] Kirilin xristoloji fikirləri onun «Nestoriusa rədd məktubunda» və «Nestoriusun Kilsədən çıxarılması haqqında məktubunda» ifadə edilmişdir. Bax: http://www.agnuz.info/book.php?id=369&url=page02.htm

Beləliklə Kiril üçün İsada Loqos təcəssüm etmişdir. Onun fikrincə, İsada Loqosdan ayrı mövcud olan insan şəxsiyyəti olmamışdır. Buna görə də Tanrının özü iztirablardan keçərək çarmıxa çəkilmişdir və bununla bəşəriyyəti xilas etmişdir.

Kiril ortodoksal Xristianlığın əsaslarını ifadə etmişdir. Yəni İsada həm İlahi, həm də insani təbiət olduğunu iddia etmişdir.

428-ci ildə imperator II Teodosius (Theodosius) Konstantinopolis arxiyepiskopu vəzifəsinə Nestoriusu dəvət etmişdir. O isə, bu vəzifəni tutan kimi, müxtəlif hereslərə qarşı mübarizəyə başlamışdır. Onun birinci rəqibləri, İsada insan ruhunun deyil, əvəzində İlahi Loqosun olduğunu iddia edən Laodikiyalı Apolinariosun ardıcılları olmuşdurlar. Bu fikirləri rədd edən Nestorius, Loqosun İsaya sonra daxil olmasını və onda insani təbiətin İlahi təbiətlə qarışmamasını iddia edirdi. Lakin bu fikir etirazlarla qarşılanmışdı. Məsələ bundadır ki, o dövrdə həzrət Məryəmə sitayiş etmə çox geniş yayılmışdı. Onu Tanrı anası adlandırırdılar. Nestoriusun isə fikirlərindən belə çıxırdı ki, Məryəm Tanrını deyil, adi insanı doğmuşdur. Tanrı isə sonra öz Sözünü ona daxil etdi.

Buna etiraz edərək, Aleksandriya yepiskopu Kiril Nestoriusa onun təlimini rədd edən məktub yazmışdır. Lakin buna məhəl qoymayan Nestorius 428-ci ildə öz fikirlərini Konstantinopolisin Müqəddəs Sofiya kilsəsində açıq bəyan etmişdir. Bundan sonra o, öz əleyhdarlarını təqib etməyə başlamışdır. Buna cavab olaraq misirli rahiblər və ilahiyyatçılar onu heresdə ittiham etmişdir.

Daha sonra, 430-cü ildə, Nestorius imperiyanın qərbində təqiblərə məruz qalmış peliqiançıları[181] qəbul etmiş, Konstantinopolisdə yerləşmişdir. Bu xəbəri alan Kiril, bu dəfə Roma papazına şikayət məktubu yazmışdır. Bundan sonra papaz, həmən ildə, Romada Kilsə Məclisi yığıb, Nestoriusu pisləmişdi.

Bununla kifayətlənməyən Kiril, Nestoriusa daha bir məktub ünvanlamışdı[182]. Bu məktubda o, Nestoriusun təliminini rədd edib, onu lənətlənmişdi (Kilsədən xaric elan etmişdi).

---

[181] Pelaqiançılar – britaniyalı rahib Pelagiusun ardıcılları. Pelagius (360-418) "ilk günah" haqqında təlimi inkar edirdi. O deyirdi ki, insanın xilas olması onun özündən asılıdır. Yəni, insan mömin həyatla yaşasa xilas ola bilər. Günahları insan öz əməlləri ilə alır, onlar irsiyyətlə keçmir. Adəm və Həvvanın etdikləri günahın, onlardan törənən bəşəriyyətə aid olmaması fikrinə görə, Pelagius bir çox tanınmış Kilsə ataları tərəfindən pislənmişdi və onun fikirləri heres elan edilmişdi.

[182] Kirilin Nestoriusa ünvanladığı məktubları, rus dilinə tərcümədə, burada yerləşdirilmişdir: http://www.agnuz.info/book.php?id=369&url=page02.htm

Bu mübahisələrə son qoymaq məqsədi ilə imperator II Teodosius daha bir Kilsə Məclisinin yığılması üçün sərəncam vermişdir. Bu Məclis 431-ci ildə Efes şəhərində yığılmışdı. Burada Kiril Nestoriusa qarşı çıxış edib, onun tutduğu vəzifəsindən azad olunduğunu elan etmişdi. Lakin orada Nestoriusa dəstək verən antioxiyalı ilahiyyatçılar yox idi. Onların nümayəndələri bir qədər gecikərək, öz Məclislərini keçirib, Kiril və onu dəstəkləyən Efes yepispiskopu Memnonu pislədilər, və onları tutduğu vəzifələrindən azad olunduğunu elan etdilər. Getdikcə vəziyyət gərginləşirdi və keşişlər arasında qarşıdurmalar və zorakılıqlar başlandı. Vəziyyəti ələ almaq üçün, məclisdə iştirak edən imperatorun əmri ilə şəhərə, təcili surətdə, qoşun daxil edilmişdi.

Bu hadisələr zamanı Nestorius həps edilib Liviyaya sürgünə yollanmışdı. Bundan sonra Efes Kilsə Məclisi öz işini davam etdi. Orada Kirilin mövqeyi dəstəkləndi və İsada həm İlahi, həm də insani mahiyyətin birləşməsi, onların vəhdət təşkil etməsi ideyası bəyənildi.

Bütün problemləri həll etmək və sakitliyə nail olmaq üçün, imperator Kirili və Memnonu da həps etmişdir, lakin müəyyən vaxt keçdikdən sonra, onlar azad olundular.

Bütün səylərə baxmayaraq, ixtilaf həll edilməmiş qalırdı. Buna görə Kiril antioxiyalı ilahiyyatçılarla məktublaşmışdır və onları İsanın mahiyyəti haqqında ortaq və barışdırıcı fikrə dəvət etmişdi. Nəticədə antioxiyalılar barışdırıcı mövqe tutdular. Hər iki tərəf mövqelərini yumşaldaraq ortaq fikrə gəlmişdilər. Tərəflər belə qərara gəldilər ki, İsada İlahi və insani təbiət əvvəlcədən vardır, onlar vəhdət təşkil edir və Məryəm Tanrı anasıdır. Beləliklə antioxiyalıların bir hissəsi Efes Kilsə Məclisinin qərarı ilə razılaşdılar[183]. Lakin Nestoriusun kifayət qədər çox tərəfdarları var idi. Onlar Efes kilsəsinin qərarlarını rədd etdilər. Buna görə Bizans imperiyasında onlara qarşı şiddətli təqiblər başlandı və onların çoxu İrana mühacirət edərək orada öz kilsələrini yaratmışdılar. Gələcəkdə onlar Asiyanın bir çox bölgələrində missioner fəaliyyəti ilə məşğul olmuşdular və kifayət qədər nüfuza malik idilər. Bu günə qədər onların kiçik saylı icmaları mövcuddur.

## Monofizitlərə qarşı mübarizə

444-cü ildə, Kirilin ölümündən sonra, xristoloji problem üzrə daha bir ixtilaf başlandı. Bu dəfə Konstinopol kilsələrindən birinin arximandriti[184]

---

[183] Bu barədə 433-cü ildə Antioxiya sazişi (uniyası) imzalanmışdı.

[184] Arximandrit (yunanca "archimandrites") - ortodoks (pravoslav) kilsəsində rahiblikdə olan keşişlərə verilən yüksək rütbə.

olan Yevtixianus (Eutychianus) İsada insani mahiyyəti inkar edərək, onda yalnız İlahi mahiyyətin olduğunu iddia edirdi. Onun fikrincə, İlahi və insani təbiət bir-birinə sığmaz. Onlar birləşsə insan təbiəti İlahi təbiətdə əriməlidir. Yevtixianus və onun tərəfdarlarını *monofizit*[185] adlandırmışdılar. Lakin Yevtixianusu Konstantinopolis-də yığılan yerli Kilsə Məclisi pisləmişdir.

Amma bununla iş bitməmişdir. Yevtixianusu isgəndəriyyəli yepiskop Dioskorus (Dioscorus) dəstəkləyirdi. 449-cü ildə, onun təşəbbüsü ilə, Efesdə yeni Ümumdünya Kilsə Məclisi yığıldı, lakin sonra bu məclis rəsmi kilsə tərəfindən tanınmamışdır və "quldur" məclisi adlandırılmışdı. Bu məclisdə monofizitlər qələbə çalmışdılar[186].

Bu qələbəni rəsmi kilsə tanımamışdı və Yevtixianusa qarşı mübarizəyə başlamışdı. Ona qarşı çıxışlar edənlərin arasında Antioxiya yaxınlığında Kir şəhərinin yepiskopu olan Teodoret (Theodoret de Cyr)[187] (393-466) seçilirdi. O əvvəllər Nestoriusun mövqeyini dəstəkləyərək, Kirilə qarşı çıxış etmişdi. Lakin sonra o, barışdırıcı mövqe tutmuşdur. Bəlkə də Antioxiya sazişinin mətninin tərtibçisi də o olmuşdur. Teodoret Yevtixianusa qarşı "Dialoq" əsərini yazmış və onu pisləmişdir. Bu əsərdə o yazırdı: «Əlbəttə Tanrı-Loqos dəyişməz olaraq olub, var və olacaq. Lakin o insan oldu, insan təbiətini mənimsədi. Buna görə də, biz Onda hər iki təbiəti qəbul etməliyik…»[188]. Beləliklə Teodoret İsada həm İlahi, həm də insani təbiəti tanıyırdı. O Məryəmı Tanrı anası kimi və Tanrının üçlükdən ibarət olmasını qəbul edirdi.

Yevtixianusa və monofizitlərə qarşı hücumlar imperator II Feodosiusun ölümündən sonra daha da şiddətlənmişdi. Yeni imperator Markianus (Marcianus), 451-ci ildə Kalkedon (Kadıköy) şəhərində yeni Ümumdünya Kilsə Məclisini çağırmışdı. Bu məclisdə İsanın həm İlahi, həm də insani təbiətə malik olması haqqında qərar qəbul edilmişdir. Bu təbiətlərin hər ikisi kamil və özünəməxsusdur. Onlar Üçlüyün ikinci üzvündə (yəni İsada) birləşmişdir. Kalkedonda qəbul edilmiş imanın əsası *oros* adlanır. Bu

---

185 Yunanca "monos" - bir; və "physis" – təbiət deməkdir.

186 Bu hadisələr və ümumiyyətlə monofizitlərin tarix və təlimi haqqında daha ətraflı bax: Monophysites and Monophysitism // Catholic Encyclopedia. http://www.newadvent.org/cathen/10489b.htm

187 Teodoret bir neçə əsər müəllifi olmuşdur. Onun əsərlərinin bir qismi ingilis dilində burada yerləşdirilmişdir: http://www.ccel.org/fathers2/NPNF2-03/Npnf2-03-20.htm#P3414_970722

188 Диалог 2, 3. Иоанн Мейендорф. Введение в светоотеческое богословие. Вильнюс-Москва, "Весть", 1992, Часть 2, гл. 11. http://www.klikovo.ru/db/book/msg/884

qərara görə İsada olan iki təbiətin bir-biri ilə münasibəti 2 cüt mənfi sözlə ifadə edilir:

1. "Birləşmədən, çevrilmədən, dəyişməz olaraq" (monofizitlərə qarşı).

2. "Bölünmədən, ayrılmadan" (nestorianlara qarşı)[189].

Beləliklə ortodoksal kilsənin ardıcılları inanırlar ki, İsa həm Tanrı, həm də insan kimi kamildir. Onun günahları yoxdur. O, əvvəlcə Ata tərəfindən doğulmuşdur, sonra isə insanları xilas etmək üçün ikinci dəfə Məryəm tərəfindən doğulmuşdur. İlahi və insani təbiətlər isə, onda "birləşmədən, çevrilmədən, bölünmədən, ayrılmadan" vəhdət təşkil edir.

Lakin Kalkedon məclisinin qərarı heç də hamını qane etməmişdir. Bir çox Şərq kilsəsi onu inkar etmişdi və monofizit düşüncəsinə üstünlük vermişdi. Teodosius adlı bir monofizit rahib, Kalkedondan qayıdaraq, Kilsə Məclisinin qərarlarına etiraz edərək, Fələstində üsyan qaldırmışdı. Üsyançılar Qüdsü ələ alıb qarətlərə məruz qoymuşdular. Üsyan yatırılandan sonra Teodosius Sinaya qaçmış və orada da üsyan qaldırılmışdı. Sabitliyin pozulmasından ehtiyat edən papaz I Leo monofizitlərlə barışıq axtarmaq məcburiyyətində qalmışdı. Lakin buna baxmayaraq yepiskopların əksəriyyəti monofizitlərin əleyhinə çıxışlar edirdilər. Daha sonra isə, monofizitlik, Bizansa qarşı baş qaldıran müxtəlif separatçı qrupların və millətlərin ideologiyasına çevrilmişdi. Buna görə də, 519-cu ildə, imperator I Yustianianos bütün monofizit keşişləri vəzifələrindən azad edərək onlara qarşı təqiblərə başladı. Təqiblərdən xilas olmaq üçün monofizitlərin çoxu Misirə qaçdılar. Bu günə qədər qıpti (Misirdə), erməni, həbəş (Efiopiyada) kilsələri monofizit əqidəsində qalıblar. Daha sonra, monofizitlər bir-neçə təriqətlərə bölünmüşdürlər. Məsələn antioxiya patriarxı Severusun ardıcılları hesab edirdilər ki, İsanın bir təbiəti vardır, lakin onun daxilində insani və İlahi keyfiyyətlər vardır. Öz dirçəlməsinə qədər İsanın bədəni insan bədəni idi, yəni o yeyirdi, içirdi və s.

Severusun ardıcıllarından fərqli olaraq, Halikarnas[190] yepiskopu Yulianus (Julianus) ardıcılları[191] hesab edirdilər ki, İsanın bədəni insan bədəni deyil. Onun yeyib-içməsi kimi insani keyfiyyətləri təbiətindən deyil, özünün istəyindən irəli gəlirdi.

---

[189] Михаил Поснов. История христианской церкви (до разделения Церквей - 1054 г.). Первое, сокращенное издание: София, 1937. Второе в изд-ве "Жизнь с Богом", полное: Брюссель, 1964. Репринт: Брюссель, ЖсБ, 1988. http://www.krotov.info/history/00/posnov/12_posn.html#_Toc536360510

[190] Yunanca Halikarnassos. Müasir Turkiyənin Bodrum şəhəri.

[191] Onları avtortodoketlər təriqəti adlandırırlar.

## Origençilərə qarşı mübarizə

Monofizitlərə qarşı aparılan mübarizə ilə bərabər, Kilsə, eyni zamanda, Origenusun ardıcılları ilə də mübarizə aparırdılar.

Origençilər deyirdilər ki, insanlar, şeytanlar, mələklər və ümumiyyətli hamı Tanrı tərəfindən son nəticədə xilas olunacaqlar. Bundan başqa, onlar hesab edirdilər ki, hər bir insanın ruhu əvvəlcə yaradılmışdır və yalnız sonra Tanrı onları bədənlərə yerləşdirir. Deməli ruhlar insanların həyata gəlməsindən öncə yaradılmışdır. Origençilərin əsas ideoloqlarından biri Bizanslı Leontius[192] olmuşdur.

Origençilərin fikirləri 553-cü ildə imperator Yustinianos (Iustinianos) tərəfindən yığılan V Ümumdünya Kilsə Məclisi tərəfindən pislənmişdi. Bundan sonra origençilərə qarşı şiddətli təqiblər başlamışdı.

Bundan başqa, bu məclisdə Mopsuetsli Teodorusun Loqosun İsada yalnız mənəvi şəkildə olması fikri də rədd edilmişdi.

## Monofelitlərə qarşı mübarizə

Kalkedon Kilsə Məclisindən sonra monofizitlərlə, İsada ikili təbiətin olmasını qəbul edən Bizans kilsəsinin nümayəndələri arasında bir neçə onilliklər ərzində gərgin mübarizə getmişdi. VII əsrin əvvəlində Bizansla (Şərqi Roma ilə) İranın müharibəsi başlanmışdı. Bu müharibədə qələbəyə nail olmaq üçün, imperator Heraklios (Herakleios) Ermənistanda iranlılara qarşı ikinci cəbhə açmaq niyyətində idi. Lakin ermənilər, monofizit kilsəsinə mənsub olduqlarına görə, Bizans imperiyasından çəkinirdilər və İrana üstünlük verirdilər. Bizansda isə monofizitlər təqiblərə məruz qalmışdılar.

Ermənilərlə münasibətlərin yaxşılaşdırılması və orada iranlılara qarşı cəbhənin açılması, Herakliosun əsas siyasi məqsədlərindən biri olmuşdu. Bu işdə, ona əsli suriyalı olan patriarx Sergius kömək etmişdi. O, monofizitlərlə rəsmi Bizans kilsəsinin arasında ixtilafa səbəb olan, İsanın təbiəti haqqında problemin həll edilməsi üçün, barışdırıcı fikir ortalığa çıxarmışdı. Sergius deyirdi ki, İsanın iki təbiəti olmuşdur, lakin iradəsi (enerjisi) bir idi. Bununla

---

[192] Onun haqqında geniş məlumat üçün bax: Византийские Отцы V-VIII вв.: Из чтений в Православном богословском институте в Париже. - Париж, 1933. 260 с. (2-е издание (репринт) - Париж: YMCA-Press, 1990; 3-е издание (репринт) - М.: Паломник, 1992). http://lib.eparhia-saratov.ru/books/20f/florovsky/byzant1/26.html

razılaşan ermənilər Herakliosus müttəfiqləri oldular və bundan sonra o, İrana sarsıdıcı hərbi zərbələr endirməyə müvəffəq oldu.

"İki təbiət, bir iradə" prinsipini Roma papazı Honorius da dəstəkləmişdir, lakin sonra kilsə xadimləri onu bu addım atdığına görə pisləmişdilər. İyerusalim (Qüds) patriarxı Sofroniy isə, bu prinsipi qətiyyətlə rədd etmişdir. O İsada iki iradənin olduğunu iddia edirdi (İlahi və insani). Onunla birlikdə bu fikri məşhur ilahiyyatçı Tövbə edən Maksimus da dəstəkləmişdi. Onların fikrincə hər bir iradə öz mahiyyətinə görə hərəkət edir və bu hərəkətə görə də təbiətlərin müxtəlifliyinin dərk olunması imkanı əldə edilir. Əgər iradə birdirsə, onda təbiətlərin arasında fərq olmur.

637-ci ildə Qüds müsəlmanlar tərəfindən fəth edilir və şəhərin patriarxı Sofronius (Sophronius) bir müddət onlarla əməkdaşlıq etdiyinə görə, əvəzinədə xəlifə Ömər şəhərin bütün xristian müqəddəs yerlərini ona tabe etdirmişdi. Sofroniusun ölümündən sonra, imperator Heraklios 638-ci ildə xristian imanının necə olması haqqında əmrini açıqlayır. Bu əmrə görə, İsanın yalnız bir iradəsi olmalı idi. Bu cür inanca *monofelit* inancı deyilir. Həmin ildə patriarx Sergius da ölmüşdür və ondan sonra Konstantinopolis patriarxı Pirr olmuşdur. O monofelit idi və imperatorun əmrini 638-ci ildə Kilsə Məclislərinin birində təsdiqlətdirmişdi.

Heraklios 641-ci ildə vəfat edəndən sonra onu II Konstant əvəz etmişdi. O ümumiyyətlə İsada neçə iradə olduğu haqqında hər bir söhbəti qadağan etmişdi. Romada isə papaz Honoriusun ölümündən sonra Herakliosun monofelit əqidəsini dəstəkləyən əmri rədd etdilər. Papaz I Martinus, Lateranda[193] Kilsə Məclisi yığaraq monofelit əqidəsini pisləmişdi. Lakin imperator əmrini icra etməməsinə görə Martinusu məhkəməyə çəkmişdilər və sürgünə yollamışdılar.

Şərqdə isə monofelitlərə qarşı ən fəal çıxış edən Tövbə edən Maksimus (Maximus) (580-662) olmuşdu. O da təqiblərə məruz qalmışdı. Onun fikrincə İsada insan iradəsi var idi. O hərəkət edərək seçim qarşısında qalanda isə o, İlahi iradəyə tabe olurdu.

Nəhayət bu mübahisələrə son qoymaq üçün imperator Konstantinus (Constantinus) Konstantinopo-lisdə VI Ümumdünya Kilsə Məclisi yığmışdı və bu məclisdə monofelit əqidəsi heres elan edilmişdi.

## İkonaların əleyhdarlarına qarşı mübarizə

---

[193] Roma papazlarının Romadakı sarayıdır.

O dövrdə daha bir məsələ bütün xristian dünyasının diqqət mərkəzində idi. Bu ikonalara (yunanca "eikon") münasibət məsələsi idi. Xristianlığın Roma imperiyasında yayılmasından sonra müqəddəslərin şəkillərinin çəkilməsi və onlara edilən ehtiram və sayqı kütləvi hal almışdı. Bu sayqı bir çox hallarda onlara sitayişə çevrilirdi.

Bu ehtiram və sitayişə qarşı etirazlar da mövcud idi. İkonalara qarşı çıxış edənlər onları bütpərəstliyin əlaməti hesab edirdilər. Onların arasında məşhur kilsə tarixçisi Kesariyalı Yevseviy də olmuşdur. Qərbdə isə 305-ci ildə yığılan bir Kilsə Məclisi ikonaların kilsələrdə yerləşdirilməsini yasaqlamışdı. Bundan sonra ikonalara qarşı çıxış edənlərin sayı artmışdı.

VIII əsrdə bu məsələ ilə bağlı ixtilaflar daha da gərginləşmişdir. Bir çox tədqiqatçılar bunun səbəbini İslamın yaranması və surətlə yayılmasında görürdülər. İslamın vahid Allaha şəriksiz və vasitəsiz ibadət edilməsi ideyaları xristian aləminə təsir göstərmişdir. Bundan sonra ikonaların əleyhdarlarının çıxışları daha da şiddətlənmişdir. Onlar, Konstantinopolisdə 754-cü ildə öz Kilsə Məclisini yığaraq ikonaları yasaq etmişdilər. Daha sonra onlar, hətta Bizans imperatorlarının siyasətinə təsir edə bilmişdilər. İkona əleyhdarlarını dəstəkləyərək, imperatorlar xristian ruhaniyyətinin və rahiblərinin həddindən çox artmış ictimai və siyasi nüfuzuna zərbə vurmaq, onları zəiflətmək məqsədini güdürdülər. Faktiki olaraq onlar klerikalizmlə mübarizəyə qədəm qoymuşdular.

İkona əleyhdarları hərəkatına dəstək verən ilk Bizans imperatoru Leo İsaurus (716-741) olmuşdur. Sonra bu siyasəti onun oğlu Konstantine Kopronimus (Constantine Copronimus) (741-770) və nəvəsi Leo Xəzər (770-775) davam etmişdilər. Sonra imperatriça İrina (Eirene) (775-802) və ondan sonra gələn imperatorlar Nikiforus (Nikiphorus) (802-811) və Mixael (811-813) ikonaların tərəfdarlarının mövqeyini dəstəkləmişdirlər. Lakin bunlardan sonra hakimiyyətə gələn imperatorlar Leo (813-820), Mixael (820-829) və Teofilos (829-842) yenidən ikona əleyhdarlarının mövqeyini dəstəkləmişdirlər. Yalnız 843-cü ildə ikona tərəfdarları, son olaraq, imperator Teodorusun zamanında qələbə çalmışdırlar.

İkona əleyhdarlarının üç qrupa bölünmüşdü:

1. Bəziləri ikonaları kilsədə saxlamaq şərti ilə, onlara sitayişə qarşı çıxış edirdilər.

2. Digərləri ikonaları rədd edərək, başqa müqəddəs kilsə əşyalarını inkar etmirdilər.

3. Üçüncü qrup isə, ikonalarla birlikdə bütün müqəddəs əşyaları rədd edirdilər.

İkona əleyhdarların Müqəddəs Kitabdan gətirdikləri dəlillər aşağıdakılardır:

- «Özün üçün heç bir oyma büt, nə yuxarıda – səmada və ya aşağıda – yerdə, nə də yerdən aşağıya yığılan sulardakı şeylərin heç birinin surətini düzəltmə» (Qanunun təkrarı, 5: 8).

- «Və fani olmayan Tanrının izzətini, fani olan insana, quşlara, dördayaqlılara və yerdə sürünənlərə bənzəyən bütlərə əvəz etdilər» (Romalılara, 1: 23).

- Onlar Tanrının həqiqətini yalana dəyişdirdilər və Xaliq əvəzinə məxluqa pərəstiş və ibadət etdilər. O Tanrı ki, əbədi olaraq mübarəkdir» (Romalılara, 1: 25).



**Dəməşqli Yohannes**

Buna cavab olaraq, ikonaları müdafiə edən, Dəməşqli Yohannes[194] (Ioannes Damaskenos) ki-mi məşhur xristian ilahiyyatçıları deyirdilər ki, İlahilik insan şüurundan və hissiyyatından xaric olsa belə, o müəyyən qədər mad di aləmdə özünü göstərir və görünməyən şeyin obrazı, təcəssümü ola bilər. İnsan isə həm maddi və həmdə ruhi bir varlıq olduğu üçün, duyulan İlahi simvollara onun ehtiyacı vardır.Onların vasitəsi ilə o, İlahiyə yüksələ bilər. İsanın isə İlahi mahiyyətindən başqa insani mahiyyəti də vardır və buna görə də onu təsvir etmək olar. Əgər o öz tələbələrinə görsənibsə, deməli şəkil vasitəsi ilə başqa adamlara da görsənə bilər. Lakin onların opponentləri ikonalara sitayişi bütpərəstliyin əlaməti sayaraq onların dəlillərini rədd edirdilər.

754-ci ildə keçirilən Kilsə Məclisindən sonra ikona tərəfdarlarına qarşı təqiblər başlanmışdı. Bu hadisələr imperiyada hətta vətəndaş qarşıdurmasına gətirib çıxarmışdı. Bizans imperiatorları tərəfindən dəstəklənən ikona əleyhdarlarını Roma papazları II Qreqorios və ondan sonra III Qreqorios pisləmişdir. Onlar artıq Bizans imperatorlarına tabe olmamaları haqqında bəyanatlarla çıxış etmişdilər və onları bütün İtaliya dəstəkləmişdi.

VIII əsrin axırlarında ikona əleyhdarlarının hərəkatı zəifləmişdir. Bundan istifadə edən Bizans imperatriça İrena (Eirene) ikona tərəfdarlarını dəstəkləyərək VII Ümumdünya Kilsə Məclisinin yığılması haqqında

[194] Dəməşqli Yohannes (675-753) - Dəməşqli Yəhya. Şərq Kilsəsinin ən tanınmış ilahiyyatçılarından biridir. Əməvi xəlifəsi Müaviyənin yaxın adamlarından biri idi və onun saray adamı olmuşdur. Lakin sonra sarayı tərk edərək, rahib oldu. Dəməşqli Yəhyanın bəzi əsərləri rus dilinə tərcümədə burada yerləşdirilmişdir: http://www.orthlib.ru/John_of_Damascus/index.html

təşəbbüslə çıxış etmişdir. Bu məclis 786-cı ildə Konstantinopolisdə yığılmışdır. Orada ikona tərəfdarları ilə əleyhdarları arasında şiddətli ixtilaflar baş vermişdi. Buna görə Məclis öz işini dayandırıb, növbəti iclaslarını yalnız bir ildən sonra davam etdirə bilmişdir. Nəticədə ikona tərəfdarları qalib gəldilər. İkona əleyhdarlarının mövqeyi heres elan edildi.

802-ci ildə İrina hakimiyyətdən devrilib sürgün edildi. Bundan sonra patriarx Teodotus (Theodotus) yenidən ikona əleyhdarlarının mövqeyini dəstəklədi. Bundan sonra yenidən ikona tərəfdarları təqib edildi. Bu hadisələrə son qoyan növbəti patriarx Metodius (Methodius) oldu. 843-cü ildə o, yeni Kilsə Məclisini yığmışdır və orada VII Ümumdünya Kilsə Məclisinin qərarları təsdiq edildi.

### Ümumdünya Kilsə Məclisləri

Bütün Kilsə adından çağrılan yığıncaqlara *Ümumdünya Kilsə Məclisi* deyilir. Bu məclislərdə dini əqidə ilə bağlı yaranan problemlər həll olunurdu. Ümumdünya kilsə məclislərindən yalnız ilk yed-disi həm Ortodoks (Pravoslav), həm də Katolik kilsələri tərəfindən qəbul olun-maqdadır.



**V. Surikov.
I Ümumdünya Kilsə Məclisi**

***I Ümumdünya (I Nikeya) Kilsə Məclisi (325-ci il).*** Roma imperatoru I Konstantinus tərəfindən Nikeya şəhərində çağırılmışdır. Bu məclisdə xristian imanı-nın simvolu[195] tərtib edildi. Burada Roma, İsgəndəriyyə, Antakiya və Qüds yepiskoplarının Kilsə üzərində xüsusi səlahiyyətləri təsdiq edildi. Daha sonra bu məclisdə presviter Ariusun təlimi pislənib, rədd edildi. Belə ki, Arius hesab edirdi ki, Tanrının oğlu (İsa) Atanın ən yüksək məxluqudur və Ondan mahiyyətcə fərqli mahiyyətə malikdir. Onun fikrincə, İsa mahiyyətinə görə deyil, yalnız oğulluğa götürüldüyünə görə Tanrının oğlu adlandırılmalıdır. Bu fikri rədd edən məclisə yığışmış 318 yepiskop isə, Atanın oğul ilə mahiyyətcə eyni olması fikrini dəstəklədilər və bundan sonra bu inanc rəsmi Xristian doktrinasına çevrildi. Ariusun ardıcıllarını arianlar adlandırırlar.

[195] Dini təlimin əsasını təşkil edən qısa ehkamlar toplusudur.

***II Ümumdünya (I Konstantinopolis) Kilsə Məclisi (381-ci il)***. Burada Ata-Oğul cütlüyünə Müqəddəs Ruhu da əlavə etməklə, onların substansional[196] vahidliyini elan edərək, Trinitar (Üçlük) inancın formalaşması başa çatdırıldı. Burada imperiyanın Şərqindən olan 150 yepiskop iman simvoluna da əlavələr etdilər. İmperator Feodo-sius tərəfindən çağrılan bu məclis əsasən arianlığı pisləmək üçün çağ-rılmışdı. Belə ki, bu məclisdə Mü-qəddəs Ruhun ilahililiyini inkar edən qrupların fikirləri də rədd edildi. Onların fikrincə Müqəddəs Ruh Oğul tərəfindən yaradılmışdır. Bu məclisdə həm çinin Konstanti-nopolis yepiskopunun statusu Roma yepiskopundan sonra nüfuzuna görə ikinci dərəcəli hesab olunması haqqında qərar qəbul edildi.



**V. Surikov. İkinci Ümumdünya Kilsə Məclisi.**

***III Ümumdünya (I Efes) Kilsə Məclisində (431-ci il)*** isə İsanın mahiyyəti haqqında mübahisələr (xristiologiya) tarixinə qədəm qoyuldu. Məsələ burasında idi ki, Konstantinopolis yepiskopu Nestorius hesab edirdi ki, Məryəm adlı bir qadın İsanı doğmuşdur. Sonra isə Tanrı onunla birləşib, onun içində yaşamışdır. Deməli, Nestoriusun təliminə görə, İsada olan İlahi və insani təbiət bir-birindən ayrıdır. Məclisə toplaşmış 200 yekiskop Nestoriusun təlimini rədd edərək, həm İlahi, həm də insani təbiətin bir şəxsdə (İsada) mövcud olması, başqa sözlə desək, İsada İlahilik və insaniliyin vahid hipostasis təşkil etməsi qənaətinə gəldilər.

***451-ci ildə IV Ümumdünya (Kalkedon) Kilsə Məclisi*** Konstantinopolis arximandriti Evtixiyin təlimini rədd etmək üçün yığışdı. Belə ki, Evtixiy Nestoriusun təlimini inkar edərək, onun əksi olan başqa bir ifrat fikir irəli sürürdü. Evtixiyə görə, İlahi və insani təbiət İsada tam olaraq bir-birinə qovuşmuşdur. Amma bu zaman İsadakı İlahi təbiət insani təbiəti üstələyir. Evtixiyin təlimi monofizitlik adlandırıldı. Məclisə yığışan 630 yepiskop monofizitliyi rədd edərək qərara gəldilər ki, İsada olan iki təbiət bir-biri ilə "qovuşmayaraq və mahiyyəti dəyişməyərək" (Evtixinin əleyhinə), "bir-birindən ayrılmaq şərti ilə" (Nestoriusa qarşı) birləşmişdirlər

[196] Substansiya (latınca "substantia") – hər bir şeyin əsası və mahiyyətidir.

553-cü ildə isə imperator I Yustian tərəfindən ***V Ümumdünya Kilsə (II Konstantinopolis) Məclisi*** çağırıldı. Buna səbəb elə monofizitlərin üsyanı oldu. Belə ki, monofizitlər Kalkedon məclisinin tərəfdarlarını nestorianlığa gizli meyllərdə ittiham edirdilər. Bunu sübut etmək üçün onlar üç Suriya yepiskonun Teodorusun və Teodoretin əsərlərinə istinad edirdilər. Məclis iştirakçıları monofizitlərin ortodoksal kilsəyə birləşmələri prosesini gücləndirmək üçün bu yekiskopların fikirlərini rəsmi olaraq rədd etdilər. Bundan əlavə burada Origenusun təlimi də rədd edildi.

Növbəti ***VI Ümumdünya (III Konstantinopolis) Kilsə Məclisləri (680-681; 692-ci illərdə)*** yenə də monofizitlərin təlimini rədd etmək üçün yığıldı. Monofizitlərin İsada iki təbiətin olduğunu qəbul etmələrinə baxmayaraq, onların vahid İlahi iradədə birləşməsini iddia edirdilər. Bu fikrə qarşı çıxan 170 yekiskop İsanın Tanrı kimi və insan kimi iki iradəsinin olduğunu iddia etdilər. Onların fikrincə, İsanın insani təbiəti İlahi iradə ilə ziddiyyət təşkil etmir, əksinə, insani təbiət İlahi iradəyə tabedir. Beləliklə də İsa haqqında olan ortodoksal baxış tamamlanmış oldu. Bu tamamlanmış təlimi isə, on bir ildən sonra bu məclisin davamı olan Trull Kilsə Məclisi təsdiq etmiş oldu.

***VII Ümumdünya (II Nikeya) Kilsə Məclisi*** 787-ci ildə imperatriça İrena (Eirene) tərəfindən ikonalara qarşı çıxış edənlərə cavab vermək üçün çağırıldı. Belə ki, bu məclisdə ikonaların mahiyyəti açıqlanmış və onlara qarşı çıxış etmək küfr elan edilmişdir.

Katoliklər bu kilsə məclislərindən sonra da kilsə məclisləri çağırmışdırlar. Belə məclislərin sayı 21-ə çatmışdır. Şərq kilsələri (məs. erməni, kopt, efiop kilsələri) birinci üç məclisin qərarını qəbul edir IV (Kalkedon) məclisinin qərarlarını rədd edirlər. Protestantlar isə kilsələri məclislərinin qərarlarını qəbul etmir.

## «Korpus Areopaqitikum»

533-cü ildə Kalkedon şəhərində monofizitlərlə rəsmi kilsə nümayəndələri arasında barışıq məqsədi ilə konfrans keçirilmişdir. Lakin bu konfransda da mübahisələr olmuşdur. Monofizitlər öz mövqelərini sübut etmək üçün Dionisius (Dionysius) Areopagita adlı bir şəxsin adı ilə imzalanmış 4 risalə və müxtəlif keşişlərə ünvanlanmış məktublar təqdim etmişdilər. Bu əsərlərin hamısını birlikdə «Korpus Areopagiticum» (Corpus Areopagitikum) adlandırırlar. Bu risalələrin adları:



**Dionisius Areopagita**

1. «De divinis nominibus» (İlahi adlar haqqında);
2. «De mystica theologia» (Mistik[197] ilahiyyat haqqında);
3. «De coelesti hierarchia» (Göylərdə hiyerarxiya[198] haqqında);
4. «De ecclesiastica hierarchia» (Kilsə hiyerarxiyası haqqında)[199].

Dionisius Areopagitanın adı isə Əhdi-Cədiddə çəkilir[200]. Orada deyilir ki, o, Pavlusun tələbəsi olub. Rəvayətlərə görə Dionisius Areopagita I əsrdə Afina şəhərinin yepiskopu olmuşdur. Başqa rəvayətə görə, Paris yepiskopu olmuşdur.

Dionisiusun bu dörd risaləsində kilsə xadimlərinə çox əlverişli məqamların olduğuna görə, onlar tədricən təkcə monofizitlərin deyil, həm də rəsmi kilsə xadimləri tərəfindən qəbul edilmiş və onların üzərində böyük bir ənənə yaranmışdır. Bu risalələrin, sonrakı dövrlərdə, xristian ilahiyyatı və fəlsəfəsinin formalaşmasında müstəsna rolu olmuşdur.

Eyni zamanda, risalələrin müəllifi Dionisius Areopagitanın olması şübhə altına alınmışdır. Nəticədə onların saxtalaşdırılması və başqa naməlum müəllif tərəfindən yazılması haqqında əsaslı subutlar üzə çıxmışdır. Məsələn, Rotterdamlı Erasmus[201] fikir vermişdir ki, «Korpus

---

[197] Mistika (yunanca "mystika") - insanın bilavasitə ilahi qüvvələrlə ünsiyyətin saxlanmasının mümkün olmasına inanmaqdır. Bu söz gizli, anlaşılmaz olan hər bir şey mənasında da işlənir.

[198] Hiyerarxiya [yunan sözləri "hieros" (müqəddəs) + "arche" (hakimiyyət)-dən əmələ gəlmişdir] – bir şeyin hissələrinin və ya elementlərinin an yüksəyindən, ən alcağına qədər, ardıcıllıqla düzülməsidir. İkinci mənada Hiyerarxiya - vəzəfələrin bir-birinə tabe olunmuş halında düzülməsidir.

[199] Dionisius Areopagitanın risalələrinin mətnləri ilə tanış olmaq üçün bax: Дионисий Ареопагит. О церковной иерархии. Послания. (Издание с параллельными текстами) / Вст. ст., подг. греческих текстов и их русский перевод Г.М.Прохоров, Ред. перевода иер. Григорий (В.М.) Лурье СПб. Алетейя 2001 г. 281 с. http://www.krotov.info/history/05/3/areopagi.html

[200] Həvarilərin işləri 17: 34.

[201] Rotterdamlı Erazmus (Erasmus Roterodamus) (1469-1536) - məşhur Holland ilahiyyatçısı, filosofu, maarifçi-alimi, yazıçısı, filoloqu. Avropada İntibah dövrünün ən görkəmli nümayəndələrindən biri olmuşdur.

Areopagitikum»da yalnız V-VI əsrlərə aid olan, və ondan qabaq mövcud olmayan bəzi kilsə ayinləri haqqında məlumatlar vardır. Daha sonra, Avropa tədqiqatçılarının araşdırmalarına görə, «Korpus Areopaqitikumda» bəzi ideyalar (məsələn şərin təbiəti haqqında) neoplatoçu filosof Proklusun fikirləri ilə ust-ustə düşür[202]. Daha sonra alimlər risalələrin əsl müəllifinin kim olduğu haqqında müxtəlif fikirlər irəli sürmüşdürlər. Buna baxmayaraq, bu məsələ bu günə qədər həll olunmayıb.

Lakin, xristoloji mübahisələr gedən dövrdə, bu kitabların saxta olmasına heç kim fikir verməmişdir. Çünki, müxtəlif kilsə xadimləri məşhur həvari Petrusun tələbəsi olan Dionisius Areopagitaya istinad edərək, öz fikirlərini sübuta yetirməyə çalışırdılar. O dövrdə kilsə xadimləri tərəfindən «Korpus Areopagitikuma» şərhlər və təfsirlər yazılmışdır.

«Korpus Areopagitikum»da əks olunan ideal əsasən neoplatonizm əsasında qurulmuşdur və mistik xarakter daşıyır. Orada xristian dünyagörüşünün, neoplatonizm ideyaları nöqteyi-nəzərindən təqdim edilməsi cəhdi, çox qabarıq şəkildə özünü göstərmişdir. Bu yolda bilinməyən müəllif o qədər ardıcıl idi ki, bəzən hətta yeni platoçu ideyalar xristian ideyalarını üstələyirdi.

Bilinməyən müəllifin əsas ideyalarından biri Tanrının dərk edilməsi yollarıdır. Burada müəllif neoplatoçuların fikirlərini təkrar edərək mənfi (apofatik) və müsbət (katafatik) ilahiyyat kateqoriyalarından çıxış edir.

Müsbət ilahiyyatın əsasını bu dünyanın əşyaları ilə Tanrı arasında analoqiyalar təşkil edir. Bu yolda insan, ən sadə anlayışlar haqqında düşünərək, daha da yüksək anlayışları anlayır. Sonra isə İşıq, Həyat, Məhəbbət, Gözəllik kimi ideal anlayışlar və adlar meydana gəlir. Bu anlayışlarla Tanrı arasında analogiyalar apararaq, ideal keyfiyyətlərin yalnız Tanrıya məxsus olması nəticəsinə gəlmək olar. Beləliklə bütün ideal adlar Tanrıya aid edilir. Tanrının ən ali sifəti (atributu) isə, onun Vahid olmasıdır (neoplatonizmdə olduğu kimi).

Lakin Tanrını yalnız müsbət ilahiyyat kateqoriyaları ilə dərk etmək olmaz. Məsələ bundandır ki, insana və digər varlıqlara məxsus olan bəzi xüsusiyyətləri, hətta ideallaşdıraraq, Tanrıya aid etmək olmaz. Məsələn, sərxoşluq və qəzəb kimi xüsusiyyətləri[203]. Bundan başqa, hətta

---

[202] Александр (Голицын), иеромонах. Мистика Дионисия Ареопагита и предшествующая ей восточная христианская традиция. // София: Рукописный журнал Общества ревнителей русской философии Выпуск 6, 2003 г. http://virlib.eunnet.net/sofia/06-2003/text/0600.html

[203] De mystica theologia 3.
http://www.krotov.info/acts/05/antolog /page18.htm#01

ideallaşdırılmış maddi keyfiyyətlər Tanrıda, insan düşüncəsi tərəfindən dərk edilməyən tərzdə əks olunur və onları ifadə etmək mümkün deyil. Məsələ bundadır ki, Tanrı fövqəltəbii bir varlıqdır. Buna görə bilinməyən müəllif, müxtəlif anlayışların Ona aid edilməsi zamanı "fövqəl…" sözünü əlavə edir (fövqəl həyat, fövqəl gözəllik, fövqəl xeyr və s.). Bu cür yanaşmada isə, anlayışlar artıq insan üçün inkar səviyyəsinə yüksəlir[204].

Bu həddə çatan müsbət ilahiyyat mənfi ilahiyyata keçir və artıq bu səviyyələrdə insan düşüncəsi işləmir. Bu barədə bilinməyən müəllif «De mystica theologia» risaləsində yazırdı.

Mənfi ilahiyyatda Tanrı haqqında ifadə edilən hər bir xüsusiyyət inkar edilir. Çünki, O, hər şeydən ucadır və heç bir şeyə bənzəmir. «Korpus Areopagitikumun» müəllifinə görə, Tanrının dərk edilməməsi, Onun dərk edilməsinin yüksək səviyyəsidir. Tanrının insana tərəf "enməsi", Onun özündən çıxması halı olduğu kimi, insan da ona tərəf "yüksələndə" özündən çıxıb, "ekstaz"[205] halına daxil olmalıdır. Bu halda o öz maddi bədəninin və hissiyatlarının xaricinə çıxmalıdır.

Tanrının dünya ilə münasibəti məsələsində «Korpus Areopagitikumun» müəllifi həm kreatsionizm, həm də emanasionizm ideyalarından istifadə edir. Yəni, bir tərəfdən, «De divinis nominibus» risaləsində hər şeyin Tanrı tərəfindən yaradılması haqqında danışır. Digər tərəfdən isə, «De coelesti hierarchia» və «De ecclesiastica hierarchia» risalələrində, neoplatoçular kimi, Tanrıdan bir neçə pilləli strukturun axması ideyasına üstünlük verir.

Dünyanın yaradılışı - İlahi xeyir və məhəbbətindən uzaqlaşmadır. Məhəbbət İlahidən məxluqa yönələn bir anlayışdır. O hər şeyi hərəkətə gətirir, sonra isə məxluqatı yenidən Tanrıya qaytarır. Bu hissiyyata yiyələnən insan Tanrını dərk edə bilər. Bu səviyyəyə çatan insan ən yüksək mənəvi səviyyələrə yüksəlmiş olur (theosis). Kosmos isə İlahi xeyir və məhəbbətin dövranıdır.

Bu risalələrdə transendent Tanrı immanent[206] olur. Müəllifin fikrincə, O, hər şeyin əvvəli və axırıdır, hər şeyin başlanğıcıdır, çünki, səbəbidir və hər şeyin axırıdır; çünki hər şeyin ən ali məqsədidir.

---

[204] De divinis nominibus II, 3.

[205] Ekstaz (yunanca "extasis") - özündən çıxma halına çatan sevincin, coşqunluğun, heyranlığın ifrat dərəcəsi.

[206] İmmanentlik (lat. immanens – bir şeyə xass olan) – bir şeyin daxilində olma. Dini fəlsəfədə Tanrının yaratdığı dünyanın daxilində olması mənasında işlənilir.

Bu məntiqlə, dünyada hər şey Tanrının təzahürüdür. Deməli, hər bir varlıq Tanrı təzahürüdür (teofaniyasıdır). Bununla belə, mahiyyət etibarı ilə Tanrı məxluqdan ayrıdır, ona qarışmır.

«De coelesti hierarchia» risaləsində, Vahiddən çoxluğa enmə Proklusun fəlsəfəsində olduğu kimi, üçlüklər (triadalar) şəklində pilləvari baş verir. Yuxarı pillədə kerublar[207], serafimlər[208] və taxtlarlar (kürsülər) yerləşir. Bu birinci triadadır. Sonrakı pillədə ikinci triada yerləşir. Bu hökmranlıqlar, güclər və hakimiyyətlərdir. Daha sonra başlanğıclar, arxangellər[209] və məlaikələr triadası yerləşir[210]. Bu triadaların üzvlərində İlahi nurun hissəcikləri vardır. Lakin İlahinin özündə bu nur əksilməmişdir. Burada «Göy hiyerarxiyası» tamamlanır. Yerdə isə, onun davamı kilsə hiyerarxiyasıdır. Onun da strukturu göy hiyerarxiyasına bənzərdir və onun vasitəsi ilə İlahi nur yerə enir. Burada birinci triada – yepiskoplar, keşişlər, diakonlardan[211] ibarətdir. Onlardan sonra rahiblər, xristian icmasının üzvləri və Xristianlığı qəbul etmək istəyənlər triadası gəlir. Kilsə hiyerarxiyasından sonra qalan dünya yerləşir. Orada da şüurlu məxluqlar, şüursuz heyvanlar və cansız əşyalar triadası vardır.

Beləliklə «Korpus Areopagitikumun» müəllifi üçün bütün kainat hiyerarxiya şəklində Tanrı tərəfindən yaradılıb, təşkil olunmuşdur. Bu hiyerarxiyada hər bir varlıq, onun kamilliyinə görə, müxtəlif səviyyələrdə yerləşir. Hər aşağı pillədə duran varlıqlar yuxarıda duranlara tabe olurlar. Ümumiyyətlə isə, bu hiyerarxiyaların məqsədi – kilsənin əhəmiyyətinin göstərilməsindən ibarət idi. Qalib gələn xristian kilsəsi iddia edirdi ki, onun xaricində heç kəs xilas ola bilməz. Buna görə də «Korpus Areopagitikumun»

---

[207] Kerubim – (yəhudi sözüdür, çoxluq mənasında işlənilir) – Tanrının dərgahında müəyyən yerləri qoruyan mələklər. Məsələn Əhdi-Ətiqdə onlar Həyat Ağacının qoruyucularıdırlar (Yaradılış 3: 24).

[208] Serafimlər (yəhudi sözüdür) – "odlu", "işıq saçan" mələklər (Yeşaya 6: 1-6). Onların vəzifəsi daim Tanrı müqəddəsliyinə təriflər oxumaq və Onun yerdəki buyuruqlarını yerinə yetirməkdən ibarətdir.

[209] Arxanqel – baş mələkdir. Xristian keşişlərinin əsərlərində deyilir ki, Bibliyada səkkiz baş mələk vardır. (Никифор. Библейская энциклопедия, М.: 1891, с. 62-63).

[210] Arximandrit Nikifora görə, triadaları təşkil edən: kerublar, serafimlər, taxtlarlar (kürsülər), başlanğıclar, arxangellər, məlakələr, hökmranlıqlar, güclər və hakimiyyətlər - məlakələrin rütbələridir. (Никифор. Библейская энциклопедия, М.: 1891, с. 62-63).

[211] Diakonos - yunan sözüdür. Xristianlığın ilk əsrlərində dini icmanın təsərüfat işləri ilə məşğul olan şəxslər bu adı daşıyırdılar. Sonrakı dövrlərdə kiçik keşiş rütbəsidir.

kilsə xadimləri tərəfindən rəğbətlə qarşılanmışdır və müəllifə "hiyerarxiya doktoru" adı verilmişdir.



*Bizans imperiyası 628 ildə*

VI FƏSİL

## QƏRBDƏ KİLSƏ ATALARI

### IV-V əsrlərdə kilsə ataları

Roma imperiyasının qərbində kilsə ataları yunandilli şərqdə istifadə edilən ekzegetika metodlarından istifadə edirdilər. Onlar yunan fəlsəfəsi və ilahiyyat terminlərini latın dilinə tərcümə edib, iki mədəniyyətin arasında bir körpü rolunu oynamışdırlar.



Qərbi və Şərqi Roma 450 ildə

Patristika dövrünün Qərb mütəfəkkirlərindən biri, Puatye şəhərinin yepiskopu *Piktaviyalı Hilarius (Hilarius Pictavien-sis)* (315-366) olmuşdur. O, Sisseron, Seneka kimi antik filosofların əsərləri ilə tanış olmuşdu. Digər tərəfdən, xristian mütəfək-killəri olan Origenus, İs-gəndəriyyəli Atanasios, Kiprian (Cyprianus) kimi ilahiyyatçıların fikirlərini də öyrənmiş və onlardan bəzilərinin kitablarını yunan dilindən latın dilinə tərcümə etmişdir.

Hilariusun əsas məqsədi, xristian təliminin sistemləşdirilməsindən ibarət idi. Bu yolda o, öz səylərini İlahi Üçlüyün birliyini fəlsəfi üsullarla əsaslandırılmasına yönəltmişdir. Ata-Tanrı ilə Oğul-Tanrının, “doğulmayan” ilə “doğulanın” mahiyyətcə bir olmasını (konsubstansionallığı) xüsusilə vurğulayırdı. Bununla Hilarius arinanlıqla mübarizə aparırdı.

Şərqdə bu işi Atanasios və onun tərəfdarları həyata keçirirdilər. Onlar öz dəlillərini əsaslandırmaq üçün neoplatonizm idealarından istifadə edirdilər. Onlardan fərqli olaraq Hilarius, Qərbdə daha çox yayılmış stoisizm ideyalarından istifadə edirdi. Lakin o stoiklərin ideyalarını xristian ehkamları nöqteyi-nəzərindən qəbul edib, onları sintez halına gətirmişdi. Nəticədə o, 12 kitabdan ibarət «De Trinitate» (Üçlük haqqında) əsərini yazmışdır.

Hilarius imanla düşüncənin bir-biri ilə ziddiyyət təşkil etmədiyi qərarına gəlmişdir. Onlar ahəngdədirlər. Dini ehkamlar elmi nöqteyi-nəzərdən tədqiq edilə bilər. Sonra bu cür fikirləri Avqustinus daha da inkişaf etdirmişdir.

Hilariusun fikrincə, həm iman, həm də düşüncə İlahidəndir. İnsan düşüncəsi Tanrının obrazıdır. Tanrının mənəvi axtarışları da düşüncə vasitəsi

ilə edilir. Bu axtarışlar dünya fəlsəfəsinin əsasını təşkil edir[212]. Tanrıya ən yaxın olan filosoflar-stoiklərdir. Ondan uzaqlaşanlar isə epikurçulardır. Lakin Tanrı haqqında ən doğru məlumatı Müqəddəs Kitab verir.

Konsubstansionallığı subuta yetirmək istəyən Hilarius, stoiklərin fəlsəfəsindən istifadə edirdi. Stoiklərdə, hər bir fərdi şeyin əsasında, bu şeylərdə təzahür edən və çoxalan, lakin, eyni zamanda, öz birliyini və tamlığını saxlayan təbiət durur. Ondan heç nə əksilmir. Bu fikri əsas götürən Hilariusa görə, İlahi Üçlüyün hər bir şəxsində eyni İlahi təbiətin üçlü modifikasiyasıdır. Bu modifikasiyalarda o, öz eyniliyini qoruyub saxlanılır.

Arianlar deyirdilər ki, "doğulan" Oğulun, "doğulmayan" Ata ilə təbiətləri müxtəlifdir. Buna cavab verən Hilarius, hər bir yeni şeyin artıq mövcud olan şeylərdən yaranması, doğulması və ya "həqiqi olmayan" doğulmasından söhbət açırdı (quasi nativitas). "Həqiqi olmayan" doğulma eyni cinsli olan şeyin məkanda ayrılmasıdır. Buna misal odun bir məşəldən başqa məşələ verilməsidir. Bu halda yeni od yeniləşmiş olan köhnə oddur. O, ayrılmadan öncə də mövcuddur, lakin onun mövcudiyyəti köhnə odla eyniliyi təşkil edir. Yeni od köhnə oddan doğulur, onların cinsi eynidir. Buradan Hilarius Ata ilə Oğulun mahiyyətlərinin eyniliyini (konsubstansionallığını) sübuta yetirmək istəyirdi[213].

Latın atalarından ən tanınmış mütəfəkkirlərdən biri *Stridonlu Hiyeronimus (Hieronymus Stridonensis)* (340-420) olmuşdur. O, Stridon şəhərində anadan olmuşdur. Öz təhsilini Romada almışdır və orada da 366-cı ildə Xristianlığı qəbul etmişdir. 382-385 illərdə Hiyeronimus papaz Damasusun katibi olmuşdur.

Hiyeronimus öz dövrünün ən savadlı adamlarından biri idi. O, 180-dan çox əsərin müəllifi olmuşdur[214]. Hiyeronimus bir çox Bibliya kitablarına şərhlər yazmışdır. Əksər hallarda o, təvilləri, alleqoriyaları rədd edərək Müqəddəs Kitabı hərfi mənada izah edirdi.

Nəhayət Hiyeronimus ən böyük işi onun tərəfindən Əhdi-Ətiqin qədim yəhudi dilindən latın dilinə tərcüməsi və onun redaktə edilməsi olmuşdur. Bu tərcümə «Vulqata» adlandırılmışdı. Bundan sonra Roma imperiyasının qərbində Bibliyanın yunan tərcümələrinə ehtiyac qalmamışdı.

Daha bir məşhur latın kilsə atası Mediolan şəhərinin yepiskopu *Medionlanlı Ambrosius* (340-397) olmuşdu. O latın və yunan kilsə

---

212 De Trinitate I, 4.
213 De Trinitate VII, 29.
214 Hiyeronimusun əsərləri ingilis dilinə tərcümədə burada yer-ləşdirilmişdir: http://www.forumromanum.org/literature/hieronymusx.html

ənənələrinin bir-birinə yaxınlaşdırılması xəttini tutmuşdur. Ambrosius, yunandilli ilahiyyatçıların simvolik və alleqorik ekzegetik üsullarını qərb ənənəsinə daxil etmişdir. Onun ən məşhur əsərlərinindən biri «Exameron» (Dünyanın altı günə yaradılması) adlanır. Bu əsər «Yaradılış» kitabının birinci fəslinin şərhinə həsr edilmişdir. Bu şərhlər bir çox hallarda alleqoriyalar üzərində qurulmuşdur.

## Avqustinus Avrelius

O dövrün ən böyük Qərb xristian mütəfəkkiri Avqustinus Avrelius (Augustinus Aurelius) olmuşdur.



Onun təlimi bir neçə əsr ərzində Qərb xristian kilsəsinin ideologiyasının əsasını təşkil etmişdir.

Avqustinus (354-430) Şimali Afrikanın Taqasta şəhərində anadan olmuşdu. Onun atası bütpərəst, anası isə xristian olmuşdu. O öz təhsilini Taqastada almışdı, sonra Kartacanın ritorika[215] məktəbində davam etdirmişdi. On doqquz yaşında Avqustinus mani dinini qəbul etmişdi. Maniliyin dualist təliminin əlamətləri, Avqustinusun əqidəsində və əsərlərində, Xristianlığı qəbul edəndən sonra da özünü göstərirdi.

383-cü ildə Avqustinus Romaya gəlib, orada ritorika məktəbini təsis etmişdi. Daha sonra o Mediolan şəhərinə köçmüş və orada yepiskop Ambrosiusla tanış olmuşdur. Onun çıxışları Avqustinusun ürəyinə yatmış və o, Xristianlıqla maraqlanmağa başlamışdır. Nəhayət, 387-ci ildə, Avqustinus bu dini qəbul edib, onun əsas ideoloqlarından birinə çevrilmişdir. Onu da qeyd etmək lazımdır ki, Avqustinusun təlimində neoplatonizm fəlsəfəsinin əlamətləri vardır. O, Plotinusun əsərləri ilə yaxından tanış olub, onun ideyalarını Xristianlıq üçün tətbiq etmişdi.

Xristianlığı qəbul edəndən sonra, Avqustinus Şimali Afrikaya qayıtmışdırdır. O, ömrünün axırına qədər Hippon şəhərində yaşamışdır və

[215] Ritorika (yunanca "rhetorike") - antik və sonrakı dövrlərdə natiqlik qabiliyyətinin nəzəriyyəsi və bacarığıdır.

396-cı ildən başlayaraq, bu şəhərin yepiskopu olmuşdur. Avqustinus rəsmi xristian kilsəsini tanımayan xristianlara qarşı çox sərt mübarizə aparırdı.

Avqustinus Avrelius çoxlu əsər yazmışdı. Onun ən məşhur əsərlərindən biri «Confessiones» (Tövbə) adlanır[216]. Bu avtobioqrafik əsərdir. Burada Avqustinus öz həyatını mistik və mənəvi təcrübə nöqteyi-nəzərindən təsvir edir. Bu əsərdə o Xristianlığa hansı yollarla gəldiyi haqqında yazır.

«De civitate Dei» (Tanrı şəhəri haqqında) kitabı Xristianlığın apologiyasına həsr olunmuşdur[217]. Birinci 10 kitab bütpərəst əqidəsinin rədd edilməsinə həsr edilmişdir. Daha sonra 2 şəhər (dünyavi və İlahi) bir-birinə qarşı qoyulur. Bu əsərin yazılmasının səbəbi, 412-ci ildə Romanın vestqot[218] Alarix (Alarich) tərəfindən fəth olunması hadisəsi olmuşdur. Bu hadisə bütün Qərb dünyasını sarsıtmışdır. Bu faciənin səbəblərini izah etməyə cəhd edən Avqustinus, Romanın yalnız bu dünyanın şəhəri olduğu haqqında yazırdı. Bu dünyada isə əbədi heç nə yoxdur. Əbədilik yalnız Tanrıya məxsusdur.

Müxtəlif təriqətlərə qarşı çıxış edən Avqustinus, maniçilərə və donatçılara qarşı rəddiyələr yazmışdı[219]. O, britaniyalı rahib Pelagiusa da qarşı bir neçə rəddiyələrin müəllifi olmuşdur[220]. Pelagius ilk günahın mövcud olmasını inkar edirdi. O deyirdi ki, insanlar bu dünyaya günahsız gəlir. Günahları isə, onlar öz əməlləri ilə qazanırlar. Buna qarşı çıxış edən Avqustinus insan təbiətinin Adəmin günahından sonra günahkar olduğunu iddia edirdi. Onun fikrincə, Adəmin günahını bütün insanlar daşıyır və onlar

---

216 Аврелий Августин. Исповедь. М., 1991. 488 с. http://www.philosophy.ru/library/august/01/0.html
Latınca və ingiliscə mətnləri burada yerləşir: http://www.stoa.org/hippo/frame_entry.html

217 Августин Блаженный. О Граде Божием. Мн.: Харвест, М.: АСТ, 2000. - 1296 с. http://filosof.historic.ru/books/item/f00/s00/z0000181
İngilis dilində: http://www.newadvent.org/fathers/1201.htm

218 Vestqotlar – alman mənşəli tayfalar. Onlar 3-4 əsrlərdə Dnestr çayı yaxınlığında yaşamışdılar. Sonra müasir Fransanın cənubunda krallıq yaratdılar. Daha sonra V əsrdə İspaniyanı istila etmişdilər. VIII əsrdə İspaniyanı ərəblər fəth edəndən sonra tarixi səhnədən silindilər.

219 Maniçilərə və donatçılara qarşı rəddiyələrin ingilis dilinə tərcüməsi burada yerləşir: http://www.ccel.org/fathers2/NPNF1-04/TOC.htm

220 Pelagiusa qarşı rəddiyələrin ingilis dilinə tərcüməsi burada yerləşir: http://www.ccel.org/fathers2/NPNF1-05/TOC.htm

bu dünyaya günahkar gəlirlər. Yalnız Xristianlığı qəbul edəndən və xaç suyuna salınma mərasimindən çıxandan sonra bu günah silinir.

«De Trinitate» (Üçlük haqqında) kitabı Avqustinusun daha bir tanınmış əsərlərindən biridir[221]. Bu əsərdə o, ilahiyyata aid fikirlərini açıqlamışdır. Bundan başqa Avqustinus «De libero arbitrio» (Azad iradə haqqında), «De magistro»[222] (Müəllim haqqında), «Contra academicos»[223] (Akademiklərə qarşı), «De immortalitate aniniae» (Ruhun ölməzliyi haqqında) və başqa əsərlərin müəllifi olmuşdur[224].

Avqustinusun fəlsəfəsində Tanrı hər bir ideyanın, düşüncənin mərkəzindədir. Ona görə də, onun fəlsəfəsi teosentrikdir. Tanrının hər şeydən əvvəl olması fikri Avqustinus ruhun bədən, iradənin düşüncə üzərində yüksəlməsi fikrinə gətirmişdi. Bu yüksəlmə həm metafirik, həm qnoseoloji, həm də etik xarakter daşıyır.

Avqustinusun fəlsəfəsində Tanrı ən yüksək varlıqdır (summa essentia). Yalnız Onun varlığı onun öz təbiətindən irəli gəlir. Dünyada mövcud olan başqa şeylər isə Onun tərəfindən yaradılıb və Onun iradəsinə tabedir. Eyni zamanda, Tanrı, hər bir varlığın mövcud olmasının səbəbidir. O, dünyanı yaradıb mühafizə edir. Onun yaratmaq qabiliyyəti bununla kifayətlənmir. O hər an yaradılışı davam edir (creatio continua).[225]

Plato fəlsəfəsindən fərqli olaraq, Avqustinus Tanrını bir şəxsiyyət kimi qəbul edirdi. Antik dünyada yayılmış taleyin hər şeyə qadir olması inancına gəldikdə, Avqustinus onu inkar etmədən tamamilə Tanrının iradəsinə tabe edir[226]. Tanrının iradəsi isə onun mahiyyətinə aiddir[227].

Hər şeyin Tanrının iradəsindən asılı olması fikri Avqustinusu bir tərəfdən fatalizmə, digər tərəfdən isə, gerçəkliyin irrasional yozulmasına

---

221 «Üçlük haqqında» əsərin ingilis dilinə tərcüməsi burada yerləşir: http://www.ccel.org/fathers2/NPNF1-03/TOC.htm

222 Блаженный Августин. Творения. Т. 1: Об истинной религии. СПб.; Киев: Алетейа; УЦИММ-Пресс, 1998. С. 264-312. http://antology.rchgi.spb.ru/Sanctus_Aurelius_Augustinus/teacher.html

223 Блаженный Августин. Творения. Т. 1: Об истинной религии. СПб.; Киев: Алетейа; УЦИММ-Пресс, 1998. С. 5-85. http://antology.rchgi.spb.ru/Sanctus_Aurelius_Augustinus/academ.htm

224 Avqustinusun əsərlərinin siyahısı bu ünvanlarda yerləşdirilmişdir:
İngilis dilində: http://www.ccel.org/fathers2/
Rus dilində: http://aleteia.narod.ru/august/august.htm#2

225 De civitate Dei XII , 25. http://www.newadvent.org/fathers/120112.htm

226 De civitate Dei IV , 33. http://www.newadvent.org/fathers/120104.htm

227 Confessiones XI, 10.

gətirmişdi. Ətraf mühit insan əqli ilə dərk edilməyən möcüzələrlə doludur. Bu möcüzələrin arxasında isə, Tanrı durur.

Ümumiyyətlə Avqustinus əqlə yox, iradəyə üstünlük verirdi. Onun fikrincə, hər bir şeyin mahiyyəti onun aktivliyindədir, passivliyində deyil. Deməli insan mahiyyətini passiv olan əql deyil, aktiv olan iradə təşkil edir. Buna görə də ruhun mahiyyətini azad iradə təşkil edir. Bu fikri Avqustinus Tanrıya da aid edirdi və onun mahiyyətində iradənin üstünlüyünü qeyd edirdi. Beləliklə, onun fəlsəfəsi rasionallıqdan uzaqlaşaraq, voluntarizmə[228] daha yaxındır.

Avqustinusa görə, hər bir şeyi Tanrı yaratmışdır. Məxluq cismə malik ola bilər, olmaya da bilər. Məlakələr və insanın ruhu olduğu kimi yaradılmışdı. Onlar mənəvi aləmə aiddir. Bütün başqa şeylər isə materiya ilə bağlıdır. Materiyanın əsasını təşkil edən dörd ünsür - yer, su, hava və od - olduğu kimi, Tanrı tərəfindən yaradılmışdır, neoplatonizmdə olduğu kimi, emanasiyanın nəticəsi deyil. Neoplatonizmdə dünya Vahidin (Tanrının) emanasiyasıdırsa, Avqustinus fəlsəfəsində o, Tanrı iradəsinin məhsuludur. Avqustinusda Tanrı ilə dünyanın dualizmi ideyası, neoplatonizmin monizmini (yəni Tanrı ilə dünyanın eyniliyi ideyasını) əvəz etmişdi. Eyni zamanda Tanrıda Platonun ideyaları cəmlənir və Onda gerçək dünyanın ideal nümunəsi gizlənib. Beləliklə həm Platoda, həm də Avqustinusda iki dünya var. Biri Tanrıda olan ideal dünyadır. Digəri isə, ideyaların Tanrının iradəsi ilə materiyada əks olunan, yaradılan maddi dünyadır.

Yaradılan dünyada inkişaf proseslərini Avqustinus bu dünyada mövcud olan potensial səbəblərlə izah edirdi. Yəni insanların, heyvanların, bitkilərin böyüməsi və tədricən inkişaf etməsi, Onları yaradan Tanrı tərəfindən əvvəlcə nəzərdə tutmuşdu və onlarda bu inkişafın səbəbləri Onun tərəfindən yaradılmışdı. Burada Avqustinus stoiklərin təlimindən istifadə etmişdir, lakin səbəblərin yaradılışını Tanrı ilə bağlayırdı.

Tanrı üç hipostasisdən (sifətdən) ibarətdir. Onlar bir-birindən ayrılmazdır. Bunun necə baş verdiyini insan düşüncəsi ilə dərk etmək olmaz. Üç insan bir insan ola bilməz, lakin Tanrının üç sifəti bir şəxsiyyətdir.[229]

Avqustinusun fəlsəfəsində Tanrı yalnız xeyri yaradır. Şər ona məxsus deyil. Hələ mani dinində olan dövrlərdə şərin təbiəti problemi Avqustinusu düşündürürdü. Lakin onu manilikdəki kimi, ayrıca bir başlanğıc, substansiya

---

[228] Voluntarizm (latınca "voluntas" - iradə) – iradəni varlığın ən yüksək prinsipi elan fəlsəfi təlim.
[229] De Trinitate 15, 43.
http://www.ccel.org/fathers2/NPNF1-03/npnf1-03-21.htm#P1897_946543

kimi qəbul etmək xristian təliminə zidd idi. Buna görə, bu problemin monoteizm çərçivəsində həll olunması üçün Avqustinus neoplatonizmə müraciət edib. Neoplatoçular şəri xeyrin çatışmaması kimi başa düşürdülər. Avqustinus də hesab edirdi ki, şər təbiətdə yoxdur, o xeyirlə ziddiyyət təşkil etmir. Şər yalnız xeyrin olmamasıdır. O, yalnız xeyir əməllər edilməyəndə yaranır, ali məqsədlərdən yayınmadır, təkəbbürdən irəli gəlir. Sükut - səsin, qaranlıq - işığın olmaması kimi, şər də xeyrin olmamasıdır. Avqustinusun teodiseyası[230] bundan ibarətdir.

Tanrı ilə dünyanın dualizmi, Avqustinusu zamanın nə olduğu sualına cavab verməyə məcbur edir. Məsələ bundadır ki, Tanrının əbədi, maddi dünya isə müvəqqəti və məhvə məhkum olması bir ziddiyyət təşkil edirdi. Bu ziddiyəti ortadan qaldırmaq lazım idi. Zamanla bağlı problemə Avqustinus «Confessiones» əsərində toxunurdu[231]. Antik mütəfəkkirlər zamanın gedişini planetlərin hərəkəti ilə əlaqələndirirdilər. Lakin Avqustinus bu fikri rədd edir, çünki planetlər də Tanrı tərəfindən yaradılıb[232]. Onun fikrincə zaman dünyada hər şeyin hərəkətinin və dəyişməsinin ölçüsüdür. Dünya yaradılandan öncə zaman anlayışı olmayıb. Yalnız yaradılışdan sonra şeylərin hərəkət və hal dəyişmə ölçüsü kimi yaranıb.

Daha sonra Avqustinus indiki zaman, keçmiş və gələcək kimi zaman kateqoriyalarını izah etməyə cəhd etmişdir. Onun gəldiyi nəticəyə görə, əslində keçmiş və gələcək anlayışları mövcud deyil. Onlar indiki zamana aiddirlər. Yəni yalnız indiki zamanda o anlayışlar keçmiş və gələcək kimi düşünülə bilər. Keçmiş - insan yaddaşı ilə, gələcək isə - ümüdlə bağlıdır.

Keçmişi və gələcəyi indiki zamana aid etmə Avqustinusun fəlsəfəsində İlahi mütləqiyyəti subut edir. Yəni yalnız Tanrıda indiki zaman keçmiş və gələcəkdə sıx bağlıdır.

Avqustinusun fəlsəfəsində, Tanrının mütləq əbədiliyi ilə maddi dünyanın dəyişkənliyi arasındakı fərq və bu anlayışların bir-birinə qarşı-qarşıya qoyulma ənənəsi, xristian dünyagörüşünün əsaslanrından birini təşkil etmişdir.

Avqustinusun fəlsəfəsində düşüncə və iman problemləri məsələsinə rast gəlmək olar. Bu məsələdə o, üstünlüyü imana verirdi. Bu cür münasibət

---

[230] Teodiseya (yunanca "Theos" – Tanrı və "dice" - ədalət sözlərindən əmələ gəlmişdir) – dünyada mövcud olan şərə görə, Tanrıya bəraət qazandırılması haqqında ilahiyyat təlimi.

[231] Confessiones XI, 14, 17. http://www.philosophy.ru/library/august/01/11.html

[232] Confessiones XI, 23, 30. http://www.philosophy.ru/library/august/01/11.html

xristian fəlsəfəsi üçün yeni bir şey deyildi. Lakin öncəki kilsə ataları imanın mənbəyini Müqəddəs Kitabda görürdülər. Avqustinus isə, onlardan fərqli olaraq, onu daha da çox Kilsədə görürdü. Onun fikrincə, Kilsə günahlardan təmizlənmiş həqiqəti özündə saxlayan bir qurumdur. Avqustinusun fikrincə Adəm tərəfindən törədilən ilk günah, insan təbiəti və şüurunda dəyişikliklərə səbəb olmuşdu, onları zəiflətmişdi. Buna görə də insan şüuru kamil deyil və İlahi biliklərə möhtacdır. Hər bir şeyi anlamaq üçün insan ilk növbədə iman etməlidir. Avqustinus məktublarından birində demişdi: «Anlamaq üçün inan». Yəni iman anlamaqdan öncə gəlir. Lakin əqli dəlilləri o Tertullianus kimi rədd etmirdi.

Avqustinus idrak probleminə də diqqət yetirmişdi. İdrakın birinci mərhələsi, insanın ətraf mühitin əşyalarını hisslərlə duymasıdır. Lakin bu cür duyğulara arxalanan bilik etibarlı sayıla bilməz, çünki o səthidir. Bundan fərqli olaraq, bir insanın başqa insanlardan öyrəndiyi bilik, daha etibarlı, mükəmməl və zəngindir. Bunu Avqustinus iman adlandırır.

Şübhəçilərdən (skeptiklərdən) fərqli olaraq, Avqustinus idrakın mümkünlüyünü inkar etmirdi. Onun məqsədi, yanlışlığa gətirməyən idrak üsulunun axtarışı idi. Buna nail olmaq üçün o hesab edirdi ki, duyğu vasitəsi ilə əldə edilən idrak, insanı həqiqətə gətirə bilməz[233]. Duyğulara əsaslanan idrak insanı şübhəçiliyə gətirir. Deməli, Avqustinusun fikrincə, obyektiv dünya ilə təmasın yaradılmasından həqiqi biliklər əldə edilə bilməz[234].

Ən etibarlı idrak mənbəyi isə, insanın şüurudur, ruhudur. Məhz bu ruhun dərinliklərinə varanda xarici mühitdən asılı olmayan məzmuna rast gəlmək olar. Yəni biliyin xarici aləmdən alındığı fikri yanlışdır.

Əslində insan həqiqəti öz mənəvi aləmində tapır. Yəni əsl bilik təcrübədən asılı deyil. İnsan ruhunda həqiqət əvvəlcədən aprior şəkildə mövcuddur və onun mənbəyi Tanrıdır. İnsan ideyaları yaratmır, yalnız onları Tanrıdan alır. Həqiqi biliyi axtaran adam, onu İlahinin nurlanmasının nəticəsində tapır[235]. Beləliklə, Avqustinusun idrak təlimi İlahi nurlandırmaya bağlıdır və mistik xarakter daşıyır.

---

[233] De immortalitate aniniae (Ruhun ölməzliyi haqqında) 1 // Блаженный Августин. Творения. Т. 1: Об истинной религии. СПб.; Киев: Алетейа; УЦИММ-Пресс, 1998. С. 373-393.
http://aleteia.narod.ru/august/immortality_soul.htm

[234] De vera religione (Həqiqi din haqqında) 39 // Блаженный Августин. Творения. Т. 1: Об истинной религии. СПб.; Киев: Алетейа; УЦИММ-Пресс, 1998. С. 394-468. http://aleteia.narod.ru/august/religion.htm

[235] De civitate Dei, X, 2.
http://filosof.historic.ru/books/item/f00/s00/z0000181/st012.shtml

Avqustinus elmlə (scientia) müdrikliyin (sapientia) arasında fərqin olduğunu iddia edirdi. Elmlə nəticələnən bilik obyektiv dünyanın şüurlu idrakıdır. Müdriklik isə, əbədi olan İlahinin işlərinin və mənəvi obyektlərin dərk olunmasıdır[236]. Bilik şər olan bir şey deyil. O hətta insana müəyyən dərəcədə maddi dünyada yaşamaq üçün lazımdır. Lakin insan, yalnız bilik alma işini özü üçün bir məqsəd qoymamalıdır. Çünki Tanrının köməyi olmasa, dünyanı dərk edə bilməz. Buna görə insan elmi müdrikliyə tabe etməlidir, çünki ruhun xilası onun ən yüksək məqsədidir.

Antik fəlsəfi ənənəsinə zidd olaraq, Avqustinus ruhun yalnız insanda olduğunu iddia edirdi. Başqa canlıların ruhu yoxdur.

Ruhlar Tanrı tərəfindən yaradılır. Yaradılandan sonra ölməzdir. Yəni onların əvvəli var, lakin sonu yoxdur. Ruhlar insanın ölümündən də sonra yaşayır. Onlar bir bədəndən başqa bədənə köçməzlər. Bununla Avqustinus pifaqorçuların və yeni platoçuların fikirlərini rədd edirdi.

Avqustinusa görə, ruhlar maddədən ibarət deyil. Onların heç bir məkan və ölçü keyfiyyətləri yoxdur. Düşüncə, yaddaş və iradə kimi xüsusiyyətlər ruhlara aiddir. Yaddaşın olduğuna görə, insan həyatında baş verən müxtəlif hadisələr itmir, müəyyən yerdə toplanır. Lakin bu yer məkanda heç bir yer tutmur. Bu da insan ruhunun maddə olmadığına dəlalət edir. Duyğu orqanları vasitəsilə alınan obrazlar, cismi olmadan ruhda (daha doğrusu onun tərkib hissəsi olan yaddaşda) saxlanılır. Zehni əmək nəticəsində əldə olunan etik, riyazi anlayışlar da yaddaşda cisimsiz şəkildə saxlayır.

Ruhlar insan bədəni ilə birləşərək onun hər bir yerində mövcuddur, təkcə hansısa bir yerlə məhdudlaşmır. Əslində ruh bədəndə deyil, bədən ruhdadır. Beləliklə Avqustinus, ruhu bədəndən yüksək bir varlıq hesab edir. Ruh bədəni idarə edir. İnsanın əsl mahiyyəti onun ruhundadır, bədənində deyil.

Avqustinus ruhun əqli fəaliyyətindən daha çox, onun iradəsinə əhəmiyyət verirdi. Məsələ bundadır ki, insan aktiv bir varlıqdır. Aktivlik isə əqldən irəli gələ bilməz, çünki əql ətraf mühitin şeylərini passiv şəkildə dərk edir. Beləliklə hər bir insan möhkəm iradəyə malik olaraq, İlahi həqiqəti axtarmalıdır, bu yolda fəaliyyət göstərməlidir, Tanrıya məhəbbət hissini

[236] De Trinitate XII, 12, 15.
http://www.ccel.org/fathers2/NPNF1-03/npnf1-03-18.htm#P1497_734340

bəsləməlidir. İnsan iradəsi azaddır. Bütün bu fikirləri Avqustinus «De quantitate aniniae»[237] (Ruhun miqdarı haqqında) əsərində ifadə etmişdi.

Avqustinus öz əsərlərində insanın azad iradəsi probleminə də toxunmuşdur. Onun fikrincə Tanrı insana azad iradə vermişdi. Lakin bunda məqsəd insanın könüllü olaraq İlahini tanıması və Onun buyuruqlarının yerinə yetirməsidir. Lakin ilk insan olan Adəm, ona Tanrı tərəfindən verilən azadlığı Ona qarşı üsyan üçün istifadə etmişdir. O, qadağan olunmuş ağacın meyvəsini yeyərək günaha batmışdır. Bununla onun təbitəində qüsur əmələ gəlmişdi və o günaha meylli olmuşdur. Bu qüsurlar, sonra, onun övladları olan bütün bəşəriyyətə keçmişdir. O andan insanın azad iradəsi onunla Tanrı arasında bir ayrılığa, yadlaşmağa səbəb olmuşdur. Bu günahdan xilas olmaq üçün, Tanrı oğlu İsaya iman edilməlidir. O, insanla Tanrı arasında uçurumu ortalıqdan qaldırmaq üçün bu dünyaya gəlmişdir. O ona verilən bütün əzablara sinə gəlib, çarmıxa çəkilərək edam edilmişdir. Bununla o, bəşəriyyəti günahlardan təmizləmişdi. Hər bir insan ona iman edərək xilas olur və Tanrı tərəfindən bağışlanır. Lakin, eyni zamanda, hər bir insan kilsə üzvü olmalıdır, çünki kilsə İsanı təmsil edən bir qurumdur. Kilsə xaricində xilas olmaq mümkün deyil. Bundan başqa, dini ayinləri də icra etmək vacibdir.

Bu fikirləri irəli sürən Avqustinus, Britaniyalı rahib Pelagiusla ixtilafa girmişdi. Pelagiusun fikrincə, Adəmin günah etməsi heç də bu günahın bütün bəşəriyyətə keçməsi demək deyil və “ilk günah” anlayışı yoxdur. Hər bir insan dünyaya günahsız gəlir və günahları həyatı boyu niyyət və əməllərinə görə qazanır. İsanın gəlişi də insanların günahlardan azad olması üçün baş verməmişdir. O yalnız ideal bir şəxsiyyət idi, hamı üçün möminlik nümunəsini olmuşdu. Pelagiusa görə, insana, onu xeyr və ya şər yolu ilə apara bilən azad iradə verilmişdir. Tanrı isə insana xeyrə yönəlməsində köməklik edə bilər. Beləliklə Pelagiusun fikirləri kilsə qanununun əhəmiyyətini heçə endirirdi. Buna görə də Avqustinus onunla mübarizə apararaq öz fikirlərini irəli sürmüşdür.

Avqustinusun sosial-siyasi baxışları ictimai bərabərsizlik prinsipinə əsaslanır. Bərabərsizlik ictimai həyatın əbədi və dəyişməz prinsipi olaraq, Tanrı tərəfindən yaradılmışdır və hiyerarxiyaya bənzəyir. Bu hiyerarxiyada hər bir üzv, özündən öncə gələn üzvə tabe olur. Belə ki, Avqustinus ən yüksək olan göy hiyerarxiyasından və onun davamı olan yer

[237] Блаженный Августин. Творения. Т. 1: Об истинной религии. СПб.; Киев: Алетейа; УЦИММ-Пресс, 1998. С. 183-263. http://aleteia.narod.ru/august/quantity_of_soul.htm

hiyerarxiyasından danışır. Lakin ictimai həyatda bərabər olmayan insanlar, Tanrı qarşısında birdirlər və öz əməllərinə görə cavabdehdirlər.

Avqustinus ictimai-tarixi problemlərə də toxunmuşdur. Bəzi tarixçilərin fikrincə o tarix fəlsəfəsi mövzusunda yazan ilk mütəfəkkirlərdən biri idi. Avqustinusun bu mövzuya marağı, onun 410-cü ildə Romanın Alarixin komandanlığı altında vestqotlar tərəfindən fəth edilməsi hadisəsinə qiymət verilməsi cəhdlərindən irəli gəlmişdir. Bu hadisəni bəzi adamlar keçmiş roma tanrılarının, Xristianlığı qəbul edən romalılardan qisas alması kimi qiymətləndirirdilər. Digərləri hesab edirdilər ki, Romanın süqutu ümumiyyətlə dünya tarixinin sonu deməkdir, çünki xristianlar, öz dinlərini təhrif edərək, ilkin dinin təmizliyini dövlət dini anlayışı ilə əvəz edərək günaha batmışdırlar və bu hadisə Tanrının onlara qarşı qəzəbindən irəli gəlir, qiyamətin əlamətidir.

Lakin Avqustinus hər iki fikri rədd etmişdir. O bütpərəstlərin tanrılarını insan düşüncəsinin məhsulu adlandırırdı. Onların heç bir şeyə qadir olmadığı halda, dünyaları yaradan Tanrı hər şeyə qadirdir.

Ümumiyyətlə, Avqustinusun tarix fəlsəfəsi haqqında yalnız şərti olaraq danışmaq olar. O bütün bəşəriyyətə xristian nöqteyi-nəzərindən baxır və Bibliyanı əsas götürür. Lakin, buna baxmayaraq, Avqustinus «De civitate Dei» əsərində bəşəriyyətin taleyi problemini fəlsəfi düşüncə obyektinə çevirən ilk mütəfəkkir olmuşdur. Öz əsərində o, əsasən Bibliyada verilən yəhudilərin tarixini və Aralıq dənizi hövzəsində yaşayan başqa xalqların tarixlərini sintez şəklində düşüncə obyektinə çevirmişdi. Dünya tarixi Tanrının hökmü ilə inkişaf edib dəyişdiyinə görə, Avqustinusun ideyalarını providensial[238] adlandırmaq olar.

Avqustinusun fikrincə bütün bəşər tarixini İlahi və insani qurumların bir-biri ilə mübarizəsi təyin edir. Onlardan biri İlahi (civitas Dei), digəri isə dünyavi (civitas terrena) çarlıqlardır. Beləliklə, burada Tanrı və təbiət dualizmi, ictimai inkişaf proseslərinə aid edilir. Tanrı çarlığında insanların az hissəsi təmsil olunur. Onlar mömінlərdir, öz sədaqətləri və ibadətləri ilə Tanrının məmnunluğunu qazanmışdırlar. Onlara qarşı duran dünyavi çarlığını təmsil edənlər özlərindən razı, Tanrını yada salmayan, ehtiraslarının arxasınca gedən insanlardır. Onlar bəşəriyyətin əksəriyyətini təşkil edir. İsanın gəlişindən öncə Tanrı çarlığı mələklərdən, möminlərdən və Əhdi Ətiqdə adları keçən peyğəmbərlərdən ibarət idi. İsanın gəlişindən sonra isə

[238] Providensializm (latınca "providentia" tale deməkdir) – tarixi hadisələrin öz daxili qanunauyğunluğu ilə deyil, Tanrının iradəsi ilə izah etməyə cəhd edən dini dünyacörüşü.

bu çarlıq daha da möhkəmlənmiş, çoxalmışdır. Bu hadisədən sonra Tanrı çarlığını təmsil edənlər Kilsə qurumunda birləşmişdirlər və bu dünyaya qarşı davam gətirirlər. Göründüyü kimi bu fikirlərin neoplatoçuların və qnostiklərin dünyanın qaranlıq zülmət olduğu və burada Tanrıya, nura doğru yönələn az saylı bilikli insanların mövcud olması ideyaları ilə bənzərlik vardır. İlahi çarlığın (Kilsənin) nümayəndələri bu dünyada maddiyyata bağlı olan, Tanrını tanımayanlarla yaşamağa məcburdurlar və daim onlara qarşı mübarizə aparırlar.

Dünyada mövcud olan dövlətlər «quldur təşkilatlarıdır». Onlar yalnız qarət, başqa ərazilərin, insan mülkiyyətinin zəbt olunması məqsədini güdürlər. Bu dövlətlərdə insanlar arasında ədalətsizlik, bir-birinin üzərində ağalıq etmək cəhdləri, maddi sərvətlərin yığılması hökm sürür. Əslində romalılar bu keyfiyyətlərlə fəxr edirdilər. Lakin əslində bütün bunlar insanlar arasında nifaqa səbəb olur.

Lakin Tanrı və dünya çarlıqlarının mübarizəsinə baxmayaraq, onların hər ikisi Tanrının razılığı ilə mövcuddur. Buna görə də bu dünyanın dövlətlərinə qarşı çıxış etmək olmaz, çünki hər bir, (hətta pis) hakimiyyət Tanrıdandır. Dövlətin daxilində bu dünya ilə bağlı olmayan və Tanrı çarlığına aid olan Kilsə qurumu vardır. Dövlət Kilsəyə qulluq etsə və onun maraqlarını əks etdirsə vahid bir ictimai təşkilata nail olmaq olar. Beləliklə Avqustinus teokratik[239] cəmiyyətin tərəfdarı idi. Teokratik dövlətlər təqdirə layiqdirlər. Dünyəvi dövlətlər isə pislənməlidir. Romanın siyasi nöqteyi-nəzərindən süquta uğraması şəraitində Avqustinus, onun daxilində olan Kilsə qurumunun güclənməsinin ideoloqu idi. Yəni Roma öz günahları ucbatından məhv olduğu halda, onun içində İlahi çarlığın tərkib hissəsi olan Kilsə öz mənəvi, siyasi, iqtisadi qüvvəsini saxlamalı idi. Həqiqətən də Romanı süquta uğradan barbarlar, Kilsənin nüfuzuna heç bir zərbə vura bilməmişdilər. Sonda onlar Xristianlığı qəbul etdilər və öz mədəniyyətlərini bir neçə əsr ərzində bu dinin ehkamları üzərində qurdular.

Avqustinusun teokratik hakimiyyətinin ideyaları Roma papazlarının hakimiyyətinin və hörmətinin möhkəmlənməsində böyük rol oynamışdır.

Tarixin Tanrının qəza və qədərindən asılı olduğunu vurğulayan Avqustinus dünya dövlətlərinin tarixlərini dövrlərə bölür. Bu dövrləşmə Əhdi Ətiqdə bəhs edilən yaradılışın altı günü ilə, insan həyatının altı dövrü ilə və Bibliyada təsvir edilən Xristianlığın tarixi mərhələləri ilə aparılır. İnsan həyatının altı dövrü - körpəlik, uşaqlıq, yeniyetəmlik, gənclik,

239 Teokratiya (yunanca “theos” - Tanrı, “kratos” - hakimiyyətdir) – siyasi hakimiyyətin ruhanilərə və Kilsə xadimlərinə məxsus olmasıdır.

yetkinlik və qocalıqdır. Bu dövrlərin birincisi Adəm və Həvvanın yaradılışından Nuh tufanına qədər olan dövrdür, sonuncusu isə (qocalıq) İsanın gəlişi və Xristianlıq dövrüdür. Bu sonuncu dövr qiyamətə qədər davam edəcək. Göründüyü kimi, Avqustinus dünya tarixini inkişafda və tərəqqidə görürdü. Eyni zamanda, bu inkişaf esxatoloji[240] xarakter daşıyırdı.

## Avqustinusdan sonra Avropa fəlsəfəsi

Avqustinus Aureliusdan sonra Avropada fəlsəfi, siyasi-ictimai fikir tənəzzülə uğramışdır. Müqəddəs ataların fikirləri və kitabları Kilsə təliminin əsasını təşkil etmişdir və ehkam şəklində tədris edilirdi. Antik fəlsəfə, demək olar ki, sıxışdırılıb, unudulub, ortadan çıxarılmışdır. Antik ədəbiyyat isə, xristian təəssübkeşləri tərəfindən məhv edilmişdi, bir qismi isə, kilsə kitabxanalarında qalıb, tamamilə unudulmuşdu.

XIII əsrə qədər Avropada mənəvi, ictimai və siyasi həyatın əsasını təşkil edən xristian fəlsəfəsi, neoplatonizmin güclü təsiri altında formalaşmışdır. Lakin neoplatoçu filosofların əsərlərinə və şəxsiyyətlərinə maraq olmamışdır. O dövrün ilahiyyatçıları öz əsərlərində əsasən Avqustinus Aureliusun təliminin müddəalarını təkrarlayırdılar, onu şərh edirdilər, bəzən isə onun müəyyən fikirlərini tənqid edirdilər. Məsələn, *Reyalı Faust* adlı bir mütəfəkkir, Avqustinusdan fərqli olaraq, ruhların maddədən ibarət olduğunu iddia edirdi. Onun fikrincə, əgər ruh bədənə can verirsə, deməli o onun hansısa bir yerində yerləşir və maddədir. Maddə olmayan varlıq isə yalnız Tanrıdır.

Faustu təkzib və tənqid edən *Klavdianus* (*Claudianus) Mamertus* (474-cü ildə ölmüşdür), ruhun maddə olmadığını subut edərək, əsasən Avqustinusun «De quantitate aniniae» kitabına istinad edirdi.

«De statu animae» (Ruhun statusu haqqında) əsərində o, xeyirlərin təsnifatını vermişdi:

1) Tanrı – ən yüksək xeyirdir. Ona məkanda hərəkət, zamanda dəyişmə keyfiyyətləri aid edilə bilməz. O muhakimə edib, muhakimə edilə bilməz.

2) Tanrıdan sonra ruh gəlir. O müəyyən keyfiyyətlərə malikdir. Məkanda deyil, zamanda hərəkət edir. Ruh muhakimə edib, muhakimə edilə bilər.

---

[240] Esxatologiya (yunanca “eskhatos” - sonuncu, “loqos” - söz, bilik, qanun deməkdir) - dünyanın sonu, qiyamətin qopması haqqında dini təlimdir.

3) Ruhdan sonra bədən gəlir. Onun keyfiyyət və kəmiyyət ölçüləri vardır. O zaman və məkanda hərəkət edir. O muhakimə etmir və muhakimə edilmir.

Bu təsnifatdan Mamert, ruhun bədən olmaması və maddə olmaması nəticəsinə gəlir.

«De statu animae» əsərində Klavdian hərəkətin də özünəməxsus təsnifatını verir: hərəkətin ən yuksək forması Tanrıya məxsusdur. Onun hərəkəti ondan həyatverici enerjinin ayrılmasıdır. Bu hərəkət zaman və məkan anlayışlarından daha yüksəklərdədir. Sonra ruhun hərəkəti gəlir. Onun hərəkəti məkanda deyil, zamanda baş verir. Daha sonra isə maddi cisimlərin hərəkəti gəlir. Bu hərəkət həm zamanda, həm də məkanda baş verir.

Daha sonra Klavdian Avqustinusun ardınca neoplatoçuların ruhu həyatla eyniləşdirməsi ideyasını qəbul edir və bu eyniləşdirmədən onun ölməzliyini və cisim olmaması haqqında danışır. Onun fikrincə, ruh həm də Tanrının obrazıdır.

Digər mütəfəkkir – afrikalı *Makrobius (Ambrosius Theodosius Macrobius)* da, neoplatonizmin təsiri altında Vahid-Əql-Ruh üçlüyünü qəbul edirdi. Lakin Plotinusdan fərqli olaraq, Vahidlə Əqli eyniləşdirirdi, bir çox hallarda Vahidə Əqlin xüsusiyyətlərini aid edirdi. Ruh isə hər şeyin ruhunun daşıyıcısıdır. Fərdi ruhların Ruhdan ayrılması vahidlikdən çoxluğa keçiddir. Materiya yoxluqdur. Orada Ruhdan ayrılan fərdi ruhlar əks olunur. Ruhların ayrılması gunahın nəticəsidir, materiyada təcəssüm olmaq cəzadır. Bədən isə ruhun tabutudur. Orada o keçmişini unudur. Lakin təmizlənərək və özünü dərk edərək, ruh, öz əvvəlki vəziyyətinə qayıda bilər və öz keçmişini yada sala bilər. Makrobius pifaqorçular və platoçular kimi ruhların köçməsini (metampsixozu) qəbul edirdi. Bu cur fikirlərə görə o, tənqidlərə məruz qalmışdı.

Orta əsr dünyagörüşündə simvolik və alleqorik düşüncə tərzi əhəmiyyətli yer almışdı. Bu düşüncə tərzi fəlsəfəyə də təsir etmişdi. İnsanı əhatə edən dünya, rəmzlər və alleqoriyalar sistemi kimi düşünülürdü. Bu rəmzlərin açılması bir məqsədə çevrilmişdi. Bu cür düşüncə tərzi orta əsrlərin istibdad və zülmündən irəli gəlirdi. Kilsə düşüncəsindən azad olmaq üçün insanlar öz fikirlərini simvol, obraz, rəmzi bənzətmə vasitəsi ilə ifadə edirdilər və bununla bir növ kilsə düşüncə tərzinə, rəsmi ekzegetikaya qarşı etiraz edirdilər, öz fikirlərini oxucu kütləsinə çatdırırdılar. Bu üslubda *Martsianus Kapella (Marcianus Capella)* «De Nuptiis Mercurii et Philologiae» (Merkuri və Filologiyanın evlənməsi) kitabını yazmışdı. Öz əsərində Martsianus, müxtəlif fəlsəfi və etik anlayışları – Filologiyanı,

Ədaləti, Ölməzliyi və s. şəxsiyyətlərə çevirib onlarla bağlı hadisələr uydurmuşdur. Məqsəd – oxucuda biliyə məhəbbət hissini oyatmaqdan ibarət idi. Bu cür alleqoriyalardan Qərb patristika dövrünün sonuncu görkəmli nümayəndəsi Boetsius də istifadə etmişdir.

### Severinus Boetsius

Anisius Manlius Severinus Boetsius (Anicius Manlius Severinus Boethius) (480-526) Roma imperiyasının süqutundan sonra Şimali İtaliyada yaranan Ostqotlar krallığında yaşayıb, yaratmışdır. O Romanın patrisi[241] ailəsində anadan olmuşdu və ostqot kralı Teodorikusun (Theodoricus) dövründə, yüksək dövlət vəzifələrini tutmuşdu. Lakin sonra, Boetsiusu Ostqot dövlətitinin mövcudluğuna son qoyulması məqsədi ilə bizanslılarla məxfi danışıqların aparılmasında ittiham etmişdilər. Dövlətə qarşı xəyanətdə ittihamlandırılan Boetsius, zindana atılmış və orada bir müddət saxlandıqdan sonra edam edilmişdi. Boetsiusa "sonuncu romalı" ləqəbi vermişdilər.

Boetsius tərcüməçi və filosof kimi tanınmışdı. O yunan dilindən latın dilinə bəzi riyazi əsərləri, məsələn Evklidesin (Eukleides) «Başlanğıclar» əsərini tərcümə etmişdi. Daha sonra o Aristotelin «Kateqoriyalar» əsərlərini tərcümə və şərh etmişdir.

---

[241] Patrisilər (latınca "patricii") - qədim Romada bütün dövlət vəzifələrini tutmaq hüququ olan ən yüksək ictimai zümrə.

Boetsius bir neçə ilahiyyat risaləsinin də müəllifi olmuşdur. Lakin bəzi tarixçilər onların müəllifinin həqiqətən Boetsius olduğuna şübhə edirlər. Bu əsərlərdən ən tanınmışı «De Trinitate»[242] (Müqəddəs Üçlük haqqında) risaləsidir. Bu əsərdə Boetsius Xristianlığın əsas ehkamlarından olan "Üçlü yü", əqli nöqteyi-nəzərdən əsaslandırmağa çalışmışdır. Bunun üçün müəllif "birlik", "eynilik", "fərq" kimi anlayışların mahiyyətini, sonra isə, fərqlərin və eyniliyin cinsi, substansial, aksidensial[243] növlərini təyin etmişdir.




Maddi şeylər üçün xas olan bu fərqlər, mütləq olan İlahi mahiyyətə aid edilə bilməz. Buradan Tanrının birliyi haqqında nəticə çıxarılır. Lakin burada Tanrı birliyinin Onun üç siması ilə necə uyğunlaşdırılmalı sualı yaranır. Bu suala cavab verməyə cəhd edən Boetsius Aristotelin on kateqoriyasına[244] müraciət edir. Yeni platoçuları təkrarlayaraq o, bu kateqoriyaların Tanrıya aid edilməsinin mümkünsüz olduğunu iddia edirdi. Məsələn, Tanrıya "böyük" yaxud "mərhəmətli" deyəndə insanlar onları başqa mənada işlədirlər, çünki insan anlayışları Tanrıya aid edilə bilməz. Tanrı hər şeyin əvvəli olduğuna görə, substansiyadır. Eyni zamanda o, substansiyadan da uca olan bir varlıqdır, çünki insan anlayışında substansiya həm də əhəmiyyətsiz şeylərin (aksidensiyaların) daşıyıcısıdır. Tanrıda isə, aksidensiyalar ola bilməz.

Aristotelin kateqoriyalarını təhlil edən Boetsius, "münasibət" kateqoriyasına xüsusi nəzər yetirir. Onun fikrincə, bu kateqoriya Tanrının mahiyyətini daha da məqsədəuyğun şəkildə səciyyələndirir. Bu

242 Əsərin ingilis dilinə tərcüməsi burada yerləşdirilmişdir: http://www.ccel.org/b/boethius/trinity/trinity.html

243 Aksidensiya (latınca "accidentia") – şeylərin təsadüfi, əhəmiyyətsiz xüsusiyyəti.

244 Aristotelə görə, hər bir şey haqqında tam biliyə yalnız o şeyin mahiyyətinin bilinməsindən sonra nail olmaq olar. Şeylərin mahiyyətlərini təyin etmək üçün, Aristotel kateqoriyalar anlayışını tətbiq etmişdi. Kateqoriyalar ondur: substansiya, miqdar, keyfiyyət, münasibət, yer, zaman, hal, sahib olma, hərəkət, dəyişmə.

münasibətlərdə bir şey haqqında xəbər verən anlayış (peridikat) nisbi ola bilər və buna görə də o şeyin mahiyyəti dəyişə bilməz. Buna misal olaraq, Boetsius ağanın öz quluna olan münasibətini göstərir. Qul ölsə, insan ağalıqdan məhrum olur. Lakin onun təbiəti, yaxud mahiyyəti, dəyişmir. Bu fikirləri Tanrıya aid edən Boetsius Ata, Oğul, Müqəddəs Ruh üçlüyündə də fərqlərin nisbi olduğunu və Tanrının öz substansial mahiyyətində bir olduğunu iddia edirdi.

Boetsiusun daha bir tanınmış əsəri «Consolatio Philosophiae»[245] (Fəlsəfədən təsəlli tapmaq) adlanır. Bu əsəri o, zindanda, öz edamından bir qədər öncə yazmışdı.

Bu əsərdə qadın obrazını almış və simalaşdırılmış Fəlsəfə ilə Boetsiusun arasında dialoq baş verir. Öz edamını gözləyən Boetsius artıq ədalətə inamını itirib, özü üçün ölüm arzulayır. Bu anda onun qarşısına bir əzəmətli xanımın simasında Fəlsəfə gəlir və onunla dərin mənalı söhbətlər apararaq ona təsəlli verir. Fəlsəfə Boetsiusa, onun dünyanın ədalətsiz olması və hər yerdə şərin hökm sürdüyü haqqında fikirlərinin yalnış olduğunu bildirir. Məsələ bundadır ki, bu dünya ədalətli olan Tanrı tərəfindən yaradılıb, idarə edilir. Tanrı isə, insanı ölməzlik üçün yaradıb. Onun əsl vətəni yer deyil, göylərdir. Bu cür fikirlərlə təsəlli tapmış Boetsius, ölümünü laqeydliklə qarşılamağa hazır olduğunu bildirir.

Əsərin ikinci və üçüncü hissələrində insan xoşbəxtliyinin var-dövlətdən, hakimiyyətdən, duyğular vasitəsi ilə həzz almadan və ümumiyyətlə bu dünyadan asılı olmaması haqqında bəhs edilir. Səadət və xoşbəxtlik yalnız Tanrıya doğru mənəvi yüksəlmədədir. Buna görə də Boetsius Tanrının mövcud olması haqqında fikirlərinə çoxlu yer verir. Boetsiusun fikrincə, Tanrının ən kamil varlıq olduğu ideyasından, Onun tərəfindən intizamlı və ahəngli dünyanın yaradılması fikri yaranır. Dünyanın yaranması haqqında yazan Boetsius bir çox hallarda Platonun «Timeus» (Timaeus) əsərində olan fikirləri təkrar edirdi. İnsan əsl səadətə, öz iradəsini və əməllərini könüllü olaraq Tanrıya tabe edəndən sonra, çata bilər.

Əsərin dördüncü hissəsi teodiseya probleminə həsr olunmuşdur. Tanrıya dünyada olan şərin mövcud olmasına görə bəraət qazandırması 2 variantda gedir: biri stoiklərin fəlsəfəsindən məlum olan estetik, digəri isə Platonun «Qorgias» (Gorgias) əsərində olan etik variantlardır.

---

[245] Boethius. The Consolation of Philosophy. Translated by: W.V. Cooper : J.M. Dent and Company London, 1902. The Temple Classics, edited by Israel Golancz M.A. http://ccat.sas.upenn.edu/jod/boethius/boetrans.html

Estetik teoditesiyasında Boetsius insana şər kimi görsənən bir şeyin, əslində özünə məxsus şəkildə xeyrə və gözəlliyə qulluq etdiyini iddia edirdi. Şərin mövcud olmasına görə Tanrını günahkar bilən insan, öz düşüncəsinin məhdudluğundan kənara çıxa bilmir.

Etik teodiseyasında Boetsius əxlaqsızlığın, qüsurun mütləq cəzalanacağına şübhə etmirdi. Əslində əxlaqsız olmaq, artıq cəzadır, çünki mənəvi əxlaqsızlıq insanın ən böyük sərvətinə – onun ruhuna xələl gətirir.

Xeyirli və şər insanlar xoşbəxtliyə çatmaq istəyindədirlər. Lakin xoşbəxtliyə yalnız xeyirli insanlar çata bilərlər, çünki xeyir əməllərin edilməsi Xeyirə qovuşmaq deməkdir. Xeyrə qovuşmaq isə xoşbəxtlikdir. Bununla da Tanrının ədaləti təmin olur.

«Consolatio Philosophiae» kitabının beşinci hissəsində taleyin insan iradəsi ilə hansı şəkildə uyğunlaşması məsələsinə baxılır. Burada Boetsius Tanrı (Providentia) və tale (fatum) arasında fərqlər qoyur. Qəzavü-qədər əbədiliyə, tale isə zamana aid edilir. Əbədilik üçün "öncə" və "sonra" anlayışları yoxdur. O həmişə indiki zamanda olur. Buna görə də Tanrı, hər bir şeyə ümumi nəzər yetirir. Zaman isə həmişə keçmişdən gələcəyə hərəkət edir. O indiki zamanda yalnız bir an olur. Buna görə, zaman mürəkkəb bir şey olduğu halda, əbədilik sadə və bölünməzdir.

İlahi qəzavü-qədər Tanrı iradəsini əks etdirən bir mərkəzdir. Tale isə, hər bir şeyin daxili qanunu olaraq, onun hərəkətini, Tanrı qanununa uyğun olaraq, zamanda və məkanda təmin edir. Buna görə taledən asılılıq, zaman və məkandan asılılıq deməkdir. İnsan mərkəzdən nə qədər uzaqlaşarsa, o qədər də o, onu arxasınca aparan çərxi-fələyin hərəkətini duyur. Əksinə, insan nə qədər çox Tanrıya yaxınlaşırsa, o qədər sabit və azad olur. Deməli tale insan azadlığı üçün maneə deyil, çünki onun təsiri altından əbədiliyə yönəlməklə çıxmaq olar.

Daha sonra Boetsius insan azadlığı və İlahi biliyin bir-biri ilə hansı münasibətdə olduğu haqqında söhbət açır. Məsələ bundadır ki, əgər Tanrı əvvəlcədən hər şeyi bilirsə, onda bu bilik insan azadlığının heçə enməsi problemini ortaya çıxarır. Bu cür suallara cavab verən xanım Fəlsəfə deyir ki, heç bir bilik azadlığa zidd ola bilməz. Keçmişdə baş verən hadisələrin bilinməsi, artıq baş verən hadisələrə təsir edə bilməz. İndiki zaman haqqında bilik də azadlığa mane olmur. Yəni, məsələn, atlını müşahidə etmək, onu idarə etmək deyil. Gələcək haqqında bilik isə, yalnız Tanrıya məxsusdur. O hadisələri indiki zamandakı kimi görür, çünki əbədilikdə keçmiş və gələcək anlayışları yoxdur. Deməli Tanrının əvvəlcədən hər şeyi bilməsi sadəcə olaraq müşahidənin nəticəsidir, ona görə də bu bilik insan azadlığının məhdudlaşdırılması demək deyil. İlahi qəzavü-qədərin olması insanın azad

hərəkət etməsi üçün maneə deyil. İnsan gələcəyini seçir, Tanrı üçün isə gələcək yoxdur.

«Consolatio Philosophiae» kitabının ən maraqlı cəhətlərindən biri, bu əsərdə bir dəfə də olsun Bibliyaya, xristian klassiklərinə, İsanın kəlamlarına istinad edilməməsidir. Digər tərəfdən isə, bu əsərdə stoitsizmin və platoçuluğun güclü təsiri hiss olunur. Buna görə də «Consolatio Philosophiae» əsərinin həqiqətən xristian olan Boetsiusa məxsus olması şübhələr doğururdu və bu günə qədər bu məsələ mübahisəlidir. Digər tərəfdən belə fikirlər də vardır ki, həyatının sonunda Boetsius xristian dinindən imtina etmişdir və bütpərəst fəlsəfəsində təsəlli taparaq «Consolatio Philosophiae» əsərini yazmışdır. Bütün bu şübhələrə baxmayaraq katolik kilsə Boetsiusu ölümündən sonra müqəddəs şəxsiyyət elan etmişdir.

## Flavius Kassiodorus

Flavius Maqnus Aurelius Kassiodorus (Flavius Magnus Aurelius Cassiodorus) (477-570) Boetsiusla birlikdə Ostqot kralı Teodorikusun sarayında nazir vəzifəsində çalışırdı. Öz zəmanəsinin ən istedadlı siyasi xadimlərindən biri olmuşdur. Boetsiusdan fərqli olaraq, Flavius daha ehtiyatlı siyasətçi olmuşdu. O təqiblərdən yaxa qurtara bilmiş və Teodorikusun varislərinin çarlığı zamanı da nüfuzunu qoruyub saxlaya bilmişdir.

540-cı ildə bizanslıların hucumlarından sonra Flavius İtaliyanın cənubundakı malikanəsində «Vivarium» adlanan monasterion[246] təsis etmişdir. Burada əlyazmaları yığaraq, Qərbdə ən zəngin kitab-xananın əsasını qoymuş-dur.

Flaviusun ən tanınmış əsərindən biri «Institutiones divinarumet saecularium litterarum»[247] (İlahiyyat və dünyəvi elmlərdə nəsihətlər) adlanır. Bu kitabı gələcəkdə

[246] Monasterion (rusca "монастырь") - dünyanı tərk etmiş rahiblərin yaşadığı yerdir. Monasterionlarda yaşayan rahiblər ibadətlə məşğul olurlar, ümumi nizamnamə və qaydalara riayət edirlər.

[247] Əsərin latınca mətni burada yerləşir: http://www.fh-augsburg.de/~harsch/Chronologia/Lspost06/Cassiodorus/cas_in00.html

rahiblər və savadlı xristianlar öz elmi fəaliyyətlərinin nizamnaməsi kimi qəbul etmişdilər. Kitabın birinci hissəsi rahiblərin yol verilən zehni əməklə məşğul olmalarına aid olan nəsihətlərə həsr olunmuşdur. Burada tərcümə, köçürmə, şərh vermə işinə böyük əhəmiyyət verilmişdir. Keçmiş irsin qorunub saxlanmasının vacibliyi fikri vurğulanır. Ümumiyyətlə Flavius Kassiodorus qədim əlyazmala-rın köçürülmə işini savablı bir iş adlandırmışdır və bu işi monasterion həyatının tərkib hissəsinə çevirmişdir. Gələcəkdə bu işlə orta əsrlərdə yaşayan rahiblər məşğul olmuşdular. Flavius əlyazmalarının köçürül-məsinin vacibliyini bir dini prinsip kimi elan etməsəydi, bəl-kə də, qədim irsin bir çox nü-munələri məhv olub bizim



**«Vivarium». Orta əsrlər əlyazmasından səhifə**

zəmanəmizə qədər çatmazdı. Eyni zamanda Flavius, dünyavi elmlərə və fəlsəfəyə də böyük əhəmiyyət verirdi. O hesab edirdi ki, bu elmlərin öyrənilməsi Bibliyanın daha da yaxşı anlaşılmasına köməklik edir. Bubarədə o, kitabın ikinci hissəsində yazırdı.[248]

«Institutiones divinarumet saecularium litterarum» kitabından başqa, Flavius Kassiodorus tarix, fəlsəfə, ədəbiyyat kimi elmlərə aid bir sıra əsərlər müəllifi olmuşdu, Bibliyaya şərhlər yazmışdı.

Flavius Kassiodorus fəlsəfəsi əsərlərindən biri «De anima» (Ruh haqqında) adlanır. Bu kitabın əsas ideyaları Avqustinusun və Klavdianusun bu sahədə yazılmış əsərlərinin məzmununu təkrarlayır. Əsərin əsas məqsədi ruhun cisim olmadığını və onun ölməzliyini sübuta yetirməkdən ibarət olmuşdur.

[248] James J. O'Donnell. Cassiodorus. Copyright and published 1979 (University of California Press) "Postprint", 1995, Chapter 6. http://ccat.sas.upenn.edu/jod/texts/cassbook/chap6.html

Flaviusa görə, əgər ruh yalnız əql vasitəsi ilə dərk olunan əbədi və dəyişməz anlayışlar haqqında biliklərə malikdirsə, deməli o özü də onlara bənzər cinsdən olmalıdır. Buna görə də o, ölməzdir və cisim ola bilməz. Eyni zamanda, ruh Tanrı tərəfindən yaradılıb, məxluqdur. Buna görə də o, dəyişikliklərə məruz qalır və onun sonu vardır. Flaviusa görə ruh Tanrı tərəfindən yaradılmış, cisim olmayan substansiyadır. O bədənə can verir, ölməzdir, xeyir və şər ola bilər. Ruhun necə yaradılması məlum deyil. O bədənin hər nöqtəsində tam olaraq mövcuddur.[249]

---

[249] James J. O'Donnell. Cassiodorus. Copyright and published 1979 (University of California Press) "Postprint", 1995, Chapter 6. http://ccat.sas.upenn.edu/jod/texts/cassbook/chap6.html

VII FƏSİL

# XRİSTİANLIQDA MİSTİSİZM

## Rahibliyin qısa tarixi

Xristian rahibliyinin vətəni Misir hesab olunur. Rahibliyin yaradıcısı Böyük Antonius (251-356) olmuşdur. Onun həyatı haqqında İsgəndəriyyəli Atanasios məlumat vermişdir[250]. Antonius Misirdə, xristian ailəsində anadan olmuşdu. İyirmi yaşında olarkən, onun valideynləri vəfat etmişdirlər. Bu itkidən kədərlənən Antonius kilsədə olarkən, bir keşişin “hər şeyi buraxıb İsanın ardınca getmək” çağırışını eşitmişdi. Bu çağırışa səs verən Antonius öz əmlakını kasıblara paylayıb, rahib həyatına qədəm qoymuşdur. Əvvəlcə o, bir rahibin tələbəsi olmuşdu, sonra isə onu buraxıb, səhrada həyatını davam etmişdi. Orada o təklikdə, düşüncələrə qapılaraq, 26 il ərzində, yalnız dostları tərəfindən gətirilən quru çörəklə qidalanaraq, ibadətlə məşğul olmuşdur.

306-cı ildən başlayaraq, Antonius, öz ətrafına tələbələri yığmağa başlamışdır. Tədricən o, məşhur bir insan kimi tanınmışdır. Antoniusun xeyir-duasını almaq üçün Misirin müxtəlif məntəqələrindən onun yanına adamlar gəlirdilər. Daha sonra Antoniusun məşhurluğu daha da artmışdır və imperator Konstantinus ona ehtiramla dolu məktub yazmışdı. Antonius 356-cı ildə 105 yaşında vəfat etmişdi.

Antoniusdan sonra Misir səhralarına çoxlu rahiblər gəlmişdirlər. Onlar orada “monasterion” adlanan koloniyalar yaratmışdılar. Bu koloniyaların öz adətləri, qayda-qanunları var idi. Monasterionlar ən məşhur rahibləri tərəfindən idarə olunurdular. Antoniusun dövründə daha bir tanınmış rahib yaşamışdı. Onun adı Ammonius idi. O da Misir səhrasında öz koloniyasını yaratmışdır. Burada onlar gündəlik əmək və ibadətlərlə məşğul olmuşdurlar.

---

[250] Bax: Житие преподобного отца нашего Антония, описанное святым Афанасием в послании к инокам, пребывающим в чужих странах. // Святитель Афанасий Великий. Творения в 4-х томах. Том III.— М.: Спасо-Преображенский Валаамский монастырь, 1994.— С. 178–251. Репринтное воспроизведение издания: Свято-Троицкая Сергиева Лавра, 1902–1903, из фондов Государственной Исторической библиотеки. http://www.orthlib.ru/Athanasius/ant.html

Səhralarda abid həyatın sürülməsi təsadüfi hal deyil idi. Xristian rahiblərindən öncə yəhudilərin də bəzi təriqətləri (kumran icması kimi) səhralarda məskunlaşıb, dünyadan uzaqlaşırdılar[251]. Eyni zamanda səhra qədim yəhudilər üçün yad bir yerin rəmzi olmuşdur. "İom Kippur" adlanan gündə onlar səhraya «bütün İsrailin günahlarını öz üstündə aparan» keçini səhraya buraxıb, özlərini günahlardan təmizlənmiş hesab edirdilər[252]. Beləliklə səhra həm də günahların toplandığı bir yer kimi düşünülürdü və orada rahib həyatı keçirmək Tanrının nurunu zülmətə gətirmək rəmzi daşıyırdı.

Bu inanclar sonralar Xristianlıqda da öz əksini tapmışdır. Məhz səhrada şeytan İsanı sınağa çəkmişdi. Səhrada şeytan hökm sürür, Tanrının nuru ora çatmır. Buna görə də xristian rahibləri öz həyat tərzi və ibadətləri ilə, oranı zülmətdən qurtarıb İlahi nurla doldururdular[253].

Qadın monastırları da IV əsrin əvvəllərində təsis olunmuşdur. Burada qadınlar ərə getməmək və bakirə qalmaq andını verirdilər. Misirdən sonra rahiblik Fələstində, Suriyada, Anadoluda da yayılmağa başlamışdı. Səhralara çəkilən rahiblər, eyni zamanda, bununla kilsədə hökm sürən mənəviyyatsızlıqlara, ədalətsizliklərə, Kilsə hiyerarxiyasına qarşı etiraz edirdilər. Lakin sonra Kilsə rahiblik hərəkatını öz təsiri altına ala bilmişdi.



**Müqəddəs Yekaterina monasterionu, VI əsr.**

---

[251] Амусин И. Д. Рукописи Мертвого моря. М., Издательство Академии наук СССР, 1960, с. 135-197.

[252] Levitilər 16: 21-22. Bax: Фрэзер Д. Д. Золотая ветвь: исследование магии и религии. М., Политиздат, 1983, стр. 533.

[253] Матта 8: 29, Лукас 8: 29.

## Sinay yarımadası, Misir.

Ən tanınmış Misir rahiblərindən biri Pontlu Evaqrios (Euagrios Pontikos) (346-399) olmuşdur. O kappadokiyalı atalarla bir dövrdə yaşamışdır və onlarla tanış idi. Nazianzlı Qreqorios onu diakon vəzifəsinə təyin etmişdir. Lakin sonra, Evaqrios rahiblik həyatına üstünlük verərək, Misir səhrasına getmiş və orada digər rahiblərlə birlikdə yaşamışdır. Bundan başqa, Evaqrios yunan fəlsəfəsini, xüsusilə Plato irsini yaxşı bilirdi və Origenusun dünyagörüşünə hörmətlə yanaşırdı. Plato, sonra isə Origenusun ardıcılı olaraq, Evaqrios insanın bədənini onun ruhunun zindanı hesab edirdi və onun azadlığı üçün, ömrü ibadətlə keçirməyin tərəfdarı idi. Daha doğrusu, mənəvi fəaliyyət nəticəsində bədəndən azad olmaq olar və bu kamilliyə gətirən ən qısa yoldur. Evaqrios bir sıra kitab müəllifi olmuşdur. Onun «Praktikos»[254] əsəri rahib həyatına praktiki girişdir. Bu kitabda müəllif, rahib həyatının xüsusiyyətlərindən, bu həyatın daim şeytanlar tərəfindən törədilən şəhvəti hisslərlə mübarizələrdən ibarət olduğu haqqında yazmışdır. Bu kitabın ardı olaraq Evaqrios «Gnostikos»[255] (Qnostikos) adlanan kitabını da yazmışdır. Bu kitabda isə, rahibin Tanrının ən yüksək biliyinə (qnosisə) can atdığını təsvir etmişdir. «De oratione»[256] (Dua haqqında) kitabında Evaqrios ibadət və anlamaq anlayışları arasında bağlılıqdan yazmışdır. Bu əsərdə o, rahib həyatının əsasını ibadətlərin təşkil etməsi haqqında söhbət açmışdı. İsanın arxasınca getmək, Evaqriosun fikrincə, ardı kəsilməyən ibadətlərlə məşğul olmaq deməkdir. Lakin bu ibadətlər və dualar ağılla edilməlidir. Yəni, ibadət edilən zaman insanın əqli daim Tanrı ilə ünsiyyətdə olmalıdır[257]. Evaqriosun fikrincə, rahib dünyadan aralanmalı, lakin hər şeylə ahəngdə olmalıdır[258]. Origenusun ardıcılı olduğuna görə, Evaqrios rəsmi kilsə tərəfindən pislənmişdi, lakin onun rahiblik haqqında fikirləri gələcəkdə Kilsənin mənəvi həyatında çox böyük rol oynamışdır.

---

[254] Evagrius and John Eudes Bamberger. The Praktikos and Chapters on Prayer. Cistercian Studies Series, 4. Spencer, Mass: Cistercian Publications, 1970. http://www.ldysinger.com/Evagrius/01_Prak/00a_start.htm

[255] Theophanes (Constantine), Fr. The Evagrian Ascetical System, vol. 2 of The Psychological Basis of Mental Prayer in the Heart. Mount Athos: Timios Prodromos, 2006. http://www.ldysinger.com /Evagrius/02_Gno-Keph/00a_start.htm

[256] Творения аввы Евагрия. Аскетические и Богословские трактаты. - М., "Мартис", 1994, с.76-93. http://abovo.net.ru /book/82370
İngilis dilində: http://www.ldysinger.com/Evagrius/03_Prayer/ 00a_start.htm

[257] De oratione 3.

[258] De oratione 124.

Misirin ən məşhur rahiblərindən biri Misirli Makarius (Macarius) olmuşdur. O təxminən 295-ci ildə anadan olmuşdur. 30 yaşında olarkən o tərkidünya olaraq səhralara getmiş və 60 il ərzində orada rahib həyatını yaşamışdı və 390-cı ildə vəfat etmişdir. Makarius tərəfindən bir sıra kitablar yazılmışdır. Lakin bu gün, onların bir çoxunun həqiqətən ona aid olub-olmaması haqqında tədqiqatçılar arasında böyük şübhələr vardır[259]. Bu kitabların ən tanınmışı «Mənəvi söhbətlər»[260] adlanır. Bu əsərdə müəllif, Bibliya rəvayətlərini alleqorik tərzdə yozmalara məruz qoyurdu. Tanrı ilə ünsiyyətə çatma məqamı Makarius üçün əqlin vasitəsi ilə baş verməməlidir, qəlblə duyulmalıdır. Ümumiyyətlə qəlb, onun fikrincə, şəxsiyyətin ağasıdır. Orada insana xas olan hər bir yaxşı cəhət yerləşir. Xristian dininin həqiqət olduğunu da əqllə deyil, qəlblə duymaq lazımdır. Beləliklə, Makariusun "qəlblə ibadət" etməsi prinsipi də Evaqriosun "ağıl ilə ibadət" prinsipi kimi rahiblər tərəfindən qəbul edilmişdir. Gələcəkdə bu iki prinsip birləşdirilmişdir. Həm qəlb, həm də ağıl vahid bir şey kimi anlaşılmışdır.

## Şərq xristianlığında mistisizm. Hesixazm

Şərq Xristianlığında Tanrının mistik cəhətdən duyulması hissi ilahiyyatla sıx münasibətlərdə idi və onlar bir-birini inkar etmirdi. Buna görə də, Qərb ilahiyyatından fərqli olaraq, ilahiyyat sxolastik elmə çevrilməmişdir. Qərbdə Aristotel təlimi ilə tanış olmayan mistikləri ciddi qəbul etmirdilər və onlara münasibət heç də bir mənalı deyil idi. XIII əsrdən sonra Müqəddəs Kitabların məntiq nöqteyi-nəzərindən təhlil edilməsi, Qərb ilahiyyatının prioritet istiqamətinə çevrilmişdir.

Şərq kilsə ataları da Müqəddəs Kitabların yozulmasında düşüncənin rolunu inkar etmirdilər. Lakin, buna əlavə olaraq, onlar hesab edirdilər ki, Tanrı səmimi ibadət edən bəndəsinə özü-özünü açır və Onun haqqında bilik təkcə ağılla əldə edilmir. Tanrı haqqında mistik biliyi əldə etmək üçün, rahib həyatını yaşamaq, daim özünü mənəvi cəhətdən təmizləmək lazımdır. Müqəddəslərin mistik təcrübələrinə inanmaq ənənəsi də bundan irəli gəlmişdir.

Təbiidir ki, bəzi hallarda, Şərq Xristianlığında bəzən mistiklərlə ilahiyyatçılarnın arasında qütbləşmə baş verirdi, lakin bu qütbləşmə ciddi

---

[259] Киприан Керн. Золотой век святоотеческой письменности: Макарий Египетский. http://anthropology.rchgi.spb.ru/makary/ makary_kern.htm

[260] Вах: Преподобный Макарий Египетский. Духовные беседы. М., Свято-Троицкая Сергиева Лавра, 1994. http://lib.eparhia-saratov.ru/books/12m/makarii_eg/spirittalks/contents.html

ixtilafa çevrilmirdi. Hətta "həqiqətin" açılmasında kilsə məclislərinin və yepiskopların rəylərinin böyük nüfuza malik olmalarına baxmayaraq, Şərq kilsəsi "həqiqətin" hər bir insana fərdi şəkildə açıla bilməsini inkar etmirdi.

Şərq Xristianlığında mistik ənənəsinin görkəmli nümayəndəsi *Simeon (Symeon)* (946-1021) olmuşdur. Onun üçün xristian imanı Tanrı ilə görüş kimi səciyyələn dirilirdi. Tanrını ağılla deyil, şəxsi təcrübə ilə



duymaq olar. Ata Tanrı ilə ünsiyyət, onun oğlu İsa və Müqəddəs Ruh vasitəsi ilə qurulur. Bu cür mistik ünsiyyəti inkar edənlər dinsiz və imansız adamlardır. Əsl xristian həyatı ölümdən sonra nələrin baş verəcəyi haqqında düşüncələrə qapılmaqdan ibarət deyil. Xristian həyat tərzi, insanın hər an İsanı özündə duymasından ibarətdir[261]. Həyatı ibadətlərlə keçirən insanın bədənində İsa yaşayır. O, insanın mahiyyəti ilə qarışmadan, insanı ilahiləşdirir, Tanrının bir parçasına çevirir. Simeonun mistikasında İsa ilə birliyə nail olmaq, ona olan sonsuz məhəbbət hissi vasitəsi ilə mümkündür.[262]

Günahların bağışlanması mərasimini hər bir keşiş apara bilməz[263]. Bunu yalnız Tanrını görmə qabiliyyəti olan rahiblər edə bilərlər. İsadan İlahi bərəkət yepiskoplara verilmişdi, lakin onlar onu saxlaya bilmədilər. Bu səbəbdən də bərəkət keşişlər və, nəhayət, rahiblərə keçmişdir. Buna görə

[261] Прп. Симеон Новый Богослов. Гимн 27. Каким должен быть монах и какое его делание,какое преуспеяние и восхождение. [Перевод игумена Илариона (Алфеева)]. http://www.hesychasm.ru/library/stsymeon/symeon_27.htm

[262] Simeonun rahiblik nəzəriyyəsinin və praktikanın müxtəlif aspektləri ilə yazından tanış olmaq üçün bax: Прп. Симеон Новый Богослов. Сто глав богословских и практических. [Перевод игумена Илариона (Алфеева)]. http://www.hesychasm.ru/library/stsymeon/glav_101.htm

[263] Simeonun günahları bağışlanması mərasimini haqqında fikirləri ilə daha ətraflı tanış olmaq üçün bax: Преподобный Симеон Новый Богослов. Послание об исповеди. [Перевод игумена Илариона (Алфеева)]. http://www.hesychasm.ru/library/palamas/tomos.htm

günahların bağışlanma mərasimini yalnız rahiblər həyata keçirməlidirlər[264]. Simeonun bu cür fikirləri rəsmi kilsə xadimlərinin etirazlarına səbəb olmuşdur.

O dövrün mistiklərinin ən başlıca problemi insanın fiziki cəhətdən Tanrıya doğru yuksəlməsi məsələsi idi. Simeondan başqa bu məsələni *Nilus* adında bir rahib ortaya atmışdır. O hesab edirdi ki, İsa Tanrıya hal nöqteyi-nəzərindən çatmışdır. Lakin rəsmi kilsəyə görə İsanın insan təbiətinin tanrılaşması üçlüyün daxilində düşünülə bilər.

XIII-XIV əsrlərdə Şərq Xristianlığında rahiblərin arasında *"hesixazm"* adlanan mistik təlim yayılmışdı. Yunan dilində "hesychia" - sükut deməkdir. Bu mistik cərəyanın ardıcılları günlərini İsaya "ağıllı" dua etməklə keçirirdilər. Bu cür dualar sonradan adi xristianlar tərəfindən də kilsələrdə yerinə yetirilirdi. Onları icra etmək üçün müəyyən hala daxil olmaq lazım idi. Duada diqqətin yalnız İsaya yönəldilməsi nəfəsin tənzimlənməsi yolu ilə əldə olunurdu. Nəfəsin tənzimlənməsinin müxtəlif metodları var idi. Onlardan ən çox istifadə olunanlar Simeon və *Nikiforus* (XIII əsr) tərəfindən tətbiq edilmişdi. Nikifora görə, insan daim dua halında olmalıdır. Lakin bu "təbii" hal insanı əhatə edən dünyavi şeylərə bağlılıq ucbatından pozulur. Tanrıya ibadət etmək əvəzinə insanlar onlara fikir verirlər. Buna görə də Tanrı ilə daim əlaqə saxlayan adam, öz ağlını səfərbər etməli, "Mən"ini məhdudlaşdırmalıdırlar. Buna nail olmaq üçün, nəfəsin tənzimlənməsi yolu ilə müəyyən psixiki hala daxil olmaq lazımdır.

Hesixazmın ən görkəmli nümuyəndələrindən biri *Qreqorios (Greqorios) Palamas* olmuşdur (1296-1359). O hesixazmı *Barlaam* adlı keşişin tənqidlərindən müdafiə edirdi[265]. Barlaam yazırdı ki, hesixazmla məşğul olan rahiblərin təcrübəsi cəfəngiyyatdır və təhlükəli heresdir. Bu fikri davam edərək o yazırdı ki, onlar ağıl ilə ruhun, ruhun isə mifik varlıqlarla vəhdətdə olmasını, eyni zamanda ruhun Tanrını görmək iqtidarında olmasını iddia edirlər. Bu cür hallara daxil olmaq üçün onlar, psixikaya təsir edən vasitələrə əl atırlar. Bu vasitələrdən ən başlıcası nəfəsin tənzimlənməsidir. Barlaama görə isixazm heresdir[266].

---

[264] Günahların bağışlanması mərasimi ortodoksal Xristianlığının ən vacib əməllərindən biridir. İnsanların günahlarını bağışlayan keşiş, xristian təliminə görə, bu işi Müqəddəs Ruhun vasitəsi ilə edir.

[265] Протоиерей Иоанн Мейендорф. Православие и современный мир (лекции и статьи). Минск, "Лучи Софии", 1995. http://lib.eparhia-saratov.ru/books/12m/meendorf/orthodoxy/9.html

[266] Хоружий С. С. Антропология Православия // Православная аскеза - ключ к новому видению человека. Вэб-Центр "Омега", М., 2000.

Qreqorios Palamas ilə Varlaamın arasında gedən mübahisələr getdikcə dərinləşirdi. Öz fikirlərini əsaslandırmaq üçün, həm Varlaam, həm də Qreqorios «Korpus Areopagitikuma» istinad edirdilər. Qreqorios Palamas "sükutda" olan rahibləri müdafiə etmək üçün «Sükutda olan müqəddəslərin müdafiəsinə dair» adlı silsilə risalələr yazmışdır.

Nəhayət bu məsələyə 1341-ci ildə Konstantinopolisdə (İstanbulda) yığılan Kilsə Məclisində baxılmışdır. Burada Varlaamın fikirləri pislənmişdir. O tövbə etməyə məcbur olmuş, sonra isə İtaliyaya getmişdir. Qreqorios Palamasın Tanrı haqqında birbaşa bilik əldə etməyin mümkünlüyü haqqında fikirləri isə o Kilsə Məclisi tərəfindən dəstəklənmişdir.

Qreqorios Palamas hesab edirdi ki, Tanrı tərəfindən yaradılmış təbiət məxluqdur. Təbiətdə (fisisdə) Tanrının dünya və insan haqqında niyyətləri öz əksini tapmışdır. Buna görə də təbiət yalnız Tanrı ilə ünsiyyətdə özünün əsl mahiyyətini göstərir. Bu kamillik, yerə enmiş Tanrı-insan İsada nümayiş olunmuşdur. İnsan ruhunun düşkünlük halında olmasına baxmayaraq, o Tanrıya yönələ bilər. İnsan şüuru Tanrını birbaşa duya bilməz. Bunu yalnız bənzətmə (analogiya) və ya Tanrı olmayan hər şeyi inkar yolu ilə əldə etmək mümkündür. Eyni zamanda Palamas, əşyalar vasitəsi ilə Tanrının intuitiv duyulmasının mümkünlüyünü iddia edirdi. Çünki hər şeydə Tanrının enerjiləri və ideyaları vardır. Yunan fəlsəfəsinə mənfi münasibətini bildirən Palamas deyirdi ki, filosoflar onlara verilən müdriklikdən layiqincə istifadə edə bilmədilər, Tanrıya doğru yönəlmədilər. Bunu yalnız hesixazmda olan rahiblər edə bilmişdirlər.

Daha sonra Palamas hesab edirdi ki, insan bədənin, ruhun və mənəviyyatın vəhdətindən ibarətdir. İnsan mənəviyyatı Tanrının tərkib hissəsi hesab edilən Müqəddəs Ruhla vəhdətdədir. Əgər insan bu təbii vəhdətdən imtina edərsə, o zaman insaniyyətini itirir və özünü ölümə məhkum edir. Beləliklə, insanda Tanrının obrazı vardır. Bu obraz təkcə mənəviyyatla məhdudlaşmır. Tanrının daha bir tərkib hissəsi olan İsa, özu dünyaya gəlib insan bədəninə daxil olaraq, onu müqəddəsləşdirmişdir. Buna görə də insan ruhu üçün, bədən zindan deyil. Əksinə ruh bədəni sevir və onunla vəhdətdədir. İnsan həyatında günahdan başqa heç bir pislik yoxdur. İsanın gəlişindən sonra isə, hətta ölüm belə dəhşətli və mənasız bir şey deyil. O yalnız müqəddəs "sükuta" çevrilmişdir.

İnsanı bədən və ruhun vəhdətində görən hesixazm ardıcılları, dualarda hər ikisinin iştirakını vacib hesab edirdilər. Hətta kilsədə icra edilən

---

http://www.wco.ru/biblio/books/horuzhy1/Main.htm

ibadətlərdə, ruhla birlikdə bədən də iştirak edir. Bədəni, yalnız onun ruha qarşı üsyan etdiyi təqdirdə məhdudlaşdırmaq lazımdır.

İnsan həyatının mərkəzi onun qəlbində yerləşir. Buna görə də dua qəlbdədir. İbadət edən rahib düşüncəsini qəlbinə salaraq özündə İlahi həyatı açır. Bu cür fikirlər də Palamasın təlimində əhəmiyyətli yer tutur.

Məhəbbətlə dolu Tanrının oğlu İsa, öz İlahi mahiyyətini insan təbiəti ilə birləşdirmişdir, yerə enib insan həyatını yaşamışdır. Eyni zamanda o, daim kilsə ayinlərini icra edən hər bir xristianla eyniləşir, onunla bir bədən təşkil edir. Bu vəhdətin nəticəsində o, insan ruhunu nurla doldurur, ona İlahi biliklər verir. Beləliklə İlahini insan xaricdə deyil, öz daxilində axtarıb tapmalıdır. Palamasın daxili nur haqqında baxışları yeni platoçu mistikasında olan məqamları təkrarlayır.[267]

[267] Qreqorios Palamasın dünyagörüşü ilə daha da ətraflı tanış olmaq üçün, bax:

1) Св. Григорий Палама. Триады в защиту священно-безмолвствующих. М.: Канон, 1995, с. 5-344. http://www.orthlib.ru/Palamas/triad_cont.html

2) Св. Григорий Палама. Святогорский томос. // Альфа и Омега. №3(6), М., 1995 с.69-76. http://www.hesychasm.ru/library/palamas/tomos.htm

VIII FƏSİL

# SONLUQ ƏVƏZİ

## Qərb və Şərq arasında ixtilaflar və xristian kilsəsinin parçalanması

858-ci ildə Konstantinopolis kilsəsinin patriarxı[268] vəzifəsinə Fotius (Photius) adlı dünyavi bir adam təyin olunmuşdu. Patriarx olması üçün onu, altı günün ərzində qiraətçidən yepiskopa qədər bütün kilsə rütbələrindən keçirmişdilər. Ondan öncəki patriarx İqnatius (Ignatius) isə, imperator III Mixaellə birlikdə imperiyanı idarə edən, dayısı Varda ilə olan ixtilafdan sonra vəzifəsindən getmişdi. Lakin onun tərəfdarları buna qarşı etiraz edərək, Fotiusu qəsbkar elan etmişdilər. Bundan sonra kilsədə parçalanma baş vermişdi. 859-cu ildə Konstantinopolisdə (İstanbulda) yığılan Kilsə Məclisi İqnatiusun tərəfdarlarını pisləmişdir. Lakin, onlar Roma papazına müraciət edərək, 861-ci ildə daha bir Kilsə Məclisinin yığılmasına nail oldular. Bu dəfə də onların mövqeyi pislənmişdi. Lakin Roma papazı Nikolas 863-cü ildə hər iki Kilsə Məclislərinin qərarlarını etibarsız elan etdi. Bundan sonra Qərb və Şərq Kilsələri arasında ilk dəfə olaraq, və sonda kilsənin parçalanmasına gətirən, bir ixtilaf baş vermiş oldu. Papaz Nikolas bu addımı Bolqarıstan Kilsəsinin üzərində hakimiyyəti əldə etmək və bu Kilsəni bizans patriarxlarının hakmiyyətindən almaq üçün atmışdı. Əslində isə, xristian Kilsəsinin bölünməsi artıq bir zərurətə çevrilmişdi. Məsələ bundadır ki, həm Roma papazları, həm də Konstantinopolis patriarxları bütün xristian dünyası üzərində başçılıq etmək istəyirdilər və onların arasındakı rəqabət getdikcə dərinləşirdi.

Papaz Nikolas (Nicolas) hərəkətinə cavab olaraq, patriarx Fotiusun tərəfdarları 867-ci ildə Konstantinopolisdə daha bir Kilsə Məclisi çağırdılar. Orada papaz Nikolasın vəzifəsindən azad olunması haqqında qərar qəbul edildi. Lakin, bundan sonra, Bizansda saray çevrilişi baş verdi və bunun nəticəsində Fotiusun özü vəzifəsindən devrildi. Bundan sonra 869 - 870-ci illərdə Romanın təkidi ilə Konstantinopolisdə daha bir Kilsə Məclisi yığılmışdı. Bu məclisi Qərb (katolik) kilsəsi VIII Ümumdünya Kilsə Məclisi

[268] Patriarx (yunanca “patriarches” - ulubaba deməkdir) - xristian kilsəsində ən yüksək ruhani rütbə; ortodoks (pravoslav) kilsənin başçısı.

kimi tanıyır. Şərq (ortodoks, və ya pravoslav) kilsəsi isə, onu Ümumdünya Kilsə Məclisi kimi tanımır. Məclisin qərarı ilə, Fotius kəskin surətdə pislənib, vəzifəsindən azad edilmişdi. Onun yerinə Konstantinopolis patriarxı vəzifəsinə İqnatius bərpa edildi. Buna baxmayaraq, Fotius Konstantinopolisdə böyük nüfuza malik idi. 877-ci ildə, İqnatiusun ölümündən sonra, o yenidən patriarx oldu.

Bundan sonra, 879 - 880-ci illərdə daha bir Kilsə Məclisi yığıldı. Bu məclisdə papaz Nikolasın nümayəndələri, onun taxtdan salınmasına görə Fotiusdan üzr istəməsini tələb etdilər. Lakin Fotius üzr istəmədi. Bu Məclisdə Şərq kilsəsinin nümayəndələri Qərbdə yayılmış bəzi inancları və ayinləri də pisləmişdirlər. "Filioque" adlanan inanc xüsusilə pislənmişdi. Məsələ bundadır ki, Şərqdə və Qərbdə Kilsə ənənələri, bəzi ayinlər, bir-birindən fərqlənirdi. Bu amil də Kilsənin parçalanmasında müəyyən rol oynamışdı.



**Konstantinopolis.**
**Müqəddəs Sofiya məbədi**

Bu Kilsə Məclisi Qərbdə əvvəlcə Ümumdünya Kilsə Məclisi elan olunmuşdur. Lakin sonra, bu keyfiyyətdə, Fotiusun əvəzinə İqnatiusu patriarx kimi yenidən tanıyan, 869 - 870- ci illərdə keçirilən, Məclis tanınmışdı.

Eyni zamanda, yuxarıda qeyd olunduğu kimi, Xristianlığın ehkamları və inanclarının əsasları da Qərb və Şərq Kilsələrinin mübahisə obyektinə çevrilmişdir. Məlum olduğu kimi, xristianlar Tanrının üç sifətdən ibarət olduğunu iddia edirlər. Bu sifətlərin üçüncüsü olan Müqəddəs Ruh, həyatverici keyfiyyətlərinə malik olan sifətdir. Onun Atadan və ya Oğuldan çıxması haqqında gərgin mübahisələr, Kilsənin əqidə nöqteyi-nəzərindən parçalanmasına gətirib çıxarmışdı. Qərbdə Ambrosius, Hiyeronimus, Avqustinus kimi kilsə ataları, Müqəddəs Ruhun təkcə Atadan deyil, həm də Oğuldan çıxmasını (latınca *filioque*) iddia edirdilər. VII əsrdə İspaniyanın Toledo şəhərində keçirilən Kilsə Məclisində filioque xristian əqidəsinin əsaslarına (simvoluna) daxil edilmişdir. Buna dəlil olaraq İsanın sözləri gətirilirdi: «Bunu dediyi zaman, onlara üfürdü və: «"Müqəddəs ruhu qəbul

edin", – dedi»[269]. Lakin şərq Kilsəsi filioqueni qəbul etməmişdi. Onların fikrincə Müqəddəs Ruh yalnız Atadan çıxır, Oğuldan çıxmaz. Qərb atalarının filioque haqqında dediklərini isə, Kilsənin deyil, onların şəxsi fikirləri olduğunu deyirdilər.

Bu mübahisələrin sonu olaraq Qüdsdə 807-ci ildə Şərqi və Qərbi təmsil edən keşişlərin arasında ixtilaf baş vermişdi. Buna cavab olaraq, Qərbi Roma imperatoru Böyük Karl (Carolus Magnus) 809-cu ildə daha bir Kilsə Məclisini çağıraraq filioqueni bir daha təsdiq etdirdi və şərqlilərin ifadəsini (yəni Müqəddəs Ruhun Oğuldan deyil, yalnız Atadan çıxmasını) rədd etmişdi. Kilsə Məclisinin qərarları, öz növbəsində, Şərqlilər tərəfindən rədd edilmişdi. Patriarx Fotiusun fikrincə filioquenin simvola əlavə edilməsi xristian dinini məzmunca dəyişmək deməkdir[270]. Fotiusa görə Oğlunun Atadan doğulması kimi, Müqəddəs Ruh da Atadan çıxır. Əgər Ata Ruhu harasa yönəltmək istəsə, Ona Oğul lazım deyil. Daha sonra Fotius yazırdı ki, İsanın Əhdi-Cədiddəki sözləri yalnız onun dünyada yaşadığı dövrə aiddir, əbədiyyata yox. Yəni, İsa dünyada yaşayarkən, Ata, Müqəddəs Ruhu onun vasitəsi ilə dünyaya endirirdi. İsa dünyadan gedəndən sonra isə, Ata, Müqəddəs Ruhu dünyaya vasitəsiz endirir.

Bolqarıstan üzərində Qərb və Şərq Kilsələri arasında gedən mübahisələr isə, sonda, Şərq Kilsəsinin xeyrinə həll olundu. Bolqarıstan kilsəsi Konstantinopolisin nəzarəti altına keçdi.

X əsrdə də Qərb və Şərq Kilsələri arasında sülh əldə edilməmişdi. Konstantinopolis keşişləri Roma papazına yalnız müstəsna hallarda müraciətlər edirdilər. Bu amil isə Kilsələri biri-birindən daha da uzaqlaşdırırdı.

XI əsrdə Qərb və Şərq kilsələri arasında münasibətlər bir qədər fəallaşdırmışdır, lakin bu fəallaşma sonda onların parçalanması ilə nəticələnmişdir. O dövrdə Roma papazı olan IX Leo Cənubi İtaliyada Konstantinopolis patriarxının tabeçiliyində olan kilsələrdə Qərb (latın) ayinlərinin icra olunmasını tələb etmişdir (qeyd olunduğu kimi Qərb kilsələrin bəzi dini ayinləri Şərq ortodoks ayinlərindən fərqlənirdi). Öz növbəsində Konstantinopolis patriarxı Mixael Kelluarios (Michael Cerullarios) Konstantinopolisdə papazın tabeliyində olan kilsə və monastırların bağlanması haqqında sərancam vermişdir.

---

[269] Yəhya İncili 20:22.

[270] Иоанн Мейендорф. Введение в святоотеческое богословие. Вильнюс-Москва, "Весть", 1992, Часть 3, глава 7. http://www.krotov.info/library/m/meyendrf/patr_28.html

Vəziyyətin gərginləşməsini görən Bizans imperatoru Konstantine Monomaxus (Constantine Monomachus) Qərblə münasibətlərini pozmaq istəmirdi. O, papaz ilə danışıqlar apararaq, Konstantinopolisə papaz tərəfindən göndərilmiş nümayəndələri qəbul etməyə hazır olduğunu bildirmişdi. Lakin nümayəndələrin gəlişindən sonra, onların Şərq (yunan) keşişləri ilə şiddətli ixtilafı baş vermişdir. Bu ixtilaf nəticəsində papazın nümayəndələri Konstantinopolis patriarxını və ona tabe olan bütün Şərq Kilsələrini heresdə və dinsizlikdə ittiham edərək, onların xristian kilsəsindən xaric edilməsi haqqında məktub yazaraq onu rəsmi ibadət zamanı Konstantinopolisin Müqəddəs Sofiya (Aya Sofya) kilsəsində yunan keşişlərinə təqdim etdilər.

Öz növbəsində patriarx Mixael Kelluarios 1054-cü ildə Kilsə Məclisi yığaraq papazın nümayəndələrini lənətləmiş, Roma kilsəsi ilə bütün əlaqələrin kəsilməsi haqqında sərəncam vermişdir.

Bu hadisələrdən sonra Xristian kilsəsi parçalanmışdır. Şərq (yunan) kilsəsi ortodoks (pravoslav), Qərb (latın) kilsəsi isə katolik adlandırılmışdır.

**Xristian kilsəsinin parçalanmasından sonra (1054) Avropada dinlər**



# ƏLAVƏLƏR

## PİFAQORÇULAR VƏ YENİ PİFAQORÇULUQ

### Pifaqor və pifaqorçular

Qədim yunan mütəfəkkiri Pifaqoras (Pythagoras) (e.ə. 580-500) Samos adasında anadan olmuşdur. Sonra o, Cənubi İtaliyaya köçüb, orada Kroton şəhərində dini ittifaq (təriqət) yaratmışdı. Pifaqorasın özündən heç bir əsər qalmamışdır. Buna görə də Pifaqoras və onun ardıcıllarının dünyagörüşü yalnız nisbi təsvir edilə bilər. Onlar tərəfindən hansı fikirlərin irəli sürülməsi haqqında dəqiq məlumat yoxdur. Məlumdur ki, e.ə. V-IV əsrlərdə pifaqorçuluq ideyaları təkmilləşdirilib, yeni keyfiyyət və məzmun almışdı, oraya çoxlu yeni ideyalar daxil olunmuşdu. Yalnız onu demək olar ki, Pifaqorasın yaşadığı dövrdə, onun təliminin ümumi nəzəriyyəsi, ondan sonra isə, pifaqorçuluğun fəlsəfəsi yaranmışdı. Daha sonra isə pifaqorçuluq yeni platonçuların fəlsəfəsi ilə birləşib, onun daxilində ərimişdi.

Rəvayətlərə görə, Krotona gələndən sonra, Pifaqoras dini-fəlsəfi «Pifaqorçular ittifaqı» yaratmışdı. Bu ittifaqın yaradılmasında məqsəd - ən istedadlı və ağıllı adamları birləşdirərək, onları cəmiyyəti idarə etmə iqtidarında olan qüvvəyə çevirməkdən ibarət olmuşdu. Bu adamlar həm elmi, həm də əxlaqi cəhətdən başqalarından seçilərək, cəmiyyətin aristokrat təbəqəsini təşkil etməli idilər. Məhz bu cür fəaliyyətlərinin nəticəsində, pifaqorçular Krotonda tanınmışdılar.

«Pifaqorçular ittifaqı» gizli dini-fəlsəfi təşkilat idi, onun daxili həyatı haqqında heç kəsə məlumat verilmirdi. İttifaqa yeni üzvlər, yalnız sınaqlardan keçəndən sonra qəbul edilirdilər. Bunun üçün xüsusi dini mərasim də keçirilirdi.

Məlumdur ki, Pifaqoras bir sıra əxlaqi və mənəvi prinsiplər irəli sürmüşdür. O deyirdi ki, insan nadanlıqdan, ailə ixtilaflarından, fitnədən, biclikdən aralanıb, üç ideala can atmalıdır: gözəllik və şərəfə; həyatda faydalı olan şeyə; ləzzətli və həzz verici şeylərə. Bu ifadələrdə əxlaqsızlıq deyil, möminlik nəzərdə tutulur.

Pifaqorçular çox sərt həyat tərzi çərçivəsində yaşayırdılar. Səhər tezdən yuxudan ayılırdılar, idmanla məşğul olurdular. Gün ərzində hansı

işlərin görülməsini planlaşdırırdılar və daim əmək fəaliyyətində idilər. Axşamlar isə, bir yerdə yığılıb, keçdiyi günə yekun vururdular və tanrılarına ibadət edirdilər. Heyvan ətini yemirdilər, cadulara qarşı ayinlər tərtib etmişdilər. Eyni zamanda pifaqorçular zehni əməyə də böyük əhəmiyyət verirdilər. Onlar təbabət, psixoterapiya, riyaziyyat və başqa elmləri inkişaf etdirirdilər. Pifaqorusun özünə bir neçə elmi ixtira aid edirlər. Onun ən böyük ixtiralarından biri həndəsədə düzbucaqlı üçbucağın hipotenuza ilə katetlərin münasibətləri haqqında teoremdir.

Pifaqorçularda biliyin iki növü vardır: "akusmata" (eşidilən) – müəllimlərdən şagirdlərə verilən şifahi və dəlilsiz biliklər; "matemata" (elm, bilik) – biliyin özü.

İctimai həyatda pifaqorçular hakimiyyət problemlərinə diqqət yetirirdilər və cəmiyyətin hakimiyyətsiz qalmasını yol verilməz hesab edirdilər. Ən ali hakimiyyət tanrılara məxsusdur. Onları tanımaq və onlara ibadət etmək hamının borcudur. Tanrılardan sonra, hökmdarlara, böyüklərə, ata-anaya və sonda qanunlara tabe olmaq lazımdır.

Pifaqoras həm də "kosmos" anlayışını müasir mənada, yəni bütün dünyanı əhatə edən fəza kimi başa düşürdü, onun qanunauyğunluğu və ahəngdə olması haqqında danışırdı. Dünyanın və kosmosun gözəlliyi, yalnız düzgün, intizamlı həyat tərzi sürən insanlar üçün açılır. Kosmosun ahəngini insan həyatına keçirmək pifaqorçuların ideallarından biri idi.

Pifaqorçuların kosmoqoniyasına görə, dünya bir kürədir, sonsuz və əbədi boşluqlardan yaranıb və o boşluqlarla nəfəs alır. Bu nəfəs alma nəticəsində dünya genişlənir və bölünür, göy cisimləri, hərəkət və zaman yaranır. Dünyanın mərkəzində od, Zevsin evi, təbiətin qanunu Prinsipi yerləşir. Sonra isə, oddan yaranmış yer, planetlər və ulduzlar gəlir. Onlar odun ətrafında yerləşir. Göründüyü kimi, pifaqorçular yeri kainatın mərkəzi hesab etmirdilər və onu kürə şəklində təsəvvür edirdilər.

Pifaqoras ruhların bir bədəndən başqa bədənlərə köçməsinə inanırdı. O hesab edirdi ki, hər şey müəyyən müddətdən sonra yenidən dünyaya gəlir. Ruh günahlara görə bədəndə qalmağa məhkumdur. Həyatın ən başlıca məqsədi, onu bədən əsarətindən qurtarmaqdan və başqa bədənlərə köçməyə imkan verməməkdən ibarətdir. Buna nail olmaq üçün, pifaqorçuların həyat tərzini yaşamaq lazımdır.

Pifaqoras təliminin tərkib hissəsi olan rəqəmlərin mistikası xüsusi maraq doğurur. Onların inanclarına görə, rəqəmlər əşyalarda əks olunur, hətta şeylər rəqəmlərin obrazlarıdır, onlar hər şeyin əsası və səbəbidir. Bu təkcə cismi olan şeylərə deyil, həm də mücərrəd anlayışlara aiddir. Hər şey, o cümlədən dini, etik, sosial və s. problemlər riyazi mahiyyət daşıyır.

Rəqəmlər həndəsi mənada başa düşülürdü. Belə ki, nöqtə – vahiddir; iki nöqtədən düz xətt alınır; üç nöqtə – artıq müstəvidir. Burada müxtəlif həndəsi fiqurlar haqqında anlayışlar yaranır.

Beş guşəli ulduz pifaqorçuların rəmzi idi.

## Yeni pifaqorçuluq

Bizim eramızdan əvvəl IV əsrdə Pifaqoras məktəbinin fəaliyyəti sona çatmışdı. Buna baxmayaraq, bu məktəbin ideyaları antik dünyagörüşündə müxtəlif formada təzahür edirdi. Xüsusi ilə də Plato və onun bəzi ardıcılları pifaqorçuluq təliminin bəzi fikirlərini öz fəlsəfi görüşlərinə daxil etmişdilər. Bu rəqəmlər, tale haqqında təlimə, kosmoloqiyaya, kosmoqoniyaya aid idi.

Platodan sonra bu cür ideyaların ardıcılları Spevsippos (Speusippos) və Ksenokratos olmuşdur. Lakin sonra, yunan fəlsəfəsində materialist təmayüllər, mistik və idealist təlimlərin təsirini zəiflətdirmişdilər.

Bununla yanaşı, müxtəlif gizli pifaqorçu dərgilərində bu təlim bir din kimi təbliğ edilirdi. Bu cür dini təmayüllər sonrakı dövrlərdə antik dünyada geniş şəkildə yayılmağa başlamışdı. Bu proses böhran içində olan Romada daha da sürətlənmişdir. Orada bizim eramızın I əsrində pifaqorçuluq platoçuluqla qarışıq şəkildə yenidən meydana gəlir və dini-mistik bir təlimə çevrilir. Daha doğrusu, bu proses platoçuluğun əsasında təşəkkül tapmış pifaqorçuluq təliminin bərpası kimi qiymətləndirilə bilər. Bu yeni yaranan təlimi *yeni pifaqorçuluq (neopifaqorçuluq)* adlandırırlar.

Yeni pifaqorçular, platoçuluqla stoya və peripatetik[271] məktəbin ideyalarını eklektik şəkildə birləşdirməyə çalışırdılar. Bu təlimin ardıcılları abidliyi, ölümdən sonra həyatın davam etməsini, ruhun mövcud olmasını təbliğ edirdilər.

Yuxarıda qeyd edildiyi kimi, yeni pifaqorçuluq bir dini təlim kimi tanınmışdır. Onun ən məşhur nümayəndələrindən biri *Tianlı Apollonios* idi. O bir "peyğəmbər" kimi tanınmışdı, camaata müxtəlif möcüzələr göstərərək, onları pifaqorçuluq əqidəsinə dəvət edirdi. Apollonios haqqında rəvayətləri kiçik Filostratos (Philostratos) «Apollonios Tyanensis epistolae» (Tianlı Apolloniosun həyatı) kitabında (III əsr) qələmə almışdı[272]. Bu kitabda onun Hindistana, Romaya, Yunanıstana, Misirə, İspaniyaya səyahətlərindən və

---

[271] Peripatetiklər (yunanca "peripatetikos" - gəzinti zamanı əldə edilən bir şey deməkdir) – Aristotel məktəbinin ardıcıllarıdır.

[272] Bax: Filostrat, V. Ar. // Ранович А. Б. Первоисточники по истории раннего Христианства. Античные критики Христианства. М.: Политиздат, 1990, с. 154-157.

möcüzələrindən bəhs olunur. Bu səyahətlərdə Apollonios çoxlu möcüzələr göstərir. Məsələn, Efesdə olarkən o əhalini orada yayılmış taun xəstəliyindən qurtarır. Sonra onu həbs edib mühakimə edəndə, o məhkəmə zalından möcüzəvi şəkildə qeyb olub, İtaliyada və Yunanıstanda öz fəaliyyətini davam etdirmişdi. Apollonios özünü Pifaqorasın təcəssümü hesab edirdi.

Yeni platoçuların başqa görkəmli nümayəndəsi *Qadesli Moderatus* (I əsr) olmuşdu. O hesab edirdi ki, rəqəmlər cisimsiz obrazların və substansiyaların ifadəsidir. Onun təlimində hər şeyin əvvəlində bütün



varlıqlardan uca olan *Vahid (Hen)* dayanır. Vahid elə bir varlıq ki, onun haqqında heç bir şey demək olmaz. Hətta onun mövcud olması haqqın-da da bir şey demək mümkun deyil. Çünki onun mövcudluğu haqqında ifadə edilən hər bir fikir, artıq onun təyin edilməsi deməkdir. Hər bir təyin etmə isə məhdudiyyət demək-dir. Vahiddən sonra *ideyalar aləmi* və *kosmik ruh* gəlir. Bunlar ikinci dərəcəli Vahiddir. Onların hər ikisinin mənşəyi ilk Vahidə aiddir, lakin ondan fərqli olaraq onlar daha da aşağı dərəcəli varlıqdırlar. Bu səbəbdən onlar haqqında düşünmək olar.

Burada Vahid haqqında anlayış qədim pifaqorçuların anlayışıdır. İdeya və kosmik ruh platoçuluğun anlayışlarıdır. Gələcəkdə *Vahid, ideyalar aləmi və kosmik ruh üçlüyü* Plotinusun fəlsəfəsində təkrar olunub, daha da inkişaf etdirilmişdir.

II əsrin ikinci yarısında yaşayan *Apameyalı Numenius* da özünü pifaqorçu hesab edirdi. O, *1, 2 və 3* rəqəmlərini ilahiləşdirmişdir. Birinci tanrı bütün digər rəqəmlərin mənbəyidir. O özünəməxsus bir aləmdir və sükunətdədir. İkinci tanrı özünə görə ziddiyyətli və ikilidir. Bir tərəfdən o bir əql olaraq birinci tanrını görüb, ondan ilhamlanır, digər tərəfdən isə o özünə qarşı yönəlib, materiyaya meyillidir. O artıq duyulan substansiyadır və materiyanı hərəkətə gətirir. Beləliklə *ikinci tanrı yaradıcıdır*. İlk növbədə o, Numenius tərəfindən ilahiləşdirilən üçüncü fövqəl varlığı – ruhu yaradır. Bu ruh kosmosun əvvəli, ortası və axırıdır. 4 rəqəmini isə Numenius təbiətə aid edir, lakin o artıq tanrı deyil.

İnsan da Numeniusa görə ikili təbiətə malikdir. Onun ruhu, eyni zamanda, həm alçaq və həm də ucadır. Ruhunun alçaq hissəsi ilə insan ruhu təbiətin çirkabındadır, ali hissəsi ilə isə birinci tanrı (nus) ilə təmasdadır. Bu təmas insanı ruhi sakitliyə, əzabsızlıq və mənəvi həzzə gətirir.

Antik dünyanın ən tanınmış mütəfəkkirlərindən biri olan Heroneyalı Plutarxus (Plutarchus) (46-127) da əqidəsi pifaqorçuluq və platoçuluğa yaxınlaşırdı. Plutarxus bir sıra tarixi, əxlaqi və fəlsəfi əsərlərin müəllifi idi. Onun tanrılar haqqında fikirləri «De Iside et Osiride» (İsida və Osiris haqqında), əsərlərində əks olunmuşdu. O hesab edirdi ki, əsl varlıq yalnız vahid olan tanrıya məxsusdur. O, zaman və məkan anlayışlarından ucadır. Dünyada olan duyulan şeylər isə sözün əsl mənasında varlıq deyillər. Onlar daim dəyişir, məhv olur. Əsl varlıq olan tanrı isə bütün anlaşılan şeylərdən daha ucadır. O hər şeydən aralı və sonsuz uzaqlardadır. Bu keyfiyyətdə Plutarxus tanrısı Platonun Xeyri ilə eyniləşir. Bu tanrının adı, Plutarxusa görə, Osirisdir. Qədim Misir mifologiyasındakı digər qadın tanrısı İzida (İsis) isə ona can atan, onu arzulayan varlıqdır. Osiris şərin mənbəyi deyil, o yalnız xeyir tanrısıdır. Şərin mənbəyi isə yunan mifologiyasının başqa personajı olan Tifon ilə bağlıdır.

Yeni pifaqorçular üçün fəlsəfə bir məqsəd deyil, yalnız nicat tapmaq üçün bir vasitədir. Onun vasitəsi ilə onlar, ruhun bədəndən ayrılmasını, duyğu aləmi ilə bağlılığının zəyifləməsi yollarını və digər mistik praktikaları əsaslandırmağa çalışırdılar. Aydındır ki, belə olan təqdirdə ön plana dünyadan mistik tərzdə xaric olma, meditasiya, dini ekstazlar, ucada olan Vahidlə ruhən birləşmə cəhdləri, abidlik, zahidlik ideyaları ortalığa çıxmışdır. Əksər hallarda yeni pifaqorçuluq və digər mistik təlimlər Asiya və Misirdə olan dini təlimlərlə qarışmış, onların da mistik ənənələrini davam etdirmişdilər. Beləliklə onlar antik fəlsəfi məktəblərinə – epikurçuluğa, Stoya məktəbinə qarşı çıxış edirdilər. Sonda, Roma imperiyasını siyasi, iqtisadi və mənəvi böhranlar bürüyən zaman, mistika, müxtəlif tanrıların kultu, mövhumatlar çox geniş yayılmışdı və onlar, hətta qədim yunan fəlsəfi məktəblərinin gələcək inkişafına təsir etmişdilər. Bununla da antik fəlsəfə öz süqutuna doğru gedirdi. Gələcəkdə yalnız yeni platoçular qismən də olsa, antik fəlsəfi ənənəni davam etdirmişdilər. Lakin onların da təlimi mistika ilə qarışıq idi. Nəhayət, Romada Xristianlığın dövlət dini elan olunmasından sonra, qədim fəlsəfə tamamilə məhv olub aradan çıxarılmışdı.

## STOYAÇILAR

Stoisizm e.ə. IV əsrdə yaranan və 529-cu ildə Bizans imperatoru Yustinian tərəfindən bütün fəlsəfi məktəblərin bağlanması əmrini verməsinə qədər mövcud olan və hellinizm dövrünün ən məşhur fəlsəfi məktəblərindən biri olmuşdur.

Stoisizmin yaradıcısı Zenon (e.ə. 336-264) adında bir mütəfəkkir olmuşdu. O Kıbrıs (Kipr) adasında ana dan olmuşdur, sonra isə Afinada



yaşamışdır. Orada o, bir sıra tanınmış filosofların tələbəsi olmuşdur və, təxminən e.ə. 300 ildə, öz fəlsəfi məktəbini yaratmışdı. O və onun tə ləbələri "stoa" adlanan binaların birinə bitişik olan sütu-nlu qalereyada yığılırdılar. Buna görə bu məktəbin ardıcıllarını "stoiklər" adlandırırdılar.

Guman edilir ki, məhz Zenon, ilk dəfə olaraq, "təbiət qanunlarına uyğun həyat sürmək, yaxşı, məziyyətli, gövmərd həyat sürmək deməkdir" fikrini irəli sürmüşdü. Bununla o, stoisizm fəlsəfəsini etik problemlərin həllinə yönəltmişdi.

Xristianlıq problemi kontekstində stoiklərin etik təlimi böyük maraq doğurur. Onların fikrincə, insan təbiətə uyğun həyat sürməlidir və bununla xeyrə və səadətə çatmalıdır. İnsanı xoşbəxtliyə gətirən yeganə yol - xeyr və cömərdlikdir. Stoiklərə görə dörd əsas xeyr vardır. Bunlar – ağıl, ədalət, cəsarət və mülayimlikdir. Ağılın əksi ağılsızlıqdır, mülayimliyin – azğınlıq, ədalətin – ədalətsizlik, cəsarətin – qorxaqlıq. Xeyrə əks olan şeylər – şərdir. Başqa şeylər isə, etinasızlıq doğuran şeylərdir. Yalnız xeyri və şəri insan könüllü olaraq seçir. Başqa şeylərin üzərində isə, onun heç bir hökmü yoxdur və insan onlara təsir edə bilməz. Lakin o şeylərin üzərində yüksələ bilər. Deməli insan öz taleyi qarşısında acizdir və onunla barışmalıdır. O baş verən hadisələrin qarşısını almaq iqtidarında deyil, onlara yalnız öz münasibətini bildirə bilər. Taleyin qanunlarına uyğun olaraq, insan, baş verən hadisələrə qarşı yalnız öz daxili aləminə və mənəviyyatına arxalana bilər.

Stoiklərin etikasının idealı insanın sükut (ataraksiya) və dözüm (anateya) hallarıdır. Stoik – müdrik əqlin təcəssümüdür. O səbrli və təmkinlidir. Onun xoşbəxtliyi, heç bir xoşbəxtliyin arzusunda olmamasıdır.

### *Lusius Anneus Seneka*

Sonrakı dövrlərdə stoisizmin etik təlimi Roma imperiyasında inkişaf etmişdir. O dövrün ən böyük mütəfəkkirlərindən biri Anney Lusius Seneka (Lucius Annaeus Seneca) (e.ə. 4- b.e. 65) olmuşdur. O İspaniyanın Korduba (Kordova) şəhərində anadan olmuşdur, kiçik yaşlarında ailəsi ilə birlikdə Romaya köçmüşdür. Orada o, stoya məktəbinin filosofları ilə tanış olmuş və onlardan dərslər almışdır. Daha sonra o, Roma imperiyasında ən yüksək dövlət vəzifələrini tutmuşdur. Sonda imperator Nero (Claudius Caesar Nero)

(37-68), Senekanı özünə qarşı sui-qəsd etməsində ittiham edib, onu intihar etməyə məcbur etmişdi.

Senekanın dövründə bütün Roma imperiyasını və xüsusi ilə imperator sarayını istibdad, haqsızlıq və əxlaqsızlıq dalğası bürümüşdü. Bu cür mühitdə yaşayan Seneka da, tam mənada təmiz və vicdanla dolu həyat surməmişdi. Onun fəlsəfi fikirləri ilə yaşadığı həyat arasında böyük uçurum var idi. Məsələn, yoxsulluğu, kasıblığı təbliğ edən Seneka, müxtəlif (hətta qeyri-qanuni) yollarla var-dövlət əldə etmişdi və həddən artıq varlanmışdı. Ancaq həyatının sonunda təqiblərə məruz qalmış mütəfəkkir, «mənim üçün fəlsəfə kifayət edər…» deyərək, imperator Neroya bütün var-dövlətinin alınması haqqında müraciət etmişdi.

Həyat tərzi ilə fəlsəfəsinin ziddiyət təşkil etməsini izah edən Seneka deyirdi ki, bütün filosofların – Platonun, Epikurun, Zenonun və başqalarının da fikirləri heç də onların əməllərini əsk etdirmirdi. Onlar xeyrli həyatın nə olduğunu izah edirdilər, özlərinin yaşadıqları həyat tərzini yox[273]. Senekanın fikrincə var-dövlət evdə yığıla bilər, mənəviyyata daxil edilməməlidir.

Senekanın fəlsəfəsi əsasən əxlaqi fəlsəfədir. Onun görüşlərinin mərkəzi – yüksək əxlaqa malik olan insan şəxsiyyətidir. Lakin, bu şəxsiy-



yətin yaşadığı cəmiyyətlə və dövlətlə sıx bağlılığı vardır. İnsanın əqli, başqaları ilə ünsiyyət bağlaması qabiliyyəti, onu bütün təbiət üzərində yüksəltmişdir. Cəmiyyət isə, təbiət tərəfindən təsis edilmiş bir tə-sisatdır. Ayrı-ayrı adamlar, vahidlik təşkil edən cəmiyyətin fərdləridir. Beləliklə insanın vətəni bütün dünyadır. Cəmiyyətin məkanı isə dünya sərhədləri daxilindədir. İnsanların ilkin vəzifəsi – bir-birinə ziyan verməməsidir. Hər bir insan başqa insanlara qayğı göstərməlidir, onları öz yaxınları kimi sevməlidir, onlara qarşı rəhmli olmalıdır. Hətta qullara qarşı da rəhmli və ədalətli olmaq lazımdır.

Öz zamanəsində olan qüsurların tənqid edilməsi, insanların əxlaqi cəhətdən tərbiyə edilməsi, onların iradələrinin möhkəmlənməsi ideyaları Senekanın əxlaqi təlimində əsas yer tutur. Xeyrə can atan insan, dünyanı dəyişə bilməsə də, yüksək fərdi mətanətə və mərdliyə malik ola bilər; bu keyfiyyətlərin köməyi ilə, taleyin bütün sınaqlarından çıxıb, özünü təbiət qanunlarının axarına ata bilər[274]. Belə olan təqdirdə ədalətsizliyin, şərin kökləri şeylərdə deyil, ruhlardadır. Hətta insan başqa adamın tam mənada

---

[273] Сенека А. Л. О счастливой жизни. СПб, 1913.
[274] Ad Lucilium Epistulae morales 107, 7.

qulu ola bilməz. Ağa yalnız qulun bədəninin sahibi ola bilər, onun ruhunun yox. Ruhun sahibi isə qulun özüdür.

Senekanın əxlaqi təliminin bu cür müddəaları gələcəkdə daha da inkişaf etdirilib, xristian fəlsəfəsi və ilahiyyatında öz əksini tapmışdır. Ümumiyyətlə xristian Kilsə xadimləri və mütəfəkkirləri Senekanın əxlaqi təlimini çox yüksək qiymətləndirmişdirlər. Məsələn Tertullianus Senekanı Xristianlığa çox yaxın olan bir şəxs adlandırmışdı. Laktantius deyirdi ki, heç bir xristian Tanrı haqqında Senekadan daha doğru danışa bilməz. Daha sonra Senekanın güya xristian olmasını subuta yetirmək üçün bəzi xristian xadimləri onun apostol Pavlusla məktubaşmasının olması haqqında şayələr yaymışdılar və hətta dəlil kimi saxtalaşdırılmış məktublar yazmışdılar. Bu məktublar haqqında Avqustinus Avrelius da söhbət açmışdı, lakin onların doğru və ya saxta olmasından yazmamışdı. Orta əsrlərin Kilsə yığıncaqlarında da Senekanın əxlaqi fikirləri tez-tez xatırlanırdı.

Senekanın əxlaqi fikirləri ilə, onun tale haqqında təlimi əlaqədədir. O hesab edirdi ki, təbiətdə zərurət hökm sürür. Bütün baş verən hadisələr bu zərurətə tabedir. Bu zərurət həm də təbiətin qanunudur. Zərurətdən (taledən) qaçıb gizlənmək mümkün deyil. O belə bir təbii qanundur ki, ona istəklər və ya dualar təsir etmir. Nə olmalıdır, o da olacaq. Bu cür fikirlər fatalizm adlanır.

Fatalizm Senekanı panteizmə gətirir. Onun fəlsəfəsində Tanrı ilə təbiət eyniləşir. Tanrı hər şeyi bir məqsədə yönəldən qüvvədir. Tale kor-koranə fəaliyyət göstərmir. O həm əqlə, həmdə şüura malikdir. O hər şeyi əhatə edir və onun zərrəcikləri hər bir insanda vardır. Beləliklə, Senekanın fəlsəfəsində tale ilahiləşir və hər şeyə hökmranlıq edir. Onu heç nə dəyişə bilməz. Buna görə hər bir həyati çətinliyə və bədbəxtliyə qarşı mətin olmaq lazımdır. Burada Seneka təbiətə də tabe olmaqdan söhbət açır. İnsan yalnız təbiətə tabe olaraq xeyrə çata bilər. Əxlaqlı insan təbiət qanunlarına və taleyə tabe olmalıdır.

Qeyd edildiyi kimi, Senekanın əxlaqi fikirləri sonralar Xristianlıq tərəfindən qəbul edilib, inkişaf etdirilmişdir. Məsələn, o hesab edirdi ki, insan təbiətində əvvəllər çirkab, pozqunluq, günah kimi qüsurlar olmamışdır. Qüsurlar onun təbiətinə sonralar yerimişdi. Nəticədə insanın bədəni ruhun zindanına çevrilmişdi. Sonra isə, ruh azad olur və göylərdə məmnunluq və sakitlik şəraitində həyatını davam etdirir.

Xristianlıqda da insan təbiəti əvvəllər qüsurlardan azad olub, sonra isə Adəm və Həvvanın günahı nəticəsində pozulmuşdur. Lakin Senekanın təlimindən fərqli olaraq, ruhun bədəndən azad olması və göylərdə

məmnunluq dərəcəsinə çatması üçün hər bir insan Tanrı oğlu İsaya iman etməlidir və Kilsənin üzvü olmalıdır.

# PLATO FƏLSƏFƏSİ VƏ YENİ PLATOÇULUQ

## Plato fəlsəfəsi

Plato (e.ə. 427-347) qədim Yunanıstanın ən böyük mütəfəkkirlərindən biri olmuşdur. O afinalı idi və siyasi baxışlarına görə afina demokratiyasının tərəfdarı kimi tanınmışdı. Onun müəllimi Sokrat olmuşdur. Daha sonra Plato, Siciliyada və Cənubi İtaliyada olarkən, pifaqorçuların dünyagörüşü ilə yaxından tanış olmuşdur. E.ə. 387 ildə, Afinaya qayıdandan sonra, Plato bu

şəhərdə “Akademiya” adlanan öz məktəbini yaratmışdır. Onun bizim zamanımıza qədər bir sıra əsərləri və məktubları çatmışdır.

Öz fəlsəfəsində Plato, düşüncələrini insan, dövlət və cəmiyyət problemlərinə yönəltmişdir; formal deyil, həqiqi biliyin əldə edilməsinin tərəfdarı idi.

Plato hesab edirdi ki, yaşadığımız dünya həqiqi dünya deyil, çünki burada hər şey müvəqqəti və dəyişkəndir. Dünyada hər bir şeyin əsl mahiyyətini isə, “eydos” (ideyalar və ya növlər) adlanan, onların səbəbləri və yaxud formaları təşkil edir. Onlar duyğular vasitəsi ilə hiss edilmir. Deməli, bu dünyada hər bir şeyin ideyası vardır. Onlar hər şeyin səbəbidir. İdeyalar bir növ qəliblərə bənzəyir, çünki hər şey onların formasında mövcuddur. Duyğu aləmində şeylər ideyalara doğru yönəlir, onlara can atır.

Lakin, Platoya görə düyğularla dərk edilən şeylərin izah edilməsi üçün, təkcə ideyalar aləminin mövcudluğu kifayət etmir. Onlar müvəqqəti və keçici olduğu üçün, onlara təkcə “varlıq” deyil, eyni zamanda “yoxluq” anlayışını tətbiq etmək lazımdır. Bu “yoxluq” – materiyadır. Materiyada ideyalar təcəssüm olunur. Varlıq əslində cisimsiz ideyalardır. Bu dünya ideyalar aləmi ilə (“varlıqla”), materiya (“yoxluq”) arasında olan bir şeydir. Bir tərəfdən onun mövcudluğu ideyalar aləminə; digər tərəfdən, dünyanın müvəqqəti və keçici olması, onun materiyaya aid olmasından xəbər verir.

Platonun fəlsəfəsində ideyalar aləmi çox pilləlidir və piramidaya bənzəyir. Bu piramidanın başında “xeyrin” ideyası durur. Bütün başqa ideyalar ondan öz varlığını və mahiyyətini alır. Hər şeyin məqsədi “xeyrin” ideyasında cəmlənir.

İdeyalar əbədidir. Onlar heç kim tərəfindən yaradılmayıb və ölməzdirlər. Eyni zamanda, ideyalar zaman və məkandan asılı deyillər, dəyişkənliyə məruz qalmırlar. Materiyaya aid olan duyğular aləmi isə, əksinə, zaman və məkandan asılı olaraq, müvəqqətidir. Orada olan hər bir şey məhvə məhkumdur.

Hər bir insanda həm materiya, həm də ideal aləmin əlamətləri vardır. Onun bədəni materiyadır və ölümə məhkumdur; ruhu isə, idealdır və əbədidir. Plato hesab edirdi ki, ruh iki hissədən ibarətdir. Onun yüksək hissəsi, insan mənəviyyatını təşkil edərək, ideyalar aləminə yönəlir. Alçaq hissəsi isə, materiyaya (duyğu aləminə) bağlıdır.



**Plato, Seneka və Aristotel. Orta əsr əlyazmasından səhifə**

Plato ruhların köçməsinə inanırdı. O hesab edirdi ki, öz əməllərinə müvafiq olaraq, hər bir ruh, bədənin ölümündən sonra, başqa bədənlərdə yenidən dünyaya gəlir. Yalnız kamillik dərəcəsinə çatan ruhlar əbədi olaraq bu dünyanı tərk edirlər və ideyalar aləminə qovuşurlar. Beləliklə bədən ruhun zindanıdır və o, bu zindandan azad olmağa çalışır. Buna nail olmaq üçün, ruh təmizlənib, dünyaya bağlılıq hissindən əl çəkib, ən yüksək məqsəd olan "xeyrə" yönəlməlidir.

Ruhların köçməsinə inanan Plato, onların bədənlərə girməsindən öncə mövcud olmasına da inanırdı. Buna görə də, insan idrakı, əslində onun ruhunun ideal aləmi yada salmasıdır. Orada ruh, bütün ideyaları ən kamil və gözəl formada görmüşdü. Duyğular aləmində də ruh, şeylərin əsl mahiyyətini dərk etməyə çalışaraq, onların ideal obrazlarını bir növ yada salır.

İdeyalar insan tərəfindən intuisiya[275] vasitəsi ilə dərk edilir. Bu biliklər – həqiqi biliklərdir. Düyğular aləminin şeyləri isə, yalnız şəxsi rəylərdə əks olunur. Onlar həqiqi bilik deyil.

Platonun fəlsəfəsində dövlət və cəmiyyət problemlərinə də əhəmiyyətli yer verilmişdir. Onun dövlət haqqında fikirləri insan və ruh haqqında təliminin məntiqi davamı olmuşdur. Plato hesab edirdi ki, insanların əksəriyyəti fərdi şəkildə kamillik səviyyəsinə çata bilməzlər. Buna görə də, dövlətə və qanunlara ehtiyac vardır. Lakin yüksək idealları həyata keçirmək üçün, dövlət ideal olmalıdır. Bu ideala nail olmaq üçün isə, idarəçilik və qanunlar müəyyən tələblərə cavab verməlidirlər.

Burada Plato insanları üç təbəqəyə bölmüşdür. Birinci təbəqəni ağıllı insanlar təşkil edir. Onların yüksək əqli keyfiyyətləri vardır. Məhz bu adamlar ideyaların ahəngini, gözəlliyini dərk edib, "xeyrə" tərəf yönəlirlər. Onlar ədalət tərəfdarları olub, dünya malına bağlı deyillər. Bu insanlar sözün əsl mənasında müdriklərdir (filosoflardır) və onlar dövləti idarə etməlidir.

---

[275] İntuisiya – məntiqi düşüncə işə salınmadan, hər hansı bir şeyin hisslərlə dərk edilməsinə deyilir.

İkinci təbəqəni emosional insanlar təşkil edir. Onlarda emosiyalar (affektlər) və ehtiraslar, başqa hissləri üstələyir və onların mühitindən qəhramanlar və igidlər çıxır. Bu adamlar dövlətin keşiyində durub əsgərlik xidmətlərini çəkməlidirlər.

Üçüncü təbəqəni isə, dünyaya bağlı olan, ruhları şəhvətə meyl edən adamlar təşkil edir. Onlar fiziki əməklə məşğul olmalı və dövlətin rifahını təmin etməlidirlər.

## Yeni platoçuluq

Yeni platoçuluq antik dünyanın sonuncu fəlsəfəsi və mistik məktəbi olmuşdu. Onun yaranması və inkişafı bizim eramızın III əsrinə təsadüf edilir. Bu dövr, eyni zamanda, xristian ilahiyyatının yaranması dövrü idi. Bu iki dünyagörüşü bir-biri ilə ideoloji mübarizə aparırdılar.

Yeni platoçuluğun yaranması və inkişafı, Roma imperiyasını bürümüş siyasi-iqtisadi və mənəvi böhran dövrünə təsadüf edilir. İmperiya öz süqutuna doğru irəlilədikcə cəmiyyətdə gələcəyə inamsızlıq, mənəvi boşluq, istibdada qarşı etiraz hissləri dərinləşirdi.

Bu şəraitdə müxtəlif dini-fəlsəfi və mistik təlimlərin cəmiyyətdə yayılması labüd idi. Bütün imperiya boyu mövhumatlar, falçılıq və cadugərliyin müxtəlif formaları sürətlə yayılırdı. Bununla yanaşı, yalan, şarlatanlıq, fırıldaqçılıq da yayılmışdı. Digər tərəfdən, Roma tərəfindən istila olunmuş ölkələrin və xalqların müxtəlif mistik və dini təlimləri də sürətlə yayılırdı. Burada misir tanrısı Osiris və Frigiya tanrısı Attis kimi ölən və dirilən tanrıların, Mitra adlı şərə qarşı mübarizə aparan İran mənşəli tanrının kultları yayılmışdı.

Qədim yunan və roma dini inancları dərin böhran içində idilər. Onların cəmiyyətə təsiri tədricən zəifləyirdi. Bəzi inanclar Şərqdə yayılmış inanclarla qarışıq şəkildə təzahür edirdi. Bu Orfeus (Orpheus) və Hermes adlı tanrıların ardıcıllarında öz əksini tapmışdı.

Ənənəvi dini görüşlərin böhranı, rəsmi dövlət başçılarının kultunu da yaratmışdı. İmperatorların, Senatın şərəfinə məbədlər, heykəllər qoyulurdu. Bundan əlavə romalılar müxtəlif "kiçik" tanrılara və ruhlara inanırdı.

Yeni platoçuluq fəlsəfəsi bu cür mürəkkəb sosial-siyasi böhran şəraitində meydana gəlmişdi. İdealist və mistik təlim olduğuna görə o tədricən materialistsayağı təlimləri ortadan çıxarırdı. O şəraitdə bu proses qaçılmaz idi. Lakin, eyni zamanda, yeni platoçuluq qədim yunan və roma fəlsəfəsinin müddəalarını özündə əks etdirmişdi, onların qoruyucusuna çevrilmişdi. Xristianlıqdan fərqli olaraq, yeni platoçuluq daha da çox hakim

dairələrin, ziyalıların arasında yayılmışdı. Xristianlığa qarşı çıxış edən Romanın hakim dairələri çox vaxt məhz yeni platoçuluq ideyalarına arxalanıb, onları Xristianlığa alternativ bir dünyagörüşü kimi qələmə verirdilər. Məsələn, bu cür addımı imperator Yulianus (361-363) atmışdı. O, Xristianlığın hakim dinə çevrilməsinə baxmayaraq, köhnə inancları bərpa etməyə, onların Xristianlıqla bərabər imperiyada yayılmasına cəhdlər etmişdi. Lakin, onun ölümündən sonra, Xristianlıq yenidən öz mövqeyini möhkəmləndirmiş və antik dünyanın sonuncu dünyagörüşü təlimi olan yeni platoçuluğu ortadan çıxarmışdı. Bundan sonra antik dövr sona çatmış və orta əsrlər dövrünə qədəm qoyulmuşdu; Aralıq dənizi hövzəsi ətrafında olan ərazilərdə xristian dininin və fəlsəfəsinin hökmranlıq dövrü başlanmışdı. Sonuncu yeni platoçuların məktəbi Afinada yerləşirdi. VI əsrdə imperator Yustinianos onun bağlanması haqqında əmr vermişdi.

Yeni platoçuluğun *üç tarixi məktəbi* olmuşdur. Birincisi, *İsgəndəriyyə-Roma* məktəbidir. Onun ən görkəmli nümayəndəsi Ammonius Sakkas olmuşdu. Plotinus da bu məktəbə aid idi (III əsr). İkinci məktəb *Suriya* məktəbi idi. Onun ən məşhur təmsilçisi Yamblikos olmuşdu(IV əsr). Üçüncü məktəb isə, *Afina* məktəbi idi. Onun tanınmış nümayəndəsi Proklus olmuşdu (V əsr).

### *Ammonius Sakkas*

Yeni platoçuluğun yaradıcısı İsgəndəriyyəli Ammonius Sakkas (175-242) hesab olunur (b.e.ə. 175-242 illər). O xristian ailəsində tərbiyə almışdı. Lakin sonra o, Xristianlığın əleyhinə çıxış edib, yeni platoçuluğun əsasını qoymuşdu. Lakin ondan heç bir yazılı ədəbiyyatın qalmadığından, onun fəlsəfi fikirlərini bərpa etmək çox çətindir. Məlumdur ki, onun bədən və ruh haqqında dualist fikirləri var idi. Ammoniusun fikrincə, bədəndə cisimsiz ruh vardır. Və bu ruh bədənin təbiətindən fərqlidir, maddə deyildir. O yuxuda və ya düşünən zaman (ayıq olan vaxtı) insanın bədənindən müvəqqəti ayrıla bilər. Ammoniusun bir sıra tanınmış tələbələri olmuşdu. Onların arasında Plotinus və Origenus olmuşdular.

### *Plotinus*

Yeni platoçuluğun nəzəri əsasları isə Plotinus (ikinci Plato) (204–270) tərəfindən yaradılmışdır. Deyildiyi kimi, o, Ammonius Sakkasın tələbəsi olmuşdu. Plotinus Misirdə anadan olmuşdu və cavanlığını o zamanın mədəni mərkəzi olan İsgəndəriyyədə keçirmişdi. Burada o, A. Sakkasdan dərs almışdı. Təxminən 40 yaşında Plotinus Romaya köçdü. O vaxtlar Roma imperiyasını dərin siyasi-ictimai böhran bürümüşdü. Fars və hind

dünyagörüşü ilə yaxından tanış olmaq istəyən Plotinus, imperator III Qordianusun (Gordianus) İrana qarşı hərbi yürüşündə iştirak etmişdi. Lakin, o yürüş roma ordusunun məğlubiyyəti ilə başa çatmışdı. Plotinus isə yalnız təsadüf nəticəsində sağ qalmışdı.

Romaya qayıdandan sonra, Plotinus, 244-cü ildən sonra, orada məktəb yaratmışdır və 25 ilə yaxın müddət ərzində ona başçılıq etmişdi. Bu məktəbdə müxtəlif ictimai təbəqələrin və millətlərin nümayəndələri təhsil alırdılar.

Əvvəlcə Plotinus öz təlimini yalnız şifahi tədris edirdi. Yaşa dolandan sonra o, öz fikirlərini yazmağa başlamışdır. Plotinusun tələbəsi Porfirios isə onun əsərlərini yığmış, redaktə etmiş və altı fəsilə bölmüşdür. Bu fəsillər isə, öz növbəsində, doqquz hissədən ibarətdir. Buna görə də əsər «Ennadalar» (Enneadis) adlanır[276].

Plotinus bütün varlığı vahid şəkildə görürdü, yəni onun dünyagörüşünün əsasını monizm təşkil edirdi. Plotinusun Vahidi - tanrıdır. Məsələyə bu cür yanaşılırsa, onda dünyada olan çoxluq və müxtəlifliyi izah etmək lazımdır. Yəni, əgər bütün varlıq Vahidin törəməsidirsə və onunla vəhdət təşkil edirsə, onda bu Vahid qalan varlıqlarla eyniləşməli, bərabərləşməli, qarışmalı, yoxsa öz fərdiliyini saxlamalıdır?

Bu suala cavab verən Plotinus, Vahidi fərdiləşdirir və hər şeydən ayırıb, onların üstündə qoyur. Lakin, bu halda Vahid dərk olunmaz, duyulmaz, görünməz olur. Onun hətta mövcud olması sual altına qoyulur. Bu da Plotinusun fikrincə təbiidir, çünki Vahidin mövcud olması iddiası, onu müəyyən çərçivəyə salmaq, zaman və məkanda təsəvvür edilməsi deməkdir. Beləliklə Vahiddən hər şey törənir, lakin o özü hansısa forma, sərhəd anlayışlarına sığmır, hər cür mövcudiyyətdən və təfəkkürdən daha üstündür,

---

[276] "Enneada" - doqquz deməkdir. Əslində Enneada - qədim Misir əsatirlərində Heliopolis şəhərinin ilk doqquz tanrısı deməkdir (Atum, Şu, Tefnut, Heb, Nut, Osiris, İsis, Set, Neftis). Bu Enneadanın tanrıları Misirin ilk çarları hesab olunurlar. Başqa şəhərlərin öz tanrı doqquzluqları var idi.

Plotinusun "Enneadaların" mətni:

İngilis dilində: Plotinus. The Enneads. Translated by Stephen Mackenna and John Dillon. London: Penguin, 1991.

http://classics.mit.edu/Plotinus/enneads.html

Rusca: Эннеады. перевод с греческого языка под редакцией профессора Г. В. Малеванского и др. (часть переводов с английского перевода Маккена) http://www.philosophy.ru/library/plotin/01/0.html

dərk olunmazdır[277]. Plotinus, eyni zamanda, Vahidi xüsusilə günəşin, işığın, istinin, xeyrin mənbəyi hesab edir.

Hər bir anlayışdan uca olan Vahiddən hər bir şey törənir, doğulur. Monoteizmdə olan Tanrıdan fərqli olaraq, Vahid heç bir istəyə, iradəyə malik deyil. Dünyanın doğuşu (törəməsi) prosesi obyektiv bir hadisədir, kiminsə iradəsindən asılı deyil. Bu törəmə (doğuş) *emanasiya* (axma, tökülmə) adlandırılır. Emanasiyanı Plotinus Vahiddən ayrılan ışıq (nur) şəklində təsəvvür edir. İşıq, mənbəyinə yaxın olduqca parlaq olur, ondan ayrıldıqca isə tədricən sönür və qaranlığa keçir. Vahiddən törənən çoxluq heç də onun azalmasına və ya kiçilməsinə gətirmir. O olduğu kimi, bir ideal olaraq qalır.

Emanasiya nəticəsində Vahiddən daha iki substansiya (*hipostasis*) yaranır. Birincisi *Əqldir (Nus)*. Vahiddən fərqli olaraq o, artıq mövcuddur, varlıqdır. O özünü dərk edir. Plotinusun Əqli Platonun ideyalar aləminə bənzəyir. O bütün ideyaların cəmidir.

İkinci substansiya isə Ruhdur. Vahiddən ayrılan nur, bütövlükdə Əql tərəfindən mənimsənmir. O hərəkətini davam edir və bunun nəticəsində Ruh yaranır. Eyni zamanda onu Əql doğur. Ruh hər şeyin yaradıcısıdır. O bütün canlıları, onlara həyat üfürərək, yaradıb. Ondan günəş, göy və başqa kosmik cisimlər yaranmışdır. Eyni zamanda, ruh hər şeyi hərəkətə gətirir (yəni, o hərəkətverici qüvvədir).[278]

Ruh iki tərkib hissədən ibarətdir. Birincisi səmavidir, Əqlə yaxındır və fenomenal[279] aləmlə əlaqəsi yoxdur. İkincisi isə dünyəvidir, material aləmlə əlaqəlidir və təbiətin bütün proseslərini həyata gətirir.

Beləliklə Ruh, səmavi, ali qüvvələrlə dünyəvi qüvvələrin əlaqələndiricisidir. Ruhda ideyalar əks olunur. Plotinusun təlimində yuxarıda göstərilən üç substansiya (Vahid, Əql və Ruh) hipostasis (*hypostaseis*) adlanır və yunan tanrılarına bənzədilir: Vahid - Urana, Əql - Kosmosa, Ruh - Zevsə. Əqldə yaşayan ideyalar da ilahiləşdirilir.

Təbiətə gəldikdə, onun ən kamil tərəfi, Ruhun aşağı təbəqəsidir. Əqldə cəmləşən ideyalar bu təbəqədə konkret şeylərdə təzahür olunur. Əslində isə şeylər ideyaların əks olunmasıdır. Fenomenal aləmdə Ruh, hissəciklərə bölünür və hər şeyin əsasını, canını təşkil edir. Beləliklə, hər şeyin ruhu vardır: planetlərin, yerin. Yerin ruhundan bitkilərin, heyvanların ruhları

---

277 Enneadis VI. 9, 3.
278 Enneadis V. 1, 3.
279 Fenomen (yunanca "phainomenon") - duyğu orqanları vasitəsi ilə duyulan bir şey, varlıq.

yaranır. İnsan ruhunun aşağı, qaranlıq hissələri də ondan yaranır. Bu hissələr vasitəsi ilə, insanlar dünyaya bağlı olurlar, ağırlaşırlar.

Bir sözlə təbiətin ən yaxşı cəhətləri dünya Ruhunun qaranlıq, dünyəvi hissəsidir. Onun ən alçaq, pis hissələri isə materiyadan yaranır. Materiya isə Plotinus fəlsəfəsində yoxluqdur. Lakin materiya mütləq yoxluq deyil, sadəcə var olan şeydən fərqli bir şeydir[280]. Materiya əbədidir, lakin Vahidlə birlikdə mövcud olan ikinci ilk substansiya deyil. Buna görə də Plotinusun materiya haqqında fikirləri ziddiyyətlidir. Bir tərəfdən o, vahiddən törənir, digər tərəfdən isə, materiyanın əksidir, ona qarşı yönəlib. Eyni zamanda, materiya Vahiddən ayrılan nurun sönməsinin nəticəsidir. Deməli materiya zülmətdir (qaranlıqdır) və şərlə eyniləşir. Vahid isə xeyirlə.

Yuxarıda qeyd edildiyi kimi, Plotinusun fəlsəfəsində, Vahid enərək çoxluğa səbəb olur. Lakin çoxluq da Vahidə tərəf yönəlir, onunla qovuşmağa can atır.

Bu cür can atma insanda daha da çox təzahür olunur. İnsan ruhu dünya Ruhunun hissəciyidir. Lakin onun yüksək və alçaq hissəsi vardır. Adi adamlarda ruhun alçaq hissəsi üstünlük təşkil edir və onlar həddən artıq şərin təcəssümü olan materiyaya bağlanırlar. Lakin hər bir insan özündə ruhun yüksək hissələrini ucalda bilər. Bu isə ekstazda mümkündür. Ekstazda ruh, artıq bədənlə özünü eyniləşdirmir və ondan müstəqil şəkildə mövcuddur. O Vahidə (tanrıya) can atır və onunla qovuşur, onda əriyir. Ekstaza çatmaq üçün mənəvi həyatla yaşamaq lazımdır. Plotinus ruhların köçməsinə inanırdı.

### *Porfirios (Porphyrios)*

Plotinusun tələbələrindən ən tanınmışı, əsli Tir şəhərindən olan suriyalı Porfirios (233-301) olmuşdu. Onun əsl adı Melx idi.

Porfirios Plotinusun əsərlərini bir kitaba yığıb, onları redaktə etmişdi. Bundan əlavə o, yetmişdən çox fəlsəfi əsər müəllifi olub. Lakin onların çoxu bizim zamanəmizə gəlib çatmamışdır.

Hal-hazırda onun əsərlərindən ən məşhuru «Isagoge in Aristotelis Categorias Cominentarium» (Aristotelin kateqoriyalarına giriş və şərhlər) kitabıdır[281]. Bu kitabda Porfirios məntiq problemlərinə toxunur.

Porfirios yazırdı ki, hər bir şey bu şeyin müəyyən növünə aiddir. Növlər isə ona yaxın olan növlərlə cinsləri təşkil edir. Lakin növlər arasında

---

[280] Enneadis I. 8, 3.

[281] Bu kitabının yunanca mətni burada yerləşir: http://hiphi.ubbcluj.ro/fam/texte/porphyr/isagoge_g.htm

fərqlər vardır. Buna görə hər bir şeyi cins, növ və növ fərqi xarakterizə edir. Eyni zamanda, hər bir şeyin mütləq ona məxsus, keçici və təsadüfi olan əlamətləri vardır.

Bundan sonra Porfirios ümumi şeylərin necə mövcud olmasının sualını qoyur. Yəni növlər və cinslər, fərdlərdən fərqli olaraq, varlıqlardır, yaxud onlar yalnız əqlin məhsuludur? Əgər ümumi şeylər əqldən kənar mövcuddursa, onda onların təbiəti nədir? Ruhdur, yoxsa materiyadır? Onlar fərdlərin bədənlərində yaşayırlar, yoxsa onlardan fərqli varlığa malikdirlər? Beləliklə orta əsrlərdə mübahisələrə səbəb olan *universaliyaların* (ümumi anlayışların) obyektiv varlıq olub-olmaması problemini ilk dəfə Porfirios səsləndirmişdir.

Porfiriosun ikinci məşhur əsəri «Sentenze sugli intellegibili» (Sentensiyalar) adlanır. Bu əsərdə Porfirios xeyrin növləri məsələsinə daha ətraflı baxır. Onlar ruhun kamilliyə çatması üçün pillələrdir. Birinci siyasi xeyirlərdir. Onlar affektlərin qabağının alınması üçün lazımdır. İkincisi katartik xeyirlərdir, yəni bütün dünyaya bağlılıqdan təmizlənib, yüksək ideallara doğru yönəlməkdir. Üçüncüsü ruhi xeyirlərdir. Onlar bu təmizlənməni pozitiv aspektlərlə təkmilləşdirir, ruhu ilk səbəbə yönəldir. Dördüncü isə mənəvi (yaxud əqli) xeyirdir. O, bütün xeyirlərin ilk obrazını (paradiqmasını) təşkil edir.

Porfirios Roma imperiyasında yayılan Xristianlığın əleyhinə şiddətli tənqidlərlə çıxış edirdi. Bu mövzuya o 15 cildli «Contra Christianos» (Xristianların əleyhinə) adlı əsərini yazmışdı. Bu kitabda Porfirios Əhdi-Ətiqi və Əhdi-Cədidi çox ciddi elmi tənqidə məruz qoymuşdu[282]. O ilk dəfə sübut etmişdi ki, Tövratın müəllifi Musa ola bilməzdi. Daha sonra o «Daniel» kitabının Suriya çarı Antiox Epifanın dövründə (e.ə. 165-ci il) yazılmasına dair dəlillər irəli sürmüşdu. Porfirios İncillərdə olan ziddiyyətləri qabarıq şəkildə ortaya qoymuşdu və İsanın ilahiləşdirilməsinin əleyhinə çıxış edirdi.

Bu cür əsaslı elmi tənqid xristian xadimlərinin etirazları ilə qarşılaşırdı. Porfiriusun dəlillərini təkzib etmək üçün onlar çoxlu kitab yazmışdılar. Sonda «Contra Christianos» kitabı 448-ci ildə xristianlar tərəfindən tonqalda yandırılmışdı. Lakin bu əsərin bəzi hissələri, onun əleyhinə çıxış edən Kilsə xadimlərinin əsərlərində bizim zəmanəmizə qədər gəlib çatmışdır. Bundan əlavə kitabın bəzi fraqmentləri də mövcuddur.

---

[282] «Contra Christianos» əsərinin bəzi fraqmentləri ilə tanış olmaq üçün bax: Ранович А. Б. Первоисточники по истории раннего Христианства. Античные критики Христианства. М.: Политиздат, 1990, с. 346-392.

*Yamblikos*

Yeni platoçuluğun suriya məktəbinin yaradıcısı Yamblikos (250-330) olmuşdur. O IV əsrdə yaşamışdır. Onun əsli Suriyanın Xalkida şəhərindən idi. Yamblikos Romada təhsil almış, sonra isə Suriyanın Apameya şəhərində fəlsəfədən dərs verirdi. O bir sıra kitabların müəllifi idi.

Yamblikos Plotinusun davamçısı olaraq, onun Vahid, Əql, Ruh üçlüyü haqqında monistik təlimini bir qədər fərqli şəkildə təsəvvür edirdi. Məsələn o, Vahidi ikiyə bölmüşdür. Birinci Vahid Plotinusda olduğu kimi hər bir varlıqdan daha ücadır. İkincisi isə özündən sonra gələn hər şeyin başlanğıcıdır. Burada Yamblikos, Vahidlə Əql və Vahidlə çoxluq arasında keçid mərhələsini ortalığa çıxarmışdı.

Bunu Yamblikos Əql anlayışına da aid edirdi. Yəni Əql də ikiyə bölünür. Birincisi hər bir var olan şeyin paradiqmasıdır (ilk obrazıdır). İkincisi isə ideyaların toplusudur. Hər şeyin paradiqması olan birinci Əqlin tərkibi vahid deyil, *ata* (varlıq) - *potensiya* (varlığın mümkünlüyü) - *əqlin özü* (varlığın həqiqiliyi kimi, onun mümkünlüyünün düşünülməsi) üçlüyündən ibarətdir. Bu üçlüyün hər bir üzvü, ayrıca varlıqlardır və onlar tanrılardır. Bu cür bölgünü Yamblikos ikinci Əqlə, sonra Ruha və onun hissələrinə aid edir. Beləliklə dünyanın üstündə duran Vahidə, Əqlə və Ruha aid tanrılar panteonu[283] yaradılır. Onların ardınca dünyanın içində olan tanrılar gəlir. Onlar isə öz növbəsində 12 səmavi (göy) tanrıya bölünür. Bu tanrılar da 36, onlar isə 360 tanrıya bölünür.

Bu bölgü çox güman ki, hansısa daha qədim dini inanclar, magiya və astroloqiya əsasında aparılıb. Yamblikosa görə, insan və heyvan ruhlarının təbiəti fərqlənir. İnsan ruhu əqllə dərk edilən təbiətlə əlaqəlidir. Bu keyfiyyət heyvanlara aid edilə bilməz.

Yamblikos, Porfirios kimi, teurgiya ilə məşğul olurdu[284]. Onun tanrılara ibadət edən zamanı, yer üzərində qalxması, işığ saçması haqqında əfsanələr gəzirdi.

Göründüyü kimi, Yamblikos, tənəzzülə uğrayan, Xristianlıqla artıq rəqabət aparmaq iqtidarında olmayan politeizmin dirçəldilməsi üçün, əlindən gələni edirdi. Bu yolda o, qədim yunan-roma fəlsəfəsini daha da mifləşdirirdi.

---

[283] Panteon (yunanca "pantheion" – bütün tanrıların məbədi deməkdir) – çoxtanrılı dinlərdə xalq tərəfindən ibadən edilən bütün tanrılar. Qədim Yunanıstanda "bütün tanrılara" məbədlər tikilirdi.

[284] Teurgiya (yunanca "Theurgie") – tanrıların rəğbətini qazanmaq üçün, onların iradəsinə təsir etmək sənəti, qabiliyyəti. Magiyanın bir növüdür.

Yamblikosun bir çox ardıcılları vardır. Onlardan ən məşhuru imperator Yulianus (Julianus) olmuşdur. Onun taxta qalxması zamanı Xristianlıq artıq Romada aparıcı ideologiyaya çevrilmişdi. Yulianus isə, öz qısa hakimiyyəti dövründə (361-363), bütpərəstliyə Xristianlıqla bərabər dövlət dini statusu vermək istəyirdi. Lakin onun İrana qarşı müharibədə həlak olmasından sonra, Xristianlıq yenidən dövlət dininə çevrildi və bu proses artıq geriyə dönməz oldu. Bütpərəstlik artıq öz məhvinə doğru gedirdi.

### *Proklus*

Yeni platoçuluğun Afina məktəbinin ən məşhur nümayəndəsi Proklus idi (410-485). O bir çox kitab müəllifi olmuşdu və bu kitablrın bir çoxu bizim zamanımıza qədər gəlib çatmışdır. Bunların arasında Platonun «Timaeus» (Timeus), «Parmenides», «Alcibiades» (Alkibiades), «Cratylus» (Kratilus) əsərlərinə edilən şərhlər, "Şərlərin mahiyyəti haqqında" kimi kitablar vardır.

Digər neoplatoçular kimi, Proklus da dünyanı Vahidin (tanrının) emanasiyası kimi təsəvvür edirdi. O, emanasiyanı *triadik* (üç mərhələli) inkişafda görürdü. Lakin bu inkişaf əslində tənəzzül idi, çünki o, əks istiqamətdə gedirdi: kamildən naqisə, işıqdan zülmətə. Triadik hərəkətin birinci mərhələsi Vahiddə yerləşmədir. Yəni törənən şeyin törədəndə olmasıdır (mone). İkinci mərhələ onun çıxmasıdır (proodos). Üçüncü mərhələ isə törənənin törədiciyə qayıtmasıdır (epistrofe).

Ümumiyyətlə üçlük ideyasını (triadanı) Proklus varlığın bütün aspektlərinə aid edir. Varlıq *Vahid, Əql və Ruh* üçlüyündən ibarətdir. Vahidi Proklus ilahiləşdirir. O hər şeyin əvvəlidir, hər şeydən ucadır. O dərk edilməz və sözlə ifadə edilməzdir.

Vahiddən emanasiya (axma) nəticəsində çoxluq yaranır. Bu "hennada" adlanan vahidlərdir. Onlar tanrılar kimi təsəvvür edilir və ideal aləmdə olan ilk çoxluğun mərhələsini təşkil edir. Lakin Vahid və ondan törənən "hennadalar" varlığın üstündə durur. Proklusun ikinci üçlüyü olan Əql də üçə bölünür. Əvvəlcə o özü-özündə mövcuddur. Bu düşünülən əqldir (noetoy). Sonra əql özü-özündən çıxıb, özü-özünü düşünür. Bu düşünən əqldir (noeroy). Nəhayət, əqlin özü-özünə, noeroyun noetoya qayıdışı baş verir və sintez alınır. Bu mərhələdə daha sonra yeni üçlüklər yaranır. Onlar üçlüklərdən ibarət halqaları təşkil edir. Bu halqalar hebdomada (yeddiliklər) adlanır. Əqlin bu üçlüyü (triadası) yunan tanrıları Kronos, Zevs və Reya ilə eyniləşir. Hebdomadada olan üçlüklərin hər bir üzvü də bir tanrı ilə eyniləşir. Noetoy və noeroy da onlara tabe olan tanrılaşmış üçlüklərə bölünür.

Ruha da Proklus üçlük prinsipi nöqteyi-nəzərindən baxırdı. Deməli dünya triadasının üçüncü tərkib hissəsi olan Ruh, öz növbəsində İlahi, şeytani və insani üçlüyünə bölünür. Onların hər birində də öz bölgüsü var.

Bu dünya və materiya Proklusun fəlsəfəsində qaranlıqla (zülmətlə) eyniləşir. Onlar işığın (nurun) yoxluğudur. Lakin Plotinusdan fərqli olaraq, Proklus materiyanı şər kimi təsəvvür etmirdi. Bu dünya nə şər, nə də xeyirdir. Şərin isə səbəbi materiyada yox, aşağıda olan dünyanın uca olan idealdan ayrılması, uzaqlığıdır.

İşığa (nura) qayıtmaq, ona qovuşmaq üçün insan tanrıya tərəf yönəlməlidir. Bu yolda da, Proklusa görə, triada vardır. Bu Eros, həqiqət və iman triadasıdır. Tanrıya qayıdışın qüvvəsi elm deyil, ekstazdır. Eros (məhəbbət cazibəsi) insanı ekstaz halına hazırlayır, həqiqət onu tanrıya yaxınlaşdırır, iman isə onu tanrı ilə qovuşdurur. Lakin bu cür ekstatik hallar çox nadir hallarda olduğu üçün, tanrı ilə tam qovuşma yalnız ölümdən sonra baş verir.

### *Yeni platoçuluğun və antik fəlsəfənin sonu*

Plotinusun ardıcıllarından biri Kilikiyalı Simplikius (Simplicius) olmuşdur. O Plato və Aristotel təlimlərinin birliyini iddia edirdi. Onun fikrincə, onların arasında fərq yalnız sözlərdə, ifadələrdədir. Öz əsərlərində Simplikius Zenondan, Empedoklesdən, Anaksaqorasdan (Anaxagoras), Parmenidesdən və başqa qədim filosoflardan sitatlar gətirib və buna görə də, o mütəfəkkirlərin bir çox fikirləri bizə məlum olub.

Afina fəlsəfə məktəbinin sonuncusu sxolaxı (başçısı) Damaskius (Damascius) olmuşdu. O neoplatonizmi daha da təkmilləşdirmişdi və Vahidin haqqında hər hansı biliyin əldə edilməsinin mümkünsüzlüyünü iddia edirdi. Onun təlimində Vahid, Proklusun və Yamblikosun fəlsəfəsində olduğu kimi, ikiyə yox, üçə bölünür. Birinci Vahid mütləq, ikinci və üçüncü Vahidlər isə nisbətən dərk olunmazdırlar. Sonra varlığın vahidi olan monada ilə cütlük (diada) bir-birinə qarşı qoyulur, və bu qarşıdurma nəticəsində mahiyyət yaranır.

Afinada antik dünyagörüşünün ənənələrini davam etdirən məktəbin olmasına baxmayaraq, ümumiyyətlə qədim yunan və roma dinlərinin, dünyagörüşünün, ənənələrinin iflasa uğraması prosesi artıq V-VI əsrlərdə tamamilə başa çatmışdı. Antik ənənə artıq Roma imperiyasında yayılmaqda olan Xristianlıqla rəqabət apara bilmirdi. Bəzi hallarda Xristianlıqla bütpərəstliyin mübarizəsi təkcə ideoloji müstəvidə getmirdi. Əvvəlcə bəzi roma imperatorları və hakim dairələri xristianları təqib edirdilər. Sonra isə, Xristianlığın yayılması daha da sürətlənəndən sonra və kilsə xadimlərinin

cəmiyyətdə nüfuzunun artdığından sonra əks proseslər baş vermişdir. Xristian təəssübkeşləri bütpərəstlərə hücümlar təşkil edirdilər, onların məbədlərini və kitablarını məhv edirdilər. Bütpərəstliyə sonuncu zərbəni Şərqi Roma imperatoru Yustinianos (Iustinianos) vurmuşdu. 527-ci ildə o, hakimiyyətə gələrək, bütpərəstliyi qanundan kənar elan etdi. Onun hakimiyyəti dövründə bütün bütpərəst məbədlər bağlandı, yaxud məhv edildi. Xristianlığı qəbul etməkdən imtina edən adamları isə, vətəndaş hüquqlarından məhrum edirdilər.

Yustinianos Afinada yerləşən fəlsəfə məktəbinin də bağlanması haqqında əmr verdi. 531-532-ci illərdə orada çalışan filosoflar, təqiblərdən qurtarmaq üçün, İrana mühacirət etdilər. Onların arasında Damaskiy və Simplikiy də var idi. Sonra onlardan bəziləri geriyə döndülər, lakin artıq yeni məktəblər yarada bilmədilər. Beləliklə qədim antik fəlsəfəsi və dünyagörüşü tarixdən silindi. Lakin buna baxmayaraq neoplatoçuların və başqa məktəblərin təlimləri bütün orta əsr xristian ilahiyyat və fəlsəfəsinə güclü təsir etmişdir.

İrana mühacirət edən filosof və alimlər isə, ölkənin bir çox şəhərlərində fəlsəfi və elmi məktəblər (akademiyalar) yaratmışdılar. Bu məktəblərin arasında Hundişapur akademiyası əhəmiyyətli yer tutmuşdu. Burada fəlsəfədən başqa, riyaziyyat, astronomiya, təbabət, coğrafiya kimi elmlər də inkişaf edirdi. Antik dünyanın elmi-fəlsəfi irsinin böyük hissəsinin Bizansda xristianlar tərəfindən darma-dağın olunması şəraitində, İranda fəlsəfi məktəblərin nümayəndələri o irsin təsadüfən salamat qalmış bəzi nümunələrini suriya və fars dillərinə tərcümə etmişdilər.

VII əsrdə, xəlifə Ömərin dövründə İran, müsəlmanlar tərəfindən fəth edildi. Bunun nəticəsində antik elmi-fəlsəfi irs müsəlmanların əlinə keçdi. Onlar, xristianlardan fərqli olaraq, onu məhv etmədilər. Əksinə, bu irsə böyük maraq göstərib, onu ərəb dilinə tərcümə edərək, inkişaf etdirdilər. Bir neçə əsr keçdikdən sonra, avropalılar darmadağın olunmuş antik irslə müsəlmanların vasitəsi ilə yenidən tanış oldular.

## XRİSTİANLIĞIN SİMVOLLARI

### 1. Balıq

*Balıq* ilk xristian simvollarından biri olmuşdur. O İsanın rəmzi mənasını daşıyırdı. Buna səbəb şəkildə göstərilən yunan hərflərinin abreviaturasıdır (İXTUS). Bu abreviatura yunan dilində "Xilaskar İsa Məsih Tanrının oğludur" sözlərinin birinci hərflərindən yaranmışdır. "İXTUS" sözü isə yunanca balıq deməkdir.Eyni zamanda İsanın ilk ardıcıllarının bir neçəsi balıqçı olmuşdur. Buna görə xristianlar özlərini "insan ruhunu tutanlar" adlandırırdılar.






## 2. Gəmi

*Gəmi* də Xristianlığın ən qədim rəmzlərindən (simvollarından) biridir. Məsələn məşhur roma ilahiyyatçısı Hippolitus (III əsrdə yaşamışdır) xristian kilsəsini "dalğalar üzərində üzən və heç zaman batmayan" gəmiyə bənzədirdi. Başqaları onu "nicat gəmisi" adlandırırdılar.







## 3. Labarum

*Labarum* (latın sözüdür) imperator Konstantinusun bayrağı olmuşdu. Onun hakimiyyəti dövründən başlaya-raq,Xristianlığın rəmzinə çevrilmişdir. Bayrağın üzərində "Xristos" sözünün yunanca ilk iki hərfi və "Hoc vince" (Bununla qələbə çalacağıq) sözləri yazılmışdır.



Rəvayətlərə görə 312 ildə Milviya körpüsü yaxınlığında baş verən döyüşdən

öncə imperator Konstaninus və onun 40 minlik ordusu göydə



**İmperator Konstantinus və onun ordusu göydə xaçı görürlər**

böyük bir xaçı gördülər. Bu xaç hətta günəşi də bağlamışdı.

Başqa rəvayətə görə, bu döyüşdən öncə Konstantinus yuxuda labarumumu görərək "In hoc signo vinces" (Bu rəmzlə qələbə çalacaqsan) sözlərini eşitmişdi. Bu yuxunu görəndən sonra, Konstantinus öz əskərlərinə gördüyü labarumu öz qalxanlarının üzərində təsvir etməyi əmr etmişdi. Bu döyüş onun qələbəsi ilə bitmişdi və bundan sonra Konstantinus roma imperatoru olmuşdu. Onun hakimiyyəti dövründə də Xristianlıq dövlət dini statusunu almışdı.



## 4. Xaç



Xaç Xristianlığın ən geniş yayılmış rəmzidir, İsanın edam edildiyi alətin təsviridir. Lakin bu rəmz Xristianlıqdan öncə qədim Misirdə həyat simvolu olmuşdur və ***Ankh*** adlanırdı. Xaçın yuxarısında olan dairə qadın, aşağı hissəsi isə kişi başlanqıcını simvolizə edir. Ümumiyyətlə xaçın təsvirini xristianlar misir ənənəsindən almışdılar. Xristianlıqda xaçın rəmz kimi yaranma tarixi II-III-cü əsrlərə təsadüf edilir. Xaçların bir neçə növləri vardır.



Ən sadə və geniş yayılmış xaç ***latın xaçıdır***. Müasir zamanda bu xaç daha da çox protestantların rəmzidir. Xaçın üzərində çarmıxa çəkilmiş İsanın təsviri isə ortodoks (pravoslav) və katolik kilsələrinin rəmzidir.



Hər tərəfi eyni ölçüdə olan ***yunan xaçı***. Rəvayətlərə görə bu formada olan xaçda İsanın həvarilərindən biri olan Andreas edam edilmişdi.



Qolqofa (İsanı edam edilən təpəliyin adı) xaçı və ya ***pilləli xaç***.



***Rus ortodoks (pravoslav) kilsəsinin xaçı***. Yuxarıdakı xət İsanın edam vaxtı başının olduğu yeri mənasını daşıyır. Aşağıdakı əyri xətin mənası bilinmir. Lakin ola bilər ki, o yuxarıda göstərilər yunan xaçının fraqmentidir.



***Roma papazlarının xaçı***, onların rəsli simvoludur. Təsvir olunmuş üç xətt papazların hakimiyyətinin üç dayaqlarının rəmzləridir: kilsə, dünya və göylər.



Səkkiz guşəli **xaç suyuna salınma mərasiminə aid olan xaç**. Dirçəlişin rəmzidir. Yunan xaçına bənzər yan xətləri "Xİ" adlanan yunan hərfidir (Xristos sözünün baş hərfi).




***Qələbənin rəmzi olan Yunan xaçı***. Yuxarıda olan hərflər yunanca "İsa" və "Xristos" sözlərinin baş hərfləridir. Aşağıda isə "NİKA" (qalib) sözü

yazılmışdır.



Kürə üzərində ***qələbəniin simvolu olan xaç.*** Dünyada xristian hakimiyyətinin qurulmasının rəmzidir. Xristian incəsənətində bir çox hallarda kralların hökmdarlıq əsasının üstündə qurulur.



Müqəddəs Petrusun ***çevrilmiş xaçı***. Rəvayətə görə o başı aşağa halında çarmıxa çəkilmişdir, çünki İsanın bənzəri kimi ölümü qəbul etmək onun üçün qəbuledilməz idi. Katolik inanca görə, roma papazları muqəddəs Petrusun mənəvi varisləridir. Çevrilmiş xaç, papazların taxtlarında və onların qəbrlərinin üzərində çəkilir. O həmdə papazlara tabe olmağın vacibliyinin rəmzidir.



***Yeruşalaim (Qüds) xaçı*** xaçlıların dövründə Qüdsdə Latın krallağının rəsmi gerbi olmuşdur. Barada böyük xaç İsa Məsihin şəxsiyyətini, onun ətrafında olan dörd xırda xaçlar isə dünyanın dörd guşəsində dörd İncilin bəyan edilməsini simvolizə edir.

## 5. Quş

Xristianlığın ən qədim rəmzlərindən biri olan *quş*, İlahinin daim insanın yaxınlığında olmasınından xəbər verir. Məsələn *göyərçin* Müqəddəs Ruhun müqəddəs suya salınması (baptizmo) mərasiminin rəmzidir, *sərçənin* təsviri isə Tanrının ən xırda şeylərdən belə xəbərdar olduğunu göstərir.







# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

*İngilis dilində*

1. Athenagoras. By Athenagoras the Athenian: Philosopher and Christian // Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume II. T&T Clark, Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1994.
2. Aurelius Augustin. Anti-Pelagian Writings // Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume V. T&T Clark,

Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1885.
3. Aurelius Augustin. On the Holy Trinity // Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume III. T&T Clark, Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1885.
4. Boethius. The Consolation of Philosophy. Translated by: W.V. Cooper : J.M. Dent and Company London, 1902. The Temple Classics, edited by Israel Golancz M.A.
5. Boethius. The Trinity is One God Not Three Gods // The Theological Tractates. London: W. Heinemann; New York: G.P. Putnam's Sons, 1918.
6. Clemens. The Stromata, or Miscellanies // Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume II. T&T Clark, Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1994.
7. Evagrius and John Eudes Bamberger. The Praktikos and Chapters on Prayer. Cistercian Studies Series, 4. Spencer, Mass: Cistercian Publications, 1970.
8. Gregory of Nyssa. Hexaemeron // Migne J.P. Patrologia Graeca, volume 44, columns 61-124, Paris, 1858.
9. Hippolytus. The Refutation of All Heresies // Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume V. T&T Clark, Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1994.

10. Irenaeus Against Heresies // Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume I. T&T Clark, Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1994.
11. James J. O'Donnell. Cassiodorus. Copyright and published 1979 (University of California Press) "Postprint", 1995.
12. Justinus Philosopher and Martyr, with Trypho, a Jew // Excerpted from Ante-Nicene Fathers, Volume 1. Edited by Alexander Roberts & James Donaldson. American Edition, 1885.
13. Justinus. The First Apology // Excerpted from Ante-Nicene Fathers, Volume 1. Edited by Alexander Roberts & James Donaldson. American Edition, 1885.
14. Kelly J.N.D. Early Christian Doctrines. New York, 1978.
15. Laktantius. Divinae institutions // Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume VII. T&T Clark, Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1885.
16. Origen Against Celsus // Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume II. T&T Clark, Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1885.
17. Philon Alexandreus. De Abrahamo // The Works of Philo Judaeus. The contemporary of Josephus, translated from the Greek By Charles Duke Yonge. London, H. G. Bohn, 1854-1890.
18. Philon Alexandreus. Legum allegoriae // The Works of Philo Judaeus. The contemporary of Josephus, translated from the Greek By Charles Duke Yonge. London, H. G. Bohn, 1854-1890.

19. Pines S. The Jewish Christians of the Early Centuries of Christianity According to a New Source, Israel Academy of Sciences and Humanities II, 13, Jerusalem, 1966.
20. Plotinus.The Enneads. Translated by Stephen Mackenna and John Dillon. London: Penguin, 1991.
21. Second Treatise of the Great Seth // Selection made from James M. Robinson, ed., The Nag Hammadi Library, revised edition. HarperCollins, San Francisco, 1990.
22. Tatian. Address of Tatian to the Greeks // Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume II. T&T Clark, Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1994.
23. Tertullianus. Adversus Praxean. // Corpus Christianoram. Series Latina II. Ed. E. Kroymann, E. Evans. Brepols, 1954.
24. Tertullian. On Baptism // Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume II. T&T Clark, Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1994.
25. The Catholic Encyclopedia http://www.newadvent. org/cathen/index.html
26. The Gospel of Philip // Selection made from James M. Robinson, ed., The Nag Hammadi Library, revised edition. HarperCollins, San Francisco, 1990.
27. The Holy Bible. New International Version. New York. ("Harper Paperbacks")

28. The Octavius of Minucius Felix // Ante-Nicene Fathers. The Writings of the Fathers Down to A.D. 325. Volume II. T&T Clark, Edinburg; WM. B. Eerdmans Publishing Company, Grand Rapids, Michigan: 1885.
29. Theophanes (Constantine), Fr. The Evagrian Ascetical System, vol. 2 of The Psychological Basis of Mental Prayer in the Heart. Mount Athos: Timios Prodromos, 2006.
30. Turner W. History of philosophy. Boston (USA): The athenaeum press ginn and company proprietors, 1903.
31. Weber A. History of philosophy. New York: Charles scribner's sons, 1908.

*Rus dilində*

32. Августин Аврелий. Исповедь. М.: 1991.
33. Августин Аврелий. О Граде Божием. - Мн.: Харвест, М.: АСТ, 2000.
34. Августин Аврелий. Об истинной религии // Творения. Т. 1: СПб.; Киев: Алетейа; УЦИММ-Пресс, 1998.
35. Александр (Голицин), иеромонах. Мистика Дионисия Ареопагита и предшествующая ей восточная христианская традиция. // София: Рукописный журнал Общества ревнителей русской философии Выпуск 6, 2003.
36. Амусин И. Д. Рукописи Мертвого моря. М.: Издательство Академии наук СССР, 1960.
37. Антология. Восточные Отцы и учители Церкви IV века. Том II. М.: Издательство МФТИ, 2000.

38. Афанасий Великий. Творения в 4-х томах. М.: Спасо-Преображенский Валаамский монастырь, 1994. Репринтное воспроизведение издания: Свято-Троицкая Сергиева Лавра, 1902–1903, из фондов Государственной Исторической библиотеки.

39. Библия (книги священного писания Ветхого и Нового Завета). М., Библейские общества, 1995.

40. Булгаков С. В. Справочник по ересям, сектам и расколам. М.: Современник., 1994

41. Василий Великий. Творения. СПб.: изд-во П.П.Сойкина, 1911.

42. Византийские Отцы V-VIII вв.: Из чтений в Православном богословском институте в Париже. - Париж, 1933. 260 с. (2-е издание (репринт) - Париж: УМСА-Press, 1990; 3-е издание (репринт) - М.: Паломник, 1992).

43. Григорий Богослов. Собрание творений: в 2 т. Мн.: Харвест, М.: АСТ, 2000.

44. Григорий Палама. Святогорский томос. // Альфа и Омега. №3(6), М., 1995.

45. Григорий Палама. Триады в защиту священно-безмолвствующих. М.: Канон, 1995.

46. Дионисий Ареопагит. О церковной иерархии. Послания. (Издание с параллельными текстами) / Вст. ст., подг. греческих текстов и их русский перевод Г.М.Прохоров, Ред. перевода иер. Григорий (В.М.) Лурье. СПб.: Алетейя, 2001.

47. Иоанн Златоуст. Собрание сочинений. http://www.ispovednik.ru/zlatoust/index.htm

48. История философии: Запад-Россия-Восток (книга первая. Философия древности и средневековья).- М.: Греко-латинский кабинет, 1995.
49. Иустин философ и мученик. Творение. М.: Паломник, 1995.
50. Карташев А.В. Вселенские Соборы. Париж, 1963.
51. Киприан (Керн), архимандрит. Золотой век святоотеческой письменности. М.: Паломник, 1995.
52. Лосский В.Н. Боговидение. М.: АСТ, 2003.
53. Майоров Г.Г. Формирование средневековой философии. М.: Наука, 1979.
54. Макарий Египетский. Духовные беседы. М., Свято-Троицкая Сергиева Лавра, 1994.
55. Марк Минуций Феликс. Октавий // Ранние Отцы Церкви. Антология. Брюссель: Жизнь с Богом, 1998.
56. Мейендорф И. Введение в светоотеческое богословие. Вильнюс-М.: Весть, 1992.
57. Мейендорф И. Православие и современный мир (лекции и статьи). Минск: "Лучи Софии", 1995.
58. Мень А. Дионис, Логос, Судьба. Брюссель: 1992.
59. Мень А. История религии. Т. 2. М., МП "Слово", 1991.
60. Никифор, архимандрит. Библейская энциклопедия, М.: 1891
61. Поснов М. История христианской церкви (до разделения Церквей - 1054 г.). Брюссель: 1964. Репринт: Брюссель: ЖсБ, 1988.
62. Ранович А. Б. Первоисточники по истории раннего Христианства. Античные критики Христианства. М.: Политиздат, 1990.

63. Реале Д., Антисери Д. Западная философия от истоков до наших дней. М.: ТОО ТК Петрополис, 1996-1997.
64. Русское православие: вехи истории. М., Политиздат, 1989.
65. Самыгин С. И., Нечипуренко В. Н., Полонская И. Н. Религиоведение: социология и психология религии. Ростов-на-Дону: Феникс: 1996
66. Свенцицкая И. Раннее Христианство: страницы истории. М.: Политиздат, 1988.
67. Сенека А. Л. О счастливой жизни. СПб: 1913.
68. Соколов В. В. Средневековая философия. М., "Высшая школа", 1979.
69. Творения аввы Евагрия. Аскетические и Богословские трактаты. М.: Мартис, 1994.
70. Тертуллиан. Против Праксея // «Альфа и Омега». № 1 (27) – № 2 (28), 2001 г.
71. Флавий И. Иудейские древности. М., "Феникс", 2000.
72. Флавий И. О древности иудейского народа; Против Апиона. Еврейский университет в Москве. М., Иерусалим: Герашим, 1994.
73. Фрэзер Д. Д. Золотая ветвь: исследование магии и религии. М.: Политиздат, 1983.
74. Хоружий С. С. Антропология Православия // Православная аскеза - ключ к новому видению человека., М.: Вэб-Центр Омега, 2000.

*Azərbaycan və türk dillərində*

75. İncil (Əhdi-Cədid). Stokholm: Bibliya tərcümə institutu, 1993.

76. İncil. İstanbul: Yeni yaşam yayınları, 1994.
*77.* Əhdi-Ətiq. http://www.yeniheyat.com/kitab/index.htm

*Kitabda verilən şəkillər və xəritələr aşağıdakı veb-saytlardan götürülmüşdür:*

1. www.afield.org.ua/ist/hypatia.html
2. www.bibliadure.com
3. http://www.ecmarsh.com/crl/images/philo.jpg
4. http://gnosis.art.pl/iluminatornia/gnostyckie_roznosci/kodeks_XII_Nag Hammadi.htm
5. www.bible-researcher.com/canon7.html
6. http://historic.ru/books/item/f00/s00/z0000017/st103.shtml
7. http://essenes.net/maniiart.html
8. http://www.blackapologetics.com/topthinkers.html
9. www.specnaz.ru/archive/07.2000/7.htm
10. http://www.breviary.net/propseason/whitsun/propseasonwhit4.htm
11. http://www.magnificat.ca/cal/engl/05-09.htm
12. http://www.zavet.ru/icon/sobor-1vs.jpg
13. http://www.poster.net.ua/product_info.php/manufacturers_id/12/products_id/290
14. http://christologie.navajo.cz/christologie.jpg
15. http://www.vehi.net/areopagit/index.html
16. http://de.wikipedia.org/wiki/Bild:Boethius.jpeg
17. http://historic.ru/books/item/f00/s00/z0000033/st003.shtml
18. http://en.wikipedia.org/wiki/Medieval_philosophy

19. http://www.godweb.org/aasymbols.htm
20. http://newsvm.com/articles/2005/03/18/videnia.html
21. http://www.1335.com/seals/lambwrath.html
22. http://www.anchist.mq.edu.au/doccentre/SSEC.html
23. http://www.trumanlibrary.org/whistlestop/hh/ywyr_6.htm
24. http://www.svali.ru/show_picture.php?cntr=31&type=2&id=19&cd=1
25. http://fi.wikipedia.org/wiki/Justinus_Marttyyri
26. http://askforbiblie.by.ru/forjw/apologet/tatian.htm
27. http://www.theopedia.com/Irenaeus
28. http://trisagionseraph.tripod.com/earlychurch.html
29. http://www.rosculture.ru/mkafisha/arc/show/?id=14320
30. http://www.magtu.ru/win1251/chairs/philosophy/Hrestomatii/Chelovek_2005.htm
31. http://de.wikipedia.org/wiki/Johannes_Chrysostomos
32. http://days.pravoslavie.ru/Images/ii972&1805.htm
33. http://ccat.sas.upenn.edu/jod/cassiodorus.html
34. http://www.nb.no/baser/schoyen/4/4.2/ms2035.jpg
35. http://www.kiot.ru/images/TolunovaE/IisHristos_max.jpg (cilddəki ikona)

***Korrektorlar***: A. Heydərova, G. Əliyeva

***Kompyuter yığımı***: R. Mustafayev.

***Cildin dizaynı***: Aytən Əli-zadə.

Yığılmağa verilib 15.01.07.Çapa imzalanıb 01.02.07.
Həcmi 10, 75 ç.h.
Ofset çapı. Format 60x84 $^1/_8$ Sayı 500əd.

**«Əbilov, Zeynalov və oğulları» nəşriyyat-poliqrafiya Evi,**
AZ 1009, Bakı,Azərbaycan,M.İbrahimov 43
Tel: **+99412 4973623**
E-mail: **azs@azdata.net**